Помимо традиционных источников формирования имиджа страны (средства массовой информации; культура; общение с русскими и азербайджанцами), сам процесс обучения заключает в себе огромный потенциал для формирования образа страны, а точнее - культурологический подход к преподаванию русского языка. Исследование взаимоотношений культуры, языка и внутреннего мира человека, который является носителем этой культуры, и составляет культурологический подход. Следовательно, изучение языка идет параллельно с изучением человека как языковой личности, несущей в себе особенности национального мышления, ценностных ориентиров, художественной логики лингвокультурного сообщества и этнической культуры в целом.

Таким образом, этот подход имеет своё направление - от личности к культуре, т. е. исследование духовной жизни человека, сформированного этой культурой, а также системы его представлений о культуре, отражающейся в национальной картине мира. Однако сформированный уровень коммуникативных умений не всегда отвечает запросам студента, для которого знание русского языка необходимо не только для учёбы и общения, но и для знакомства с национальной культурой народа. Это, в свою очередь, ведёт к внутреннему культурному развитию самого студента.

Идея диалога культур в настоящее время является особенно актуальной и плодотворной. В этой связи создание оптимальных условий обучения иностранных студентов русскому языку опирается на взаимосвязь изучения русской, азербайджанской и родной культур.

Формирование лингвокультурологической компетенции иностранных студентов на занятиях по русскому языку является одним из приоритетов, ценность которого преобладает над грамматическим подходом к изучению языка. Студенты, объясняя интерес к изучаемому языку, зачастую после профессионального на второе место ставят желание познакомиться с культурой, историей, современной жизнью страны изучаемого языка.

Уроки русского языка являются порой единственной возможностью овладеть базовыми знаниями о культуре и цивилизации страны изучаемого языка под наблюдением специалиста, обеспечивают

необходимые условия для деятельности выпускника вуза в европейском и мировом сообществе, в первую очередь, при поиске работы.

Для успешного формирования лингвокультурологической компетенции иностранных студентов необходимо учитывать ряд важных составляющих: стремиться использовать аутентичные тексты или частично адаптированные, давать культурологический комментарий к тем сведениям, которые были отражены в содержании учебной литературы и так далее.

Целенаправленная образовательная деятельность по подготовке иностранных студентов к межкультурному сотрудничеству поможет им осмыслить общечеловеческие ценности, научиться эффективно вести межкультурный диалог, сформировать этническую толерантность.

Литература

1.Азарина Л.Е. Игры на уроках РКИ / Л.Е. Азарина // Вестник ЦМО МГУ. 2009, № 3, с. 102-109.

2. Битехтина Н.Б. Игровые задания на занятиях по русскому языку как иностранному / Н.Б. Битехтина, Е.В. Вайшнорене // Живая методика для преподавателя русского языка как иностранного. - М.: Русский язык, Курсы, 2009, с. 64-96.

3.Воробьев В.В. О статусе лингвокультурологии // Материалы IX Конгресса МАПРЯЛ. Доклады и сообщения российских ученых. Братислава, 1999, 114 с. 4. 4.Караулов Ю. Н. Русский язык и языковая личность / Ю. Н. Караулов. - М.: Наука, 1987, 264

5.Колесова Д.В. Игра слов: во что и как играть на уроке русского языка: учебное пособие / Д.В. Колесова, А.А. Харитонов. - СПб.: Златоуст, 2011, 152 с.

6.Мухачеева А.М. Проблемы подготовки иностранных студентов на предвузовском этапе / А. М. Мухачеева // Молодой учёный. 2012, № 5, с. 473-476.

7.Пассов Е.И., Кибирева Л.В., Колларова Э. Концепция коммуникативного иноязычного образования. - М., 2007, 214 с.

8.Садовская Е.Ю., Тимошенкова Г.Ю. Формирование лингвокультурной
компетенции инофона на занятиях по РКИ / Е. Ю. Садовская, Г.Ю. Тимошенкова // Научный вестник Воронежского Государственного Архитектурно-Строительного Университета. Сер. «Лингвистика и межкультурная коммуникация». Вып. 11, 2013 г, с. 44-49.

B.Əliyeva

Qeyri-filoloq əcnəbi tələbələrə rus dilinin təlimində linqvokultroloji aspektin rolu

Xülasə

Hazırlıq mərhələsində rus dilinin təliminin əsas vəzifəsi əcnəbi tələbələrə rus dilini yalnız ünsiyyət vasitəsi kimi deyil, həmçinin onların daha tez və rahat adaptasiyasına imkan verən rus və Azərbaycan xalqlarının milli mədəniyyətinin dərk edilmə vasitəsi kimi öyrədilməsidir.Əcnəbi tələbəyə yeni iqlim və məişət şəraitinə, yeni təhsil sisteminə, yeni ünsiyyət dilinə, təlim qruplarının beynəlxalq xususiyyətinə və s. vərdiş etmək lazımdır.

Linqvokultroloji komponent mədəniyyətlərarası ünsiyyət üçün vacib şərtdir və üstünlüklərindən biri rus dili dərslərində əcnəbi tələbələrin dilin öyrənilməsinə qrammatik yanaşma üzərində üstünlük təşkil edən dəyərə malik olan linqvokultroloji səriştəsinin formalaşdırılmasıdır.

Ünsiyyət probleminin həll olunması ilə eyni zamanda tələbələr dünya mədəni tendensiyaları və ənənələri haqqında təsəvvürlərini əhəmiyyətli dərəcədə genişləndirmək imkanı əldə edirlər. Əcnəbi tələbələrin mədəniyyətlərarası əməkdaşlıq üçün hazırlanması yolunda məqsədyönlü tədris fəaliyyəti onlara ümumbəşəri dəyərləri dərk etməyə, effektiv şəkildə mədəniyyətlərarası dialoq aparılmasını öyrənməyə, etnik tolerantlığın formalaşdırılmasına yardım edəcək.

B.Aliyeva

On the role of linguoculturological aspect in teaching of russian language foreign non-philological students

Summary

The main task of teaching to the Russian language at the pre-university stage is to teach foreign students the Russian language not only as a means of communication, but also as a means of learning the national culture of the Russian and Azerbaijani peoples, which contributes to their faster and more comfortable adaptation. A foreign student needs to get used to new climatic and living conditions, to a new educational system, to a new language of communication, to the international character of training groups, and so on.

The linguocultural component is an indispensable condition for intercultural communication, and the formation of linguoculturological competence of foreign students in Russian language classes is one of the priorities which value prevails over the grammatical approach to language learning. Simultaneously with solving communication problems, students have the opportunity to significantly expand the notion of world cultural trends and traditions.

A purposeful educational activity to prepare foreign students for intercultural cooperation will help them to comprehend universal values, learn to conduct intercultural dialogue, effectively and create ethnic tolerance

Rəyçi: Validə Vəliyeva
filologiya elmləri namizədi

ИРАНА СУЛТАНОВА
Азербайджанский Университет
Архитектуры и Строительства
iranas@list.ru

КОММУНИКАТИВНЫЕ УПРАЖНЕНИЯ ПРИ ОБУЧЕНИИ ИНОЯЗЫЧНОМУ ГОВОРЕНИЮ

Açar sözlər: avtomatizm, aspekt, imitasiya, təsnifat, kommunikativ, motivasiya, əyanilik, nitqmodeli, stimulyasia
Ключевые слова: Автоматизм, Аспект, Имитация, лассификация Коммуникативный, Мотивация, Наглядность, Речевой образец, Стимуляция
Key words automatism, aspect,imitation, classfication,communicative motivation, visuality, speech model, stimulation

Свободное владение устной речью, в частности умение правильно, четко и выразительно излагать свои мысли на иностранном языке – является одной из задач методики преподавания русского языка как иностранного. Иностранная устная речь требует автоматизированного владения многими элементами языка. Реализация задач обучения устной речи требует выработки навыков владения ее компонентами. Поэтому занятия по реализации навыков устной речи имеют целью научить иностранных студентов пользоваться языком в естественных условиях.

А.А. Леонтьев отмечает: «… речевой деятельности, как таковой, не существует. Есть лишь система речевых действий, входящих в какую-либо деятельность – целиком теоретическую, интеллектуальную или зачастую практическую. С одной речью человеку нечего делать: она не самоцель, а средство, орудие и может по-разному использоваться в разных видах деятельности».

На пути развития навыков устной речи для использования в естественных условиях имеются трудности, связанные прежде всего с выработкой речевых автоматизмов, обеспечивающих реализацию речевого высказывания.

Известно, что механизм реализации речевого высказывания состоит их двух видов действий:

а/ оперирования (сличение, выбор, набор целого из частей, комбинирование, замена, принятие решения и т.п.);

б/ оформления произношения (процессы интонирования, грамматическое оформление и т.п.).

Другой вид трудностей связан с постановкой и решением проблемных задач, что связано с развитием интеллектуальной деятельности, мыслительной активности учащегося, памяти, воображения, активной эмоциональной деятельности. Для решения проблемных задач необходимо наличие соответствующих условий проблемных ситуаций, т.е. совокупность условий, речевых и неречевых, необходимых и ДОСтаточных для того, чтобы совершилось речевое действие.

Под условиями ситуации понимается:

1) краткое описание ситуации, куда входят сведения об участниках, времении месте речевого сообщения. Притом, описание ситуации должно быть сформулировано настолько четко и целенаправленно, чтобы вызвать у учащихся речевое действие;

2)речевой стимул (мотив, побуждение к речи), который может быть дан в словесной форме (вербально) или с помощью наглядных средств.

Таким образом, основными признаками естественного речевого акта является мотивированность речевого акта, его актуальность и информативность, обращенность речевого акта и спонтанность (инициативность) его возникновения.

Обучению иноязычному говорению во многом определяет выбор наиболее эффективной системы упражнений. Упражнения условно делятся на языковые и речевые. Первый тип упражнений предназначен для усвоения языкового материала, второй – для развития речи на основе усвоенного. Отличительной особенностью языковых упражнений помимо аспектной направленности (деление на фонетические, грамматические, лексические) является возможность их проведения на отдельных словах и на предложениях, не связанных друг с другом по смыслу. В противоположность языковым, в основу речевых упражнений положено связное языковое целое, они должны состоять из связных речевых единиц. Существует еще один признак, отличающий языковые упражнения от речевых, - объект, на котором сосредоточено внимание учащегося в процессе выполнения упражнений. Для языковых упражнений – это языковая форма, для речевых –содержание.

Система упражнений строится на представлении о том, основными этапами овладения языковым материалом являются приобретение знаний, закрепление этих знаний и выработка навыков употребления новой языковой формы в речи. Стадия закрепления знаний соответствуют тренировочные упражнения, включающие различные операции с языковым материалом: замена одно конструкции другой; вставка окончаний, слов, отрабатываемых форм; дополнение незаконченных предложений; составление предложений с использованием изучаемой формы и т.д.

В методике преподавания русского языка как иностранного принцип развития речевых навыков является ведущим. Поэтому на практических занятиях по русскому языку используется так много видов работы, которые можно рассматривать как речевые упражнения: беседа в связи прочитаннымтекстом; беседа на темы, интересующие студентов; заранее подготовленные сообщения; сочинения - устные и письменные.

Умение говорить на иностранном языке предполагает умение выбрать необходимую структуру и ее лексическое наполнение в связи с быстро меняющимися условиями речевого общения. Такое умение может быть выработано в том случае, если условия обучения будут приближены к условиям реальной коммуникации. Основным является требование ситуативности и тематичности. Содержанием таких упражнений должны быть реальные жизненные ситуации, с которыми учащиеся могут столкнуться в жизни. Упражнения следует строить так, чтобы грамматическая цель его была скрыта от учащегося, которому должно казаться, что он усваивает не новую грамматическую категорию, а способ выражения мысли в ситуации, встречающейся в жизни. Упражнения могут быть классифицированы по трем признакам: составу, способу выполнения и установкам (т.е. по формулировке задания). В упражнении на «установку» меняется мотив деятельности, осуществляемый учащимися на уроке. Установка носит учебный характер и приближает учащихся к условиям реальной коммуникации. Требование максимального приближения процесса обучения русскому языку как иностранному к условиям реальной коммуникации основывается на том, что основными предпосылками процесса формирования прочного речевого навыка являются такие факторы, как целеенаправленность, наличие внутренней мотивации и внешней установки, включение тренируемого явления в осмысленную речевую ситуацию.

Отработка нового материала, например, определенного речевого образца в соответствии со стадиями формирования речевого навыка, приведет к определенной степени автоматизма. Такой уровень автоматизма может быть достигнут, если новое грамматическое явление будет отрабатываться в упражнениях, воспроизводящих или имитирующих условия реальной речевой коммуникации. Выработка речевых навыков обеспечивается:

а) подготовительными упражнениями, имеющими коммуникативную направленность и позволяющие совместить целенаправленную активизацию (тренировку) нового материала с речевой практикой (отработка материала происходит в акте речи);

б) совмещением тренировки с речевой практикой, способствующей высокой степени автоматизации отрабатываемого грамматического явления;
в) приближение упражнений к условиям естественной коммуникации, моделированием условий общения.

Необходима разработка системы упражнений, которые помимо тренировки и отработки языкового материала, развивают мотивационную готовность к речи, способствуют возникновению побуждения и созданию целенаправленности речи. Однако при построении системы упражнений не может быть использован единственный критерий. Необходимо определить цель создания такой системы упражнений и вид речевой деятельности, которому она призвана обучать. Выделяются три особенности речевой деятельности, которые могут лечь в основу создания системы упражнений:

1) различие процессов порождения высказывания и распознавания высказывания;
2)различие устной и письменной речи;
3)различие диалогической монологической форм устной речи.

Из этого следует, что необходимы особые системы упражненийобучающие устной и письменной речи. Особые системы упражнений необходимы также для порождения и распознавания речи. Учитывая различия между монологической и диалогической речью, нужно строить для усвоения каждого из этих видов речи свои системы упражнений.

Но любая система упражнений должна строиться не только с учетом характера актов речи, но и с учетом последовательности становления речевых умении и навыков и порядка нарастания языковых и операционных трудностей. В соответствии с этими требованиями внутри каждой системы выделяются два типа упражнений: подготовительные, формирующие механизм порождения или распознавания, и речевые, обеспечивающие практические навыки в конкретном виде и форме коммуникации.

Речевые упражнения должны быть коммуникативными (каждое предложение должно быть естественным, нести информацию, связанную с реальной действительностью, с жизненным опытом учащихся) и творческими (учащиеся должны самостоятельно решать речевую задачу, применяя собственные умения и проявляя свою инициативу). Речевые упражнения в устной речи и в письме должны быть ситуативными, т.е. создаваться с использованием стимулов – вербальных или наглядных, которые вынуждали бы учащихся высказывать свои мысли о том, что является наиболее естественным при заданных

обстоятельствах. Дефиниция понятия речевая ситуация позволяет определить структуру отдельного упражнения, в котором должен быть смоделирован акт общения. И таких компонентов может быть три:

- мотив или цель речевого действия, представленные в виде формулировки задания упражнения;
- описание обстановки (условий и участников общения), которое стимулирует употребление отрабатываемой конструкции;
- образец.

1. В основу классификации формулировок заданий положено, деление реплик на исходные и реагирующие. Формулировки заданий, стимулирующие постановку исходной реплики, определяются ее функциональной направленностью, т.е. исходная реплика может быть сообщающей, вопросительной или побудительной. Например: «Скажите», «Расскажите», «Спросите», «Как вы спросите?», «Попросите», «Пригласите» и т.п.

2. Описание условий, в которых протекает речевое действие может быть представлено в трех видах в зависимости от способа описания: словесного, с привлечением изобразительной наглядностиили смешанного.

На первых порах, когда учащиеся знакомы с несколькими конструкциями и владеют небольшим запасом слов, трудно построить описание обстановки на изучаемом языке, и тогда можно прибегнуть к помощи родного языка учащегося или языка-посредника. Обстановка, в которой протекает речевое действие, может быть представлена в упражнении не словесно, а средствами наглядности. Важно, чтобы рисунок носил не иллюстративный характер, а выделял те черты обстановки, которые стимулируют определенное речевое высказывание.

В некоторых упражнениях при отработке конструкции, имеющей пространственное или временное значение, удобно использовать схемы.

При описании условий в упражнении возможно одновременное применение и словесного описании, и средств наглядности. Второй компонент упражнения включает не только описание обстановки действия, но описание участников действия. Личность участников речевого общения определяет в какой-то мере мотив действия.

Вторая группа характеристик, относящаяся к субъектам речевого действия, оказывает влияние не на формирование содержания речевого высказывания, а на выбор языковых средств выражения этого высказывания. Например, при выборе обращения к собеседнику на «ты» или на «вы»(усвоение этих норм обращения затрудняет учащихся некоторых национальностей).

Третьим элементом упражнения является образец. Упражнение, где приводится образец предполагает однозначное решение поставленной задачи. Коммуникативная установка, образец или соответствующее описание ситуации строго ограничивает программу высказывания учащихся, вынуждая их употребить отрабатываемую конструкцию.

Существует несколько видов упражнений, соответствующих стадиям формирования речевых навыков.

Упражнения, соответствующие стадии имитации.Цель таких упражнение заключается в том, чтобы учащиеся воспроизвели на уровне имитации отрабатываемый речевой образец. Для обучающегося учебное действие – имитация изучаемой структуры – скрыто речевой установкой. Выполняя упражнение, имеющее подобную установку, студент должен понять высказывание преподавателя и отреагировать на это высказывание. Наиболее походящая речевая установка для имитативных упражнений – «Согласитесь или не согласитесь со мной». Согласие собеседника стимулируется тем, что преподаватель вкладывает в свою реплику такое содержание, которое вынуждает студента подтвердить мысль.

Упражнения, используемые на стадии интенсивного повторения речевого образца. Для этой стадии характерны вопросно-ответные упражнения. Наиболее легким представляется ответ на общий вопрос, так как продуцирование ответа опирается на образец лексического и грамматическогооформления, заданного структурой вопроса. Нужное содержание ответа может подсказываться средствами наглядности.К этому же виду относятся и упражнения, содержащие Альтернативный вопрос. Во время выполнения этих упражнений отрабатываются операции сличения, выбора, построения по аналогии. Желательно, чтобы преподаватель подыскивал естественные ситуации употребления альтернативных вопросов. Например, основываясь на содержании прочитанных текстов, при отработке падежных форм, можно предложить учащимся ответить на ряд вопросов.На стадии интенсивного повторения широко используются ответы на специальные вопросы. В ответе в том же виде, в каком она содержится в вопросе, должна повториться изучаемая конструкция. Для чего нужно использовать не грамматические вопросы к конструкции, а любые другие, содержащие эту конструкцию.В системе так называемых отвлекающих вопросов содержание ответов подсказывается или обстоятельствами жизни учащихся, или средствами наглядности. Можно использовать и реальные речевые ситуации, где для разных конструкций различные речевые ситуации будут различными.

Упражнения, используемы на стадии генерализации. Суть данной стадии состоит в переносе навыка употребления изучаемой грамматической формы с ограниченного числа слов на все возможные слова, которыми владеют в данный момент учащиеся. Одним из видов таких упражнений являются подстановочные упражнения, в которых высказывание обусловлено ситуацией, - иллюстрированные подстановочные таблицы. Подобные упражнения не являются механическими, так как учащиеся должны соотнести содержание составляемых ими предложений с изображением. Например, при отработке речевого образца типа «Утром студент едет в университет на автобусе» можно использовать подстановочную таблицу: КОГДА? КТО? едет КУДА? на ЧЕМ?

Механизм подстановки действует и в упражнениях – комментирование действий. Форму комментирования или резюме имеют типы упражнений, где на прослушивание даются микроблоки, на основе которых строят высказывание, включающие отрабатываемую конструкцию. Например: «Скажите, о чем они говорят».

Используются также упражнения, в которых грамматические формы исходной реплики являются основой для преобразования их в грамматические формы реагирующей реплики. Эти упражнения являются трансформационными, но благодаря коммуникативной установке задания имитируют реальный акт общения. Например, при Работе над конструкцией типа «У меня нет…» можно дать упражнением с коммуникативным заданием «Выразите удивление».

Одна из разновидностей упражнений на стадии генерализации – так называемые ложные утверждения, когда преподаватель говорит фразы, не соответствующие ситуации. Например, обращаясь к студенту турку, преподаватель утверждает, что он приехал из России. Упражнения типа «ложные утверждения» удобно строить после прочтения (или прослушивания) текста. Нужно давать такие выскАзывания, чтобы опровергая их или соглашаясь с ними, учащиеся тренировали отрабатываемую конструкцию и наполняющий ее лексический материал. На стадии генерализации применятся вопросно-ответные упражнения, построенные в виде вопроса с вопросительным словом и ответом на него. Например, при изучении речевого образца типа «Я иду в парк» надо задавать вопрос «Куда ты идешь?». Важно тренировать не только ответную часть реплики,но и вырабатывать навык постановки соответствующих вопросов. Существует несколько способов стимулирования у учащихся потребности поставить вопрос; переспрос или уточнение. Например, «Я ухожу» - «А куда ты уходишь?» «Я иду в музей» - «В какой музей?».

Чтобы студенты задавали вопросы не только контекстуально-ситуативные, но и ситуативные, необходимо создать на уроке предметную ситуацию, стимулирующую постановку вопросов. Целесообразно использовать различные игровые упражнения.

Упражнения, используемые на стадии объединения нового со старым. Повествовательные высказывания в качестве стимула к постановке разнообразных по структуре и значению вопросов являются эффективным видом упражнений на данной стадии формирования навыка. Студент должен не только прореагировать на реплику, но и построить высказывание, объединив в нем несколько предложений, различных по своей структуре, между которыми устанавливается определенная и обязательно логическая связь. Учащимся может быть предложено объяснить причину согласия или отказа выполнить просьбу, принять приглашение или отказаться от него, указать мотивы поступка, рассказать, почему нравится или не нравится та или иная вещь. Например: «Пойдем завтра в театр на балет!» - «С удовольствием. Мне очень нравится балет. И я еще не был в этом театреили « К сожалению, не могу. Скоро у нас экзамен, и я должен заниматься».

На рассматриваемой стадии используются также упражнения-задачи, для решения которых в ходе рассуждения учащиеся вынуждены употребить отрабатываемый материал в комбинации с ранее изученными. На данной стадии представлены упражнения, выполнение которых требует не только работы памяти (припоминания ранее пройденных слов изученных конструкций), но и воображения, и даже решения мыслительных задач (аргументирования, мотивирования и т.д.). Эти упражнения стимулируют порождение элементов неподготовленной речи в высказываниях учащихся и являются переходными к упражнениям, где учащиеся самостоятельно определяют форму и содержание высказывания.

Выбор наиболее эффективной системы упражнений во многом определяет успех обучения иностранному языку.

Литература

1. Акишина А.А. , Каган О.Е. Учимся учить. М. «Русский язык» 2004г.
2. БалыхинаТ.М. Методика преподавания русского языка как неродного, нового. М. РУДН 2007г.
3. Володина Г.И. А как об этом сказать? (специфические обороты русской речи) М. «Русский язык». 2003г.

4. Караванова Н.Б. Говорите правильно. Курс русской разговорной речи. М. «Русский язык». 2010г.
5. Леонтьев А.А. Слово в речевой деятельности. Некоторые проблемы общей теории речевой деятельности. М. «Либроком». 2014г.
6. Леонтьев А.А. Язык, речь, речевая деятельность. М. «Либроком». М. 2014г.
7. Пассов Е.И. Кузовлева Н.Е. Основы коммуникативной теории и технологии иноязычного образования. М. «Русский язык» 2010г.

İ. Sultanova

Xarici dil danışmağı öyrənərkən ünsiyyətli təlimlər

Xülasə

Təqdim olunan məqalə tədris prosesində kommunikativ cərəyanın inkişafına həsr edilmişdir.

Məqalədə əcnəbi dildə danışığın kommunikativ metodlarından bəhs edilir.

Müəllif əcnəbi dilin tədrisində kommunikativ tapşırıqların yerinə yetirilməsinin əhəmiyyətini qeyd etmişdir. Müəllif təqdim olunan məqalədə "kommunikativ tapşırıqların" rus dilinin xarici dil kimi tədrisində yerini müəyyənləşdirir, nümunələr göstərir və onları analiz edir.

Danışıq vərdişlərinin aşılanmasında kommunikativ metod, onun prinsipləri və məzmunu da təhlil edilir. Müəllifin mövqeyi belədir ki, kommunikativ təlim əvvəlcədən işlənib hazırlanmış metoda inteqrasiya əsasında öyrənilməli, kommunikativ çalışmalar isə danışıq vərdişlərinin inkişafına və təkmilləşdirilməsinə xidmət etməlidir. Bu tip tapşırıqların rus dilinin xarici dil kimi tədrisi sistemində rolu ondan ibarətdir ki, onların yerinə yetirilməsi dilin tədrisi prosesində aparılır və gözlənilən nəticəni əldə etməyə imkan yaradır.

I.Sultanova

Communicative exercises while learning to speak a foreign language

Резюме

The given article «Communicative exercises while learning to speak a foreign language» deals with the progressing of communicative direction of educational process. The article learns the communicative methods of teaching of foreign speaking. The author stressed the problem of necessity and doing communicative exercises in the process of teaching of foreign language/

At the same time the author defined the importance of « communicative exercises» in the process of teaching russsianas a foreign language, explain the different types of exercises and analyse them. The essence of communicative method, principles and theme of given matter is stated and stressed how to teach speaking. The opinion of the author is: communicative teaching should be done in the way of integration of all exercises, and communicative exercise should be learned on the base of developing and improving of speaking skills.

The role of such exercises in teaching process of russian as a foreign language is explained in this way: doing these tasks help us to achieve our main aims.

Rəyçi: Məhəbbət Əsədova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SAMİRƏ MƏRDANOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Dövlət Universiteti
samiremardanova@gmail.com

"KİTABİ-DƏDƏ QORQUD"UN DİLİNDƏ AİLƏ-MƏİŞƏT ÜSLUBU XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: Kitabi-Dədə Qorqud, ailə-məişət üslubu, müraciət, ərin arvada sözü, arvadın ərə sözü
Ключевые слова: Китаби-Деде Коркуд, семейно-бытовой стиль, обращение, слово мужа жене, слово жены мужу
Keywords: Kitabi-Dede Korkud, family- everyday style, address (to), husband's word to his wife, wife's word to her husband

Azərbaycan ədəbi dili kimi, onun ailə-məişət üslubunun da təşəkkül tarixinin öyrənilməsində "Kitabi-Dədə Qorqud" həm ən qədim, həm də ən mötəbər mənbədir. "Kitab" orta əsrlərin sonlarına doğru qələmə alınsa da, demək olar ki, bütün orta əsrlərin xalq (epos) dili xüsusiyyətlərini ən qədim dövrlərdən gələn nitq ənənələri əsasında mükəmməl bir şəkildə əks etdirir ki, həmin epik mükəmməllikdə ailə-məişət üslubu təzahürləri sosial-stilistik çoxspektrliliyi ilə böyük maraq doğurur.

"Kitab"ın müqəddiməsində verilən bir sıra müdrik fikirlər, eləcə də müvafiq ifadə tərzi ailə-məişət nitqinin leksik, qrammatik və üslubi əlamətlərini bütün təbiiliyi ilə daşımaqdadır; məsələn:

... Evin dayağı oldur ki, yazıdan-yabandan evə bir qonuq gəlsə, ər adam evdə olmasa, ol anı yedirər-içirər, ağırlar-əzizlər, göndərər. Ol Ayişə, Fatimə soyıdır, xanım. Anun bəbəkləri yetsün. Ocağına buncılayın övrət gəlsün. Gəldik, ol kim, solduran sopdur, sabadanca yerindən uru durar, əlin-yüzin yumadan doquz bazlammac ilən bir küvlək yoğurd gəvəzlər, doyunca tıqa-basa yer, əlin bögrinə urar, aydır: "Bu evi xarab olası! Ərə varalıdan bərü daxı qarnım doymadı, yüzüm gülmədi, ayağım başmaq, yüzüm yaşmaq görmədi", - deyər. "Nolaydı, bu öləydi, birinə dəxi varaydım, umarımdan yaxşı – uyar olaydı", - deyər. Anun kibinin, xanım, bəbəkləri yetməsün. Ocağına buncılayın övrət gəlməsün ... (2, s. 22-23).

Əlbəttə, mətn bütövlükdə epos təhkiyəsi model-innovasiyasına malikdir, bununla belə onun həm məzmununda, həm də strukturunda ailə-məişət üslubunun xüsussiyyətləri kifayət qədər aydın görünür ki, buraya ailə-məişət leksikası (məsələn: ev, qonaq, ər adam, yedirmək-içirmək, ağırlamaq-əzizləmək, bəbək, ocaq, övrət, əl-üz, yumaq, bazlammac, küvlək, yoğurd, doyunca və s.), frazeologiyası (məsələn: tıqa-basa yemək, ərə varmaq, qarnı

doymaq, əlin bögrinə urmaq, yüzü gülmək, ayağı başmaq, yüzü yaşmaq görməmək və s.), alqış-qarğışlar (məsələn: bəbəkləri yetsün, ocağına buncılayın övrət gəlməsün və s.), sadə-çevik sintaktik konstruksiyalar, axıcı cümlə tipləri və s. daxildir.

"Kitab"ın elə boyları vardır ki, demək olar, bütövlükdə ailə-məişət üslubunun xüsusiyyətlərini əks etdirir. Ümumiyyətlə isə, aşağıdakı nitq situasiyalarında ailə-məişət üslubu səciyyəvi əlamətləri ilə olduqca dolğun bir şəkildə özünü göstərir:

I. Ərin arvada sözü.

"Dirsə xan oğlu Buğac boyu"nda Dirsə xan xatununa belə müraciət edir:

Bəri gəlgil, başum baxtı, evüm taxtı,
Evdən çıqub yüriyəndə səlvi boylum!
Topuğında sarmaşanda qara saçlum,
Qurulu yaya bənzər çatma qaşlum!
Qoşa badam sığmayan dar ağızlum,
Güz almasına bənzər al yanaqlum!
Qavunum, verəgim, döləgüm,
Görürmisin, nələr oldı?!
... Xan qızı, yerindən durayınmı?
Yaqan ilə boğazından tutayınmı?
Qara polat uz qılıcum əlümə alayınmı?
Öz gövdəndən başunu kəsəyinmi?
... Xan qızı, səbəb nədir, degil mana!
Qatı qəzəb edərəm şimdi sana! (2, s. 25-26)

Müraciətin birinci yarısında Dirsə xan öz xatununa sevgisini, ehtiramını ifadə edir və onun nitqində yüksək bədii sənətkarlıq nümunəsi olan ifadələr işlənir: başum baxtı, evüm taxtı, səlvi boylum, qara saçlum, çatma qaşlum, dar ağızlum, al yanaqlum və s.) Həmin ifadələr, bir tərəfdən, nə qədər epos-dastan dilinin faktı olsa da, eyni dərəcədə də, ailə-məişət münasibətlərinə məxsus məhrəmlikdən, təbii danışıq ədasından qətiyyən məhrum deyil, digər tərəfdən isə, qədim tarixə malik olmaqla yanaşı, tamamilə müasirdir.

Dirsə xan müraciətin ikinci yarısında Qamğan oğlu xan Bayındırın məclisində ona göstərilən münasibətin acığını xatunundan çıxır. Və təbii ki, dövrün ailə ukladı baxımından buna müəyyən mənada haqqı da var. Onun dilindən deyilən ağır, acı sözlər Oğuz cəmiyyətinin bu cür hallardakı mənəvi-əxlaqi mövqeyini, baxışlarını, heç şübhəsiz, düzgün əks etdirir və təhqir kimi səslənmir. Hər şeydən əvvəl ona görə ki, hərbi demokratiya üsul-idarəsinə əsaslanan Oğuz cəmiyyətində övladsızlıq xüsusilə yuxarı təbəqə üçün

böyük uğursuzluq, nəsil-nəcabətin, ilk növbədə, hakimiyyət nüfuzunun itirilməsi hesab olunur.

Hər bir cəmiyyətin dil-üslub maneraları onun sosial-mənəvi dünyagörüşünün bilavasitə inikası olduğundan nitq akt-impulslarının ideya-estetik dəyəri də həmin dünyagörüşün tələbləri əsasında çeşidlənməklə sadəcə ünsiyyət vasitəsi olan dili, onun, prinsip etibarilə, neytral olan işarələr sistemini motivləndirir.

II. Arvadın ərə sözü.

Övladları olmamasından qəzəblənən Dirsə xanın acı sözləri müqabilində onun xatunu ərinə belə cavab verir:

Hay, Dirsə xan, bana qəzəb etmə!
İncinib acı sözlər söyləmə! Yerindən uru durgıl!
Ala çadırın yer yüzinə dikdirgil!
Atdan- ayğırdan, dəvədən buğra, qoyundan qoç öldürgil!
İç Oğuzun, Daş Oğuzun bəglərin üstünə yığnaq etgil!
Ac görsən, doyurgil, yalıncaq görsən, donatgıl!
Borcluyu borcından qurtargıl!
Dəpə kibi ət yığ, göl kibi qımız sağdır!
Ulı toy elə, hacət dilə!
Ola kim, bir ağzı dualının alqışıyla
Tanrı bizə bir batman əyal verə!... (2, s. 26)

Dirsə xandan fərqli olaraq xatununun nitqi təmkinli, məsləhətli imanlı-inamlıdır. Ərinin qəzəblənməkdə haradasa haqlı olduğunu anlayan müdrik xatun onu yumşaldacaq, acığını soyudacaq ifadələr işlədir: bana qəzəb etmə, incinib acı sözlər söyləmə, ac görsən doyurgil, yalıncaq görsən donatgıl və s.

Nəzərə almaq lazımdır ki, Dirsə xanla xatununun ailəsi Oğuz cəmiyyətinin yuxarı silkinə aiddir, həm ər, həm də arvad tərəfdən kübardır və bu onların söhbətində, işlətdikləri ifadələrin, dedikləri sözlərin məzmun-məndəricəsində, ağır-yüngülündə də özünü göstərir. Xatun xan qızı olduğundan onun dilində İç Oğuz, Daş Oğuz, bəglər, ulu toy kimi siyasi mənalı sözlərin mövcudluğu, eləcə də yüksək təbəqəyə məxsus tanrıçılıq dini sisteminə yaxından bələdliyi tamamilə təbiidir. Onu da unutmaq olmaz ki, xatun öz fikirlərini, münasibətini nə qədər təmkinlə, məhrəmanə bildirsə də, qürurunu, heysiyyətini itirmir, əksinə, onun sözləri Dirsə xanın dediklərindən daha məntiqli, daha kəsərli səslənməklə ona həlledici təsir göstərir:

Dirsə xan dişi əhlinin söziylə ulu toy eylədi, hacət dilədi ... Allah Taala bir əyal verdi ... (2, s. 26).

Qırx namərdin hiyləsinə aldanıb oğlu Buğacı oxla vurub yaralayan, onu kimsəsiz qoyaraq evə qayıdan Dirsə xana xatununun müraciəti belə başlayır:

Bəri gəlgil, başım taxtı, evim taxtı,
Xan babamın göygisi,
Qadın anamın sevgisi.
Atam-anam verdiği,
Göz açuban gördügim,
Könül verib sevdigim
A Dirsə xan! (2, s. 30).

Məlumdur ki, bu ifadə tərzi improvizasiya deyil, yüzillər boyu formalaşmış epik nitq modelləridir. Məsələn, başım baxtı, evim taxtı ifadəsini həm Dirsə xan xatununa, həm də xatunu Dirsə xana müraciətlə işlədir, yaxud müxtəlif məqamlarda ərin arvada və ya arvadın ərə dediyi sözlərdə eyniliklər, təkrarlar vardır. Bununla belə həmin ifadələrin hamısı məhz oğuz-Azərbaycan ailə-məişət münasibətlərindən irəli gələn mənəvi-psixoloji "ab-hava"nın məhsuludur. Yəni stabil funksional üslub hadisəsidir.

Dirsə xanın xatunu təhtəlşüur olaraq hiss edir ki, oğlunun başında bəla var və aşağıdakı sözlər həmin hissiyyatın təzahürüdür:

Qalqubanı yerindən uru durdun,
Yelisi qara Qazılıq atun butun bindin.
Köksi gözəl qaba dağa ava çıqdın,
İki vardın, bir gəlirsən; yavrum qanı?
... Qarşu yatan Ala dağdan
bir oğul uçurdunsa, degil mana!
Qamın aqan yügrək sudan
bir oğul aqıtdınsa, degil mana!
Aslan ilə qaplana
bir oğul yedirdinsə, degil mana!
Qara tonlu, azğun dinli kafirlərə
bir oğul aldırdınsa, degil mana!
... Yalnuz oğul xəbərin, a Dirsə xan, degil mana!
Qara başım qurban olsun bu gün sana! (2, s. 30-31)

Bütün təfsilat-təfərrüatı ilə birlikdə bu nitq-müraciət "dilək ilə, güclə" tapdığı "yalnız oğul" u itirmək təhlükəsini duyan, gümanı yüz yerə gedən ananın olduqca konkret hisslərini, həyəcanlarını əks etdirdiyinə görə tamamilə gerçəkçi, əyani və hər cür bədii "mücərrədlik" dən uzaqdır.

Həm qafiyə olaraq işlənən uçurdunsa, aqıtdınsa, yedirdinsə, aldırdınsa söz-formalardakı –sa, -sə şəkilçiləri şərt yox, məhz güman bildirir, təkrar olunan degil mana! ifadəsi isə ananın israrının nə dərəcədə qüvvətli olduğunu göstərir. Və Dirsə xanın xatununun aşağıdakı sözləri də həmin qüvvətli israrın faktıdır:

Xan babamın qatına bən varayım,
Ağır xəzinə, bol ləşkər alayın,

Azğun dinli kafirə bən varayım,
Paralanıb Qazlıq atımdan enməyincə,
Yenümlə alca qanım silməyincə,
Qol-bud olub yer üstinə düşməyincə
Yalnız oğul yollarından dönməyəyim!

Demək olar ki, eyni hal "Uruz bəyin dustaq olduğu boy"da da müşahidə olunur. Burla xatun Qazan bəyin ovdan tək gəldiyini görəndə özünü saxlaya bilmir:

... Qarğı cida oynadanlar vardı, gəldi,
Altun cida oynadana, ya Rəb, noldı?
Qaraquc ata binənlər vardı, gəldi,
Bədəvi atlı bir oğula, ya Rəb, noldı?
Nökər gəldi, nayıb gəldi,
Yalnız bir oğula, ya Rəb, noldı?...

...Qara dırnaq ağ yüzümə çalayınmı?
Güz alması kibi al yanaqlarım yırtayınmı?
Çənbərümə alca qanım dökəyinmi?
Ağır şivən sənin orduna qomayınmı?...

...Qalın Oğuz içinə girəm, derdim,
Ala gözlü gəlin alam, derdim.
...Murada yetürmədin məni,
Qara başım qarışı tutsun, Qazan, səni!
Bir bəgim görünməz, bağrım yanar,
Neylədin, degil mana!
Dinməz olsan, yana-göynə qarğaram,
Qazan sana! (2, s. 85-87).

Həm Dirsə xanın xatununun, həm də Burla xatunun dilində ailə-məişət üslubunun məhz qadın-ana nitqi üçün səciyyəvi xüsusiyyətləri əks olunmuşdur ki, bunun da fərdi-psixoloji əsasında yeganə övlad-oğul sarıdan son dərəcə emosional narahatlıq dayanır. Lakin Burla xatunun nitqi Dirsə xanın xatununun nitqindən aydın şəkildə fərqlənir. Əvvəla, Burla xatun öz oğlunun ictimai mövqeyini, yaxud statusunu qabarıq nəzərə çatdırır ki, bu baxımdan aşağıdakı leksik-üslubi antonimlik sistemi diqqəti cəlb edir:

qarğı cida oynadanlar – altun cida oynadan
qaraquc ata binənlər – bədəvi atlı
nökər, nayıb – yalnız bir oğul

Göründüyü kimi, Burla xatun ova-yürüşə gedənlər içərisində oğlunun əlahəddəliyini nəzərə çarpdırır. Və buradakı cəmlik-təklik oppozisiyası da həmin əlahəddəliyin qrammatik-üslubi ifadəsinə xidmət edir.

Dirsə xanın xatununun nitqi ilə Burla xatunun nitqi arasındakı bir fərq də ondadır ki, birinci halda adresata küskünlük, qınaq, hətta vəziyyətdən çıxış yolunu öz üzərinə götürmək ifadə olunur. (xatırladaq ki, hadisələrin gedişi də buna gətirib çıxarır, yəni ölümcül yaralanmış oğlunun arxasınca Dirsə xan yox, onun xatunu getməli olur), ikinci halda isə təhdid, qarğış, günahlandırma aparıcıdır. Burla xatun əri Qazana qarşı "ağır şivən sənin orduna qomayınmı (yəni: yurduna şivən salayımmı) ?.. Qara başım qarışı tutsun, Qazan səni!.. Dinməz olsan, yana-göynə qarğaram, Qazan sana!" kimi ağır ifadələrlə müraciət edir.

Beləliklə, baş verən faciə xatunların nöqteyi-nəzərinə təxminən eyni olsa da, ona eyni məzmunlu münasibət bildirilsə də, həm münasibətin çalarları, həm də buna müvafiq olaraq istifadə edilən nitq materialı ailə-məişət üslubu daxilində xeyli dərəcə fərqlənməklə həmin üslubun potensial imkanlarını göstərir.

"Duxa qoca oğlu Dəli Domrul boyu"nda atasından, anasından "can əvəzinə can" istəyən oğul məqsədinə nail olmadıqda arvadının yanına gəlib deyir:

Gözün kimi tutarsa,
Könlün kimi sevərsə,
Sən ana vargıl!
İki oğlancığı öksüz qomagıl! (2, s. 101)

Övrətinin ona cavabı isə belə olur:

Nə dersən, nə soylarsan,
Göz açub gördügim,
Könül verüb sevdügim!
Qoç yigidim, şah yigidim!
...Səndən sonra bir yigidi sevib varsam
bilə yatsam,
Ala yılan olub, məni soqsun!
Sənin ol müxənnət anan-baban
Bir canda nə var ki, sana qıymamışlar?!
Ərş tanığ olsun, kürsi tanığ olsun,
Yer tanığ olsun, gög tanığ olsun,
Qadir tanrı tanığ olsun,
Mənim canım sənin canına qurban olsun! (2, s. 101-102).

Dirsə xanın xatunu, yaxud Burla xatunla müqayisədə, heç şübhəsiz, Dəli Domrulun arvadı cəmiyyətin aşağı təbəqəsinə aiddir. Hətta onun nitqində "göz açub gördügim, könül verüb sevdügim!" kimi epos dili üçün normativ ifadə modelinin işlənməsi də bu mülahizəni şübhə altına ala bilməz. Onun içdiyi andların həqiqiliyi, ərinə sədaqəti və yolunda ölümə getməyə hazır olması formaca yığcam olduğu qədər də məzmunca mükəmməl nitqindən bütün səmimiyyəti ilə görünür.

Ümumiyyətlə, andlar ailə-məişət üslubunun səciyyəvi ünsürlərindən biri olub, çox müxtəlif quruluş tipləri ilə yanaşı, zəngin məna çalarlarına malikdir. "Dədə Qorqud" eposunun dilində işlənən andlarda həm ibtidai inamların, həm tanrıçılığın, həm də islamın təsiri özünü göstərməkdə, çox zaman isə bu təsirlər özünəməxsus iyerarxik kompromis təşkil etməkdədir.

Arvadın ərə sözü baxımından "Kitab"da ailə-məişət üslubunun daha bir sıra situativ çalarlarına rast gəlmək mümkündür.

"Uşun qoca oğlu Səgrək boyu"nda Səgrək kafirə əsir düşmüş qardaşı Əgrəki qurtarmağa getmək istərkən ikinci oğullarının da dustaq olacağından qorxan ata-ana onu evləndirirlər ki, getməsin:

"Oğlanı gərdəgə qoydılar. Qızla ikisi bir döşəgə çıqdılar. Oğlan qılıcını çıqardı. Qızla kəndü arasına bıraqdı. Qız aydır: "Qılıcın geydir, yigit, murad ver, murad al, sarılalaım!" - dedi. Oğlan aydır: "Mərə, qavat qızı, mən qılıcıma doğranayım, oxuma sancılayım! Oğlum doğmasun, doğarsa, on yaşına varmasun, ağamın yüzin görməyincə, ölmüş isə, qanın almayınca bu gərdəyə girərsəm!" -dedi.

Uru durdu, tavladan bir şahbaz at çıxardı, əyərlədi, geyimin geydi. Dizcik, qarucıq bağlandı. Aydır: "Qız, sən mana bir yıl baqğıl! Bir yildə gəlməzsəm, iki yıl baqğıl. İki yıldə gəlməzsəm, üç yıl baqğıl! Gəlməzsəm, ol vaqt mənim öldigimi biləsən. Ayğır atum boğazlayub, aşum vergil! Gözün kimi tutarsa, könlün kimi sevərsə, ana varğil!" – dedi" (2, s. 148)

Əslində, bu sözlər o sözlərdir ki, həmin şəraitdə kimə deyilsə, cavabında daha ağır, daha acı sözlər deyə, ailə-məişət üslubunun etik prinsipləri daxilində belə, stilistik affektliyin çox müxtəlif model – improvizasiyalarından istifadə edə bilərdi. Və bu, həmin üslubun tipologiyasını pozmadığı kimi, epos mətninin bədii keyfiyyətinə də xələl gətirməzdi. Lakin gəlin yenə də etnoqrafik, hətta demək olar ki, etnolinqvistik təmkinini gözləyir:

Yigidim, mən sana bir yil baqam,
Bir yıldə gəlməzsən, iki yil baqam.
İki yıldə gəlməzsən, üç-dört yil baqam.
Dört yıldə gəlməzsən, beş yil, altı yil baqam.
Altı yol ayırdına çadır dikəm,
Gələndən-gedəndən xəbər soram;
Xeyir xəbər gətürənə at, don verəm,

qaftanlar geydürəm,
Şər xəbər gətürənün başın kəsəm.
Ərkəg sinəgi üzərimə qondurmayam,
Murad ver, murad al, andan get, yigidim! (2, s. 148-149)

Yalnız emosional-etnoqrafik əsaslılığına deyil, həyati məntiqinə görə də güclü, təsirli olan bu sözlər Səgrəyi ona görə dediyindən döndərə bilmir və ümumiyyətlə, onun hərəkətlərinə haqq qazandırır ki, Səgrəyin istəyi, məramı boyun epik ideyası baxımından daha önəmli, cəmiyyətin mənəvi-əxlaqı prinsipləri nöqteyi-nəzərindən daha zəruridir. Və epos qəhrəmanının içdiyi andlar, verdiyi vədlər də bunu təsdiq edir.

Ədəbiyyat

1. Kitabi-Dədə Qorqud, Bakı, "Öndər" nəş. , 2004, 376 s. Tərtib edəni: Samət Əlizadə.

С.Марданова

Особенности семейно-бытового стиля в языке «Китаби-деде коркуд»

Резюме

Семейно-бытовой стиль - один из древнейших функциональных стилей азербайджанского литературного языка. Поскольку данный стиль на протяжении веков функционировал в устной форме, у специалистов по истории языка сложилось мнение, что его эволюция приходится на последующие периоды. Однако в древних письменных памятниках азербайджанского литературного языка отражены дифференциальные типологические особенности семейно-бытового стиля, оказавшего в ряде случаев заметное влияние на стилистику текста этих памятников.

В статье рассматриваются особенности семейно - бытового стиля в языке эпоса " Китаби-Деде Коркуд". Эти функциональные стилистические особенности анализируются в контексте обращения мужа к жене и жены к мужу.

В этих обращениях отражены средневековый семейный уклад , технология общения в отношениях мужа и жены. Ведущая тенденция - слово мужа жене и слово жены мужу - воспринимается прежде всего как слово "храбреца храбрецу".

Samira Mardanova

The peculiarities of the family-everyday style in the language of "kitabi-dede korkud"

summary

The family-everyday style is one of the most ancient functional styles of the Azerbaijani literary language. As this style functioned in the oral form during many centuries specialists on the history of the language suppose that its evolution took place during the next periods. However the differential typological

peculiarities of the family-everyday style manifest themselves in the ancient written monuments of the Azerbaijani literary language, and in some cases this style had significant influence on the stylistics of the text of these monuments.

The article deals with the peculiarities of the family- everyday style in the language of the epos " Kitabi-Dede Korkud". These functional stylistic peculiarities are analyzed in the context of the husband`s address to his wife and wife's address to her husband.

The medieval way of family life, technology of communication between a husband and wife are reflected in these addresses. The leading tendency is the following: first of all the husband`s word to his wife and the wife`s word to her husband are perceived as "brave man`s word to brave man".

Rəyçi: Nizami Cəfərov
AMEA-nın həqiqi üzvü

AYNUR FƏRƏCOVA
Filologiya üzrə fəlsəfə doktoru
Az.TU, "Azərbaycan dili və pedaqogika" kafedrası
karimovaaynur@gmail.com

AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN İNKİŞAFINDA GÖRKƏMLİ YAZIÇILARIN VƏ MİLLİ MƏTBUATIN ROLU

Açar sözlər: ədəbi dil, yazıçı, şair, mətbuat, inkişaf, xidmət.
Ключевые слова: литературный язык, писатель, поэт, средства массовой информации, развитие
Key words: literary language, writer, poet, media, development

Müasir Azərbaycan ədəbi dilinin hazırkı yüksək inkişaf səviyyəsi uzun əsrlərin məhsuludur. Ədəbi dilimiz tarix boyu mürəkkəb inkişaf prosesi keçirmişdir. Ədəbi dilimizin bu inkişaf mərhələlərində yazıçıların, alimlərin, ictimai xadimlərin, müəllimlərin, milli mətbuatın və mətbuat işçilərinin xüsusi rolu olmuşdur. Bunlardan, xüsusən yazıçılar ədəbi dilimizi formalaşmasında, onun sonrakı dövrlərdəki inkişafı üçün ümumxalq dilindən söz və formalar, yaxud yeni söz və ifadələr yaratmaqda daha böyük rol oynamışlar. XIII əsrdə Azərbaycan ədəbi dilinin formalaşmasında şair Həsənoğlunun xüsusi rolu olmuşdur. Həmin dövrdə işğalçıların və din xadimlərinin apardıqları siyasətlə bağlı olaraq Azərbaycan dilində yazıb-yaratmağa imkan verilmişdi; bu dildə yazılan əsərlər saray nümayəndələri tərəfindən pis qarşılanırdı. Şairin ancaq aşağıdakı qəzəli bizə gəlib çatmışdır.

Apardı könlümü bir xoş qəmər yüz, canfəza dilbər,
Nə dilbər, dilbəri –şahid, nə şahid şahidi –sərvər
Mən ölsəm sən bütü-şəngül, sürahi söyləmə qül –qül,
Nə qül –qül, qül-qüli –badə; nə badə, badeyi -əhmər.

XIV əsrdə şair İmadəddin Nəsimi ədəbi dilin formalaşmasında xüsusi rol oynamışdır. Nəsimi öz əsərlərində Həsənoğluya nisbətən ərəb və fars sözləri əvəzinə, Azərbaycan söz və ifadələrinə daha çox yer vermişdir. Beləliklə, o, ədəbi dilə xalis Azərbaycan sözlərinin daxil olmasına xüsusi səy göstərmişdir.

XV əsrdə Azərbaycan dili sarayda işlənmiş və onun təsir dairəsi tədricən genişlənmişdir. Bu əsrdə ədəbi dilimizin formalaşması və inkişafında Şah İsmayıl Xətayinin böyük xidməti olmuşdur. O, Azərbaycan dilini hətta dövlət dili səviyyəsinə qədər yüksəltməyə xüsusi səy göstərmişdir.

XVI əsrdə Azərbaycan ədəbi dilinin inkişafında böyük şair Məhəmməd Füzulinin xüsusi rolu olmuşdur. Məlum olduğu üzrə XVI əsrdə də Azərbaycan dilində əsər yazmaq dəb deyildi (bu dövrdə ərəb və fars dillə-

rində yazmağa böyük əhəmiyyət verilirdi) Füzulinin ədəbi dilimizin inkişafındakı rolu bir neçə cəhətdən xarakterizə olunur, belə ki, o, ilk dəfə olaraq:

- *Azərbaycan dilində boyük həcmli əsərlər yazmışdır,*
- *müxtəlif janrlarda əsərlər yaratmışdır,*
- *qəzəl janrını ən yüksək zirvəyə ucaltmışdır.*

Böyük şair Füzuli öz əsərlərində ümumxalq dilinin incəliklərindən məharətlə istifadə etmiş, beləliklə, yazılı ədəbi dilin şifahi ədəbi dilə yaxınlaşmasında onun xüsusi xidməti olmuşdur. Ədəbi dilin yazılı və şifahi formaları arasındakı fərq XVI-XVII əsrlərdə nisbətən XVIII əsrdə daha çox azalmışdı. XVIII əsrdə Azərbaycan ədəbi dilinin inkişafında Molla Pənah Vaqif yeni bir dövr açmışdır. Vaqifin bu sahədəki fəaliyyəti aşağıdakı cəhətdən özünü göstərir:

- M.P.Vaqif özündən əvvəlki dil ənənələrini, xüsusən Füzuli irsini davam etdirmişdir.
- Dilin xəlqiliyini əsas tutaraq dilimizdəki ərəb və fars sözlərinə qarşı mübarizə aparmış, öz əsərlərində xalis Azərbaycan sözlərinə daha çox yer vermiş və yazılı ədəbi dilimizin şifahi dilə daha da yaxınlaşmasına nail olmuşdur.

Elə buna görədir ki, şairin yazdığı şeirlərdən əksəriyyətinin dili tamamilə aydın və sadədir. Bunları oxuduqda canlı Azərbaycan dilinin ruhu, ahəngi və gözəlliyi çox aydın şəkildə hiss olunur. Vaqif qoşma üslubunun formalaşmasında və inkişafında xüsusi rol oynamışdır. Onun qələminin qüdrəti sayəsində XVIII əsrdə qoşma üslubu bədii üslublar sisteminin zirvəsinə ucalmışdır. Bu dövrdə Vaqiflə bərabər Molla Vəli Vidadinin də ədəbi dilimizin inkişafında rolu az olmamışdır.

XIX əsr Azərbaycan ədəbi dilinin sabitləşməsi dövrüdür. Bu dövr öz xüsusiyyətləri ilə digər əsrlərdən əsaslı surətdə fərqlənir. Belə ki, həmin dövrdə kapitalizmin inkişafı, Azərbaycanın digər ölkə və xalqlarla mədəni əlaqələrinin yaranması və s. dilimizin inkişafına da müsbət təsir göstərmiş, Azərbaycan ümumxalq dili inkişaf edərək milli ədəbi dilə çevrilmişdir.

Bu beytdə işarə edilən hadisənin mahiyyəti ondan ibarətdir ki, bir nalbəndin gözəl arvadını ələ keçirmək istəyən şah sayı minə çatan atlarının hamısını nallamaq üçün ona nal və mıx sifariş edir. Bu qədər nal və mıxın bir gecədə hazırlayaa bilməyəcəyini dərk edən nalbənd qəzavü-qədərin hökmünə tabe olmağa məcbur qalır və "Allaha pənah ", - deyir. Səhər tezdən şahın adamları gəlib nalbəndi oyadırdılar ki, şah gecəyarı qəflətən ölüb, indi tabutü üçün 20 dənə mismar qayır!" Nalbənd arvadına baxıb deyir: "Şükür sənə, ya rəbbi, ey mıxı mismar eləyən pərvərdigardır..."(14) Lahıclar arasında maraqlı daha bir məsəl də bu gün də dolaşır: "Bir dəfə Lahıca bir pəhləvan gəlir və istəyir ki, camaata gücünü göstərsin. O, sinəsində iri daşları gürzlə sındırır, mis iki qəpiyi dişinin altında qatlayıb, meydandakı camaata göstərir, sonra iri çəki daşlarını dişi ilə qaldırır. Bu lovğa pəhləvanın qabağına lahıc dəmirçi Rzaqulu çıxır. O da beşqəpikliyi dişi ilə qatlayır və sonra ortaya çıxır ki, həmin pəhləvanla güləşsin. Pəhləvan da cavab verir ki, əgər sənin də sinəndə daş sındırsalar, güləşərəm. Dəmirçi uzanır və başlayırlar onun sinəsinin üstündə daş sındırmağa. Sınmış daş parçalarının altında qalmış dəmirçinin oğlu bunu görəndə "Atam öldü"-deyə qışqırır. Rzaqulu isə daş parçalarını əli ilə kənarlaşdırıb ayağa durur və ucadan deyir: "Oğul, qorxma ölməmişəm. Dədə xırsi (atan ayıdır) "(15) O vaxtdan indiyə qədər Lahıcda güclü və bacarıqlı adamlar haqqında " Dədə xırsi " məsəlini işlədirlər.Maraqlı bir məsəl diqqət çəkir: Bir lahıc qadın bir dəfə mağazaya gəlir və növbəsiz qabağa keçəndə "Sən kimsən axı?"- soruşaraq qoymurlar. O da lahıcca deyir: "Man Şirinbalara zan buroriyum". (Mən Şirinbalanın qardaşı arvadıyam).(16) Bu, görkəmli nasir Ə.Haqverdiyevin "Mirzə Səfər" hekayəsində özünü növbədə qabağa salmaq üçün söylənən " Mən Həsən ağanın qohumuyam" ifadəsini yada salır. Məsəl

nüfuzlu qohumlarının adından öz şəxsi məqsədi üçün istifadə edən adamlar haqqında söylənir.“Qulam Səməd gələndə” ifadəsi isə bu əhvalatdan sonra yaranıb: “Qulam Səmədoğlu adında bir lahıc bir gün səhər yeməyindən sonra arvadına deyir ki, Arana gedirəm. Arvadı nə qədər onu fikrindən daşındırmağa çalışsa da, o fikrindən dönmür. Arvadın “ birdən yağış yağar, çayda sel olar” kimi xəbərdarlığına Qulam gülərək belə cavab verir : “Ay arvad, yayın bu ortasında, Allah eləməsin, sel niyə gəlsin” və sonra atı yükləyib düşür yola. Çox keçmir şiddətli yağış başlayır və aləmi sel-su basır. Girdiman çayı aşıb-daşır. Qulam Səmədoğlu elə o gedən olur, bir daha qayıtmır... “ Bu faciə “Qulam Səməd gələndə, gələr.” kimi bir zərb-məsələ dönür. (Süleymanov 1994,152) indi də mümkün olmayan bir iş yaxud nəticəsi olmayan bir səfər haqqında belə deyirlər . Lahıcda XIX əsrin axırında 7 minə yaxın əhali yaşayıb. Odur ki, burada bəzən eyni adda 5-6 nəfər olurdu. Xalq da onları bir-birindən ayırmaq üçün **ləqəblər** qoşurdu. Məsəllərdən sonra ləqəblər haqqında söz açmağımız təsadüfi deyil, çünki əslində bir çox ləqəb məsəllər kimi müəyyən bir əhvalatın sonunda meydana çıxmışdır. Orta əsr Şərqinin görkəmli şəxsiyyəti Nizamülmülk ləqəbin verildiyi şəxsin cəmiyyətdəki mövqeyinə uyğun gəlməsini belə ifadə edir: “Şahlar ləqəb verməkdə həmişə ehtiyatlı olmuşlar, çünki yaxşı məmləkət dolandırmaq qaydalarından biri də ləqəblərin verilməsi, hər kəsin öz mövqeyini, öz yerini bilməsidir...Alimlə cahilin ləqəbi eyni olsa onları tanımaq olmaz”(Nizamülmülk 2007,111) Ləqəblər seçilərkən zahiri görünüşün mühüm bir detalı, onlarla bağlı bir qəribə əhvalat, onların sənəti, atasının adı yaxud ümumi nəslə aid bir fakt əsas götürülürdü: Hüseyn Səqqət, Qızıl Həsən, Qurbon Dana, Cəlal Şəftəxənçəl, Hacalı Yezid, Məhəmməd Mingədəryo, Həlimə Hitler, Qulu Şeyda, Tağı Bədəzan, Müslüm Pıt (yumşaq) ,Nasur xırs(ayı), Əli Cənnət, Qulu Şeyda, Naği misgər, Əli zərgər, molla Nəsib, duroza(uzun)Atamali, Əli hüşd-hüşd-(tələskən), Ağa nalbənd, Tahir Mirzo, Usto Zeynəl, Məbud Qərçeyi, Şilə (çolaq) Məşədi, kor Azadə, Ələsgər çüstdüz(çəkməçi), Şirin Bız(keçi), Məcid buror(qardaş), Məhi zəvəröyi, Dadaş müəllim.(13) Məsələn, “Qurbon Dana” ləqəbini belə izah edirlər: “Qurban kişi bir neçə yoldaşı ilə alverdən qayıdanda pullarini qaçaq-quldurdan qorumaq məqsədilə bir dana alırlar , ətini kəsib satırlar və sonra pulları dərinin içərisində gəirib çıxarırlar Lahıca. O vaxtdan ləqəbləri olur Dana”. (14) Vaxtilə böyük bir ailə sayılan Allahılardan Lahıcda Mingə Dəryo (Dəryanın ortası) ləqəbi ilə taninan Məhəmməd adlı kişinin ləqəbinin qəribə yaranma tarixi olub: iki nəsil arasında dava vaxtı onlara tənə edirlər k, sizin atanız dəryanın ortasında ölüb, döyülən də taqətsiz halda : “ Dəryo...Dəryo ...” deyir. O vaxtdan kişinin ləqəbi olur Mingə Dəryo. (15) Maraqlı bir əhvalat qəssab Hacalıya Yezid ləqəbini qazandırıb: bir nəfərin ona borcu varmış, yanına gedir ki, borcunu dəqiqləşdirsin. Qəssab da elə bir şişirdilmiş məbləğ deyir ki, borclu qəzəblə onu “

Yezid məlun " adlandırır. (16) O vaxtdan onu hamı üzdə də olmasa Hacalı Yezid adlandırırdı. Lahıc mühitində yaranmış "Məgər ora lüt getmişdim?" formasında maraqlı bir məsəli var ki, o, lahıcların sevimli lətifə qəhrəmanı Qulu Şeydanın bir lətifəsindən sonra əmələ gəlmişdir. Lətifə belədir : II dünya müharibəsindən sonra yerli əhalidən Qaradağ daş karxanasına xeyli adam səfərbər edilmişdi. Müqaviləyə görə işdən qaçan və vaxtından tez çıxıb gedən adam məsuliyyətə cəlb edilirdi. İşin ağır olduğunu görən Qulu Şeyda qaçıb Lahıca gəlir. Onu məhkəməyə gətirirlər və hakim karxanadan niyə qaçdığını və qaçarkən də hökumətin paltarını da niyə apardığını soruşur. Qulu Şeyda məzəli bir cavabla: "Əvvəl mən pəhləvan deyiləm ki ,daş oynadım.İkincisi də məgər mən ora lüt getmişdim ki, lüt də qayıdım"- (Azsaylı 2017, 41). Məsəl o zaman deyilir ki, səni kimsə işin əslini bilmədən haqsız yerə mühakimə edir.Bundan başqa bu gün də Lahıc ailələrində uşaqlar qohumlarından olan böyüklərə hörmət xatirinə müraciət üçün valideynləri tərəfindən müəyyən edilmiş sözlərdən istifadə edirlər: əmi və dayı arvadları üçün Gülabdostu, Güldostu, Şahdostu, Qəribdostu(başqa yerdən gəlibsə), əmi və dayılara Əsələmi (əsəl lahıcca "bal" deməkdir), Bazarəmi, Əsəldoyi, Babodoyi, Birgədoyi, xala və bibilərə Əsəlxala, Əsəlbibi, Şahbibi və s. (13)Məqalənin sonunda lahıcların daim istifadə etdikləri dil mühitində atalar sözləri və məsəllərin funksionallaşması məsələsinə toxunmaq istərdik: subordinativ (subordinativ bilinqvist iki dildən birini daha yaxşı qavramış və ondan daha çox istifadə edir) bilinqvist sayılan Lahıc folklor söyləyiciləri, təbii ki, öz ana dillərini –Lahıc dilini daha yaxşı bildikləri üçün ondan daha çox istifadə edir, Azərbaycan dilində söyləmək istədiyi fikrin ifadəsi üçün lazım gələn sözü tapmaqda həm çətinlik çəkir, həm də əksər hallarda improvizə edərkən uğursuzluğa düçar olur. Məsələn, Molla Nəsrdəddinin "Sən çaldın" lətifəsini nəql edən lahıc son cümləni ("Sən çaldın") olduğu kimi azərbaycanca söyləyir. Yaxud azərbaycanca danışan şəxs nitqində nəzərdə tutduğu məqamı daha ifadəli formada söyləmək üçün başqa dildə işlənən folklor nümunələrini, əsasən də atalar sözlərini orijinalda olduğu kimi işlədir, məsələn: lahıcların məsəli var "Kəmkəm xon, həmişə xon" ya da ki tərsinə lahıcca danışan şəxs fikrini təsdiqləmək üçün azəri türkcəsində olan nümunədən istifadə edir: " Divarı nəm yıxar, kişini qəm ". Lakin Lahıc folkloru söyləyiciləri arasında elələri olub ki, hər iki dili kifayət qədər lazımi səviyyədə bilməyinə baxmayaraq, ifa prosesində daha çox Azərbaycan dilinə üstünlük vermişlər. Onları şərtsiz koordinativ bilinqvizm (iki dilin hər birini kifayət qədər yaxşı bilən və yerindən asılı olaraq ondan sərbəst şəkildə istifadə edən) nümayəndələri hesab etmək olar. Məqalədə bütün araşdırılanları aşağıdakı kimi ümumiləşdirmək olar:

- Lahıc atalar sözləri , məsəlləri və ləqəbləri bu tatdilli xalqın yaşadığı mühitin xüsusyyətlərini(ərazinin coğragi özəlliyi, əhalinin məşğuliyyəti, məarsim və adət-ənənələri, əhalinin mədəni səviyyəsi) bariz şəkildə özündə əks etdirir
- Nümunələr araşdırılarkən onların tematik (ailə və əxlaq məsələləri, insan xarakterləri və s.) təsnifatı verilmiş, məsəl və ləqəblərin arasında bir oxşarlıq (müəyyən bir hadisə ilə bağlı olaraq yaranması) müəyyən edilmişdir.
- Lahıclar atalar sözləri və məsəlləri arasında həm Azərbaycanın əksər bölgələrində işlənən, həm də sırf Lahıc folklor mühitində ərsəyə gəlmiş nümunələr bu janrların başqa janrlardan dah işlək, daha aktual və daha praktik olduğunu göstərir, çünki bu nümunələrdən ictimai mövqeyindən, yaşından və təhsil səviyyəsindən asılı olmyaraq hər kəs istifadə edir.
- Lahıcların yaşadıqları və ünsiyyət qurduqları mühit bilinqvizm mühitidir, bütün folklor nümunələri kimi lahıcların atalar sözləri, məsələr və ləqəblərində həmin dil hadisəsi özünü büruzə verməklə bərabər, başqa xalqların nümayəndələri ilə ünsiyyət zamanı qarşılıqlı şəkildə əxzetmə baş verir. Bu da ümümazərbaycan folkloru xəzinəsinin yeni və orijinal folklor örnəkləri ilə zənginləşməsi deməkdir.

Ədəbiyyat:

1. Azsaylı xalqların folkloru, II cild, Bakı, Elm və təhsil, 2017 ,196 səh
2. Bağırlı A. Xuta birom bə tati, Bakı,2012 . 200 səh
3. Əliyev D. Folklorumuzda multikulturalizm və bilinqvizm "Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri" Beynəlxalq konfransın materialları Bakı , 8-9 sentyabr 2016-cı il Bakı : "Mütərcim", 2016.-480s. s . 180-184
4. Qulu Şeydanın lətifələri .Toplayanı Ə.Kərimli B.,2003, 54s
5. Molla Nəsrəddin lətifələri. Tırtibçi: M.H.Təhmasib Azərbaycan SSR EA **kı: 1965, 322 s.**
6. Nizamülmülk "Siyasətnamə" Bakı, " Çıraq" , 2007 , 273s
7. Süleymanov M. "Azərbaycan diyarı Lahıc" Bakı, 1994
8. Vaqif M.P. Əsərləri , Bakı, Azərnəşr, 1968, 280 s.
9. Zeynallı H. Seçilmiş əsərləri.Bakı, Yazıçı, 1982.-127s)
10. Rivarol A. Türk Atasözleri ve Deyimleri, İstanbul, 1991, -128 s.
11. Алиев Д. Фольклор малочисленных народностей Азербайджана: лагичцы с.24-38. Традиционная культура народов Поволжья Материалы II Всероссийской научно-практической конференции с международным участием (10-12 февраля 2015 г.)-Казань: Ихлас, 2015.-734 с.

12. Гордлевский В.А. Из истории османской пословицы и поговорки // Избранные сочинения. М.: Изд-во вост-ой лит-ры, 1961. - Т.Н. - 558 с.
13. Bağırov Cəfər , 1947, müəllim, Siyəzən şəhəri, lahıc
14. Əliyev Ağaməşədi, 1960, mədəniyyət işçisi, Lahıc qəsəbəsi, lahıc
15. Əliyev Maarif, 1972, muzey işçisi, Lahıc qəsəbəsi, lahıc
16. Mövlamov İshaq, 1979, mədəniyyət işçisi, lahıc

Дадаш Алиев

Пословицы, поговорки и прозвища лахыджей

Резюме

Объектом статьи является изучение пословиц, поговорок и прозвищ татоязычных лахыджей, проживающих в пос. Лагиче Исмаиллинского района. Эти образцы, которые занимают особое место в фольклоре лахыджей, исследованы с тематической стороны и выявлены особенности происхождения. В работе высказаны мысли об особенностях билингвизма среды появления и исполнения пословицы, поговорки и прозвища лахыджей. Вызывает интерес тот факт, что в данной статье автор приводит примеры из фольклора лахыджей на лахыджском языке и параллельно лает перевод образца. Таким образом, автору удается провести сравнительно-сопоставительный анализ образцов. В статье также автор опиисывает ситуацию в которой то или иной лахыдж зарабатывает прозвище.

Dadash Aliyev

Proverbs, sayings and nicknames of lahijians

Summary

The object of the article's researching are the proverbs, sayings and nicknames of Tato-speaking lahijians, living in the village Lahij of Ismayilli region. These samples, which occupy a special place in the folklore of lahijians , have been studied from the thematic side and the features of origin have been revealed. In this work are given thoughts about the features of bilingualism of the environment of appearance and execution of the proverbs, the sayings and the nicknames of lahijians. Of interest is the fact that in this article the author gives examples from the folklore of the Lahijans in the Lahij language and parallels the translation of the sample. Thus, the author manages to carry out comparative analysis of the samples. In the article the author also describes the situation in which this or that lahijs earns a nickname.

Rəyçi: **Şakir Albalıyev**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

NİLUFƏR AĞAZADƏ
ADU
niluferaghazada@gmail.com

NİTQ SİTUASİYALARI METODİK KATEQORİYA KİMİ

Açar sözlər: dialoji və monoloji nitq, registr, xəyali və real situasiyalar, motivasiya, problemlər
Key words: dialogic and monologic speech, register, imaginary and real situations, motivation problems
Ключевые слова: диалогическая и монологическая речь, регистр, воображаемые и реальные ситуации, мотивация, проблемы

Danışıq insan həyatında ünsiyyət funksiyasını yerinə yetirən mürəkkəb və çox aspektli hadisədir. Bu, insan fəaliyyətinin nəticəsində yaranmış məhsuldur. Bu zaman nitq dialoji və monoloji ola bilər.

Danışıq dinləmə ilə birlikdə şifahi nitqin formasıdır. Öz məzmununa və leksik-qrammatik tərtibatına görə şifahi nitq yazılı nitqdən çox da fərqlənmir. Belə ki, deyilənlər hamısı yazıla bilər, çap edilə bilər, bütün bunlar ucadan oxuna bilər. Buna görə də şifahi və yazılı nitqin hansısa leksik-qrammatik xüsusiyyətlərindən danışmaq olmaz.

Xarici dildə şifahi nitqin inkişafından bəhs edərkən şifahi nitqlə danışıq nitqi arasındakı fərqi nəzərə almaq lazımdır. Şifahi xarici nitqi inkişaf etdirməyə çalışarkən bəzi müəllimlər onlara mətnləri həm ucadan oxudur, həm də yaddaşda canlandırılmasını məşq etdirir. Belə halda şagirdlər yalnız kitab dilini öyrənir. Belə ki, şifahi nitq danışıq nitqi deyil. Bundan başqa, onların şifahi nitqi (danışıq) passiv xarakter daşıyır (şagirdlər başqaları tərəfindən yaradılanı oxuyur və canlandırırlar). Onda şifahi nitq üçün məhsuldar-yaradıcı fəallıq səciyyəvidir.

Ucadan oxuma şifahi nitq mədəniyyətinə təsir edir, şifahi nitq bilavasitə xarici dinləmə yolu ilə inkişaf edir. Beləliklə, dialoqların və monoloqların ardıcıllıqla canlandırılması yalnız şifahi nitqin inkişafına təsir edir, şifahi danışıq nitqinə yiyələnməkdə şagirdlərin sərbəst yaradıcı xarakterli danışıqlarının təcrübədən keçirilməsini tələb edir.

Nitq situasiyası qarşılıqlı təsirin sosial kontekstidir. O, müxtəlif situasiya faktorları – nitq situasiya elementləri ilə müəyyən edilir. Bunlara aşağıdakılar daxildir:

1) iştirakçılar danışanın və onların sosial əlaqələri (tanışlıq dərəcələri, güc hakimiyyəti) ünsiyyət situasiyasında onların sosial rollarını müəyyən edir.

2) kommunikasiyanın fiziki yerləşməsi (məsələn, məktəbdə, evdə, mağazada, və s.).

3) kommunikasiyanın məqsədi

4) mövzu: nə haqda danışılır?

5) linqvistik ifadə üsulu : şifahi və ya yazı dili.

Bu faktorlar birlikdə nitq situasiyasını təşkil edir. Nitq situasiyasının aspektlərinə əsaslanaraq iştirakçılar onların müəyyən nitq situasiyası üçün müvafiq hesab etdikləri dil müxtəlifliyini şüurlu və ya instinktiv olaraq seçir.

Situasiya faktorlarına əsaslanaraq, müxtəlif nitq situasiyaları danışanın dil müxtəlifliyi seçiminə təsir göstərir. Registrlər nitq situasiyalarının müxtəlif tiplərində «fəaliyyət göstərirlər». Registr spesifik nitq situasiyası ilə əlaqələndirilir.

Nitq situasiyalarının müxtəlif tiplərində registrin seçimi «situasiya dəyişmələri» kimi ifadə olunur. üslub termini həmçinin situasiya dəyişmələrinə istinad etmək üçün istifadə olunur. Buna baxmayaraq, buna qrammatik strukturlarda dəyişmələr də daxildir. Registr və üslub arasında terminoloji fərq var. Hər ikisi müəyyən nitq situasiyası ilə əlaqələndirilir, registr spesifik nitq situasiyası ilə əlaqədə seçilən və gözlənilən müəyyən lüğətə istinad edir, üsluba isə qrammatik müxtəliflik daxildir.

Nitq situasiyas ; hüdudsuz və müxtəlif tərkibli elementlərin birləşdirilməsi və uyğunlaşdırılmasıdır. Onların həlli isə təlimin məqsədindən asılı olur. Məhz buna görə də onların xüsusi quruluşu olan müxtəlif növləri və formaları mövcuddur. Bütün nitq situasiyaları xəyali və real olur. Real situasiyaya müəyyən yaş dövründə olanlar və sosial qruplar aiddir. Real situasiyaları modelləşdirmək olmaz, çünki situasiyalar hər gün təlim prosesində yaranır. Məsələn, müəllimin yeni qrupla, yəni şagirdlərlə tanışlığı, gündəlik problemlərin, dialoqların və eşitdiklərinin müzakirəsi və s. Belə hallar təlimin orta və yuxarı mərhələsi üçün xarakterikdir. Əgər şagirdin kifayət qədər söz və qrammatik ehtiyatı varsa, bu zaman o ilkin mərhələdə məşğələlərin hüdudlarından, yaş qrupundan, şəxsi təcrübədən kənara çıxan xəyali situasiyalara üstünlük verir. Şagirdlər məşğələnin adını, növünü, yerini təyin edir: a) You are in a foreign city and don't know the way; b) You are a king … c) You are a pilot flying over … d) If you were an adult what would you do? E) You are buying tickets to the cinema… .

Belə bir nəticə çıxarmaq olar ki, xəyali situasiyalarda yaşından, rolundan, yerindən, yaradıcılığından, situasiyalardan və s. asılı olaraq irəliləyiş baş verir.

Dərslərdə süni şəkildə yaradılmış situasiyaları labüd və qeyri-labüd situasiyalara ayırmaq mümkündür. Dərslərdən kənarda baş verən situasiyalar labüd situasiyalardır. Bu situasiyada yaxınlar və qohumlar, dostlar iştirak edir. Onlar şagirdləri gələcək həyata hazırlayırlar. Labüd situasiyalar müxtəlif nöqteyi-nəzərdən ünsiyyətə yiyələnməyə şərait yaradır. Qeyri-labüd situasiyalar şagirdləri nadir, qeyri-standart vəziyyətlə qarşılaşdırır. Onlar hadisəni başqa ölkələrə, başqa planetlərə yönəldir, iştirakçıları alışmadıqları situasiyaya cəlb edir, onları qeyri-adi keyfiyyətlərə alışdırır.

Əlbəttə, bəzi müəlliflər situasiyanın mahiyyətini, onun əhəmiyyətini düzgün qiymətləndirmiş, ona şagirdlər arasında qarşılıqlı dinamik sistem kimi baxmışlar. Mövcud situasiyalar bir sıra suallara cavab verə bilmir. Onlar situasiyanın məqsədqönlü, sistem halında texnologiyasını işləməyə imkan verməmiş, dərsdə yaradılmasına, onların əsasında təlimin idarəedici texnologiyasını təşkil etmək mümkün olmamışdır.

Bununla faktiki olaraq söhbət ondan gedir ki, situasiya tədris prosesinin idarəetmənin əsası və təşkilat vahidi olsun.

Situasiyaya əslində mürəkkəb, çoxplanlı bir fenomendir və onun tədqiqi geniş və dərin yanaşma tələb edir. Ona görə də metodik cəhətdən nitq situasiyalarının kriteriyalarının müəyyənləşdirilməsi böyük əhəmiyyət kəsb edir (həm nəzəri, həm də praktik cəhətdən). Hər şeydən əvvəl belə kriteriyalar orijinaldan seçilməlidir. Ünsiyyətdən yaranmalı, situasiya vahidi və fəaliyyət formasına uyğun olmalıdır. Ünsiyyətin məzmununu müzakirə olunan məsələ təşkil edir. Bu mənada ünsiyyət aparan şəxs müəyyən rol ifa edir: sosial, interaktiv, qrupdaxili, şəxslərarası və s.

Bu zaman nitq situasiyaları müəyyən tələblərə cavab verməlidir ki, onu xarici dilin tədrisində istifadə etmək mümkün olsun. Nitq situasiyaları şagirdlərə aydın olmalıdır. Bu o deməkdir ki:

- Nitq tapşırıqlarının məqsədi dəqiq müəyyənləşdirilməlidir (nəyi soruşasan, həmsöhbətindən nəyi öyrənəsən, nədən danışasan, nəyi sübut etmək, dəqiqləşdirmək, inkar etmək lazımdır).

- Şagirdlər bilməlidirlər ki, onlardan nə tələb olunur, tapşırığın yerinə yetirilməsi konkret anlaşılan dil və nitq materialları ilə təmin olunmalıdır.

- Şagirdlər bilirlər ki, ünsiyyət əlverişli şəraitdə, yəni partnyorların biri-birinə olan səmimi münasibətləri şəraitində keçiriləcək, hamı da maraqlıdır ki, ünsiyyət baş tutsun.

- Onlar tapşırığı yerinə yetirib nəyi öyrəndiklərini bilirlər.

Nitq situasiyası şagirdin motivasiyasını stimullaşdırmalı, şagirdlərdə tapşırığa maraq oyatmalı, nitqdə iştirak etmək və onu yerinə yetirməyə yönəltməlidir. Əgər situasiya şagirdə tam aydındırsa və o maraqla, həvəslə şagirdə çatdırılırsa, o, şagirddə müəyyən emosional vəziyyət yaratmalıdır. Bu halda nitq situasiyasını xarici komponentləri qarşıda duran tapşırığa olan şagirdin müsbət münasibətini və nitq fəaliyyətini stimullaşdırır.

- Müəllim şagirdin ana dilində olan danışıq mövzusunu nəzərə almalıdır. Şagirdləri narahat edən yaxın mövzular müzakirə olunduqda, onlara ö.z fikir və düşüncələrini bildirdikdə öz ana dilindəki ünsiyyət motivlərinin xarici dildə istifadə olunması üçün şərait yaradılmalıdır. Nitqin məzmunu şagirdlərdə yoldaşlarının xarici dildə danışdıqlarını dinləmək və onlara qulaq asmaq həvəsi oyatmalıdır. Qrammatik konstruksiyaların funksiyasını nümayiş etdirmək üçün yaradılmış situasiyalarda şagirdin həyatından, yaşadığı şəhər-

dən, ölkədən götürülən faktlardan istifadə olunmalı, şagirdə onun diqqətini nitqin məzmununa yönəldən tapşırıq təklif edilməlidir.

- Nitq situasiyasının məzmununun planlaşdırılması zamanı müəllim əvvəlki mövzulara diqqəti cəlb etməli, müzakirə olunan mövzunun genişləndirilməsinə cəhd etməlidir. Məhz belə yanaşma şifahi nitq ünsiyyətinin şərtiliyinin qarşısını alır, formalaşan bacarıq və qabiliyyəti inkişaf etdirir.

- Təklif olunan nitq obyektinin müzakirəsini müəyyənləşdirərkən müəllim şagirdlərin diqqətini maraqlı, düşündürücü məsələlərə yönəltməlidir. Problemli situasiyaların yaradılması və nitq situasiyalarının qiymətləndirilməsi, şəxsin fikrinin ifadəsi, onun arqumentinin şagirdin yaş həddinə cavab verməsinə diqqət yetirməlidir. Qoyulan problemlər situasiyaların analizini, onların müqayisəsini, genişləndirilməsini tələb edir və beləcə nitq situasiyasına müsbət münasibət yaradaraq şagirdlərin fəallığını stimullaşdırır.

- Mətnin məzmununa uyğun nitq situasiyalarının yaradılmasını ayrıca qeyd etmək lazımdır. Burada həyat faktları ilə mətndə olan faktların müzakirəsinin müqayisəsi olan tapşırıqlardan istifadə etmək, mətnin məzmununa öz fikrini bildirmək, reallığı əks etdirən problem xarakterli çalışmalardan da istifadə etmək olar (izah, sübut, müəlliflə razılıq və ya əksinə).

Məhz nitq situasiyalarının yaradılmasında bütün yuxarıda göstərilən faktorlardan istifadə onun təsir gücünü artırır, təlimin keyfiyyətinin yüksəldilməsinə imkan yaradır.

Ədəbiyyat:

1. Берман И.М., Бухбиндер В.А. Ситуативность в обучении устной речи. ИЯШ, № 5, 1964
2. Вайсбурд М.Л. Ситуативная роль – как методическое понятие. ИЯШ, № 5, 1984
3. Матецкая Е.И. Учебно-речевые ситуации в обучении иностранным языкам, ИЯШ, № 6, 1974
4. Пассов Е.И. Основы методики обучения иностранным языкам. М., 1977, стр. 21-31
5. Richers, J.C. and Rogers, T.S. (1986) Approaches and methods in language teaching. A description and analysis. Cambridge, UJ: Cambridge University Press.

N.Aqazade

Speech situations as a methodological category

Summary

Learning foreign Languages must take place as quickly as possible and in this learning it is necessary to do continual exercises, selection of

situations for teaching. Indicating the selection of situations it is necessary to note that the major part of the learning process is the creation of speech situations. The analysis typical situations allows us to elicit the individual situational activities for students.

The situational direction of learning process uncover-wide possibilities for optimization of foreign language teaching process.

The situational basis of selection and organization of the material allows to make speech situations an effective ineans of teaching foreign languages.

H.Агазаде

Речевая ситуация как методическая категория

Резюме

Изучение иностранного языка должна идти по возможности быстро и в этом изучении важно беспрестанное упражнение, отбора ситуаций для обучения. Указывая на отбор ситуации необходимо отметить, что важной частью процесса обучения иноязычной речи является создание учебно-речевых ситуаций. Анализ типичных ситуаций позволил выявить характерные для учащихся учебно-речевых действий.

Ситуативная направленность обучения открывает широкие возможности для оптимизации процесса овладения иноязычной речью. Ситуативная основа отбора и организации учебного материала позволяет сделать речевую ситуацию эффективным средством обучения иностранному языку.

Rəyçi: **Arif Əsədov**
Filologiya üzrə elmlər doktoru, professor

ARZU KƏRİMOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
arzu.k@mail.ru

BİR ŞƏKİLÇİNİN YAZILIŞINA DAİR

Açar sözlər: koordinatlar, müqayisənin effektivliyi, zahiri fərqlər, diferensiasiyalaşdırma, ahəng qanunu, dad və xüsusiyyət bildirən isimlər, orfoqrafiya.
Ключевые слова: сравнение эффективности, внешние различия, дифференциация, закон гармонии, вкусовые и функциональные названия, орфография.
Key words: comparison of effectiveness, external differences, differentiation, the law of harmony, taste and functional names, orthography.

Şagirdlərdə gec formalaşan orfoqrafik vərdişlərdən biri də isim köklərindən sifət əmələ gətirən –i şəkilçisinin yazılışı ilə əlaqədardır. Çoxlu miqdarda faktlar göstərir ki, orta məktəbin son siniflərində də şagirdlərin müəyyən qismi öz yazılarında həmin qayda ilə əlaqədar səhvlərə yol verirlər. Bunun səbəbini nə ilə izah etmək olar?

Metodik ədəbiyyatda qeyd olunan mülahizələrə görə, sifət düzəldən –i şəkilçisinin yazılışında yol verilən səhvlər, əsasən, ondan irəli gəlir ki, şagirdlər həmin şəkilçiləri ismin təsirlik hal şəkilçiləri ilə (-i, -ı, -u, -ü), yaxud üçüncü şəxsin təkində eyni formalı mənsubiyyət şəkilçiləri ilə qarışdırırlar. Əlbəttə, bu, tamamilə doğrudur. Lakin bəzi metodistlər (məsələn, M.Həsənov, H.Hüseynov və başqaları) məsələyə, bir növ, zahiri cəhətdən yanaşmağa üstünlük verirlər (bu meyili biz VI, VII sinif müəllimlərinin dərslərində də müşahidə edirik). Onların qarşıya qoyduqları «əsas tələb» bundan ibarətdir: şagird bilməlidir ki, sifət düzəldən –i şəkilçisi bir variantda yazılmasına və leksik şəkilçi olmasına görə, ismin eyni formalı mənsubiyyət və hal şəkilçilərindən fərqlənir. Məsələyə bu baxımdan yanaşılması ən yaxşı halda, həmin şəkilçilərin zahiri müqayisəsinə şagirdlərin diqqətini cəlb etməklə məhdudlaşır.

Aparılan axtarışlar və təcrübələr göstərmişdir ki, sifət düzəldən –i şəkilçisi və onun yazılışının mənimsənilməsinə heç də sadə bir proses kimi baxmaq olmaz. Bu prosesdə, hər şeydən əvvəl, həmin şəkilçinin qoşulduğu sözə verdiyi qrammatik mənanı və onun yazılışca dörd cür yazılan oxşar şəkilçilərdən fərqini şagirdlərin əsaslı surətdə dərk etməsinə nail olmaq lazımdır. Bunun üçün onların (şagirdlərin) başlıca olaraq, aşağıdakı koordinatlar üzrə kompleks biliklərə yiyələnməsi təmin edilməlidir:

a) –i şəkilçisi ilə düzələn sözlərin sifət olduğunu əsaslandıran əlamətlər: sifətin suallarına cavab olması; əşya bildirən sözün əvvəlində işlənməsi; cümlədə təyin vəzifəsində çıxış etməsi. Bu koordinat üzrə şagirdlərə veriləcək məlumatı konkret dil faktlarının müqayisəli təhlilindən başlamaq daha səmərəli nəticə verir. Həmin məqsədlə mövcud VI sinifdə aşağıdakı nümunələr üzərində iş aparmaq olar:

qədim
abidə
tarixi
hirsli
adam
əsəbi

Müəllimin verdiyi istiqamətə, əsasən, şagirdlər: a) əvvəlcə, həmin nümunələrdəki sifətləri tapıb onların nə üçün məhz sifət olduğunu əsaslandırır; b) sonra birinci nümunədəki qədim və tarixi, ikinci nümunədəki hirsli və əsəbi sifətlərini; c) nəhayət, tarixi və əsəbi sözlərində –i şəkilçisinin sifət düzəldən şəkilçi olması nəticəsini çıxarırlar; ç) –i şəkilçisinin yalnız bəzi isimlərə qoşularaq sifət düzəldə bilməsi.

Bu məqsədlə şagirdlərə «qarışıq tipli» isimlər verib, -i şəkilçisi vasitəsilə sifət düzəldərək (birləşmə daxilində) işlətməyi təklif etmək olar. Məsələn, kitab, inqilab, dəniz, lazım, həyat, məktub, ədəb, əsəb, uşaq, insan, ulduz, şimal, cənub.

Şagirdlər, təxminən, bu kimi birləşmələr tərtib edib yazırlar: inqilabi hadisə, lazımi tədris, həyati məsələ, ədəbi əsər, əsəbi adam, insani hiss, Şimali Qafqaz, Cənubi Amerika; d) saitlə bitən isimlərdən sonra həmin şəkilçinin –vi şəklində işlənməsi (məsələn, tərbiyəvi, sıravi və s.); e) –i (-vi) şəkilçisinin ismin təsirlik hal və üçüncü şəxsin təkindəki mənsubiyyət şəkilçilərindən fərqli cəhətlərini qeyd etmək lazımdır ki, həmin məqsədlə aparılacaq müqayisənin effektivliyi, didaktik materialın məqsədə müvafiq seçilməsindən çox asılıdır. Bu işdə əsas tələb bundan ibarət olmalıdır ki, a) lazımi sözlər (üzərində müqayisə aparılacaq sözlər) mütləq cümlə və ya birləşmə daxilində verilsin; b) müqayisə üçün seçiləcək obyektlər eyni sözlə bağlı olsun.

Nümunələr:

(nə?)
1.Şairin həyatı
(nəyi?)

həyatı gözəlləşdirənlər
(necə?)
həyati hadisə
(nə?)

2. Uşağın tərbiyəsi
(nəyi?)

tərbiyəni qiymətləndirmək
(nəyi?)
tərbiyəvi tədbir
(nə cür?)

Bu kimi əyani misallar üzərində aparılan müqayisə nəticəsində müəyyən edilir: 1) –i şəkilçisi vasitəsilə isimlərdən düzələn sifətlər həmin isimlərin müvafiq formalarına yalnız zahiri cəhətdən oxşayır; 2) həmin formaları əmələ gətirən şəkilçilər ahəng qanununa uyğun olaraq dörd cür yazıldığı halda, sifət düzəldən –i şəkilçisi bir variantda yazılır; 3) saitlə bitən isimlərdə üçüncü şəxsin təkinin mənsubiyyət şəkilçisindən əvvəl «s», təsirlik hal şəkilçisindən əvvəl isə «n» bitişdirici samitləri işləndiyi halda, onlar sifət düzəldən «-vi» şəkilçisini qəbul edə bilmirlər: demək, bu zaman zahiri fərqlər özünü daha bariz şəkildə göstərir; 4) –i (-vi) şəkilçisi ilə düzələn sifətlərin –i, -ı, -u, -ü şəkilçilərilə düzələn sifət və isimlərdən fərqlənməsi. Əslində –i şəkilçisi ilə əmələ gələn sifətlərin yazılışını mənimsətməkdə ən böyük çətinlik, məhz, buradan irəli gəlir. Axı necə olur ki, təxminən eyni quruluşlu həyati, əxlaqi, nizami, lazımi və s. sifətlər bir variantlı –i şəkilçisi ilə; şabalıdı, darçını; dərbəndi, novruzu, gümüşü sözləri ilə dördvariantlı –ı, -i, -u, -ü şəkilçiləri ilə yazılır?

Etiraf etmək lazımdır ki, orfoqrafik baxımdan bir-birinə zidd olan bu qaydaları dərk və yadda saxlamaq asan deyil. Əgər –i şəkilçisi ilə əmələ gəlib, kökünün son saiti qalın olan sözlərdə şəkilçini ifadə edən (-i) saitinin xeyli arxada (arxa dildə) tələffüz olunduğunu da [1; 112] nəzərə alsaq, bu çətinliyi daha aydın şəkildə təsəvvür edə bilərik. Görünür, bəlkə də buna görədir ki, vaxtılə orta məktəbin Azərbaycan dili proqramı və dərsliklərində [2; 86] –ı, -i, -u, -ü leksik şəkilçilərinin adı belə çəkilməmişdir. Lakin, şübhəsiz ki, bunu «vəziyyətdən çıxış» yolu hesab etmək doğru sayıla bilməz. Hər şeydən əvvəl, nəzərə almaq lazımdır ki, söz yaradıcılığında həmin şəkilçilərin rolu daha böyükdür və bunların vasitəsilə əmələ gələn sözlər dilimizdə daha çoxdur: şabalıdı, zoğalı, mixəyi, zəfəranı, sürməyi, qəhvəyi, gümüşü, qızılı, dəmiri, buğdayı, ceyranı, vağzalı, novruzu və s.

Mərhum professor S.Cəfərov belə sözləri dörd məna qrupuna ayırır:

1) musiqi məqamlarını bildirən isimlər; məsələn, ceyranı, vağzalı, qaytağı və s. 2) rəng bildirən sifətlər; məsələn, qəhvəyi, firuzəyi, buğdayı, şabalıdı, gümüşü və s. 3) dad bildirən isimlər; məsələn, turşu və s. 4) xüsusiyyət bildirən isimlər; məsələn, qoçu, kürü və s.

Bölgüdən göründüyü kimi, –ı, -i, -u, -ü leksik şəkilçiləri ən sox sifətlərin konkret məna qrupuna aid düzəltmə sözlərin əmələ gəlməsində iştirak edir. Məhz bunu əsas tutaraq kurikulum (yeni təhsil proqramı) əsasında hazırlanmış mövcud vəsaitlərdə həmin şəkilçilər haqqında məlumatın daxil edilməsi tamamilə məqsədəuyğundur [3; 62]. Belə halda şagirdlər –i (-vi) şəkilçisi ilə əmələ gələn sifətləri daha yaxşı fərqləndirər və onların yazılışında daha az səhvlərə yol verərlər. Həmin iki oxşar qaydanın müqayisəli şəkildə dərk edilməsi onlara aid biliklərin diferensiyası üçün əlverişli imkan yaradır. Bu diferensiasiyalaşdırma şagirdlərdə aşağıdakılara aid bilik və vərdişlərin formalaşması ilə nəticələnir:

1) İsimlərdən rəng bildirən sifətlərin əmələ gəlməsində –ı, -i, -u, -ü şəkilçilərindən istifadə olunur və bunlar ahəng qanununa görə dörd cür yazılır;

2) -i şəkilçisi ilə əmələ gələn sifətlər isə əşyaya məxsus başqa əlamətlər bildirir; bu şəkilçi ahəng qanununa tabe olmadan bir cür yazılır;

3) saitlə bitən isimlərdən sonra –ı, -i, -u, -ü şəkilçiləri –yı, -yi, -yu, -yü şəklində, -i şəkilçisi isə –vi şəklində işlənir.

İstifadə olunmuş ədəbiyyat

1. Axundov A. Azərbaycan dilinin fonemlər sistemi, «Maarif» nəşri, Bakı, 1973.
2. İsmayılov R. və başqaları. Azərbaycan dili. (V, VI,VII sinif dərslikləri), «Altun kitab», Bakı., 2012-2014.
3. Cəfərov Ş.Müasir Azərbaycan dili. «Şərq-Qərb», Bakı, 2004.
4. Kazımov A. Azərbaycan dilindən düşündürücü suallar və onların cavabları. ADPU-nun nəşri, 2005.

Arzu Karimova

About writing of one suffix

Summary

The article is devoted to writing the suffixes of the adjective (-i, -i, -u, -u). Unfortunately, based on the experience and best practices of advanced teachers, it is practically unacceptable for students to distinguish between other lexical endings and their characteristics. Methods and means of

identification of identical affiliation patterns of the name of the effect variable (-i, -i, -u, -u) or of the third person are interpreted on the basis of specific examples.As can be seen from the field, -i, -i, -u, - lexical images participate in the formation of corrective words for a certain group of attributes. On this basis, it is absolutely advisable to include information about this framework in existing resources on the basis of the curriculum (a new curriculum). In this case, the students better distinguish the suffix (-vi) and make fewer mistakes when writing. A comparative understanding of these two similar rules creates favorable conditions for the differentiation of knowledge.

Арзу Керимова

Об написании одного суффикса

Резюме

Статья посвящена написанию лексических суффиксов прилагательного (-i, -i, -u, -u). К сожалению, на основе опыта и передовой практики продвинутых учителей, для студентов практически неприемлемо различать другие графики их характерных особенностей. Методы и средства идентификации идентичных омонимичных шаблонов имени переменного эффекта (-i, -i, -u, -u) или третьего лица интерпретируются на основе конкретных примеров.

Как видно из области, -i, -i, -u, - лексические образы участвуют в формировании корректирующих слов для определенной группы атрибутов. Исходя из этого, абсолютно целесообразно включать информацию об этих рамках в существующие ресурсы на основе учебной программы (новая учебная программа). В таком случае ученики лучше различают суффикс (-vi) и делают меньше ошибок при написании. Сравнительное понимание этих двух аналогичных правил создает благоприятные условия для дифференциации знаний**.**

Rəyçi: Məhərrəm Hüseynov
Filologiya elmləri doktoru

NATAVAN BAXŞƏLİYEVA
Azərbaycan Dillər Universiteti
natavanabbas@gmail.com

DİLÇİLİKDƏ SİNONİMLİK ANLAYIŞI

Açar sözlər: dilçilik, sinonim, üslubi, mütləq sinonim, kontekstual sinonim, snonimik cərgə, sinonimik dominant.
Key words: linguistics, synonyms, stylistic, total synonyms, contextual synonyms, synonymic row, synonymic dominant.
Ключевые слова: языкознание, синонимы, стилистический, абсолютные синонимы, контекстуальные синонимы, синонимический ряд, синонимичес-кий доминант.

Sinonim dedikdə eyni nitq hissəsinə aid olan və bir və ya daha çox oxşar de-notativ mənaya malik, müəyyən kontekstlərdə bir-biri ilə əvəzlənə bilən iki və da-ha çox söz nəzərdə tutulur. Bu sözlər müxtəlif məna çalarları, konnotasiya və üslubi xüsusiyyətlərlə fərqlənir.

Sinonimlik sözlərin əsas mənalarının üst-üstə düşməsidir ki, bu sözlərdə, bir qayda olaraq, konnotasiya baxımından müxtəlifliklər və üslubi xüsusiyyətlər qorunub saxlanılır.

Sinonimik dominant dedikdə isə sinonimik qrupun digər üzvləri tərəfindən verilən məxsusi xüsusiyyətləri potensial şəkildə özündə birləşdirən ən ümumi termin başa düşülür. [2, c. 27].

Misal üçün, *face*, *visage, countenance* sözləri ümumi denotative mənaya ma-likdir. Bu məna "başın ön hissəsi" mənasını daşıyır və bu sözləri yaxın sinonim halına gətirir. Verilən sözlərin arasında *face* sözü sinonimik dominant təşkil edir. *Countenance* isə daşıdığı ifadədən asılı olaraq başın eyni hissəsi anlamını daşıyır. *Visage* sözünə gəldikdə isə, *face* və ya *countenance* sözlərinin əvəzinə işlənən əsasən də ədəbi xarakter daşıyan formal sözdür [11; 15].

Aşağıda daha bir sinonimik cərgə verilmişdir. Bu cərgədə *leave, depart, quit, retire, clear out* sözləri sırasında *leave* feili ümumi feil olub, yerdə qalan digər dörd söz arasında ən neytral termindir.

Onu da nəzərdə saxlamaq lazımdır ki, tez-tez rast gəlinən sözlərin əksəriyyəti polisemantikdir və onların dəqiq olaraq çoxlu sinonimi vardır. Nəticə etibarilə, polisemantik sözlər öz fərqli mənalarında bir çox müxtəlif sinonimik qrupa daxil ola bilər. Məsələn, Z.Xaritonçik ingilis dilinin leksikologiyasına aid kitabında *part* sözünün 9 sinonimik qrupunu verir və bu halda çox geniş bir polisemiyanın baş verməsini də göstərir [5, c. 158].

1) piece, parcel, section, segment, fragment və s;

2) member, organ, constituent, element, component və s;
3) share, portion, lot və s;
4) concern, interest, participation və s;
5) allotment, lot, dividend, apportionment və s;
6) business, charge, duty, office, function, work və s;
7) side, party, interest, concern, fraction və s;
8) character, role, cue, lines və s;
9) portion, passage, clause, paragraph və s.

İki polisemantik sözün semantik strukturu bəzən birdən çox mənada üst-üstə düşür, lakin tam şəkildə olmur. L.Blumfild və E.Nayda güman edirlər ki, həqiqi sinonimlər yoxdur, yəni dildə eyni mənaya malik formalar yoxdur [9].

Bir çox hallarda 2 və daha artıq sinonim arasında olan semantik fərqlər sözün valentliyində olan fərq və ya fərqlərlə dəstəklənir. Misal üçün *to win* və *to gain* feillərini nəzərdən keçirək. Onlar *victory* ismi ilə birlikdə işlənə bilir, yəni ingilis dilində t*o win a victory, to gain a victory* birləşmələri vardır. Lakin kontekstdən asılı olaraq, bu feil başqa bir sözlə birləşə və başqa bir məna daşıya bilər. Belə ki, müharibə kontekstində yalnız *to win a war (müharibədə qalib gəlmək)* birləşməsi işlədilir.

Cümlədə sinonimlik üçün olan meyar kimi sözlərin bir-biri ilə əvəzlənə bilməsini götürmək olar. Qeyd etmək lazımdır ki, nə sinonimlərin ənənəvi tərifi, nə də onun yeni versiyası mənaların obyektiv oxşarlığı meyarını təmin etmir. Bu yalnız təhlil aparanın linqvistik intuisyasından asılı olan bir məsələdir [1, c. 128].

Son zamanlar linqvistik kontekstdə bir-biri ilə əvəzlənə bilmək meyarı sinonimliyin tərifi kimi təqdim edilmişdir. Həmin o meyara görə də, sinonim dedikdə ya denotativ, ya da konnotativ mənasında cüzi bir dəyişiklik olmadan, verilmiş kontekstdə bir-birini əvəz edə bilən sözlər nəzərdə tutulur.

İngilis dilində *peace* və *tranquility* isimləri tam da olmasa, qismən sinonim hesab olunur. Lakin kontekstdən asılı olaraq *a peace conference* birləşməsi işlədilir və *tranquillity conference* birləşməsi yoxdur [9].

Sinonimlərin növlərindən danışmazdan əvvəl, onların dildə yaranma səbəbləri haqqında söhbət açaq. Sinonimlərin dildə bir neçə yaranma səbəbi var.

1. İnsan daima hansısa bir əşyada və gerçəklik hadisəsəsində elə yeni xüsu-siyyətlər və ya çalarlar tapmağa cəhd edir və onları da dildə artıq çoxdan mövcud olan ilkin sözə mənaca oxşar bir sözlə ifadə etməyə çalışır.

2. Sinonimlərin dildə yaranmasının ikinci səbəbi kimi dilə başqa dillərdən oxşar sözlərin keçməsini göstərmək olar. Misal üçün, rus dilində ***проводник*** **sözünə** ***гид*** **sözü sinonim kimi işlədilir. Azərbaycan dilində də** ***bələdçi*** **sözü** ***гид*** **sözünün sinonimi kimi işlənir.**

3. Sinonimlərin dildə yaranmasının üçüncü səbəbi odur ki, müxtəlif ekspres-siv-üslubi söz qruplarında, müxtəlif üslublarda eyni bir əşya və ya hadisə müxəlif cür ifadə edilə bilər. **Məsələn,**

Azərbaycan dilində: ***göz*** *(neytral)-* ***çeşm*** *(poetik),* ***eynək*** *(neytral)* ***- gözlük*** *(neytral)* ***- çeşmək****(poetik).* ***və s.***

Rus dilində: ***очи*** *(poetik)* ***– глаза*** *(neytral).*

İngilis dilində: *eye (neytral) - peeper (sləng) - orb (poetik).*

4. Sinonimlərin yaranmasının dördüncü səbəbi odur ki, hər hansı bir əlamətə və ya hadisəyə başqa bir emosional qiymət verilir. Misal üçün, Azərbaycan dilində *qəddar, amansız, zalım, qeyri-insani*, rus dilində ***жестокий, безжалостный, бес-сердечный, бесчеловечный, свирепый,*** **ingilis dilində** *firece, unhuman, ruthless* və s. sifətlər sinonimlik təşkil edir. Onlardan hansısa birinin işlədilməsi isə danışanın emosional vəziyyətindən asılıdır.

Burada bir məsələni də diqqətə çatdırmaq lazımdır ki, *dost və yoldaş* sözlərinin sinonim olmasını müəyyənləşdirmək çətin bir məsələ deyildir, lakin onların hansı növ sinonim olmasını müəyyən etmək isə qəliz məsələdir. Bu baxımdan dildə işlədilən sinonimlərin hansı növə aid olması məsələsini də kifayət qədər ciddi məsələ hesab etmək olar.

Sinonimlər qrupunun inkişafı ilə məşğul olan A.A.Ufimseva olmuşdur. O, *land* və *soil* sözlərini fərqləndirməyə müvəffəq olmuşdur. Belə ki, 13-cü əsrdə soil sözü Fransız dilindən İngilis dilinə keçmişdir və "torpaq zolağı" mənasını verirdi. Daha sonralar bu qrupa *ground* sözü də əlavə edilmişdir [4, c. 138].

Sinonimlərin növləri məsələsində qeyd etmək lazımdır ki, denotativ və ya konnotativ fərqlərə görə, dilçilikdə sinonimlərin aşağıdakı növləri vardır [2; 7].

1. Tam (mütləq və ya absolyut) sinonimlər. Bu növ sinonimlərə bəzən dubletlər də deyilir. Mütləq sinonimlər - dubletlər elə sözlərdir ki, onlar mənaca və işlənmə dairəsinə görə eynidir, lakin digər sözlərlə birləşmə məsələsində fərqlidir.

Tam (mütləq) sinonimlər sinonimik cərgənin üzvləridir və onlar denotativ, emotiv mənalarda və konnotasiylarda cüzi dəyişilklik olmadan bir-birini verilmiş kontekstdə əvəzləyə bilər və onlara nadir hallarda rast gəlinir. Onara əksərən texniki terminlərə aid ədəbiyyatlarda və terminoloji xarakterli sözlər siyahısında rast gəlinir.

İngilis dilində və eləcə də Azərbaycan dilində dublet sözlərin sayı elə də çox deyildir. Dildə gedən proseslər nəticəsində dil vasitələrinə qənaət prinsipi nəticə-sində bu tip sinonimlər ya mənaca fərqlənməyə başlayır, ya da ki, üslubi çalar əxz edir. Məsələn, hal-hazırda *dilçilik* terminə daha çox rast gəlinir, *linqvistika* sözü isə ona nisbətən az işlənir. Amma *dilşünaslıq*

terminini isə daha az hallarda işlənən söz hesab etmək olar. Rus dilində də çox rast gəlinən söz ***лингвистика***, nisbətən az işlənən söz ***языкознание*** və demək olar ki, çox nadir hallarda və ya heç işlən-məyən termin isə ***языковедение*** sözləridir.

İngilis dilində *noun və substance* sözləri mütləq sinonimlər olsalar da, fərqli dairələrdə işlənir. Misal üçün, ingilis dilində *noun categories* birləşməsi olduğu halda, *substance categories* birləşməsi yoxdur.

Mütləq sinonimlərə daha bir neçə misal göstərmək olar: *functional affix – flection - inflection, fatherland - motherland, scarlet fever - scarlatina və s.*

2. İdeoqrafik (və ya semantik) sinonimlər. Bu növ sinonimlər elə sinonimlər-dir ki, onlar mənaca eynidir, lakin çalar baxımından fərqlənir. İdeoqrafik sinonimlər verilmiş keyfiyyətin müxtəlif dərəcə və məna çalarlarını göstərir. Onlar bir və ya daha çox denotativ mənada təxminən eyni və ya identik olur və heç olmasa bir neçə kontekstdə bir-biri ilə əvəzlənə bilir. Məsələn,

Məsələn, *qızmar (yay) - yandırıcı (günəş)*. Rus dilində ***палящий – жгучий – жаркий –*** *горячий* sözləri bu tipə aiddir.

İngilis dilində *hot, warm* və *burning* sözləri. Geyimlə bağlı işləndikdə *warm clothes* işlənir, hava ilə əlaqədar işləndikdə hot *weather,* odla bağlı işləndikdə isə *burning fire* işlənir.

Semantik sinonimlərə daha bir neçə misal göstərmək olar: ***молодость – юность (gənclik - cavanlıq); красный – алый*** (qırmızı - al) və s.

Beautiful - fine - handsome - pretty sözlərini nəzərdən keçirək. *Beautiful* sifəti ən güclü mənanı bildirir. Bu söz ifadə etdiyi keyfiyyəti tam ölçüdə ifadə edir, halbuki digər terminlər ifadə etdiyi keyfiyyətin yalnız bir qisminə malik olduğunu göstərir.

Choose, select, opt, elect, pick feillərinin sinonimik cərgəsində *choose* sözü ən ümumi mənaya malikdir. Digər sözlər isə açıq-aşkar şəkildə göstərilə bilən fərqlər ilə xarakterizə olunur: *select* sözü geniş mümükünlüklər seçimi imkanı verir. Məsələn,

Select a birthday present for a child – Uşaq üçün ad günü hədiyyəsi seçmək.

Opt alternativ seçimi bildirir (ya bu, ya da o birisi). Məsələn,

Fewer students are *opting* for science courses nowadays – Nisbətən az tələbə bu gün elmi kursları seçir.

Pick əsasən *gələcək istifadə üçün seçmək və saxlamaq* mənasını bildirir. Mə-sələn,

He picked new words from the text – O, mətndən yeni sözləri seçdi.

Elect isə *səs vermək yolu ilə seçimi* bildirir. Məsələn,

To elect a president – president seçmək; *to elect* smb (to be) chairman – kimisə sədr seçmək.

3. Kontekstual (kontekstdən asılı) sinonimlər. Bu növ sinonimlər elə sözlərdir ki, onlar yalnız müəyyən kontekst daxilində oxşar mənalara malik olur. Bu növ sinonimləri rus dilçiliyində "okkazional sinonimlər" də adlandırılar. "Okkazional sinonimlər" dedikdə təsadüfi olaraq işlənən və ya qəbul edilən sinonimlər başa düşülür [7, c. 193].

Kontekstual və ya kontekstdən asılı sinonimlər xüsusi distributive şərtlər altında oxşar olan mənalara malik sözlərdir. Bu, o halda baş verir ki, iki sözün mənası arasında fərqlər kontekstual baxımdan neytrallaşır. Məsələn, *buy* və *get* feilləri bir qayda olaraq sinonimlik təşkil etmir, lakin onlar bəzi misallarda bir-birinə sinonim kimi işlənir. Misalı nəzərdən keçirək.

Yesterday I got a new car = Yesterday I bought a new car.

I'll go to the shop and buy some bread = I'll go to the shop and get some bread.

Eləcə də *fetch, bring* və *get (gətirmək)* feillərini də qeyd etmək olar.

If you want anything, I will go to the kitchen and fetch you some - If you want anything, I will go to the kitchen and get you some.

Kontekstual (kontekstdən asılı) sinonimlərlə bağlı başqa bir misala baxaq.

Bear, suffer, stand feilləri semantik baxımdan fərqlidir və bir-biri ilə əvəzlənə bilmir, yalnız neqativ formada işləndikdə bir-biri ilə əvəzlənə bilər. Məsələn,

I can't *stand* it = I can't *bear* it.

4. Üslubi sinonimlər. Üslubi sinonimlər elə sözlərdir ki, onlar müxtəlif üslub-larda işlənsələr də eyni mənaya malik olur. Bəzən bu tip sinonimləri semantik-üslubi sinonimlər də adlandırılar. Məsələn, rus dilində ***рожа – лицо – лик*** **sino-nimlər qrupuna baxaq**. ***Рожа*** bir qayda olaraq danışığa xasdır və məişət danışığında istifadə edilir. ***Лицо*** sözü neytral sözdür və bütün üslublarda işlənmək hü-qugunu özündə qoruyub saxlayır. ***Лик*** isə kitab sözüdür və onun, bizə bədii əsərlərdə rast gəlmək ehtimalı daha çoxdur. Yaxud da ***предстоящий*** **və** ***следующий*** sözlərinə baxsaq, görərik ki, birinci sifət sırf **işgüzar dairəyə xasdır, ikinci söz isə neytral işlənmə xarakteri ilə fərqlənir [12].**

Artıq yuxarıda haqqında danışdığımız bir misala qayıdaq. İngilis dilində *face, countenance, visage, physiognomy, mug (slang)* sözlərini müqayisə etsək, görərik ki, *face* sözü ümumişlək sözdür, *countenance* isə sırf bədii üsluba xas olması ilə fərqlənir və poetik freymlərdə rast gəlinir. V*isage* sözü də *countenance* ilə *face* sözləri arasında aralıq mövqe tutması ilə fərqlənir və daha çox bədii üsluba meyl edən sözdür. *Physiognomy* isə

haqqında söhbət gedən insanın şəxsiyyəti ilə bağlı bir sözdür və məişət və ya loru danışığa xas olması ilə fərqlənir. *Mug* sözü isə sırf slənq sözdür və Britaniya dialektində işlənir.

Üslubi sinonimlər emosiya baxımından dəyər bildirmədə və üslubi tətbiq sfe-rasındakı kimi denotativ baxımdan elə də çox fərqlənmir. Ədəbi dldə əksər hallar-da poetik sözlər, arxaizmlər neytral sözlərin alternativi kimi işlənir. Məsələn,

Girl sözünün əvəzinə *maid, maiden* sözü, *happiness* əvəzinə *bliss, horse əvə-zinə steed, leave* əvəzinə *quit* sözləri işlənir.

5. Nisbi sinonimlər. Nisbi sinonimlərə aşağıdakıları misal göstərmək olar: *ask - beg - implore,* or *like - love - adore, gift -talent - genius, famous - celebrated- eminent.* Belə ki, onlar eyni anlayışın müxtəlif dərəcələrini və ya müxtəlif məna çalarlarını ifadə edir və bir-birini yalnız bəzi kontekstlərdə əvəz edə bilər [12]. Məsələn,

Like sözü *kimisə/nəyisə xoşlamaq* mənasını daşıdığı halda, *love* sözünün mə-nası *kimisə/nəyisə sevməkdir.* Bu iki sözə nisbətdə *adore* sözü *sevmək* sözünün ən yüksək dərəcəsi hesab edilən *pərəstiş etmək* mənasını daşıyır.

6. Eyniköklü sinonimlər. Bu tip sinonimlər elə sinonimlərdir ki, onlar müxtəlif üslublarda işlənsə də, eyni kökə və eyni mənaya malik olurlar. Bir qayda olaraq bu tip sinonimlərdən rus dilində daha geniş istifadə edilir. Məsələn, ***борьба*** və ***борение*** sözləri [6; 16].

Göründüyü kimi, dilçilikdə sinonimlik hadisəsi çox geniş yayılmışdır və sino-nimlərdən dilin bütün üslublarında, nəsr və nəzmdə və eləcə də danışıqda geniş istifadə edilir.

İstifadə olunmuş mənbələr

1. Арнольд И. В. Семантическая структура слова в современном англий-ском языке и методика ее исследования. Л., Просвещение, 1966. 191 с.
2. Елисеева В.В. Лексикология английского языка. СПб: СПбГУ. 2003. 44 с.
3. Кубрякова Е.С. Особенности речевой деятельности и проблемы внут-реннего лексикона // Человеческий фактор в языке: Язык и порождение речи.
М.: Наука, 1991.
4. Уфимцева А.А. Слово в лексико-семантической системе языка. М., Высшая школа, 1968. 288 с.

5. Харитончик З.А. Лексикология английского языка. Допущено Минис-терством образования Республики Беларусь. Минск.: Высшая школа, 1992. 228 с.
6. Черняк В.Д. Синонимические связи в лексике и языковая картина мира. //Лингвистика на исходе XX века: итоги и перспективы. Тезисы междуна-родной конференции Т. II. М., 1995.
7. Arnold I. V. The English Word. M.: Высшая школа, 1986. 295 с.
8. Lectures on English Lexicology. Курс лекций по лексикологии английского языка. Учебное пособие для студентов иностранных языков. – Казань: ТГГПУ, 2010. 92 с.
9. Nida E. Morphology: The Descriptive analysis of words. The USA. Published by The University of Michigan Press. 1988.
10. Stern G., Treble H.A., Vallins G.H. "An ABC of English Usage". Oxford, Oxford University Press, 1957, p. 173.

Lüğətlər

11. Гальперин И. Большой англо-русский словарь в двух томах. М.: Советская энциклопедия, 1972. 863 с.
12. https://www.collinsdictionary.com/translator

İnternet saytları

13. https://www.tutoronline.ru/blog/tipy-sinonimov
14.http://www.dissercat.com/content/sinonimiya-otnositelnykh-imen-prilaga telnykh-v-tatarskom-yazyke-i-ikh-ekvivalentov-v-angliis#ixzz56mqGssIh
15.https://www.syl.ru/article/219495/new_tipyi-sinonimov-v-russkom-i-an-gliyskom-yazyikah#image1037336
16.http://www.classes.ru/grammar/24.leksikologiya_angliyskogo_yazyka/4.2.2.htm) Classes.ru/

N.Bakhshaliyeva

The notion of “synonyms” in linguistics

Summary

The article deals with the phenomenon of “synonyms” in linguistics. The author, firstly, describes the matter of “synonymy”, then, she clarifies the matters of synonymic row and synonymic dominant, the causes of the creation of synonyms. In the article, the causes of synonym formation are widely discussed. The article states four causes of the formation of synonyms in the language. Various examples are given for each formation

cause. The examples are given comparatively in Azerbaijani, English and Russian languages.

Later, the research concerning the possible types of synonyms is given in the article. In this part, the types of synonyms such as absolute synonyms, ideographic synonyms, contextual synonyms, stylistic synonyms, relative synonyms and synonyms that have the same root are analysed and the differences among them are described. The article also touches upon polysemantic peculiarities of words.

To explain the given types of synonyms properly, the author has used a lot of examples.

Н. Бахшалиева

Понятие «синонимы» в языкознании
Резюме

Статья посвящена проблеме «синонимы» в лингвистике.
Автор, сначала, описывает вопрос о «синонимии», а затем, она разъясняет такие вопросы как, синонимический ряд и синонимический доминант, причины создания синонимов. В статье широко обсуждаются причины образования синонимов. В статье изложены четыре причины формирования синонимов в языке. Различные примеры приведены для каждой причины образования. Примеры приведены на азербайджанском, английском и русском языках.

Позже, исследование возможных видов синонимов приводится в - статье. В этой части, типы синонимов, таких как абсолютные синонимы, идео-графические синонимы, контекстуальные синонимы, стилистические сино-нимы, относительные синонимы и синонимы, имеющие одинаковые-корни анализируются и описываются различия между ними. В статье также рассматриваются полисемантические особенности слов. Чтобы правильно объяснить данные типы синонимов, автор использовал множество примеров.

Rəyçi: Leyla Cəfərova
Filologiya üzrə elmlər doktoru, professor

ГЮЛЬШАН ГАМИДЛИ
Институт Востоковедения имени З. Буньятова НАНА
g.gamidli@gmail.ru

НЕКОТОРЫЕ СВЕДЕНИЯ О ХАТИБЕ ТАБРИЗИ И ЕГО ЛИНГВИСТИЧЕСКИХ ТРУДАХ

Açar sözləri: Xətib Təbrizi, linqvistik əsər, Əbu Əla əl-Maarri, XI əsr
Ключевые слова: Хатиб Табризи, лингвистическая работа, Абу Аля аль-Маарри, XI век
Key words: Khatib Tabrizi, linguistic work, Abu Ala al-Maarri, XI century,

Ислам объединил в единое государство Аравийский полуостров, Ирак, Сирию, Палестину, Иран, Среднюю Азию, часть Закавказья (Прикаспийские территории и Колхидскую низменность, а также районы Тбилиси), Египет, Северную Африку, большую часть Пиренейского полуострова, Синд. Однако после распада Аббасидского халифата «один за другим на месте бывшего единого государства стали возникать эмираты и султанаты…» [4, 177]. Итак, история средневекового мусульманского Востока состоит из череды сменяемых династий и государств, каждое из которых оставило в истории свой след, своих государственных и культурных деятелей.

Великий арабский ученый ас-Суба′ и ал-Буйуми в своем труде تاريخ الادب العربي في العصر العباسي بغير الاندلس و المغرب XI век назвал веком энциклопедий и медресе [3, 37]. Приход к власти сельджуков ознаменовал расцвет культурной жизни арабского халифата. «Великие Сельджукские султаны, выступая в роли меценатов в деле развития науки и образования, внесли огромный вклад во всемирное культурное наследие» [8, 117].

Центральной фигурой «культурной революции» этого периода можно считать везиря великих сельджукских султанов Алп-Арслана и Мелик шаха, Низам аль-Мулька. Пользуясь безмерным доверием и полной поддержкой султанов «опора государства» провел ряд реформ государства, для упрочнения централизованной власти. Его труд «Сиясет-наме», принесла своему автору не меньшую славу, чем его долголетняя служба. Она призывает к созданию централизованного государственного аппарата, гвардии, широкой осведомительной службы. Эта книга по словам Э. Брауна является «самым ценным и интересным из произведений, написанных на персидском языке прозой» [8, 115].

Еще одной заслугой этого великого государственного мужа была его просветительская деятельность. Он с первых дней своей государственной службы поддерживал ученых-суфиев. А библиотеки, созданные им по всей стране, во всех культурных центрах страны снискали ему «славу и известность как мецената и просветителя» [8, 95].

Создав сеть культурных центров, Низам аль-Мульк до конца своей жизни контролировал их деятельность. И после его смерти на протяжении двух-трех столетий «Низамиййе» оставались очагами знаний.

Самая первая медресе с библиотекой была создана в Багдаде. 22 сентября 1067 г. состоялось ее официальное открытие [8, 97].

Один из самых выдающихся представителей языковедческой и литературоведческой науки, как Азербайджана, так и всего арабского Востока, этого периода был выдающийся Хатиб Табризи. Акад. Г. Араслы назвал его «самой великой личностью XI века, воспитанной азербайджанским народом» [12]. Нельзя не согласиться с академиком Араслы, так как народ, родивший в XI веке таких великих сыновей как Гатран Табризи, Низами Генджеви, Абу-ль-Хасан Бахманияр, Шихабеддин Сухраверди, Абдульгадир Мараги не может не гордиться человеком, чьи комментарии по литературоведению, языкознанию, стихосложению заслужили высокую оценку филологов, как в средние, так и в последующие века.

Автор, многочисленных комментариев на самые известные средневековые труды великих умов арабского халифата, еще большую популярность приобрел благодаря своей деятельности в средневековой медресе «Низамиййе» в Багдаде. С первого дня основания этой школы Х. Табризи на протяжении 40 лет возглавляет богатую библиотеку, а так же ведет здесь преподавательскую деятельность [3, 31; 6, 24].

Уроженец азербайджанского города Табриза, Абу Закариййа Яхья ибн Али Хатиб Табризи с малых лет проявляет интерес к арабскому языку, его грамматике и лексикографии. Еще, будучи в родном городе он переписал труд выдающегося арабского филолога ибн Дурейда «الجمهرة» [3, 23]. Однако его неудержимая тяга к знаниям не находит учителей способных ответить на все его вопросы и молодой Хатиб Табризи отправляется в Сирию, где становится учеником великого поэта-философа Абу Аля аль-Маарри [3, 24]. Конечно же, такая яркая личность как аль-Маари не мог не повлиять на молодого Табризи. Многие исследователи признают исключительную роль аль-Маарри в формировании Хатиба Табризи как одного из весомых ученых-филологов своего времени [3, 27]. Однако нельзя не согласиться с М. Махмудовым, написавшем о Хатибе Табризи монографию [3], в том, что нельзя приписывать все достоинства Х. Табризи тому факту, что он

был учеником великого аль-Маарри [3, 165]. После смерти аль-Маарри, Хатиб Табризи продолжает совершенствоваться в филологии. Он посещает культурные центры, получает уроки у великих ученых. Полный список учителей Х. Табризи приводит Йакут аль-Хамави: Абу-ль-Гасим ар-Рагиййа, аль-Хасан ибн Раджа ибн ад-Даххан, Абу-ль-Фатх Салим ибн Аййуб ар-Рази и т.д. некоторые из них [12, 287].

«предводитель литературных, грамматических и лексикографических наук» [12, 287], امام الادب و النحو و اللغة الشيخ الفاضل، «мудрый шейх, предводитель арабских наук, знаменосец литературоведения, источник мудрости» [9, 166], حامل لواء الفنون الادبية معدن ، العلوم الادب العربية امام كل اديب «предводитель всех литераторов» [12, 3] - так арабские исследователи характеризовали его в своих трудах. Многие его труды признавались авторитетными источниками.

В частности его труд «كتاب الكافي في العروض والقوافي» на протяжении веков считался основным учебником по поэтике [1, 4]. В своей исследовательской работе Г.Аллахвердиев, который перевел этот труд на азербайджанский язык, приводит имена ученых, которые в своих работах неоднократно ссылались на вышеупомянутый трактат и признавали его ценной работой [1, 4]. Так же интересен тот факт, что поэт Ахмед ибн Абдуллах Фулджи (ум. 829/ 1425 г.) изложил этот труд в стихах. Общеизвестно, что в средние века ввиду дефицита письменных принадлежностей ценные учебники излагались в стихах, дабы облегчить их запоминание наизусть [1, 4]. Таха Хусейн, так же признавал ценность наследия Хатиба Табризи, отмечая, что его работы использовались в школах и медресе вплоть до XX века наряду с классическими литературными произведениями Востока [11, 37].

Комментарии Хатиба Табризи на известные труды средневековых поэтов Абу Таммама «الحماسة» (ал-Хамаса), аль-Муфаддаля ад-Даби «المفضليات» («аль-Муфаддалиййат»), Абу Аля аль-Маари «سقط الزند» («Сыгту-з-занд»), на творчество доисламских поэтов «شرح القصائد العاشر», а так же по утверждению Крачковского И.Ю. на творчество аль-Ахталя, заслужили высокую оценку специалистов и неоднократно становились объектами исследования как восточных, так и западных специалистов. Йакут аль-Хамави (XIII в.), Ибн Халиган (XIII в.), Ибн аль-Асир (XII-XIII вв.), Бадр ад-Дин Махмуд аль-Ейни (XV в.), Ташкопрузаде Ахмед ефенди (XVI в.) Катиб Челеби (XVII в.), Джордж Вильгельм Фрейтаг (1788-1861) Карл Броккельман (1868-1956), М. Плеснер, И.Ю. Крачковский в своих работах приводят ценные сведения о Табризи [3, 157-178]. Так же, как и многие выдающиеся ученые средневекового Востока Хатиб Табризи писал стихи. С сожалением отметим, что его поэтическое наследие не становилось объектом отдельного исследо-

вания. Некоторые из вышеупомянутых восточных исследователей, аль-Анбари, Йакут аль-Хамави, ибн Асир, ибн Халликан, Джирджи Зейдан приводят некоторые примеры его творчества. В сборнике Али аль-Бахарзи приведено стихотворение Хатиба Табризи посвященное Низам аль-Мульку.

Языковедческие труды выдающегося филолога не менее ценны. Общеизвестно, что так же, как и в литературоведении, в языкознании он тщательно выбирал труды, над которыми работал. Названия его работ по языкознанию вдохновляют современных лингвистов на исследовательскую работу.

اعراب القرآن «Склонение в Коране», كتاب الالفاظ «Книга слов», المقدمات في النحو «Краткие сведения по нахву», комментарий на труд великого арабского языковеда ибн аль-Джинни (932 - 1002) لمع في النحو «Краткое изложение грамматики» и т.д.

Так же интересно, что его работы (комментарии поэтических произведений) относящиеся к первому периоду его творчества, а именно (شرح القصائد العشر) «Комментарий к десяти касыдам» «Комментарий к гасыде Банат Суад» (شرح المقصورة لابن دريد «Комментарий к «Магсуре» ибн Дурейда» по мнению М. Махмудова объединяет тот факт, что в них довольно много места уделяется лингвистическим вопросам [3, 39].

«Книга слов, которые и с начала и с конца читаются одинаково»- كتاب فيه ما يقرأ من آخر كما يقرأ من اوله - в рукописи обнаруженной 1958 г. Джорджом Крутковым приведены слова, которые одинаково читаются с обоих концов. В работе приведены слова на каждую букву алфавита с бейтами из классических стихов.

Одним из самых известных лингвистических исследований является комментарий Хатиба Табризи к книге ибн ас-Сиккита (803 - 859 гг.) «Исправления языка» (إصلاح المنطق), названный автором «Улучшение исправления языка (تهذيب إصلاح المنطق) . Арабские исследователи об этой книге писали:

لم يعبر على جسر بغداد كتاب خير منه

«*Мост Багдада до сих пор не пересекала книга полезнее этой*» [11, 1]

Следует, отметить, что ибн ас-Сиккит по праву считается одним из корифеев арабского языкознания, и Табризи вполне осознавал ответственность, взятую на себя, и решился на ее осуществление только к 70 годам [3, 151]. Весь опыт, накопленный за долгую жизнь, отразился в этой работе.

Абу Юсиф Ягуб ибн ас-Сиккит в своем труде рассмотрел огласовки и значения многих слов. Однако некоторые вопросы освещены неправильно, а также, в книге много повторов. Х. Табризи

пишет, что Абу-ль Ала аль-Маарри и другие уважаемые люди (الشيوخ) признавали наличие в этом трактате многих неясных вопросов, недостатков, что, по словам Хатиба Табризи, стало причиной написания «Книги улучшения исправления языка» [11, 150-151].

В 109 главах Х. Табризи подверг анализу словарный запас, собранный великим лингвистом и указал корни слов одинаковые по форме и различающиеся по значению и разные по форме и отличные по значению, рассмотрел изменения, происходящие в словах, процессы геминации, замены одной буквой другую, принципиальные различия между разговорным и литературным языком.

Следуя традициям средневековых лингвистов, ибн ас-Сиккит все свои утверждения подкреплял примерами из классической поэзии. Хатиб Табризи наряду с комментированием приведенных ибн ас-Сиккитом бейтов, в свою очередь приводил свои примеры [11, 151].

Как упоминалось выше, этот трактат явился как бы результатом всех научных изысканий Табризи в филологических науках. Опираясь на полученные им знания и подкрепляя их фактическим материалом из классических поэтических произведений, Хатиб Табризи создал труд, который заслужил высочайшую оценку специалистов. Это произведение было выбрано и напечатано «египетско-суданским лингвистическим обществом» первым из 10 редчайших классических произведений языковедов и литературоведов [11, 151].

Наследие прошлых поколений бесценно. Наша задача не позволить этому наследию кануть в лету. Исследования в этой области откроют нам новые горизонты в арабской лингвистике, тем более через 16 лет исполняется 1000 лет со дня рождения этого выдающегося филолога. Хотелось бы, чтоб работы Хатиба Табризи стали объектами исследований молодых специалистов, как в литературоведении, так и в лингвистике.

Список литературы

1. Allahverdiyev Q.Ə. XI əsr Azərbaycan ədəbiyyatşünaslığı məsələləri. Bakı: Şam, 2004, 286 s.

2. Cəfər V. Mahmud Kaşqari Xətib Təbrizi ilə görüşə bilərdimi... Azərbaycan şərqşünaslığı. Elmi-kütləvi jurnal.№ 2(4), Bakı, 2010, 37-39 s.

3. Mahmudov M. Xətib Təbrizinin həyat və yaradıcılığı. “Elm nəşriyyatı”, Bakı, 1972, 204 s.

4. Васильев Л.С. История Востока. Том 1 www.e-reading-lib.com

5. Каджар Чингиз. Выдающиеся сыны древнего и средневекового Азербайджана. (составитель Гараманлы Н.**)** - Баку, издательство «Азербайджан», 1995 г.
6. Крачковский И. Ю. Избранные сочинения. Том I. Москва-Ленинград, издательство Академии Наук СССР, 1956 г.
7. Крачковский И. Ю. Избранные сочинения. Том II. Москва-Ленинград, издательство Академии Наук СССР, 1956 г.
8. Язбердиев А. Б. Избранные статьи. Том III. Ашхабад, 2012
9. الخطيب التبريزى شرح ديوان الحماسة مقدمة محمد القاسم القاهرة، ١٢٩٦
10. ديوان المتنبى بشرح ابي البقاء العكبرى، مصر ،١٣٠٨هم
11. مسعود فوزى عبد العزيز، كتاب تحذيب إصلاح المنطقز. لأبي زكريا يحيى بن علي الخطيب التبريزي. الجزء الأول. دار الشوؤن الثقافيّة العامة، بغداد ، ١٩٩١، ٤١٦ ص
12. ياقوت الحموى معجم البلدان، المجلد الاول، ليبزيق، ١٨٦٦
13. http://azerbaijanworld.com

G.Həmidli

Xətib təbrizi və onun linqvistik əsərləri haqda bəzi məlumatlar

Xülasə

Böyük ərəb alimi əs-Subayi Buyumi özünün «Əbbasilər dövrundə ərəb ədəbiyyatinin tarixi (Əndəlüs və Məğrib istisna olmaqla)» XI əsri ensiklopediya və mədrəsələr əsri adlandırmışdır.

Dahi Azərbaycan alimi, ədəbiyyatşünsı, dilçi və şair, şərh ustası – Xətib Təbrizi, (1030-1109) bu dövrdə istər Azərbaycanda, istərsə də bütünlüklə ərəb Şərqində dil və ədəbiyyat elminin ən görkəmli nümayəndələrindən biri olmuşdur. Ərəb dilçiliyinin və filologiyasının nəhəng bilicisi sayılan filosof Əbu-l-Əla əl-Məərrinin şagirdi olan Xətib Təbrizi uzun illər (40 ildən artıq) Səlcuqların Bağdadda orta əsrlərdə açdığı "Nizamiyyə" mədrəsəsinin geniş kitabxanasının və dil, ədəbiyyat kafedrasının mü vəzifələrində çalışmışdır.

Görkəmli filoloqun "Quranda İ'rab", اعراب القرآن "Nəhvə ماتالمقدّ في النحو dair qısa məlumat", لمع في النحو "Qrammatik xülasə", الالفاظ كتاب "Sözlər haqda kitab" və s. linqvistik əsərləri vardır , onlardan ən məşhuru, görkəmli ərəb dilçisi İbn əs-Sikkit (803 - 859) "Dilin düzəldilməsi" ("إصلاح المنطق") əsərinə yazdığı**")** (لمنطقا تهذيب إصلاح" adlı şərhdir. Adı çəkilən kitabının qaranlıq hissələrinə aydınlıq gətirmiş, onu müfəssəl şəkildə sərh etmişdir.

G.Hamidli

Some information about khatib tabriziand his linguistic works

Summary

The great Arab scholar Al-Subaÿi Buyumi in his work « تاريخ الادب العربي في العصر العباسي بغير الاندلس و المغرب » called the XI century the century of encyclopedias and madrassas. Khatib Tabrizi was one of the most outstanding representatives of the linguistic and literary science of this period, both in Azerbaijan and in the all Arab East.

The author of numerous comments - Khatib Tabrizi, has gained a lot of popularity because of his activities in the medieval madrassa "Nizamiyye" in Baghdad, where he had a teaching career and led an extensive library of over 40 years.

In the history of literary science, he is known as a disciple of the great Arab poet-philosopher Abu Ala al-Maari.

Khatib Tabrizi is the author of several linguistic works : اعراب القرآن «The decline in the Qur'an», كتاب الالفاظ «Book of words», «Brief information on nahv», «Summary of grammar", etc.

One of the most well-known linguistic research of Khatib Tabrizi is a comment to the book of Ibn al-Sikkit (803 - 859) "Corrections of language» (إصلاح المنطق), named by the author "Improving correction of language» (تهذيب صلاحإ المنطق), in which the author tried to clarify obscure points of the book of the great linguist.

Rəyçi: **Vilayət Cəfərov**
Filoilogiya üzrə elmlər doktoru, professor

RƏVANƏ MƏMMƏDOVA
Azərbaycan Dövlət Pedoqoji Universiteti
Is_mail-01@mail.ru

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ORFOEPİYA PROBLEMİNİN QOYULUŞU TƏDRİSİ TARİXİ

Açar sözlər: orfoepiya, orfoqrafiya, tələffüz, nitq, danışıq, qayda, norma, şifahi nitq, yazılı nitq.
Ключевые слова: орфоепия, правописание,телепозиция,речь, консультации, правило, нормы, устная речь, писменной речи.
Keywords: orfoepia, spelling, teleposition, speech, consultation, rule, norms, oral speech, written statement.

Orta təhsil sisteminin ümumtəhsil məktəblərində Azərbaycan dili tədrisinin qarşısında qoyduğu başlıca məqsədlərdən biri də şagirdlərə yüksək səviyyədə nitq vərdişləri aşılamaq, onları hərtərəfli nitq hazırlığına, başqalarının nitqini, xüsusən də təlim informasiyaları, radio və televiziya verilişlərini asan və düzgün başa düşmək, ünsiyyətin müxtəlif şəraitlərində öz fikirlərini yazılı və şifahi olaraq sərbəst ifadə etmək bacarığına yiyələndirməyi təmin etməkdən ibarətdir. Müasir dövrdə şifahi dilin fəaliyyət dairəsinin genişləndiyi bir zamanda hər bir şəxsin öz nitqində ədəbi tələffüz normalarını gözləməsi böyük bir əhəmiyyət kəsb edir. Ədib və şairlər, teatr səhnələrində çıxış edən görkəmli aktyorlar, radio və televiziya verilişləri vasitəsilə xalqla daim ünsiyyətdə olan diktorlar, tələbə və şagirdlərə biliklərin əsasını mənimsədən, onlara yüksək əxlaqi keyfiyyətlər aşılayan müəllimlər, əhəmiyyətli məsələləri hər zaman göz önünə gətirən natiqlər, qiraətçilər şifahi ədəbi dilin zəngin imkanlarından məharətlə istifadə edirlər. Danışan hər hansı bir şəxs hər bir vaxt çalışmalıdır ki, dilin normaları ilə yanaşı tələffüz normalarına da düzgün və ciddi əməl etsin. Ədəbi tələffüz normaları ictimai ünsiyyətdə böyük əhəmiyyət kəsb edir. Bu normalar dilimizin daxili qanunları ilə bağlı olduğundan onları pozmağa, təhrif etməyə heç kəsə icazə verilmir, danışanın tələffüz qaydalarına əməl etməsi onun ictimai borcu kimi qiymətləndirilir. Danışan çalışmalıdır ki, öz üslubundan asılı olmayaraq ədəbi tələffüz normalarına da riayət etsin. Fikrini qarşısındakı insana aydın çatdırmaq üçün tələffüz normalarından kənara çıxmasın. Hər bir şəxsin ən gözəl keyfiyyətlərindən biri onun zəngin nitq mədəniyyətinə nail olmasıdır. Yüksək nitq mədəniyyəti insanın ümumi inkişafında xüsusi rol oynayır. İstər məzmun, istərsə də zahiri cəhətdən düzgün olan nitq fikrin təsirli ifadə olunmasına xidmət edir. Beləliklə, ədəbi tələffüz normalarını, dilimizin daxili qanunlarını bilmək, yüksək nitq mədəniyyətinə, nümunəvi tələffüzə nail olmaq üçün birinci növbədə orfoepiyanın

qayda-qanunlarına yiyələnmək lazımdır. Orfoepiya şifahi ədəbi dil üçün səciyyəvi olan qaydaların məcmusudur. Orfoepiya yunanca <<düzgün>>, <<dürüst>> mənasında olan *orpfos* sözü ilə <<danışmaq>>, <<nitq>> mənasında olan *epos* sözünün birləşməsindən düzəldilmiş bir termindir. Bu anlayış dilin fonetik sistemi ilə bağlı olub, bura hər bir səsin müəyyən fonetik bir şəraitdə - sözün əvvəlində, ortasında, sonunda, qrammatik formalarda, söz birləşmələrində işləndikdə özünü göstərən tələffüz xüsusiyyətlərini tənzimləyən qaydalar daxildir. Bu qaydalar da sabit deyildir, zaman keçdikcə dəyişir və təkmilləşir. Orfoepik qaydaların dəyişilməsi canlı bir prosesdir. Bu qaydalar cəmiyyətin inkişafı ilə əlaqədar olaraq təkmilləşir və qismən də dəyişir. Bu dəyişikliklər təbii və qanuni olaraq dilimizdə köhnənin aradan çıxması və yeninin əlavə edilməsi ilə əlaqədar olan dəyişikliklərdir. Orfoepik qaydaların heç kəs tərəfindən pozulmasına yol verilmir. Bu qaydalar hamı üçün vahid və məcburidir. Azərbaycan dili orfoepiyasının tədqiqi tarixi o qədər də qədim deyildir. Keçən əsrin ortalarından başlayaraq tətbiqi dilçiliyin bu sahəsində tədqiqatlar aparılmış, elmi əsərlər yazılmış, dərslik və dərs vəsaitlərində bu məsələlərə yer verilməyə başlanılmışdır. Lakin bu o demək deyildir ki, bundan əvvəlki zamanda orfoepiya anlayışı mövcud olmamış, tələffüz qaydaları müəyyənləşməmişdir. XIX əsrdə ədəbi dilin normalarının təkmilləşdirilməsi məsələsi ədəbi tələffüz qaydalarının meydana gəlməsinə səbəb olmuşdur. Bu sahədə M.F.Axundovun böyük xidməti olmuşdur. O, ədəbi dilin tələffüz normalarını şifahi dil üzərində qurmağa çalışmış, yazı ilə tələffüzü yaxınlaşdırmağa səy göstərmişdir. Axundovun bu prinsipi hal-hazırda ən aktual və faydalı prinsiplərdən hesab olunur. XX əsrin əvvəllərində isə C.Məmmədquluzadə öz elmi və bədii fəaliyyəti zamanı ədəbi tələffüz məsələlərinə xüsusi diqqət yetirmişdir. Sovet dövründə Azərbaycan ədəbi dilinin orfoepik normalarının qaydaya salınması məsələsi də diqqətdən kənarda da qalmamışdır. Sovet dövründə nitq mədəniyyəti məsələləri ziyalılarımızın diqqətində olmuşdur. Hazırki Azərbaycan dili orfoepiyasının əsasını ziyalılarımızın tələffüzü təşkil edir. Bu dövrdə ölkənin müxtəlif yerlərindən Bakıya toplaşmış ziyalılar öz danışıqlarının ən yaxşı nümunələrini ədəbi dilə gətirmişlər. Azərbaycan ədəbi tələffüz normalarının formalaşması və inkişaf tarixini müəyyənləşdirmək olduqca çətindir. Çünki müxtəlif dövrlərdə işlənən hər bir orfoepik norma yazıda öz əksini tapmamışdır. Bu məsələlərə dəqiq şəkildə müxtəlif tarixlərdə yazılmış dilçilik materiallarında rast gəlinmir. Bəzi mənbələrdən materiallar əldə edirik ki, bu da bizə dəqiq tədqiq tarixini müəyyənləşdirməyə imkan vermir. Buna görə də biz Azərbaycan dilininin orfoepiyasının tədqiq tarixini son dövrlərdə aid edirik. Orfoepiya məsələlərinə dair Ə.Dəmirçizadə, Kazım Ziya, Ə.Əfəndizadə, M.Şirəliyev, A,Qurbanov, N.Abdullayevin və başqalarının əsərləri vardır. Ə.Əfəndizadənin "Azərbaycan dilinin orfoepiyası" adlı dissertasiyasında Azərbaycan dilinin orfoe-

pik qaydalarını şərh etmişdir. Həmin əsər dilimizin orfoepik qaydalarını öyrənmək üçün çox faydalı bir əsərdir. Ə.Dəmirçizadənin << Azərbaycan dilinin orfoepiyasının əsasları>> adlı əsərində də orfoepik normalardan əhatəli şəkildə bəhs olunmuşdur. Prof. Namiq Abdullayev də müasir dövrümüzdə dilimizin orfoepiyasina dair bir neçə əsərlər yazmış, kiçik bir kitabça şəklində orfoepiya lüğətini də hazırlamışdır. N.Abdullayev <<Orfoqrafiya və orfoepiyanın təlimi məsələləri>> əsərində orfoepiya dair geniş məlumatlar vermişdir. Lakin bütün bunlarla yanaşı orfoepiya sahəsində hələ də tədqiqə ehtiyacı olan bir sıra məsələlər vardır. Onların dəqiqləşdirilməsi vahid orfoepik normaların yaradılması, müəyyənləşdirilməsi baxımından əhəmiyyətli rol oynayır. Bu məsələlərə aşağıdakıları göstərmək olar:

1. Qrammatik kateqoriya və sintaktik quruluşların tələffüz normaları.
2. Orfoepiyanın orfoqrafiya eləcə də adi danışıq dili və dialekt tələffüzü ilə sərhədi.
3. Ədəbi tələffüz normalarının əsasında duran prinsiplər.
4. Ədəbi tələffüzün üslubları.
5. Mürəkkəb qısaltmaların, alınma sözlərin tələffüz qaydaları
6. Şer dilinə, poeziyaya məxsus orfoepik məsələlər-poetik orfemlər
7. Ədəbi tələffüz və orfoepik tələffüz anlayışı, onların fərqi
8. Orfoepik normaların təşəkkül tapması və inkişaf tarixi və s.

Yüksək nitq mədəniyyətinə, nümunəvi tələffüzə nail olmaq üçün ilk növbədə bütün bu kimi məsələlər dilimizin bugünkü inkişaf səviyyəsində araşdırılmalıdır. Ədəbi dilin sabit və vahid tələffüz normalarının müəyyənləşdirilməsi, həmin normalara əsaslanan qaydaların danışıq və oxuya tətbiqi nitq mədəniyyətinin olduqca vacib problemlərindən biridir. Çox təəssüf ki, bu vaxta qədər orfoepik normalar bir qanun şəklində işlənməmiş, əlimizdə hamı tərəfindən istifadə oluna biləcək bir qaydalar məcmusu mövcud deyildir. Elmin, təhsilin inkişaf etdiyi bir zamanda, şifahi dilin fəaliyyət dairəsinin genişləndiyi bir dövrdə ədəbi dilin tələffüz normalarına riayət etmək çox vacib məsələlərdən biri kimi xüsusi əhəmiyyət kəsb etmişdir. Danışan hər bir şəxs öz istək və arzuları, öz fərdi xüsusiyyətləri, şəxsi zövqü ilə deyil, dilimizin daxili qanunları ilə bağlı olan bir nitq mədəniyyətinə malik olmalıdır. Danışanın bu tələffüz qaydalarına əməl etməsi onun ictimai borcu kimi qiymətləndirilir. Ədəbi tələffüz normalarına uyğun qurulan nitq dinləyən tərəfindən asan qavranılır və diqqəti cəlb edir. Əksinə, tələffüzü qüsurlu olan natiqi isə dinləmək istənilən səviyyədə çətinliklər yaradır. Danışanların nitqində özünü göstərən qüsurlar müxtəlif xarakterli ola bilir. Nitqdə bəzən sözlər və qrammatik formalar yerli şivədə və ya adi danışıqda olduğu şəkildə tələffüz edilir. Məsələn*: həlbəttə (əlbəttə), hasan (asan), ahali (əhali), haçar (açar), muraciət (müraciət), genə (yenə), istəkan (stəkan), işqaf (şkaf), usdol (stol), varağ (vərəq), dəyşət (dəhşət), huquq (hüquq), qırıx (qırx), ilik (ilk),*

bajı (bacı), nöş (nə üçün) və s. Bu qism orfoepik qüsurların bir qismi uzun və qısa saitlərin düzgün istifadə edilməməsindən irəli gəlir. Məsələn: *mədəni adam* əvəzinə m[ə:]dəni (birinci hecada **ə** saitinin uzanması), *bədii, təbii* sözlərində ***ə*** saitinin uzadılaraq tələffüz olunması və s. Bu qüsurların bir qismini isə vurğunun düzgün deyilməməsi nəticəsində baş verir, daha çox alınma sözlərdə müşayiət olunur: *İngiltə`rə, ope`ra, nəzə`riyyə, ba`şqa, bü`tün, kafe`dra, sekto`r, kafe`l, bü`ro, si`fət, i`sim, ə`dat, ə`sasən, e`tibarən, gü`norta, peda`qoq, fizi`ka, şu`ra, müx`təlif, a`rzu və s.* Ədəbi tələffüz normalarının pozulmasının digər bir halı isə orfoepiyası orfoqrafiyasından fərqli olan sözlərin yazılışı, deyilişi və oxunmasıdır. Buna bəzən hərfi tələffüz, kitab tələffüzü də deyilir. Hərfi tələffüz qüsurlarına daha çox alınma sözlərin deyilişi zamanı rast gəlinir. Məsələn: *Lomonosov (Lamanosov əvəzinə), Moskva (Maskva əvəzinə), intonasiya (intanasiya əvəzinə), orfoqrafiya (arfaqrafiya əvəzinə),* və s. Dilimizə məxsus sözlərin və şəkilçilərin deyilişində də rast gəlinir: *vicdan (vijdan əvəzinə), uşaq (uşax əvəzinə), məqsəd (məksəd əvəzinə), başlayır (başlıyır əvəzinə), dinləyirlər (dinliyir əvəzinə), qanlı (qannı əvəzinə), atamla (atamnan əvəzinə), görsə idi (görsəydi əvəzinə) və s.* Bu cür səhvlərə biz daha çox müəllimlərin nitqində rast gəlirik. Müəllimlər sinifdə şagirdlərlə rabitə yaradarkən dərs zamanı daha çox kitab tələffüzü ilə orfoqrafik tələffüzü eyniləşdirirlər. Bu zaman şagirdlər də müəllimlərin dediklərini təqlid edir, müəllim və şagird arasında xüsusi bir kitab üslubu yaranır ki, şagirdin şifahi nitqi o cümlədən ədəbi oxusu tələffüz cəhətdən qüsurlu olur. Deməli, biz müəllimlərin ədəbi tələffüz baxımından danışığına xüsusi diqqət yetirməliyik. Ədəbi dilimizin qoruyucuları, təbliğatçıları, yayıcıları sayılan müəllimlər düzgün tələffüz qaydaları əsasında danışmağı və oxumağı bacarmalıdırlar. Düzgün danışıq, nümunəvi tələffüz müəllimin ixtisasca hazırlığını, mədəni səviyyəsini səciyyələndirən başlıca göstəricilərdəndir. Müəllim biliyi, dünyagörüşü, davranışı, geyimi ilə bərabər öz nitqi ilə də başqalarına nümunə olmalıdır. Onun danışığı və qiraəti öz aydınlığı, səlisliyi, axıcılığı, intonasiyaca zənginliyi ilə xoşagəlimli olmalı, diqqəti cəlb etməlidir. Ədəbi nitqə sahib olmayan müəllim şagirdlərə sözlərin düzgün tələffüzünü öyrədə bilməz. Bəzən müəllimlər şagirdlərə dilçiliyin qayda-qanunlarını öyrətməklə, fonetikanı, leksikanı və qrammatikanı mükəmməl mənimsətməklə onlarda düzgün tələffüz vərdişlərinin yarandığını güman edirlər. Lakin bizim yazımız çox vaxt tələffüzümüzlə uyğunlaşmır, buna görə də orfoepik tələffüzə təkcə kitab oxumaqla yiyələnmək düzgün deyildir. Düzgün tələffüz qaydalarını mənimsəmək orfoepik cəhətdən düzgün tələffüzə yiyələnmək üçün müəllim və şagird uzun müddət bunun üzərində çalışmalıdır. Bu proses şagirdin məktəbdə təlim aldığı uzun illər ərzində baş verir. Tələffüz mədəniyyətinə yiyələnməyin şagirdlər üçün praktik əhəmiyyəti

xüsusilə böyükdür. Orfoepik normalara yiyələnməklə şagirdlər fikrini hamının başa düşəcəyi bir tərzdə ifadə edir, nitqində şivəçiliyə yol vermir.

Bilidiyimiz kimi təhsil sahəsində gedən islahatlar çərçivəsində yeni yanaşmalar meydana gəlmişdir. Müasir təhsil proqramında Azərbaycan dilinin öyrənilməsi şagirdlərin ünsiyyət imkanlarını genişləndirir, onlarda nitq fəaliyyətinin növləri ilə yanaşı düşünmə, öyrənmə və danışma bacarıqlarını formalaşdırır. Azərbaycan dili ümumtəhsil məktəblərində tədris olunmaqda məqsədi ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla şagirdlərdə nitq mədəniyyətinin formalaşmasına xidmət edir. Orta məktəbi başa vuran gənclər təkcə elmi-nəzəri hazırlıq deyil, həm də yüksək əxlaqi-mənəvi keyfiyyətlər, o cümlədən dil və ünsiyyət bacarıqları əldə etməlidirlər. Hər bir şəxs müxtəlif formalı və məzmunlu mətnləri səlis, şüurlu oxumağa, şifahi və yazılı şəkildə səmərəli və yaradıcı ünsiyyət qurmağa qadir olmalıdır. Bu baxımdan Ana dilinin bir fənn kimi təlim əhəmiyyəti böyükdür. Əvvəlki dərsliklərdən fərqli olaraq bitkin kompozisiyalı mətnlər üzərində iş nitq bacarıqlarını, ünsiyyət modellərini (dinləyib-anlama və danışma, oxu, yazı) inkişaf etdirməklə yanaşı, qrammatik məfhumları dil qaydalarını mənimsətməkdə bir mənbə kimi istifadə olunur. Mətnin məzmunu və komponentləri üzrə fəaliyyət idraki inkişafa, nitq zənginliyinə, orfoqrafik qaydaların, orfoepik normaların gözlənilməsinə xidmət edir. Yeni dərsliklərdə verilən tapşırıqlarda orfoepik normaların mənimsədilməsinə uyğun çalışmalar şagirdlərə tanış olmayan yeni-yeni sözlərin yazılış və deyiliş formaları, bu istiqamətdə verilmiş ev tapşırıqlarının rolu böyükdür. Lakin müəllim yalnız dərsliklərdə verilmiş tapşırıqlarla kifayətlənməməli əyani vəsaitlərdən, özünün hazırladığı tapşırıqlar, iş vərəqləri, müəyyən cədvəllər, elektron lövhələrdə hazırlanan nümunələr vasitəsilə şagirdlərin bu yöndə əldə etdikləri bilikləri daha da möhkəmləndirməyə çalışmalıdır. Müəllim şagirdlə bərabər onun yaşadığı danışıq mühitinin də xüsusiyyətlərini də nəzərə almalıdır. Əgər şagird və onun mühitində olan insanlar *atan, baban, gələcək, gedəcəm, nə üçün, alacam,yazacaq* və s. sözlərini [aton, babon, gələtdi, gedədən, nöşün, alajam, yazıtdı] kimi təhrif olunmuş və ədəbi dildən tamamilə fərqli olaraq işlədirlərsə, müəllim orfoepik cədvəllərdə həmin sözlərin düzgün tələffüzünə aid zəngin material verməli və şagirdləri bu cədvəllər üzərində çalışdırmalıdır. Orfoepik məşğələrdə əyani vəsaitlərdən- diktorların, natiqlərin dilindən verilmiş saf danışıq nümunələri, bədii, elmi-kütləvi əsərlərdən, orfoepik cəhətdən gözəl nitq nümunələrini əks etdirən cədvəllərdən və s. istifadə olunmalıdır.

Ədəbiyyat siyahısı:

1. Ə.Dəmirçizadə. Azərbaycan dili orfoepiyasının əsasları.Bakı, 1969.
2. A.Abdullayev. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı,1978.
3. N.Abdullayev. Ədəbi tələffüz təliminin metodikası. Bakı, 1966.
4. N.Abdullayev. Orfoqrafiya və orfoepiya təlimi məsələləri. Bakı, 1997.
5. N.Abdullayev. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013.
6. H.Balıyev, A.Balıyev. Azərbaycan dilinin tədrisi metodikası.Bakı, 2014

Р.Маммадова

История преподавания проблемы орфоэпи в общеобразовательных школах

Резюме

Чтобы укрепить уропепические привычки, учащиеся всегда должны иметь содержание, право и культурный тон и привычки. Для этого учитель должен иметь чисто литературный язык, а затем регулярно использовать различные исследования для обучения орфопептическим привычкам: работать над правильным и вербальным выражением словесной речи, а не только с лучшими стихотворениями, но и с художественной, научной прозой необходимо запомнить образцы своих произведений, провести разную работу с руководством учителя по улучшению культуры чтения, разобраться с недостатками речи отдельных учеников, регулярно улучшать недостатки словесной и письменной речи учеников. Здесь учитель должен продемонстрировать большое педагогическое мастерство, не говорить резко с учениками, а мотивировать и мотивировать свои собственные ошибки в своем отношении. Учитель должен регулярно и терпеливо следить за выполнением инструкций, которые он дает ученикам, и проверять их в устной и письменной форме. Таким образом, успех в этой области зависит от правильной организации работы учителя. Невозможно достичь высоких результатов как в письменном, так и в устном аспектах достижения учеников без надлежащего литературного произношения.

R.Mammadova

The history of teaching orfoepi problem in general education schools

Summary

In order to reinforce the uropeepic habits, students must always have the content, the right and the cultural tone and habits. For this, the teacher should have a purely literary language, and then regularly use various studies to educate orfoepic habits: work on the correct and verbal expression of verbal speech, not only the best poem pieces but also an artistic, scientific-prose it is necessary to memorize the samples of their works, to carry out different work with the teacher's leadership on the improvement of the culture of reading, to deal with the defects in separate pupils' speech, to regularly improve the deficiencies in the verbal and written speech of the pupils. Here the teacher should demonstrate a great pedagogical skill, not to speak harshly with the pupils, and to motivate and motivate their own mistakes in their attitude. The teacher should regularly and patiently monitor the fulfillment of the instructions he gives to the pupils and verify that they are independently verbally and in writing. Thus, success in this area is dependent upon the proper organization of the teacher's work. It is impossible to achieve high results in both the written and oral aspects of the pupils' achievement without the proper literary pronunciation.

Rəyçi: Kamil Bəşirov
Filologiya üzrə elmlər doktoru, professor

AYŞƏN MUSTAFAYEVA
ADPU
aysenmustafaeva@mail.ru

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ İSTİFADƏ OLUNAN FƏAL TƏLİM METODLARI

Açar sözlər: üsul, müasir metodlar, fəallıq, dərs
Key words: way, modern methods, activity, lesson
Ключевые слова: способ, современные методы, активность, урок

Azərbaycan Respublikasının Təhsil Qanununun müddəlarından çıxış edərək müasir dərs haqqında deyə bilərik ki, pedaqoji ədəbiyyatlarda fəal təlimin müxtəlif metodlarına rast gəlinir. Ənənəvi təlimdən fərqli olaraq interaktiv təlimdə üsul,vasitə və texnikalar kifayət qədər çoxdur.

Ənənəvi təlim metodlarından fərqlənən interaktiv metodlar şagirdə bir tədqiqatçı statusu verir. Şagird müstəqil olaraq düşünür, baş vermiş hər hansı bir hadisə haqqında öz fikirini sərbəst şəkildə ifadə edir, mühakimə yürüdərək nəticə çıxarmağı bacarır. Bu fəaliyyətdə müəllimin mövqeyi ənənəvi təlimdən fərqli olaraq istiqamətverici funksiya daşıyır. Ənənəvi tədrisdə müəllim tədris materiallarını hazır şəkildə şagirdlərə çatdırır. Şagirdlər dinləyici mövqeyində iştirak edərək passiv fəaliyyət göstərirlər, təkcə müəllimin ünvanlanmış suallarına cavab verməklə kifayətlənirlər. İnteraktiv təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin və yaradıcılığının formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Fəal metodla keçilən dərslər həm müəllim, həm də şagirdlər üçün çox böyük əhəmiyyətə malikdir. Bu təlimdə müəllimin özünə qarşı tələbkarlığı artır. Müəllimləri öz üzərində işləməyə, zəifləri daha çox çalışmağa məcbur edir. İnteraktiv dərslərin təşkili müəllimdən gərgin zəhmət, yüksək bacarıq tələb edir. Dərs prosesində ən xırda incəlik belə diqqətdən yayınmamalıdır, əks təqdirdə dərsin səmərəliliyi pozula bilər. Fəal təlimin üstünlüklərindən biri də şagird-müəllim münasibətlərində səmimiyyətin artması, hər ikisinin bərabər hüquqlu şəxslərə çevrilməsidir. Bu proses şagirdlərin qabiliyyətinin üzə çıxarılmasını təmin etməklə yanaşı, müəllimə öyrənməyi öyrətmək imkanı verir. Əsas bir cəhəti də qeyd etmək lazımdır ki, interaktiv təlimdən istifadə edən, yəni metodlarla keçən müəllim bu dərslərə çox ciddi hazırlaşmalı, dərsə hazırlığa çox vaxt sərf etməlidir. Metodik ədəbiyyatda bu barədə müəllimlər üçün gərəkli olan faydalı məlumatlar verilmişdir. Müəllim həmin məlumatlara nəzər salmalı, fəndaxili və fənlərarası əlaqənin də imkanlarını dəqiq müəyyən etməli, imkan

daxilində şagirdlərin düşüncələrini, tənqidi, məntiqi və yaradıcı təfəkkürünü inkişaf etdirən işlərə üstünlük verməlidir.

Təlimin interaktiv forması fəal əlaqə tələb edir ki, iş prosesində müxtəlif üsullardan istifadə olunmaqla şagird-müəllim və müəllim-şagird əlaqələri intensiv qurulsun və məqsədə doğru inamlı hərəkət yarada bilsin. Müəllim dərs prosesində elə metodları seçib istifadə etməlidir ki, onlar həm dərsin məqsədlərini həyata keçirsin, həm də təlimin məzmununa müvafiq olsun.

Təlimin təşkilinin ən mühüm komponentlərindən biri də onun metodlarıdır. Fəal interaktiv təlim metodu təqdim edilən informasiyanin ziddiyyətli və yarımçıq olması səbəbindən əqli cəhətdən gərgin vəziyyətin yaradılmasına əsaslanır. Belə vəziyyətin yaradılması şagirdləri məqsədə nail olmaq yollarını axtarmağa sövq edir və bununla da şagirdlərin təfəkkürünü formalaşdırır. Bu dediklərimizi nəzərə alaraq hal –hazırda fəal dərslərdə tez-tez istifadə olunan təlim metodlarının qısa xülasəsini verək.

"**Beyin həmləsi**"(Əqli hücum). Bu metodun adı ingilis dilindən götürülüb, mənası ideyaların cəmləşməsi, yığılması deməkdir. Beyin həmləsində əsas məqsəd şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirmək, sərbəst fikir bildirmək qabiliyyətini artırmaqdan ibarətdir. Bu metoddan dərsin motivasiya və ümumiləşdirmə mərhələlərində 10-15 dəqiqə ərzində böyük və kiçik qruplarla iş formasında aparılır. Dərs müşahidələri və aparılmış metodik təhlillər göstərir ki,"Beyin həmləsi" ən çox istifadə olunan texnologiyalardandır. Problemin həlli istiqaməti üzrə işin çoxvariantlılığı, demokratik şərait bu metodun üstün cəhətləridir. Məsələn, 5-ci sinifdə dil qaydası kimi çoxmənalı sözlər öyrədildikdən sonra bu metoddan istifadə edərək omonimlərlə çoxmənalı sözlərin fərqini aşağıdakı kimi izah edə bilərik: Bunun üçün qoşa sözlər (kök-kök, sarı-sarı, yaz-yaz, göz-göz) seçilir və alqoritmik yolla iki oxşarın fərqi dəqiqləşdirilir. Şagirdlərə aşağıdakı tədqiqat sualları ilə müraciət edək: "Qoşa" sözlər arasında məna əlaqələri varmı?, "Qoşa sözlər arasındakı məna əlaqələrini necə müəyyənləşdirmək mümkündür". Şagirdlər tədqiqat sualları üzərində iş aparmaqla qoşa sözlərin hansının omonim, hansının isə çoxmənalı sözlər olduğunu müəyyənləşdirirlər.

BİBÖ (bilirik, istəyirik bilək, öyrənməliyik).Varislik və fasiləsizlik prinsipini söykənən "BİBÖ-nün tətbiqində əsas məqsəd şagirdlərə əvvəlki biliklə yeni biliklər arasında əlaqə yaratmağa imkan verməklə düşünmə qabiliyyətlərini optimallaşdırmaqdan ibarətdir". Sözü gedən üsul bütün mərhələləri özündə birləşdirir. Bu zaman "Biz artıq nəyi bilirik?", "Biz nəyi bilmək istəyirik?", "Biz nə bildik və hələ də nə öyrənməliyik?" başlıqlı üç sütunlu cədvəl çəkilir. Əvvəlcə cədvəlin mahiyyəti, hansı mövzular arasında əlaqə yaradılacağı haqqında məlumatlar verilir. Birinci sütunda bütün şagirdlərin razılaşdığı məlumatlar, ikinci sütunda mövzu ilə əlaqəli meydana cixacaq suallar, son sütunda isə sualların cavabları müəyyən olunduqdan

sonra daha nələri öyrənəcəyimiz qeyd edilməlidir. Məsələn BİBÖ cədvəli vasitəsilə frazeloji vahidləri sintaktik vahidlərdrən fərqləndirmək olar.`

Klaster (şaxələndirmə). Bu üsul hər hansısa bir fikrin açılmasına şərait yaradır. Qısa zaman ərzində hər hansı keçilmiş mövzu əsasında böyük və kiçik qruplardakı şagirdləri sərbəst düşünməyə, onların lüğət ehtiyyatını zənginləşdirmək məqsədi güdən iş növüdür. Müqayisə olunacaq subyekt və obyektləri müəyyənləşdirmək üçün ilk öncə alqoritm qurulur, əsas sözü kağızın və ya lövhənin mərkəzində yazırlar. Daha sonra isə keyfiyyətini nəzərə almadan şagirdlərin dedikləri bütün sözlər qeyd olunur və əlaqəli sözlər şaxələndirilir. Mərkəzi sözdən tutmuş növbəti sözə qədər əlaqələri olan sözlər xətlərlə birləşdirilir. Məsələn: istənilən qrammatik məfhumu (fel,sifət, say) mərkəzdə yazırıq, həmin qeyd etdiyimiz əsas sözə uyğun olan sözləri ilə dairənin kənarlarında qeyd etməklə bir növ hörümcəyin gördüyü iş görülür. Sonda alınan klaster müzakirə edilib ümumiləşdirilir. Bu cür iş həm cütlərlə, həm də fərdi şəkildə aparıla bilər.

Auksion hadisə və cisimləri öyrənən, köhnə bilikləri möhkəmləndirən, şagirdlərdə təhlil bacarıqlarının inkişaf etdirən, yeni bilikləri mənimsədən əlverişli metoddur. Müəllim tərəfindən əvvəlcədən cisim və hadisələr müəyyən edilir, sonra şagirdlərə auksionun keçirilmə qaydaları izah edilir.- Yeri gəlmişkən qeyd edim ki, bu metod da Klaster de oldugu kimi mənimsənilmiş bilik auksiona çıxarılmaqla aktuallaşdırılır. Lakin Klasterdən fərqli olaraq burada sadəcə söylənən fikir ardıcıl düzülür və hadisə və fakt haqqında deyilən son cavaba əsasən auksionun qalibini müəyyənləşdirirlər.- Auksiona çoxvariantlı komponentlərə malik məlumat, qayda çıxarıla bilər. Məsələn, sözlərin sətirdən-sətrə keçirilmə qaydalarını, birləşmələrin(ismi və feli birləşmələr; feli sifət; feli bağlama; məsdər və s.) birləşmə yaradan komponentlərlə (isim, sifət, feil, zerf) oxşar, fərqli cəhətlərini müəyyənləşdirmək üçün auksionlar təşkil etmək olar.

İnteraktiv təlim metod və üsulları tədris və təlimi xeyli intensivləşdirir, onu hər bir şagird üçün daha əhəmiyyətli və maraqlı fəaliyyət sahəsinə çevirir. Dərsdə şagirdlərin bilik və bacarıqlarının maksimum dərəcədə ortaya qoymağa şərait yaradır. Şagirdlər bildikləri nəzəri məlumatları interaktiv təlimlə praktikaya əsaslanmaqla möhkəmləndirirlər. Azərbaycan dili dərslərində tədris prosesində də interaktiv təlim metodlarının forma və üsullarından səmərəli şəkildə istifadə etmək mümkündür. Bu bölmənin əksər mövzularında interaktiv təlim metodlarından yerli-yerində istifadə edilməsi mövzunun mənimsənilmə keyfiyyətini artırmaqla yanaşı, həm də şagirdlərin təfəkküründü hərəkətə gətirir, onlara müstəqil işləmə, mövzuya yaradıcı yanaşma kimi bacarıqlar aşılamağa geniş imkanlar açır. Azərbaycan dili dərslərində müsbət nəticə əldə etmək üçün tədris zamanı sinfin yaş və bilik səviyyəsinə uyğun iş normaları və üsullar seçmək əsas şərtdir. İnteraktiv

təlimlə keçilən dərslər şagird üçün maraq doğurur, şagird dərsə həvəslə yanaşır, öyrəndiklərini unutmur. Dərsin hər mərhələsində şagird fəal olur, ənənəvi dərsdən fərqli olaraq şagirdə obyekt deyil, subyekt kimi baxılır, şəxsiyyətyönümlülük tərəfdən çıxış edərək onların hər bir fikirlərinə hörmətlə yanaşılır. Həmçinin belə dərslərin fəndaxili və fənlərarası inteqrasiya imkanları geniş olur. Fəal/interaktiv təlim metodları təhsil sistemində yeni olan Milli Kurikulum konseptual sənəddə öz əksini tapıb.

Ədəbiyyat

1. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı, "Adiloğlu" 2006, 138s.
2. Əliyeva A. Azərbaycan dili dərslərində interaktiv təlim metodlarından istifadənin xüsusiyyətləri. Bakı, 2005, 80 s.
3. Həsənova X., Qaragözova N., Həsənov H. Təlimin müasir metodlar (müəllimlər üçün vəsait). Bakı, 2003, 64s.
4. Kazımova A., Osmanova T. Azərbaycan dili dərslərində interaktiv təlim metodları. Bakı, "Elm və təhsil" , 2011, 68.
5. Kurikulum. Elmi-metodik jurnal. Bakı, 2008
6. Z.Veysova. Fəal interaktiv təlim. Bakı, UNICEF, 2007, 118s.

A.Mustafayeva

Active teaching methods used in Azerbaijani language lessons

Резюме

Interactive learning methods and techniques of teaching and learning is much more important and interesting areas of activity for each student, he turns to intensify. Most of the knowledge and skills of students in class allows to. Students theoretical information and practice based on interactive exercises that strengthen. Teaching the lessons of the Azerbaijani language and forms and methods of interactive learning methods can be used effectively in the process of. İnteractive teaching methods of thinking skills as a creative approach offers great opportunities to improve the quality of students is exerted on them, working independently, using the term, along with timely topic. Azerbaijani language teaching at the school during the age of the class and method level, the main condition is to choose the form of work and knowledge to achieve positive results. Interactive learning the lessons, the students are willing to learn lessons for pupils with interest, is not forgotten. Unlike traditional lessons to students as subjects, not individual objects, each of them shall respect the opinions of students at each

stage of the lesson is to be active, speaking from the focus. Intradisciplinary and interdisciplinary integration opportunities are also such classes. Active and interactive teaching methods in education concept paper, which is reflected in the new National Curriculum.

А.Мустафаева

Активные методы обучения, используемые на уроках азербайджанского языка

Резюме

Интерактивные методы обучения и способы преподавания и обучения значительно более важные и интересные в сферу деятельности делает его учеников для каждого, интенсифицирует. На уроке школьникам знаний и навыков максимально продемонстрировать создает условия. Учащиеся могли интерактивным обучением на практике закрепляют теоретические сведения. Уроки азербайджанского языка и интерактивных методов обучения формы и методы могут быть эффективно использовать в процессе обучения. Интерактивных методов обучения на использование темы, наряду с повышением качества усвоения учащимися мышление, привить навыки самостоятельной работы, как творческий подход открывает широкие возможности для еще движет им теме. На азербайджанский язык для достижения положительного результата во время обучения в соответствии с основным условием выбора формы работы и методы класса и уровня знаний. Интерактивные занятия учащихся, обучением, пройденного представляет интерес для учащихся к занятиям охотой, не забывает о. На каждом этапе, в отличие от традиционных занятий учащихся рассматривается как, с одной стороны, исходя их мнению, каждый с уважением относятся к личности направленности субъекта, а не объекта становится активным учеником урока. Также эти уроки и междисциплинарных широкими возможностями становится предметная интеграция. Активно интерактивные методы обучения в системе образования нового Национального Куррикулума в документе отражены концептуальные. Активно интерактивные методы обучения в системе образования нового Национального Куррикулума в документе отражены концептуальные.

Rəyçi: Allahverdi Hacıyev
Filologiya üzrə fəlsəfə doktoru, dosent

MEHRİBAN HACIZADƏ
ADU
mehriban@mail.ru

MÜASİR İNGİLİS DİLİNDƏ LEKSİK VAHİDLƏRƏ DAİR

Açar sözlər: dil , şifahi nitq, kontekst.
Key words : language, oral speech,context
Ключевые слова: язык , устная речь, контекст

Məfhumların məzmunu və həcmi arasındakı münasibətlərdən danışarkən nəzərdə tutulan tərs mütənasiblik qanunu xarici dildəki sözlərin semantizasiyası zamanı geniş şəkildə nəzərə alınır [3,s.85-93]. B.V.Belyayevin fikrincə, məfhumun məzmun dairəsi nə qədər dar olarsa, xarici dildəki sözün əyani semantizasiyası daha geniş şəkildə istifadə oluna bilər. Çünki məfhumun məzmun dairəsi nə qədər dar olarsa, həmin məfhum daha çox konkret əlamətlərə malik olur. Bu da bu və ya digər məfhumu ifadə edən sözlərin əyani semantizasiyasından istifadənin zəruri şərti kimi çıxış edir. Biz hesab edirik ki, bu xüsusiyyət söz birləşmələrinin tədrisinin təşkili zamanı da nəzərə alına bilər. Sözlərin digər sözlərlə birləşməyə dair potensial imkanları həmin sözlərin ifadə etdikləri məfhumların məzmununa daxildir. Burada qeyd etmək vacibdir ki, konkret predmet və hadisələri ifadə edən məfhumların məzmununa, hər şeydən öncə, obyektiv fiziki əlamətlər: ölçü, forma, həcm, rəng, çəki və s. daxildir. Qiymətləndirici əlamətlər həmin predmeti yalnız subyekt mövqeyindən xarakterizə edə bilər. Buna görə də, müvafiq olaraq, həmin əlamətlər həm konkret, həm də mücərrəd məfhumları təyin edə bilər. Məfhumun fiziki əlamətlərinin sayı onun ümumiliyi fonunda heç də azalmır. Belə ki, "nərgizgülü" sözünün ifadə etdiyi məfhum həmin məfhumu "gül" məfhumuna nisbətən daha çox sayda konkret fiziki əlamətlərlə xarakterizə edə bilər. Misal üçün, "nərgizgülü" sözü ilə ifadə olunan məfhum nazik və hündür olmayan gövdənin mövcudluğu, ən başlıcası isə, özünün formasına xarakterik olan ləçəklə ağ-sarı güllərin mövcudluğu kimi xarakterik əlamətlərlə xarakterizə olunur. Daha dar çərçivəli məzmuna malik olan "güllər" sözünün ifadə etdiyi məfhum az sayda əlamətlərlə, daha dəqiq desək, gövdənin ölçüsü, forması və rəngini nəzərə almadan mövcudluğu ilə xarakterizə olunur. Müvafiq olaraq, "novruzgülü" sözünün ifadə etdiyi məfhum gövdə, ləçək, yarpaq və s. təfərrüatı ilə xarakterizə edən çoxlu sayda konkret əlamətlərlə müəyyən olunacaqdır. Həmin əlamətlərin hər biri də, öz növbəsində, rəng, forma, ölçü və s. məfhumları ifadə edir. Müvafiq olaraq, "nərgizgülü" sözü "nərgizgülü" məfhumunun əlamətlərini xarakterizə edən məfhumları ifadə edən çoxlu sayda sözlə birləşmə əlaqəsinə girir."Güllər"

sözü “nərgizgülü” sözünün malik olduğu əlamətlərdən daha az əlamətlərə malik olduğundan daha az sayda sözlərlə birləşmək imkanına malikdir.Lakin, “güllər” sözünün ifadə etdiyi məfhum növ kimi çıxış edə bilər. Çünki, “gül” dedikdə biz bir konkret gülü, misal üçün, nərgizgülünü başa düşürük. Belə olan halda, “gül” sözünün birləşmələri nərgizgülü, qızılgül və s. kimi meydana çıxa bilər. Beləliklə, sözlərin birləşmə imkanlarını məfhumun ən aşağı səviyyəsində (növ) tədris etməklə biz, həm də, sözlərin birləşmə imkanlarını daha yüksək səviyyədə tədris etmiş oluruq.A.N.Leontyev qeyd edir ki, dil, həqiqətən də, böyük və həlledici rola malik olsa da, dil bəşəriyyətin ictimai-tarixi praktikasının ümumiləşdirilərək ayrı-ayrı adamlara ötürülməsindən ibarətdir; buna müvafiq olaraq, dil, həmçinin ünsiyyət vasitəsi, ayrı-ayrı fərdlər tərəfindən sözügedən təcrübənin mənimsənilməsi şərti və bununla yanaşı, dilin insanların təfəkküründə mövcudluğunun formasıdır .Həmin fikrə əsaslanaraq biz bir daha vurğulayırıq ki, ayrı-ayrı anlayışlarla bağlı olan mövcud fərqlər müxtəlif xalqların təfəkkürü ilə deyil, əşya və hadisələr barədə olan həmin anlayışların ifadə vasitələri ilə əlaqədardır. İstənilən dil, prinsip etibarı ilə, istənilən anlayışı ifadə etmək iqtidarındadır. Burada söhbət yalnız bu cür ifadəliliyin müxtəlif üsullarından gedir. Daha geniş anlayışı ifadə edən hər hansı dildəki sözə hər biri daha dar məna çərçivəsinə malik olan bir neçə söz uyğun gələ bilər. Misal üçün, Azərbaycan dilində hər hansı sözü ifadə edən anlayış denotatların (“anlayışları” diferensiasiya edən) daha dar əhatə dairəsinə malik olan anlayışları ifadə edən ingilis sözləri ilə uyğun gəlir.Bu zaman söz birləşmələri ilə ifadə olunan anlayışların hər birində fiziki mövcud olan əşyanın bu və digər mühüm əlamətləri əks olunur. Belə ki, əgər biz ingilis dilində “clock” və “watch” sözləri ilə ifadə olunmuş anlayışlarla Azərbaycan dilində “saat” sözü ilə ifadə olunmuş anlayışın əsas əlamətlərini müqayisə etsək görərik ki, Azərbaycan dilində “saat” sözü ölçüsündən və xüsusiyyətlərindən asılı olmayaraq sutka ərzində vaxtın müəyyənləşdirilməsi və ölçülməsinə xidmət edən qurğu, mexanizm, ingilis dilində isə “watch” sözü “a small timepiece to be carried in a pocket or worn on the wrist” (qol, cib saatı) mənasını verir. İngilis dilindəki “clock” sözü “an instrument for measuring and showing the time (hanging, standing)” – divar, stolüstü saat mənasını verir. Göründüyü kimi, Azərbaycan dilindəki “saat” sözünün daha çox nəzərə çarpan əlaməti vaxtın müəyyənləşdirilməsinə xidmət edən qurğunun özüdür və həmin qurğunun ölçüsü heç bir rol oynamır. Lakin, ingilislər “watch” sözünün ifadə etdiyi anlayışa yanaşmada sözügedən qurğunun digər əlamətinə də, saatın ölçüsünə də böyük əhəmiyyət verirlər. “Watch” sözünün əsas əlamətlərinə “balaca saat, cib saatı, qol saatı, “clock” sözünün əsas əlamətinə isə “böyük saat” anlamı uyğun gəlir.Azərbaycan dilində “masa”, “stol” və ingilis dilində “table” sözləri ilə ifadə olunan anlayışlara nəzər salaq. Beləliklə, “masa”, “stol”

sözlərinin ifadə etdiyi anlayış: 1) bir və ya bir neçə ayağa bərkidilmiş, geniş səthli lövhəyə (ağac, mərmər və s.) malik olan və üzərinə bu və ya digər əşyaları düzmək üçün istifadə olunan ev mebelinin predmeti; 2) yemək üçün yer; 3) idarədə şöbə (iş yeri).Qeyd etməliyik ki, "table" sözünün ifadə etdiyi anlayışa bir neçə digər əlamətlər də daxildir: 1) a piece of furniture consisting of a flat top of one or more (usually four) upright supports (called legs), ex. dining-room table; 2) the persons seated at the table; 3) the food put on the table; 4) a thin flat piece of stone, metal, wood with words cut into it or written on it; 5) an orderly arrangement of facts, figures (of contents, multiplications)."Masa" və ingilis dilindəki "table" sözləri vasitəsilə ifadə olunan anlayışların müqayisəsi həmin anlayışların təxminən eyni məzmun və həcmə malik olduğunu göstərir. Lakin, qeyd etmək lazımdır ki, ingilis dilindəki "table" sözünün ifadə etdiyi anlayışda ümumi əlaməti "hamarlıq" olan eyni sinfin əşyalarının əlamətləri dominant rola malikdir. Bu mənada həmin mühüm əlamət digər predmetlərə də keçir və onlar üçün də mühüm əlamətlərdən birinə çevrilir. Bu mənada, ingilis dilindəki "table" sözü "hamar yer", "cədvəl" və s., daha dəqiq desək, hamarlıq əlamətinə malik bütün mənaları verə bilər. Azərbaycan dilində "masa" sözünün ifadə etdiyi əsas anlayışlardan biri funksional təyinat prinsipinə əsaslanır."Heavy" və "ağır" sözləri vasitəsilə ifadə olunan anlayışların məzmununun analizi göstərir ki, "heavy" (1. having great weight; 2. of more than the usual amount, force, etc.) sözünün ifadə etdiyi anlayışların tərkibinə daxil olan daha əhəmiyyətli əlamətlərdən biri "intensivlik", "bolluq", "çoxluq" əlamətidir. Ona görə də, həmin məfhum sözügedən əlamətlə xarakterizə olunan digər məfhumlarla (rain, snowball və s.) birləşə bilər. Eyni zamanda, Azərbaycan dilində "ağır" sözünün ifadə etdiyi anlayış intensivlik, çoxluq əlamətlərinə malik deyil. Məhz həmin səbəbdən həmin amillər digər anlayışların tərkibinə daxil olduqda Azərbaycan dilində digər sözlərlə ifadə olunurlar.

Azərbaycan dilindəki "qalın" və ingilis dilindəki "thick" sözlərinin ifadə etdiyi anlayışların əlamətlərinin qarşılaşdırılması da həmin sözlərlə ifadə olunan anlayışların əlamətlərinin müxtəlifliyini aşkara çıxarır. Belə ki, "thick" sözünün ifadə etdiyi anlayışın əsas əlamətləri bunlardır:

1) of relativity great diametric, depth;2) of stated depth;3) of vapor; 4) of dense.

Azərbaycan dilindəki "qalın" sözünün ifadə etdiyi anlayışa aşağıdakı əlamətlər daxildir: 1) həcmcə böyük; 2) eninə kəsik üzərində böyük sahəni tutan (ağac, kitab)."Thick" sözünün ifadə etdiyi anlayışı Azərbaycan dilindəki "qalın" sözünün ifadə etdiyi anlayışla qarşılaşdırılması göstərdi ki, "thick" sözünün ifadə etdiyi anlayışa əsas əlamətlər kimi təkcə "diametrinə görə qalın" əlaməti deyil, həm də, kifayət qədər çox qatılıq və kiplik əlamətləri də daxildir. Azərbaycan dilində həmin əlamət digər məfhumun tərkibinə daxildir və fərqli sözlə, qalın sözü ilə ifadə olunur. İngilis dilindəki

“thick” sözü ilə ifadə olunmuş anlayış Azərbaycan dilindəki “qalın” sözünün ifadə etdiyi anlayışa nisbətən daha geniş məzmuna malikdir.

Yuxarıdakı misallar onu göstərir ki, müxtəlif dillərdə bir tərəfdən eyni əlamətlər müxtəlif anlayışların tərkibinə daxil olur və müxtəlif sözlərlə ifadə olunurlar. Digər tərəfdən isə, əşyaların bəzi əlamətləri bir xalq üçün daha əhəmiyyətli olur, digəri üçün isə daha az əhəmiyyət kəsb edir. Buradan böyük bir yəqinlik hasil olur ki, məfhumların birləşməsi də müxtəlif dillərdə eyni olmaya bilər. Məfhumlar sözlər vasitəsilə ifadə olunduğundan, müxtəlif dillərdəki sözlər də müxtəlif cür birləşirlər.Bunu nəzərə aldıqda xarici dildə sözlərin birləşmə imkanlarını öyrənərkən və ya öyrədərkən xarici dildəki sözlər vasitəsilə ifadə olunan anlayışların izahatı, şərhinin zəruri şərti kimi istiqamətləndirici fəaliyyətin əsaslarının yaradılması fikri məqsədyönlü fikir təsiri bağışlayır. Bu mövqe bu və ya digər sözün ifadə etdiyi anlayışların açılması zərurətini irəli sürən metodistlərin tələblərinə uyğun gəlir . Sözlər bir-biri ilə birləşərkən “elementar məna əlaqəsi (obyektiv gerçəkliyin predmetlərarası münasibətlərini əks etdirən məna əlaqəsi) mənalararası əlaqə ilə ifadə olunan” müəyyən qarşılıqlı münasibətdə olduqlarından, təklif olunan səmtləşdirici sistemin ikinci şərti məna əlaqələrinin açılması olmalıdır. Lakin, məna əlaqələrinin mahiyyətini nəzərdən keçirməzdən öncə anlayışla sıx bağlı olan “məna” və “anlam” anlayışlarının fərqli çalarlarını müəyyənləşdirmək vacibdir. Əlamətin əşya və fikirlərlə (təfəkkürlə) münasibət problemi və onların qarşılıqlı əlaqəliliyini ilk dəfə əyani şəkildə Ç.Oqden və İ.Riçardz araşdırmışlar [1,s.300]. Onlar “anlam” anlayışını söz və referent arasındakı üç komponentin anlayış vasitəsilə qarşılıqlı əvəzolunması kimi xarakterizə edirlər. Beləliklə, bu cür yanaşma “həqiqi məna”nı ayrı-ayrı və təcrid olunmuş sözlərin referensiyası kimi səciyyələndirir.

Ədəbiyyat

1. Ogden C.K., Richards J.A. The meaning of meaning. London: Houghton Mifflin Harcourt P; Reissue edition, 1923, 390 p.
2. Osgood C.E. The Nature of Measurement of Meaning // Psychological Bull, 1952, N 49, p. 197-237
3. Palmer F.R. The English Verb. London: Longman, 1974, 218 p.
4. Richards J., Rodgers T.S. Approaches and methods in language teaching. Second edition. Cambridge: Cambridge University Press, 2001, 270 p.
5. Savignon S. Communicative Competence. Theory and Classroom Practice. Reading. Mass: Addison – Wesley, 1983, 47 p.
6. Watson J.B. Psychology as the Behaviorist views it. Psychological Review, 20, 1913, p.158-177

M.Hacizadeh

On the lexical units in modern english

Summary

The article deals with the lexical units in modern english. Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented and systematic. It will make the process of teaching oral speech more effective. Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication.Speaking comprehension is one of the most basic and important of the four skills in language teaching&learning.One of the main goals of language learning is to acquire the ability to communicate effectively.

М. Гаджизаде

К вопросу о лексических единиц на современном английском языке

Резюме

В данной статье рассматриваются к вопросу **о лексических единиц на английском языке** . Процесс английскому языку в целом и процесс обучения должен базироваться на коммуникативно – функциональном принципе. Обучением устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению ефективности данного процесса. В условиях глобализации основная цель обучения иностранным языкам и их изучения состоит в формировании у обучаемых способности использовать язык в целях коммуникации. Умение адекватно воспринимать информацию в процессе "speaking" является одним из самых важных и необходимых умений которыми должен обладать человек, изучающий язык в тех или иных целях. Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке.

Rəyçi: Nuriyyə Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru

ƏSMƏR KƏRİMOVA
214 SAYLI tam ortaməktəb
asmer@mail.ru

TƏLİM-TƏRBİYƏ PROSESİNİN YENİ FƏNN PROQRAMLARININ ƏSASINDA QURULMASI

Açar sözlər: təhsil , şifahi nitq, kurikulum
Key words: education,oral speech,curriculum
Ключевые слова: образования , устная речь, куррикулум

Azərbaycan Respublikası Təhsil Nazirliyinin dövlət səviyyəsində apardığı təhsil islahatları tədris prosesinin XXI yüzillikdəki mənzərəsini müəyyənləşdirir. Təhsil islahatı proqramının tələbi baxımından respublikanın ali və ümumtəhsil məktəblərində qüvvədə olan proqram və dərsliklər yenidən işlənmiş, müasir tələblərə uyğun metodiki iş üsulları müəyyənləşdirilmişdir. Aparılan təhlil və tədqiqatların obyektiv mövqedən formalaşdırılmış nəticələrinə əsasən artıq Azərbaycan cəmiyyətində ümumi təhsilin məqsəd və vəzifələrinə, məzmun istiqamətlərinə yeni baxış və yanaşma tərzi yaranmışdır. Dünyanın təhsil arenasında kurikulum modeli xüsusi yer tutmaqla geniş istifadə edilməkdədir. Deyilənləri nəzərə alaraq, kurikulumun tam şərhini aşağıdakı kimi verə bilərik: "Kurikulum təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin səmərəli təşkilinə, məqsədyönlü və ardıcıl həyata keçirilməsinə imkan yaradan konseptual sənəddir." Başqa sözlə, kurikulum təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin təşkili və həyata keçirilməsini, yəni təhsilalanlar üçün zəruri kompetensiyaları, məzmun və qiymətləndirmə standartlarını, tədris planı\silabus və proqramlarını, hazırlığa verilən tələbləri, hər bir dərsin konkret inkişafetdirici məqsədlərini, metodik təminatını, dəyərləndirmə modelini, texniki təchizatı və s. özündə əks etdirən , müəllim və kollec\ universitet\məktəb qarşısında duran vəzifələrin və onların konkret həlli yollarını göstərən konseptual sənəd kimi başa düşülür.

Milli Kurikuluma uyğun pedaqoji prosesin təşkilində aşağıdakı prinsiplər əsas götürülür:

• pedaqoji prosesin tamlığı - pedaqoji prosesdə təlim məqsədləri kompleks (inkişafetdirici, öyrədici, tərbiyəedici) həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir;

• təlimdə bərabər imkanların yaradılması - bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir;

• tələbə- şagirdyönümlülük – şagird pedaqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdlərin maraq və tələbatlarının ödənilmə-

sinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir;

• inkişafyönümlülük – şagirdlərin idrak fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir;

• fəaliyyətin stimullaşdırılması - pedaqoji prosesin səmərəli və effektiv qurulması, şagirdlərin təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibarı ilə şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur;

• dəstəkləyici mühitin yaradılması - pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilməsi keyfiyyətin və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır.

Qeyd etmək lazımdır ki, tədris proqramı yalnız fənn üzrə mənimsənilməli bilik, bacarıq və vərdişlərin məzmununu və həcmini müəyyən edir. Kurikulum isə təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin səmərəli təşkilinə, məqsədyönlü və ardıcıl həyata keçirilməsinə imkan yaradan konseptual sənəddir. Burada fənn üzrə ümumi təlim nəticələri, təlimin məzmunu (məzmun standartları), şaquli və üfüqi inteqrasiya, müəllim və şagird fəaliyyətlərinə aid texnologiyalar, tələbə nailiyyətlərinin qiymətləndirilməsi məsələləri əhatə olunur.Kurikulum nəticəsinin spesifik məqsəd və vəzifələri aşağıdakılardır:1.Qabaqcadan müəyyənləşdirilmiş nəticələr üçün məhsuldar, münbit bazanın, fundamentin təmin edilməsi; 2.Davamlı monitorinq üçün spesifik göstərişin təmin edilməsi – kurikulumun tətbiqi ilə bağlı alınan nəticələrin qiymətləndirməsi və dəyərləndirilməsi; 3.Həm göstəriş, həm də qiymət indikatorunun əvvəlcədən müəyyənləşdirilmiş nəticələrə yönəldilməsi; 4.Problemin aydın şəkildə müəyyən edilmiş nəticə standartları və tələb olunan təlim proseslərinin şagirdin ehtiyac və tələbinə uyğun dəyişdirilməsi ilə aradan qaldırılması; 5.Hamının cəlb edilməsi , onların hamısının proqramın nədən ibarət olduğunu və nəticəni anlaması;Kurikulumlardan irəli gələn tələblərə görə, bu günün müəllimi sinifdə daha çox istiqamətverici rol oynayır, şagirdləri düşünməyə, araşdırmalar aparmağa, müstəqilliyə sövq edir. Şübhəsiz, müəllim şagirdlərin düşünmək səlahiyyətlərini əllərindən alıb bütün məsələlərə özü aydınlıq gətirərsə, bu halda təhsil yeknəsək və faydasız bir prosesə çevrilər. Belə vəziyyətin baş verməməsi üçün müəllim müasir tələbləri dərindən dərk etməli, qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün çevik və mütərəqqi dərs növlərindən, təlim strategiyalarından yerli-yerində istifadə etməyi bacarmalıdır.

Fənn proqramlarının qurulmasına proqramın məzmununun fərdin, dövlətin, cəmiyyətin ehtiyac və tələbatları, yaxın gələcək üçün inkişaf perspektivləri nəzərə alınmaqla müəyyənləşdirilməsi; təhsil prosesinin hər hansı bir mərhələsində əldə olunması nəzərdə tutulan nəticələrin əvvəlcədən müəyyən edilməsi;təhsilalana gələcək müstəqil həyat fəaliyyətini qurmaq üçün

zəruri bacarıq və vərdişlərin aşılanması, onların milli-mənəvi və bəşəri dəyərlər zəminində formalaşmasının prioritet kimi qəbul olunması;proqramın şagirdlərin meyl və marağı, potensial imkanları, ardıcıl inkişafı, sağlamlığının mühafizəsi və təhlükəsizliyi nəzərə alınmaqla təşkili; təlim nəticələrinin biri digərini tamamlaması, inkişaf etdirilməsi, fəndaxili və fənlərarası əlaqələrin təmin olunması daxildir. Bugün bizim cəmiyyətimizə sürətlə düşünüb nəticə çıxarmaq səriştəsi olan, təhlili ani olaraq ümumiləşdirməyə qadir olan aktiv təfəkkür, ağıl sahibləri lazımdır. Belə şəxslər yüksək səviyyədə savadlı olmaqla yanaşı, sosial və intellekt vərdişlərə də kifayət qədər yiyələnməlidirlər ki, öz bilik və bacarıqlarından bu sahədə istifadə edə bilsinlər. Təhsilə verilən ən mühüm tələblərdən birincisi də məhz budur ki, yetişməkdə olan gənc nəslin təhsil və tərbiyəsi müasir zamanın istəklərinə uyğun olsun.

Kurikulum islahatını zəruri edən səbəblər bunlardır:

• Cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması ;

• Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid;

• Dünya təhsil sisteminə inteqrasiya ;

• İnformasiya əsrinin tələbləri;

• Təhsilin məqsəd və vəzifələrinə yeni baxış və yanaşmaların formalaşması;

• Mövcud ümumi təhsil proqramlarının müasir tələblərə cavab verməməsi;

Milli Kurrikulum bilavasitə aşağıdakı funksiyaların reallaşdırılmasına xidmət edir:

• ümumi təhsilin pillələri, bu pillələrdə tədris olunan fənlər arasında əlaqələrin və ardıcıllığın təmin edilməsi;

• fənlərin məzmununun cəmiyyətin tələbatına uyğun daim təkmilləşdirilməsi və yeniləşdirilməsi;

• təlim texnologiyalarının çevikliyi və interaktivliyinin təmin olunması;

• nəticəyönümlü fənn kurrikulumlarının hazırlanıb tətbiq olunması;

• təlim mühitinin, təhsil fəaliyyətinin səmərəliliyinin, təlimin inkişafetdirici və qabaqlayıcı xarakterinin, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik prinsip əsasında müəyyənləşdirilməsinin təmin olunması;

• şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi və stimullaşdırılmasının təmin edilməsi .

Kurikulum islahatları tədris prosesinin təşkilinə yeni məzmun gətirir, eyni zamanda, bu yeni məzmun, məhz yeni keçid prosesi kimi başa düşülür. Bu prosesdə şagird passiv dinləyici deyil, fəal icraçı, bilikləri sərbəst və şüurlu şəkildə qəbul edən subyektə çevrilir. XXI əsr idrak, fənd və texnologiyalar əsri kimi səciyyələnir və bu da dəyişikliklərə hazır olan cəmiyyət tələb edir. Cəmiyyət o zaman dəyişikliklərə hazır ola bilər ki, onun üzvləri bu

dəyişiklikləri qəbul etməyi bacarsın, onların düşüncələri, təfəkkürləri mobil və yumşaq olaraq, bu dəyişikliklərə adekvat cavab versin . Azərbaycan təhsil islahatını bu geniş diapozonda aparmağı qarşısına məqsəd qoymuşdur və onu əsasən də bu istiqamətlərə: müəllim-şagird münasibətləri (dərsin texnoloji quruluşu); dərslik siyasətinə (yeni məzmun, məzmun xətləri) və görülən işin, qazanılan nailiyyətlərin qiymətləndirilməsinə, məktəblərin maddi - texniki bazasının artırılmasına, yeni tipli məktəblərin yaradılmasına yönəltmişdir. "Təhsilin modernləşdirilməsi, onun başlıca məqsədi ilə bağlı irəli sürülən ideya ondan ibarətdir ki, təhsil şəxsiyyətyönümlü, koqnitiv-informasion və kreativ olmalıdır. Nəticədə təhsil alanlarda müstəqil düşüncə qabiliyyəti, yaradıcı təfəkkür, özünüinkişafa, özünütəsdiqə meyl, tolerantlıq formalaşır. Qlobal dünyanın informasiya bolluğu şəraitində məktəbin, təhsilin vəzifələri dəyişir. Təfəkkürün inkişaf etdirilməsi ön plana keçir. Dünyanın təhsil məkanında sadəcə bilik deyil, dəyərlər, bacarıq və səriştələr şəxsiyyətin inkişafında mühüm atributlar kimi qiymətləndirilir və bugünkü təhsilin keyfiyyət göstəriciləri kimi qəbul edilir" . Cəmiyyətin ehtiyac və tələbatlarına uyğun belə bir təhsil sisteminin qurulmasında demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə, humanitarlaşdırma mühüm pedaqoji prinsiplər kimi prioritet olmalıdır. Bütün bunlar isə öyrənənlərin maraq, arzu, meyl və qabiliyyətlərinin nəzərə alınması yolu ilə həyata keçirilməlidir. Unutmaq olmaz ki, yeni problemlər yeni vəzifələr müəyyən edir, tədris prosesi üçün yeni yanaşmalar tələb edir. Bu amillər tədrisin bütün pillələrində yeni tədris metodlarının yaradılması və tətbiqini zəruri edir. Beləliklə, texnologiyalara tələbat artır, smart telefonlar, innovativ qurğular vasitəsilə mobil təhsil imkanı yaranır. Nəticədə dünyanın istənilən nöqtəsində müasir tələbatlara cavab verən təhsil almaq imkanı əldə edilir. Əminliklə qeyd edə bilərik ki, müasir şagird və tələbə informasiya kommunikasiya texnologiyalarının yeniliklərindən nəinki xəbərdardır, eyni zamanda öz gündəlik həyatı və təhsil prosesində onlardan geniş istifadə edir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, "Təhsil" jurnalı, 2013, №10, s.4-16
2. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu. Təhsilin Modernləşdirilməsinin Elmi-Nəzəri Problemləri. Bakı, Mürtəcim, 2015, 450 s.
3. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu. Müasir Təhsilə İnnovativ Yanaşmalar. Bakı, ARTPİ, 2016, 250 s.
4. Əsgərov. M. B. Linqvopsixologiya və ya Dilin Psixologiyası. Bakı, "Elm və Təhsil", 2011, 308 s.

5. Məmmədov. N., Axundov. A. Dilçiliyə giriş. Bakı, Maarif, 1980, 315 s.
6. Veysova Z. Fəal/İnteraktiv Təlim. Müəllimlər üçün vəsait. UNİCEF, 2007, 149 s.

A.Karimova

Developing the process of teaching on the basis of new subject proqramm

Summary

The article deals with the developing the process of teaching on the basis of new subject proqram. Today the main goal of teaching and learning languages in the global world is developing language learners' ability . The main aim of State program is to form a unique national education by means of ICT and provide qualitative educative opportunity in order to integrate into worldwide education system.

The process of teaching should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching should be goal-oriented and systematic. One of the main goals of language learning is to acquire the ability effectively.

А. Каримова

Формирование процесс преподавании на основе новых учебных программ

Резюме

В данной статье рассматриваются формирование преподавании на основе новых учебных программ. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения. Основной целью Государственной программы является формирование единой обшенациональной среды образования путём внедрения и использование современных информационно-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образовании.

Обучением языках должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса.

Rəyçi: Nuriyyə Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru

СЕВИНДЖ БАБАЕВА
Азербайджанский Государственный
Университет Нефти и Промышленности
Sevinc.pedaqoq.@gmail.com

ФОРМИРОВАНИЕ НАВЫКОВ ПИСЬМЕННОЙ РЕЧИ У СТУДЕНТОВ-ИНОСТРАНЦЕВ

Açar sözlər: metodikanın təhsildə tətbiqi, yazılı nitq, şifahi nitq, ifadə, nitq tapşırıqları.
Ключевые слова: методика обучения, письменная речь, устная речь, изложение, речевые упражнения.
Keywords: method of teaching, written speech, oral speech, presentation, speech exercises.

Актуальной проблемой методики обучения письменной речи является разработка различных видов подготовительных упражнений, способствующих формированию навыков письменной речи у студентов-иностранцев. При письменной речи, как и при других видах речевой деятельности, присутствует прогнозирование, т.е. представление о том, что будет написано. Прогнозирование осуществляется во внутренней речи, которая значительно опережает письменную, подготавливает её. Поэтому, для того чтобы слова, словосочетания, предложения были правильно написаны, они должны быть предварительно отработаны в устной речи (принцип устного опережения).

Лингвистические различия между устной и письменной речью наиболее очевидны у носителей языка или у людей, хорошо владеющих иностранным языком. На начальном этапе обучения языку эти различия минимальны. Письменная речь строится на том же лексическом и грамматическом материале, что и устная, и, можно сказать, является её письменной фиксацией.

Умелое обучение письму может вызвать у студентов стойкую мотивацию изучения русского языка, и, наоборот, бессистемное проведение письменных работ индивидуального уровня подготовки студента, поверхностная проверка работ может вызвать устойчивую отрицательную мотивацию и - как результат – понижение эффективности всего процесса обучения.

Условно можно выделить следующие группы студентов, требующих особого внимания индивидуальной помощи:

I группа – пишут почти без ошибок, но выражают свои мысли примитивно, из боязни допустить ошибки. Этой группе мы рекомендуем больше читать и писать о прочитанном;

II группа – как правило, хорошо говорят, по-русски, составляют лексически богатые работы, но допускают много ошибок. Этой группе мы даем накануне ответственных письменных работ задания на активизацию глагольных конструкций, представляющих трудности;

III группа – это, на первый взгляд, «безнадёжные» студенты: плохо пишут и говорят, мало читают, имеют слабо развитые грамматические навки и умения. Для этой группы обучения письму строится на повторении грамматики и интенсивном развитии устной речи. Желательно составить таким студентам индивидуальный план корректировки речи, чтобы повысить их ответственность за свои знания.В ряду речевых упражнений, развивающих письменную речь, изложение, по мнению методистов, занимает важное место. При формировании начальных навыков письменной речи, когда работа ведется на уровне предложений, предпочтение отдается подробному изложению (или изложению-пересказу), в котором учащиеся воспроизводят содержание текста, пока еще пользуясь грамматическими средствами, имеющимися в тексте. Сжатое изложение является следующим этапом формирования навыков письменной речи. При работе над этим видом изложения учащиеся должны уметь передать основное содержание текста, пользуясь ограниченным количеством слов, показать умение выделять существенные факты и находить адекватные средства для сжатого и логического изложения. Эти типы изложений дают возможность вводить и планомерно усиливать творческие моменты в работе учащихся, подводя их к самостоятельному письменному высказыванию. Итак, постепенно формируются навыки письменного продуцирования высказывания с опорой на данный текстовой образец.

Все сказанное позволяет сделать следующие методические выводы: изложение является важным видом собственно речевого упражнения, формирующего навыки письменной речи, поэтому использование его должно занять серьезное место в учебном процессе.

Обучение письменной речи на первом подэтапе тесно связано с обучением другим видам речевой деятельности, прежде всего чтением и аудированием, и подчинено коммуникативной задаче – научить студентов конспектировать лекции, писать и составлять планы, конспекты, тезисы по специальным общеобразвательным и общественно-политическим дисциплинам.

Методическая стратегия обучения студентов-иностранцев в письменной коммуникации может быть эффективна лишь при учете потребностей студентов в письменной речи.

Изучение потребностей в письменной коммуникации необходимо в условиях ограниченного количества часов и большего количества специальностей, что характерно для нефилологических ВУЗов. Это, однако, не освобожает преподавателя от задачи связать обучение письму с обучением другим видам речевой деятельности, с формированием общей речевой культуры. Прежде всего стратегия обучения письму должна быть направлена на формирование компетенции в письменной речи и исходить из основных функций письма как вида речевой деятельности.

Обучая русскому языку иностранцев, мы учим их именно *письму*, а не *грамоте*, поэтому позволительно снисходительное наше отношение к допущенным ими орфографическим ошибкам, вроде: *самалет, чуствовать* и др. Мы их, конечно, исправим, но судить за них строго не будем, т.к. они не мешают понимать сказанное и написанное.

Развитие навыков письма происходит в тесной связи со слушанием и чтением и, как правило, на том же (или меньшем) языковом материале, что и устной речи. Оно связано со знанием алфавита, русской графики (техники письма), элементарными орфографическими навыками. Письменные задания, хотя и небольшими дозами, учащиеся получают на каждом занятии. У них имеюся специальные тетради для письменных Работ, которые преподаватель систематически проверяет. Иногда можно проводить контрольные письменные работы (например, в конце каждого семестра или года). Однако такие упражнения не должны превращаться в самоцель, а должны играть роль, как мы уже говорили, письменного подкрепления слышимого, говоримого, читаемого.

Письменные виды работы, (кроме, может быть, записи со слуха и конспектирования, проводимых в лабораториях технических средств обучения) желательно переносить на дом, чтобы сохранить время на уроке для активной речевой практики, для устного общения, которое является основной целью обучения.

Письменные виды работы, следующие за устной проработкой изучаемого материала, обеспечивают его закрепление.

Литература

1. Сборник статей по методике преподавания русского языка. Автор: Б.В.Бартеньев, Л.Г.Векилова, Г.М.Кутателадзе.

2. «Русский язык для студентов-иностранцев». Авторы: В.В.Добровольская, Л.Г.Вишнякова.
3. «Методика преподавания русского языка как иностранного на начальном этапе обучения». Авторы: Г.И.Дергачева, О.С.Кузина.
4. Изучение иностранных языков. Автор: Питер Х. Эгболдт.
5. Краткосрочное обучение русскому языку иностранцев. Автор: Е.Д.Чемоданова.

S.Babayeva

Xarici tələbələrin yazili nitq bacariğinin öyrənilməsi

Xülasə

Məqalədə rus dilinin xarici dil kimi öyrənilməsində yazılı nitqin vacib yer tutması qeyd edilir. Müəllif şifahi və yazılı nitqin bir-birilə qarşılıqlı əlaqədə olmasını və bu əlaqənin xarici dilin öyrənilməsində vacib olduğunu göstərir.

Müəllim özü tələbələrin bilik səviyyələrinə görə yazılı tapşırıqlar seçməlidir. Bu, qısa imlalar və onlara aid qrammatik tapşırıqlar, ifadələr, qısa inşalar olmalıdır. Bütün deyilənlər xarici tələbələrin rus dilinin öyrənilməsində onların bilik səviyyələrini artırır. Söz birləşmələrin və cümlələrin düzgün yazılması üçün, onları əvvəlcə şifahi nitqdə işlətmək lazımdır. Şifahi və yazılı nitqdə olan fərqlər xarici dili mükəmməl bilən insanlar üçün vacibdir.

Məqalədə qeyd edilir ki, xarici dilin öyrənilməsi müəyyən məqsədə nail olmaq üçün bir vasitədir. Tədqiqatlar göstərir ki, yaxşı yazı texnikasına malik olan tələbələr başqa fənnlərdən olan mühazirələri, konspektləri və s. tapşırıqları yüksək səviyyədə yerinə yetirirlər.

Xarici dil başqa fənnlər kimi onun mənimsənilməsi üçün böyük həcmdə tapşırıqlar tələb edir. Bu isə tələbələrin nitq qabiliyyətini inkişaf etdirir.

S Babaeva

Forming the skills of written speechfor students-foreigners

Sammary

The article refers to one of the types of speech activity - written speech. Written language plays an important role in the study of Russian as a foreign language. The author notes in the article that he took the

communication between oral and written speech. In the article it is noted that the teacher should, by the level of students' knowledge, select the written educational material himself. These are short dictations with grammatical assignments, exposition, written grammatical exercises. All of the above increases the level of knowledge of foreign students in the study of Russian as a foreign language.

In order to be able to write word combinations and sentences, you must first use them in verbal speech. Differences in verbal and written speech are important for people who are fluent in foreign language.

The article notes that studying a foreign language is a tool to achieve a certain goal. Research shows that students with good writing techniques have lectures, lectures, and other subjects from other disciplines. perform their tasks at a high level.

Foreign language requires a large amount of assignments to master it as other subjects. This makes it possible for students to speak.

Rəyçi: Gülnarə Əhmədova
Filologiya elmləri namizədi, dosent

ULDUZƏ ƏLIYEVA
Bakı Avrasiya Universiteti
haqqiseven@mail.ru

MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNƏ DAXİL OLMUŞ YEMƏK ADLARI İLƏ BAĞLI NEOLOGİZMLƏR

Açar sözlər: neologizmlər, Azərbaycan dili , müasir Azərbaycan dilində neologizmlər, yemək, yeməklər, yemək növləri.
Ключевые слова: неологизмы, Азербайджанский язык, неологизмы в современном Азербайджанском языке , еда, новые блюда.
Keywords: neologisms, Azerbaijani language, neologisms in modern Azerbaijani language, food, new dishes, meals.

Neologizm - dildə yeni yaranan sözlərə deyilir. Neologizmlər yarandığı tarixi dönəmi əks etdirməklə yanaşı həmçinin, dilin lüğət tərkibini də zənginləşdirir. Neologizmləri öyrənən elmə Neologiya deyilir. Yeni sözlərin yaranması daha çox elm və texnikanın inkişafı ilə bağlıdır.

Dil ictimai hadisədir. O, cəmiyyətlə birlikdə yaşayır və inkişaf edir. Bəzi tarixi hadisələr, cəmiyyətdəki dəyişikliklər dildə əks olunur və dilimizin tərkibinə yeni sözlər- neologizmlər gətirir. Neologizmlər əsasən elm və texnikaya aid olsa da yemək adları ilə bağlı neologizmlər də az deyildir. Ölkəmizin xarici siyasəti nəticəsində bir çox ölkələrlə qarşılıqlı siyasi, iqtisadi, həmçinin, mədəni əlaqələr möhkəmlənmiş, turizm inkişaf etmiş və bunun nəticəsində başqa olkələrin mətbəx mədəniyyəti də mədəni həyatımıza daxil olmuşdur, həmin yeməklərin adları isə dilimizin lüğət tərkibinə yeni sözlər-neologizmlər kimi daxil olmuşdur. Onlardan bəzilərini nəzərdən keçirək: 1)Çipsı . Bu neologizm nazik doğranmış, yağda qızardılmış və qurudulmuş şəkildə satılan kartof dilimlərinə deyilir. Mətbuatdan nümunə: "Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə başqa fikirdədir. O, çipsinin təhlükəli olduğuna əminliyini ifadə etdi: "Çipsi istehsalında genetik modifikasiya olunmuş (GMO) kartofdan istifadə olunur. Bir çox Avropa ölkələri bu cür malların əleyhinədir"Mənbə: " Yeni Müsavat "qəzeti, tarix: 08/09/2010 , səh.4.2)Pitsa. Bu neologizm dairəvi formada olan xəmirin üzərində doğranmış göbələk, pendir , pomidor, zeytun, sosis və başqa ərzaqlardan ibarət bişməyə deyilir.Mətbuatdan nümunə: "Romada sakinlərə və turistlərə şəhərin tarixi yerlərində yemək qadağan edilib. Bundan sonra Romadakı Müqəddəs Pyotr kilsəsi, Kolizey yaxınlığında, İspaniya meydanında və digər tarixi yerlərdə sendvic, pitsa, dondurma yeyənlər 25-500 avro arasında cərimə ediləcəklər". Mənbə: "Xalq" qəzeti, tarix: 05/10/2012, səh.6.

3)Sendviç. Bu neologizm çörək dilimləri üərində və ya arasında yerləşən bir və ya daha çox qida növlərindən ibarət qida maddəsi. Sendviç Mister Sendvçin ilə bağlıdır. O, bilyard oyununu aludə idi. O, oyundan durub yemək belə yemək istəmirdi. Onun aşpazı oyundan qalxmaması üçün ayaq üstü yemək hazırladı. Bu əvvəl iki çörək parçasının arasına qoyulmuş ət və kərə yağından ibarət idi.İndi içinə ədviyyat,göyərti və s. qoyulur. Mətbuatdan nümunə: "Cenevrə dünyada ən bahalı sendviçlərin satıldığı şəhərdir. Burada ət və salat olan buterbrodun qiyməti orta hesabla 40,83 dollardır. Sonrakı yerlərdə Paris (36,78 dollar) və Helsinki (30,5 dollar) gedirlər". Mənbə: "Xalq" qəzeti, tarix: 15/05/2014, səh.4.

4)Lahmacun.Bu neologizm türk mətbəxinə aid olan yemək növünün adıdır.. O da dairəvi formada olan xəmirdən ibarətdir. Lakin pitsadan fərqli olaraq üzərində az ərzaq olur. Adətən, bu xəmirin üzəri tomat pastası və qiymədən ibarət olur.Mətbuatdan nümunə: "Elə bir çox ofislərdə, şirkətlərdə işləyənlər də bu cür yeməkləri sifariş edirlər. Onların arasında dönər, pitsa, lahmacun, müxtəlif növ ayaqüstü yeməklər üstünlük təşkil edir."Mənbə: "Yeni Müsavat "qəzeti, tarix: 28/07/2012 , səh.4. 5) Dönər. Bu neologizm türk mətbəxinə aid olan yemək növünün adıdır. Böyük şişə keçirilmiş toyuq və ya mal ətinin ocağın qarşısında dönməsi ilə bişir, adı da elə bununla əlaqədardır. Sonra bişən ət bıçaqla xırda doğranaraq soğan, xiyar, pomidor, mayonez, göyərti, ketçup ilə birlikdə zövqə görə istər çörək, istərsə də lavaş arasına doldurulur. Mətbuatdan nümunə: "Standarta əsasən hazırlandığı ətin növündən və bir-biri ilə qarışdırılma vəziyyətinə görə dönər bir neçə növdə istehsal oluna bilər. Dönər bu standartın tələblərinə uyğun olaraq, ictimai iaşə müəssisələri üçün sanitariya norma və qaydalara riayət etməklə, müəyyən edilmiş qaydada təsdiq olunmuş texnoloji təlimat və resepturalar üzrə hazırlanmalıdır". Mənbə:"525-ci"qəzet, tarix : 11/10/2012, səh.7.

6)Tantuni – Bu neologizm türk mətbəxinə aid olan yemək növünün adıdır.. O da dönər kimi təqdim olunur, fərq ondan ibarətdir ki, ət çox xırda doğranmış olur, həm də sacda soğanla birlikdə qızardılmış olur. Mətbuatdan nümunə: " Əziz xanımlar, ev şəraitində tantuni bişirməyiniz üçün resepti təqdim edirik: Ətləri mümkün olduğu qədər incə doğrayın. Çəkilmiş ətdən bir az iri olacaq..Zeytunyağı əlavə etdiyiniz tavada, suyunu salıb yenidən çəkənə qədər soğanla birlikdə qızardın. Sonra ətlərin içinə; duz qırmızı bibər, pomidor, sumax, kimyon ədviyyatı, zövqə görə duzlu karnişon adlanan xiyar əlavə edin**."** Mənbə: www.azad.az. tarix: 11/04/2013.

7) Şaurma .Bu neologizm türk mətbəxinə aid bir kabab növüdür. Qoyun, keçi, toyuq, hindi və ya mal ətinin lavaş içinə sarılması ilə hazırlanır. Ət istər şişdə, istərsə də izqarada bişirilə bilər. Şaurmanı fərqləndirən başlıca səbəbi onun sousundadır. Bu sousun tərkibində şalğam və manqo turşusu,-tahin ədviyyatı olur. Mətbuatdan nümunə: "Dünyanın ən bahalı şaurmasını

Litvada hazırlayıblar. "Madeinvilnius. lt" agentliyi xəbər verir ki, onu hazırlayan komandanın fikrincə, yemək fəstfud olsa da, bu şaurmanın tərkibi əla keyfiyyətlidir, çünki onun hazırlanmasında timsah ətindən, yüksək əyarlı yeməli qızıl və trüfel sousundan istifadə edilib. Menyuda bu timsah şaurmasının adı "Lavish croco lavash aka Robin Hood" kimi verilib və qiyməti 32 dollardır." Mənbə: www.mediafax.az. tarix: 24/06/2017. 8) Fast food (orijinalda)- Fəstfud (azərb.) Bu neologizm tez hazırlana bilən yemək növü anlayışını ifadə edir. Başqa sözlə desək , tez-bazar yemək. Belə ki, sifarişvermə ilə hazırlanma arasındakı ən çox vaxt 10 dəqiqə olur. Mətbuatdan nümunə: "Ən populyarı isə şübhəsiz ki, dönərdir. Dönər daha çox fast-food (tezbazar başa gələn ayaqüstü yemək) sayılır."

9) İzqara. Bu neologizm türk mətbəxinə aid yemək adıdır. Kababın şişdə deyil , ətin altından və üstündən olmaqla xüsusi dördkünc formalı qoşa dəmir barmaqlıqlar arasında bişirilməsinə deyilir. Mətbuatdan nümunə : "Qənirə Paşayeva : " -Yağda bişən əti və şəkəri özümdən uzaqlaşdırdım. Bəlkə həftədə 1-2 dəfə dolma yeyərəm, o da çox az. Əti izqara, ya da kabab kimi yeyirəm." Mənbə: "Yeni Müsavat" qəzeti, tarix: 30/01/2014, səh.4.

10) Suşi — balıqdan hazırlanmış yemək növü. İlk suşi adlı yemək Cənubi Asiyada meydana gəlmişdir. Təmizlənmiş və müxtəlif hissələrə bölünmüş balıqlar nazik təbəqələr formasında düzülür. İçərisinə duz da əlavə edildikdən sonra qabın ağız hissəsi daş preslərlə örtülürdü. Bir neçə həftədən sonra daşı götürürdülər və əvəzində adi qapaqlarla bağlayırdılar. Bir neçə ay ötdükdən sonra balıq acıyı, mayalanırdı və məhz bundan sonra işlənilməsi üçün hazır sayılırdı. Hələ də Tokionun bir neçə restoranında bu orijinal suşini gələn qonaqlara təklif edirlər. Bu suşinin adı narezushi adlandırılır və sualtı heyvan olan karp balığından hazırlanır. Hazırlanan bu qidanın olduqca sərt qoxusu olur və nəticədə balığın qoxusunu udmağı bacarır. Beləliklə narezushi yeyilərkən çox gözəl tam verir. Mətbuatdan nümunə: "Festivalın ikinci hissəsində yapon yeməkləri, çay mərasimi, suşi, eləcə də kimono və yukata kimi milli yapon geyimləri, ənənəvi yapon incəsənətini təmsil edən oriqami və ikebana təqdim olunub. İkebana və oriqami üçün ayrılan xüsusi otaqlarda bu sənət nümunələrinin sərgisi keçirilib". Mənbə: " 525-ci " qəzet, tarix: 14/04/2015, səh.6.11) Kapuçino -İtaliyaya xas qəhvə içkisidir. Ənənəvi olaraq ikiqat espresso və su buxarı ilə köpük halına gətirilmiş süd ilə hazırlanır. Mətbuatdan nümunə: "NU AİR qədəhi də həmçinin, yüksək temperatura davamlı möhkəm şüşədən hazırlanmışdır. Qədəhin iki dibi olduğundan, siz heç vaxt əllərinizi yandırmayacaqsınız, eyni zamanda, içki uzun müddət isti qalacaqdır. İsti çay, ətirli kapuçino və ya latte üçün idealdır". Mənbə : "Palitra" qəzeti, tarix: 14/06/2016, səh.6.

12) Pişmaniye - Türkiyənin İzmit şəhərinə xas şirniyyat növü. Türkiyədə məşhur İzmit pişmaniyesi olaraq tanınr. Şirniyyatın görünüşü

qoyun yununa bənzədiyinə görə farsca "peşmək" sözündən türkcəyə- "pişmaniye" olaraq tərcümə edildiyi güman edilir. İlk dəfə Kandıralı Xeyrəddin usta tərəfindən bişirilmişdir. Mətbuatdan nümunə: "Hətta ən kasıb tələbə belə buraya gələ bilər. Məsələn, bir fincan kəklikotulu, yaşıl, meyvəli, həmçinin südlü çay 1 manat 50 qəpiyə başa gəlir. Hələ yanında kruasan və mürəbbə təqdim edilir. Espresso 1.50 manat, amerikano 2, kappuçino 2.50, Coca-Cola, Fanta, Sprite 1.50 manatdır. Menyuda digər spirtsiz içkilər də var. Şirniyyatlara gəlincə, keks 1.50, kruasan 1, şokolad 1.50, pişmaniye 1 manata başa gəlir." Mənbə : "Kaspi" qəzeti, tarix: 14/01/2016, səh.6.

Ədəbiyyat:

1. Dəmirçizadə Əbdüləzəl "Azərbaycan dilinin üslubiyyatı" Bakı-1962
2. Qurbanov Afat "Ümumi dilçilik" Bakı-77 – səhifə 134
3. Məmmədli Firuzə " Azərbaycan ədəbi dili " Bakı- 2011
4. Xəlilov Buludxan " Azərbaycan dili : dünən, bu gün " Bakı- 2004
5. Xudiyev Nizami "Azərbaycan ədəbi dilinin zənginləşmə yolları" Bakı-1987
6. "Azərbaycan" jurnalı - 2011 -3 iyun.- səhifə 3.
7. "Azərbaycan dili" fənni üzrə elektron dərs vəsaiti – unec.edu.az
8.

Улдузе Алиева

Неологизмы связанные с именами иностранных блюд входящие в современный Азербайджанский литературный язык

Резюме

Неологизм - слово, значение слова или словосочетание, недавно появившееся в языке новообразованное, отсутствовавшее ранее. Свежесть и необычность такого слова, словосочетания или оборота речи ясно ощущается носителями данного языка. Этот термин применяется в истории языка, чтобы охарактеризовать обогащение словарного состава в отдельные исторические периоды. В развитых языках каждый год появляются десятки тысяч неологизмов. Большинство из них имеют недолгую жизнь, но некоторые закрепляются в языке надолго, входят не только в живую обиходную его ткань, но и становятся неотъемлемой частью словесности. Неология - наука, которая занимается изучением неологизмов. Связи с развитием международных отношений повысился туристический потенсиал Азербайджана. А туристический потенсиал в свое время принес много неологизмов в Азербайджанский

литературный язык. Среди этих неологизмов не мало неологизмов связанные с именами иностранных блюд В данной статье показаны значения некоторых неологизмов связанные с именами иностранных блюд входящие в современный Азербайджанский литературный язык в 2006-2016 годы и примеры применения их на статьях ежедневной прессы.

Ulduze Aliyeva

Neologisms associated with the names of foreign dishes in modern Azerbaijani language and examples of their press pages

Summary

A neologism is a relatively recent or isolated term, word, or phrase that may be in the process of entering common use, but that has not yet been fully accepted into mainstream language. Neologisms are often directly attributable to a specific person, publication, period, or event. In the process of language formation. Neologisms can become popular through memetics, by way of mass media, the Internet, and word of mouth, including academic discourse in many fields renowned for their use of distinctive jargon, and often become accepted parts of the language. Other times, however, they disappear from common use just as readily as they appeared. Whether a neologism continues as part of the language depends on many factors, probably the most important of which is acceptance by the public. It is unusual, however, for a word to enter common use if it does not resemble another word or words in an identifiable way. When a word or phrase is no longer "new", it is no longer a neologism. Neologisms may take decades to become "old", however. Opinions differ on exactly how old a word must be to cease being considered a neologism. Development of international relations increased tourist potential of Azerbaijan. So the development of tourist potential brought a lot of neologisms in modern Azerbaijani language. There are not few neologisms associated with the names of foreign dishes. This article provides examples of neologisms associated with the names of foreign dishes in the modern Azerbaijani literary language during the years 2006-2016 the meanings expressed by them and their exampless from daily media.

Rəyçi: Ədalət Tahirzadə
Filologiya üzrə fəlsəfə doktoru, professor

НИГЯР АГАЕВА
Институт Востоковедения им.ак.З.Буниятова НАНА
aghayeva.nigar.q@gmail.com

ЛИНГВО-ПОЭТИЧЕСКОЕ ОПИСАНИЕ СОМАТИЗМА " "ابرو «БРОВИ» В КЛАССИЧЕСКОЙ ПЕРСОЯЗЫЧНОЙ ПОЭЗИИ
(на материале произведений азербайджанских и иранских авторов)

Açar sözlər: somatizm, qaş, klassik farsdilli poeziya, lirika, linqvo-poetik təsvir, frazeologizm, metafora, lüğətlərdə somatizmlər, poetik fiqurlar, Azərbaycan şairləri, somatizmlərin semantikası, somatizmlərin strukturu.
Key words: somatism, eyebrows, classical persian-languaged poetry, lyric, lingvo-poetic description, phraseologism, metaphor, somatisms in dictionaries, poetical figures, Azerbaijani poets, semantic of somatisms, structure of somatisms.
Ключевые слова:соматизм, брови, классическая песроязычная поэзия, лирика, лингвопоэтическое описание, фразеологизм, метафора, соматизмы в словарях, поэтические фигуры, азербайджанские поэты, семантика соматизмов, структура соматизмов.

Любовная поэзия Востока обладает удивительным свойством – особой, непостижимой независимостью от времени, почти абсолютной неувядаемостью. Тема любви занимает значительную роль в восточной, в частности персидской, поэзии. Классическая персидская лирика по-прежнему полна очарования, она сохранила до наших дней своё живое дыхание, свой аромат и цвет. На протяжении многих веков поэты воспевали образ возлюбленной красавицы, радость встречи с ней, восхищались её красотой, которая неотделима от красоты всего бытия:

«Локоны», «глаза», «лицо», «брови», «губы», «шея», «стан», «талия», «чёлка», «лоб», «руки» и т.д. – это те соматизмы, которые в персидской поэзии встречаются наиболее часто.

При создании портрета возлюбленной красавицы описание бровей ابرو [abru] было едва ли не главной характерной чертой после описания глаз. Здесь будет уместно вспомнить известную газель Хафиза с редифом «ابرو»

Что месяц, который покажет свод её очей?...

خمی که ابروی شوخ تو در کمان انداخت به قصد جان من زار ناتوان انداخت

Изгиб, который твоя кокетливая бровь воплотила в луке,

Покушаясь на мою жизнь, принёс мне непосильное горе. Хафиз

В суфизме если про глаз говорится, что «[глазом] называют атрибут зрения, который сопровождает суфия во всех его состояниях, от радости и до горя, [он] наблюдает им в пользе и во вреде, таким образом, чтоб ничего не сокрылось от него» (В Мират-е ушшак про глаз пишется:

صفت بصری را گویند که متعلق بتمام احوال سالک از خیر و شر و مراقب جانب او در نفع و ضر باشد بنوعی که چیزی ازو غایب نشود

) и указывается на способность Бога наблюдать и видеть, то ابرو [abru] «бровь» является указанием на красивый лик Творца, на его воплощение - она призывает сердце арефов к единству. В обычном же значении - олицетворяет красоту лица, привлекает влюблённого к глазам.

Нередко лицо сравнивали с буквами арабского алфавита, при этом брови отождествляли с маддой. Изогнутые брови обычно сравнивались с красиво написанной тугрой, изображаемой в начале официальных писем. Шах Исмаил Хатаи сравнивал их с басмалой, формулой «во имя Аллаха».

Говоря о соматизме «ابرو» [abru], надо отметить частое использование его в фразеологических оборотах. Так, он употребляется в идиоматических словосочетаниях, выражающих:

1. недовольство и гнев. Например, чтобы сказать «красавица хмурит брови или насупилась», поэты использовали такие обороты, как ابرو بهم درکشیدن[abru beham darkeshidan], چین بر ابرو افکندن یا انداختن[chin bar abru afkandan ya andakhtan], [chin-e abru avardan چین آوردن ابرو , گره بر ابرو افکندن یا انداختن[gareh bar abru afkandan ya andakhtan], ye- abru torsh kardan] ابروان پر از چین کردن[abrovan por az chin kardan], گوشهٔ ابرو ترش کردن [gushe, ابرو ترش کردن[abru torsh kardan] , ابرو بچین کردن [abrovan bechin kardan], چین از ابرو بردن[chin az abru bordan].

تو صد شکرستانی ترش چه کردی ابرو سبکتر از صبایی چرا شوی گران جان مولوی

Ты – сто сладких уст, зачем нахмурила брови?

Ты легче, чем зефир, отчего ты стала медлительной? Моулави

دلش گشت پردرد و سر پر ز کین به ابرو ز خشم اندر آورد چین فردوسی

Сердце её стало полно боли, а голова – злобы,
Она нахмурила брови. Фирдоуси

من از تو سیر نگردم و گر ترش کنی ابرو جواب تلخ ز شیرین مقابل شکر آید سعدی

Я не насытюсь тобой, и если ты нахмуришь брови,

В ответ на злой [букв. горький] ответ, будет [букв. сладкий] добрый. Саади

согласие. Например: ابرو زدن ؛[abru zadan] ابرو انداختن؛ [abru andaxtan] ابرو جنباندن ؛[abru janbandan] - подмигивать, подмаргивать, тем самым проявлять кокетство.

хорошее настроение:

Соматизм«ابرو» [abru] выступает и как один из компонентов изафетных конструкций:

خمی که ابروی شوخ تو در کمان انداخت به قصد جان من زار ناتوان انداخت

Изгиб, который твоя кокетливая бровь воплотила в луке,

Покушаясь на мою жизнь, принёс мне непосильное горе. Хафиз

В персоязычной классической прозе часто встречаются такие эзафетные сочетания с соматизмом «ابرو» [abru], как, например, традиционные конструкци:تیغ ابرو [tig-e abru] (остриё бровей), چوگان ابرو [chougan-e abru] (чоуган бровей),خم ابرو [kham-e abru] (сгиб бровей),

طاق ابرو [tag-e abru] (свод бровей), طغرای ابرو [tugra-ye abru] (туграа бровей), کمان ابرو [kaman-e abru] (лук бровей), کمانخانه ٔ ابرو [kamankhane-ye abru] (лук бровей), ماه ابرو [mah-e abru] (полумесяц бровей), محراب ابرو [mekhrab-e abru] (михраб бровей), هلال ابرو [helal -e abru](полумесяц бровей), قوس ابرو [gus -e abru-] (луг бровей), چین ابرو [chin-e abru] (завиток бровей), کج ابرو [kaj-e abru] (кривизна бровей).

В этих **подчинительных** словосочетаниях доминирует отношение принадлежности. Зависимые компоненты в этих словово-четаниях обычно состоят из существительных: تیغ (остриё) [tig], کمانخانه (лук) [kamanche], ماه (месяц) [mah], کمان (лук) [kaman] и т.д. Некоторые из этих выражений приведены в упомянутой выше прекрасной газели Хафиза. Он один из тех поэтов, которые наиболее часто обращались к этому соматизму. Ниже приведены ещё примеры:

طربسرای محبت کنون شود معمور که طاق ابروی یار منش مهندس شد حافظ

Сердце, которое от стрелы твоих ресниц превратилось в кровь

Вновь жаждит лука твоих бровей.) Хафиз

Bحافظ گفتا برون شدی به تماشای ماه نو ا ز ماه ابروان منت شرم باد رو

данном примере ابرویت [abruyat] «твои глаза» свидетельствует о

способности соматизма «ابرو» [abru] присоединять местоименную энклитику.

Доминирующим среди приведённых выше слововочетаний является «کمان ابرو» [kaman abru] «лук бровей». Это выражение в понимании тасаввуфа толкуется, как «вновь возвращение с Божьей помощью салика на прежний уровень (макам)». Встречается также и изменённый вариант словопорядка этого словосочетания: ابروی کمان [abru-ye kaman]. Такое конвертирование компонентов можно проследить в нижеследующем бейте Мохташема Кашани:

از صدر زین هزار سوار افکند به خاک در دست او اشاره‌ای از ابروی کمان

محتشم کاشانی

Тысячи всадников он скинул на землю/

В его руках был знак лукообразных бровей.

И Шамса Тебризи:

زان غمزه چون تیرش و ابروي کمان گیرش اسرار سلحشوري با تیر و کمان برگو

Расскажи тайны о её кокетстве, подобном стреле, и плене её лукообразных бровей, О храбрости с луком и стрелой.

Довольно широко используются следующие изафетные конструкции, где «ابرو» [abru] является первым компонентом. Они обладают яркими изобразительно-поэтическими функциями: ابروی کمان [abru-ye kaman] «брови в форме лука», ابروی شوخ «кокетливая бровь» [abru-ye shukh], ابروی دلگشای «бровь радости» [abru-ye delgoshay], ابروی فرخ «красивые брови» [abru-ye farokh], ابروی مشکین «тёмные брови» [abru-ye meshkin], ابروی سیاه «чёрные брови» [abru-ye siyah], ابروی کماندار «лукообразные брови» [abru-ye kamandar], ابروی ظریف «нежные брови» [abru-ye zarif], ابروی کژ «изогнутые брови» [abru-ye kaj], ابروی هلالی «брови полумесяцем» [abru-ye helali], ابروی خمیده «изогнутые брови» [abru-ye khamide], ابروی غماز «кокетливые брови» [abru-ye gamaz].

Являясь определением, прилагательные описывающие «брови», придают выразительность и образность данному соматизму, в какой-то мере помогают читателю представить «брови» не просто как соматизм, а как некое подобие луку, полумесяцу, небосводу.

В приведенных выше изафетных конструкциях делается акцент:

а) на форму:

ابروی کمان [abru-ye kaman]иابروی کماندار[abru-ye kamandar] – в форме лука, ابروی ظریف [abru-ye zarif] и ابروی فرخ[abru-ye farokh] – нежные, изящные брови, ابروی خمیده [abru-ye khamide] и ابروی کژ [abru-ye kaj] - изогнутые брови, ابروی هلالی [abru-ye helali] - брови полумесяцем.

راستی را قد خمیدهٔ من نقشی از ابروی خمیدهٔ تست خواجوی کرمانی

Поистине, мой согбенный стан/

Это отражение твоих изогнутых бровей. Хаджу Кермани

b) также отмечается цвет:

ابروی مشکین [abru-ye meshkin] тёмные брови и ابروی سیاه [abru-ye siyah] чёрные брови.

نتوان در خم ابروی سیاهش پیوست آنک پیوند من سوخته بگسیخته است خواجوی کرمانی

Невозможно в изгибе её чёрных бровей соединиться/

Так, что моя связь разорвана. Хаджу Кермани

c) элемент кокетства:

ابروی غماز «кокетливые брови» [abru-ye gamaz], ابروی شوخ «весёлые брови» [abru-ye shukh], ابروی دلگشای «чарующие, пленительные брови» [abru-ye delgoshay].

ابروی غماز اشارت کنان جانب آن چشم خمیدن گرفت مولوی

Её кокетливые глаза намекнули/

Рядом с этими глазами

Широко используются конструкции, где вторым компонентом являются слова, обозначающие лица-адресата (یار [yar]جانان[janan], دلدار [deldar] «дорогая (-ой), возлюбленная (-ый)», سیما ماه [sima mah] «луноликая»), что значительно повышает выразительность текста: [abru-ye yar]ابروی یار, ابروی جانان[abru-ye janan], ابروی دلدار [abru-ye deldar]- «брови возлюбленной», ابروی ماه سیما – «брови луноликой».

Среди них встречаются и антропонимы, имена художественных героев. Например: Хал, Лейли: ابروی لیلی «брови Лейли» [abru-ye leyli]:

میان ابروی او خشم‌های دیرینه‌است گره در ابروی لیلی هلاک مجنونست مولوی

Среди её бровей есть глаза древности,/

в бровях Лейли погиб Меджнун. Моуляви

Они несут в себе определенную поэтическую нагрузку. В данном бейте, поэт используя стилистическую фигуру [талмих] تلمیح(аллюзия), намекает на поэму «Лейли и Меджнун».

Возможны не только двухкомпонентные конструкции, но и словосочетания с несколькими составными. Сложные по структуре, такие изафетные конструкции, образуя изафетную цепь, служат более глубокому раскрытию поэтического замысла. Например:

طاق دو ابروی کمان [tag-e do abru-ye kaman]«свод двух лукообразных бровей»,

طاق آن دو ابروی خمیده [tag -abru an do e -khamide ye]«свод тех двух изогнутых бровей»,

طاق آسمان ابرو [tag-e aseman abru] «небесный свод бровей»,

خم محراب ابروان [kham-e mekhrab-e abrovan] «изгиб михраба бровей»,

بانگ اذان است و چشم مست تو بینم در خم محراب ابروان به امامت شهریار

Звук азана, а я вижу твои опьянённые глаза,

Имамство приятнее в изгибе михраба твоих бровей. Шахрияр

В приведённых ниже бейтах поэты применили один из самых распространённых литературных приёмов в персидской литературе – подражание تقلید [таглид]:

از تیر مژه چه صید می‌کرد وان ابروی چون کمان چه می‌شد مولوی

Как поохотилась стрелами ресниц?/

И стало что с бровями теми, что подобны луку? Мовлави

از گل رخسار او سرسبز دیدم باغ خویش ز ابروی چون سنبل او پخته دیدم نان خویش مولوی

Из-за её румяного лица я увидел свой огород зелёным,/

Из-за её подобных колосу бровей я увидел свой хлеб испечённым. Мовлави

Более сложная конструкция подражания придаёт бейтам особую красоту и усиливает поэтическое воздействие. Как это приведено в приведённых ниже примерах: подражается не ابرو «бровь» [abru], а خم ابروی [kham-e abru] «изгиб брови».

گر ببینم خم ابروی چو محرابش باز سجده شکر کنم و از پی شکرانه روم حافظ

Если я вновь увижу изгиб её бровей подобных михрабу,/

Сладко поклонюсь. Хафиз

Но бывает и наоборот - когда другой предмет уподобляется ابرو «брови» [abru]. Например, в Низами аркан уподобляется бровям:

کمندی چو ابروی طمغاچیان به خم چون کمان گوشه چاچیان نظامی

Аркан подобный брови тамгачийцев,/

Словно изгиб аркана чачийцев.

Тамгач – это один из городов Туркестана, а Чач был городом, нахдящимся на месте нынешнего Ташкента. У тамгачийцев была традиция придавать бровям форму аркана. А чачцы были известны своим умелым изготовлением аркана.

Среди интересных подражаний по форме брови можно назвать их сравнение с буквой «нун». У приведённом ниже бейте Мовляви каждый соматизм уподобляется той или иной букве.

زان گوش همچون جیم تو زان چشم همچو صاد تو زان قامت همچون الف زان ابروی چون نون خوش مولو

От твоего уха, подобного джим, от твоих глаз, подобных сад,/

От твоего стана словно алеф и тех бровей,подобных нун, [я] счастлив. Моулави

Тесное взаимодействие соматизмов с другими лексическими единицами в бейте, такими, как названия букв, ярко демонстрирует их текстообразующую функцию.

Часто сополагаемые слова «лук и стрелы» используются совместно с парой «брови и ресницы»:

کمان ابروان و تیر مژگان گواهانند کو بر جان امیرست مولوی

Лук бровей и стрела ресниц/

Свидетельствуют, что она эмир моей души. Моулави

Интересно употребление соматизма «ابرو» [abru], которое считается элементом красоты и часто употребляется в художественной детализации описания возлюбленной. Говоря об «ابرو» [abru], надо отметить их основные характеристики – это кривизна, двойственность и сходство с полумесяцем:

а) кривизна:

به طاق آن دو ابروی خمیده مثالی زان دو طغرا بر کشیده نظامی

Своду тех изогнутых бровей,/

Приведи в пример те две тугры. Низами

یارب ابروی کژش بر جان من راست اندازی چه موزون می‌کند عطار

Боже, её изогнутые брови на мою душу/

Правильно положить сделает какую соразмерность. Аттар

Б) двойственность:

دو ابرو کمان و دو گیسو کمند به بالا به کردار سرو بلند فردوسی

Две лукообразных брови и две косы, подобных аркану/

Ввысь, подобно высокому кипарису. Фирдоуси

زهی طاق دو ابروی تو محراب بر محراب تو جان رفته در خواب عطار

Хорошо в михрабе под сводом двух твоих бровей /

На твоём михрабе душа впала в сон. Аттар

Употреблением двух соматизмов (ابرو [abru] «брови» и «косы» (گیسو[gisu]) с числительным «два» в одном контексте усиливается своеобразие выразительных свойств соматизмов.

ستون دو ابرو چو سیمین قلم دو نرگس دژم و دو ابرو به خم فردوسی

Столбы двух бровей подобны серебряному перу/

Два нарциса моей крепости и две изогнутые брови. Фирдоуси

в) сходство с полумесяцем:

به عید آرای ابروی هلالی ندیدش کس که جان نسپرد حالی نظامی

К празднику украсила полумесяцем брови,/

Никто не видел её,чтоб пока не вручил душу [не умер]. Низами

Встречаются и случаи, когда в одном предложении поэт «играет» с одним и тем же словом, приводя его и в прямом значении и используя его в качестве уподобления для соматизма, как слово کمان «kaman» [kaman] «лук» в бейте Низами:

کمانم چو بر زد به ابرو گره شه چین کمانرا فرو کرد زه نظامی

Мой нахмурился лик, бровь согнулась, луку подражая,/

И отбросил свой лук повелитель Китая. Низами

Итак, стало ясно из исследования, что брови являются уникальным органом, выражающим истинное состояние души, физическое состояние человека, описание бровей ابرو [abru] занимает важное место при создании портрета возлюбленной красавицы. Их уподобляли буквам арабского алфавита, тугре, сравнивали с басмалой. Важное место он занимал и среди терминов суфизма.

Создавая эмоциональный фон, соматизм «ابرو» [abru] представляет собой интересный компонент в создании образной ткани поэтического текста. Этот соматизм «ابرو» становится неотъемлемой частью поэтических фигур, как, например, метафора, антитеза, олицетворение, повтор. Также соматизм «ابرو» [abru] нашёл своё применение во фразеологических оборотах и идиоматических словосочетаниях, бывает одним из компонентов эзафетных словосочетаний.

Являясь определением, прилагательные, описывающие «брови», придают выразительность и образность данному соматизму, в какой-то мере помогают читателю представить «брови» не просто как соматизм, а как некое подобие луку, полумесяцу, небосводу.

БИБЛИОГРАФИЯ:

1. Əlibəyli Şəfəq. Füzulinin farsca divanı:linqvo-poetik özəlliklər, Bakı, “Nafta-Press”, 2008.

2. Əlibəyli Şəfəq. Xaqani Şirvani rübailərinin üslubi özəllikləri. AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, “Elmi araşdırmalar” toplusu, IX buraxılış, Bakı, “Elm”, 2012.

3. Göyüşov N. Təsəvvüf anlamları və dərvişlik rəmzləri. Bakı, Tural-Ə, 2001.

4. Məmmədova Mənzərə. Nizami Gəncəvi dilinin lüğəti. I hissə, Bakı, “Nafta-press”, 2009.

5. Məmmədova Mənzərə. Nizami Gəncəvi dilinin lüğəti. II hissə, Bakı, “Nafta-press”, 2010

6. Özgüdenli Osman G., Büyük Selçuklu sulranlarına ait farsça şiirler. Marmara Türkiyat Araştırmaları Dergisi, Cilt I, Sayı II, Sonbahar 2014

7. Schimmel Annemarie, Mystical dimensions of Islam. The University of North Carolina Press, Chapel Hill, 1975

8. Ахманова О.С. Словарь лингвистических терминов, Москва, “Советская энциклопедия”, 1966

9. Бертельс Е.Э. Избранные труды. Суфизм и суфийская литература, Москва, “Наука”, 1965

10. Игнатенко А.А. Зеркало ислама. Москва, «Русский институт», 2004

11. Омар Хайям, Сердце, дух и прах. Рубаи. Полное собрание. Москва, Рипол Классик,2016

12. Рубинчик Ю.А Персидско-русский словарь. Москва, «Русский язык», 1983

13. Чалисова Н.Ю. «Собеседник влюблённых» о локонах, челе и бровях возлюбленных, Сборник статей «У времени в плену», Москва, “Восточная литература ” РАН, 2000

14. صدای معاصر چشم، ابرو، مژگان در ادب پارسی ،سیروس امیری 1392

15. دهخدا لغت نامه ، دهخدا اون لاین

16. دیوان اشعار رودکی، رودکیpdf

17.

کتابخانه شعر و ادب ایران زمین، نوسخن اون لاین

شاهنامه ،حکیم ابوالقاسم فردوسي pdf

18. فرهنگ لغت عمید اون لاین

19. فرهنگ فارسی معین ، معین اون لاین

20. فرهنگ لغت عمید اون لاین

21. زندگانی و اشعار محستی گنجوی

فرهنگ جامع واژگان مترادف و متضاد زبان فارس اون لای

Nigar Ağayeva

Klassik farsdilli poeziyada “qaş” somatizminin lingvo-poetik təsviri (Azərbaycan və İran müəlliflərin əsərləri əsasında)

Xülasə

Dilçiliyin hazırki inkişaf mərhələsində mənzum əsərlərin leksik təhlili aktual problemlərdən sayılır. Bu baxımdan poetik mətndə somatizmlərin, bədən üzvlərinin adlarını bildirən, bu leksik-semantik söz qatının öyrənilməsi böyük marağa səbəb olur. Təqdim olunan məqalə işlənmə tezliyi ilə seçilən "ابرو" “qaş” somatizminin lingvistik təhlilinə həsr olunur. Tədqiqatın məqsədi mətnin struktur-semantik quruluşunda somatizmlərin rolunu müəyyənləşdirməkdir. Araşdırma nəticəsində "ابرو" “qaş” somatizmin struktur-semantik xüsusiyyətləri, lüğətlərdə tutduğu mövqe və frazeoloji söz birləşmələrində istifadəsi müəyyənləşdirilir. Tədqiqat Nizami, Xaqani, Məhsəti Gəncəvi, Sahib Təbrizi, Şəhriyar və s. kimi farsdilli Azərbaycan və Səədi, Firdovsi, Xafiz kimi fars şairlərinin əsərləri üzərində qurulub.

Nigar Aghayeva

Lingvo-poetic description of somatism “eyebrows” in classic persian-languaged poetry (based on works of Azerbaijani and Persian poets)

Summary

At the present stage of development of the Study of linguistics, the research of lexical structure of a poetic work became more perspective. In this respect, it becomes the object of great interest to study the lexical-semantic groups, which include somatism. This article focuses on linguistic analysis of one of the most used somatism - "ابرو″ “eyebrows”. The target of this research is to define the role of somatisms in structure-semantic composition of the text. As a result of the analysis, structure-semantic and stylistic features of somatism "ابرو" were derived, areas of its use in the construction of poetic figures and idioms were revealed. The research is based on poetry of persian-languaged Azerbaijani poets, such as Nizami Ganjavi, Khaqani, Mehseti Ganjavi, Saib Tabrizi, Shahrijar, etc., and Iranian poets as Saadi, Ferdowsi, Hafez, etc.

Rəyçi: Şəfəq Əlibəyli
Filologiya üzrə elmlər doktoru

AYSEL ŞEYDAYEVA
ADPU-nun Quba Filialı , tərbiyə işləri üzrə direktor müavini
aysel@mail.ru

OXU MATERIALLARI ÜZƏRINDƏ DIL HADISƏLƏRININ MÜŞAHIDƏSI

Açar sözlər: təlim, dil, nitq, təhsil, oxu, dil hadisələri, oxu vərdişləri, intonasiya, müasir təhsil,
Ключевые слова: обучение , образование, чтение, языковые мероприятия, навыков чтения, интонация, современное образование,
Key words: training, education, reading, language events, reading habits, intonation, modern education.

Bu gün müasir məktəbin qarşısında bir sıra vəzifələr durur. Bunlardan ən önəmlisi cəmiyyətə yararlı ola biləcək, həyatda öz yerini tuta biləcək savadlı mütəxəssislərin, dövlətimizin mənafeyini müdafiə edə biləcək şəxsiyyətlərin, əsl vətəndaşların yetişdirilməsi, hazırlanması vəzifəsidir. Bu vəzifənin həlli prosesi ən əsası müəllimdən xüsusi qabiliyyət, peşə bacarığı tələb edir.Hər bir müəllim unutmamalıdır ki, bu gün parta arxasında oturan şagird sabah cəmiyyətin qurucusu olacaqdır.

Belə şəxsiyyətlər ilk növbədə öz fikirlərini sərbəst olaraq qarşısındakına, dünyaya çatdırmağı, lazım gəldikdə Azərbaycanımızın bütün dünya dövlətləri içərisində hüquqlarını qorumağı bacarmalıdır. Bunun üçün isə ilk növbədə şəxsiyyətin düzgün, intonasiyası yerində olan nitqə ehtiyacı vardır. Məlumdur ki, nitq bəzi tələblərə cavab verməlidir: Nitq zəngin, məzmunlu, məntiqli, düzgün, aydın və anlaşıqlı, dəqiq, ifadəli, səmimi, təmiz, təbii olmalıdır.

Dil insan həyatının mənasıdır.Dilsiz cəmiyyət mümkün deyildir. Məhz bu səbəbdən də dildə baş verən bütün hadisələrin öyrənilməsi vacibdir.

Ümumi danışıq dilinin xüsusiyyətlərinin tədqiqi ədəbi dilin öyrənilməsi üçün də xüsusi əhəmiyyətə malikdir.

Məhz bütün bunları nəzərə alaraq oxu vərdişlərinin aşılanmasınn səmərəli yollarını tapmaq üçün ümumtəhsil məktəblərində yeni pedaqoji və metodik yanaşmalar, yeni metodik düşüncə tərzi , habelə şagirdlərin nitqinin inkişafı üçün dil hadisələrinin daha dərindən tədqiqi vacibdir.

Şagirdləri orfoepik vərdişlərlə silahlandırmaq üçün müəllim özü də orfoepiya qaydalarını mükəmməl bilməli, tədris prosesində onları şagirdə qavratmalıdır. Unutmaq olmaz ki, düzgün ədəbi tələffüzü və orfoqrafik savadı olmayan müəllim şagird və tələbələrinə keyfiyyətli təhsil verə bilməz.

Bundan əlavə şagirdlərlə oxunun sürəti, düzgünlüyü, şüurluluğu ,oxu materiallarının obrazlı dli üzərində işin təşkilini sistemli və müntəzəm aparmağı bacarmalıdır.

İndiki dövrdə məktəblərdə orfoepik vərdişlərin aşılanması üzrə işin təşkilinə diqqətin artırılması vacibdir. Çünki bəzi ibtidai sinif müəllimləri sözləri yazıldığı kimi oxuyur, şagird isə tələffüzün də yazıldığı kimi olduğunu düşünür.Belə iş prinsipi müəllimlərin işini asanlaşdırır. Çünki düzgün yazılış formasını bilən şagird yoxlama yazılarda, ev tapşırıqlarında çaşmır, səhvlərə daha az yer verir. Yazı nəticəsi oxuya nisbətən daha tez görünən fəaliyyət növü olduğundan müəllimlər orfoqrafik qaydalara daha ciddi yanaşırlar.

Ədəbi tələffüz vərdişləri üzrə işin təşkilində orfoepik lüğətlərin azlığı, orfoepik qaydaların dəqiqləşdirilməməsi, bəzi məktəbli sözlüklərində səhvlərin mövcudluğu bu işin keyfiyyətini aşağı salır.

Ümumilikdə təlimin bu və ya digər metodu müasir dövrdə cəmiyyətə yararlı ola biləcək, zamanın tələblərinə cavab verə biləcək şəxsiyyətlərin , ixtisaslı kadrların yetşdirilməsi üçün seçilir, istifadə edilir.

Xatırlamalıyıq ki, dil daima və müntəzəm inkişafda olan ictimai hadisədir. Cəmiyyətin bütün üzvlərinin xidmətində olan dildə baş verən hadisələr, proseslər hamı tərəfindən eyni dərəcədə mənimsənilmir.Bununla yanaşı, dilə müxtəlif peşə və bilik sahibi olan insanlar müraciət etdikləri üçün ünsiyyət prosesində ciddi fərqlər, bəzən xoşagəlməz hallar meydana gəlir.(1 səh 142)

Oxu materialları üzərində dil hadisələrinin müşahidəsinin təlimin keyfiyyətinə təsiri həm də şagirdlərin mədəni nitqinin formalaşması deməkdir

Mərhum professor Əziz Əfəndizadənin dili ilə desək: " Nitqin ifadəliliyini yalnız şifahi danışıq gözəl əks etdirə bilər.Söz özünün ən güclü təsirini , öz əlvan qiyafəsin yalnız şifahi nitqdə tapmağa qadirdir. Əgər söz yazılı nitqdə açımamış qönçədirsə , şifahi nitqdə isə ətirli bir çiçəyə çevrilir."

İbtidai siniflərdə oxu materialları üzərində dil hadisələrini müşahidə edərkən oxu mədəniyyətinin formalaşdırılmasını, onlarda oxuya maraq oyatmağı, kitabların səmərəli mütaliəsi üçün istiqamət verməyi unutmaq olmaz. Çünki həyat təcrübəsi qazanmaq və özünütəkmilləşdirmək , idrak ehtiyac, şəxsi təhsil və təcrübi faydalanmaq , emosional və estetik tələbat və əylənmək mütaliənin, oxu prosesinin səbəb və məqsədlərindən sayılır.

Ibtidai siniflərdə oxu materiaları üzərində dil hadisələri ilə bağlı müşahidələrin təşkil edilməsi məqsədilə məktəblərin bir sıra qabaqcıl müəllimləri müxtəlif əyləncəli metod və vasitələrdən istifadə etmişdir. Bundan əlavə oxu materialları üzərində dil hadisələrinin müşahidəsi dərsin bütün mərhələlərində aparıla bilər. Çünki dil bacarıqlarının formalaşdırılması, dildən istifadə dərsin bütün mərhələlərini əhatə edir.

Oxu materialları üzərində dil hadisələrinin müşahidəsini müəllim aşağıdakı təlim üsulları ilə həyata keçirə bilər:

	Fərqli fəal təlim üsulu	***Tətbiqi***
1	Öz valideynin kimi oxu	Şagird verilmiş materialı valideynin nitqininə uyğun olaraq səsləndirməyə çalışır.
2	Doğrunu tap	Müəllim müxtəlif rəngli, kiçik vərəqlərdə tələffüz forması ilə yazılan mətnlər yazır. Şagirdləri 4 qrupa bölür.Hər qrupa bir dəstə mətn yazılan vərəq verir.Sonra şagirdlərə tapşırır ki, vərəqlərin içərisindən elə mətn seçin ki, həmin mətndə tələffüz səhvi var. Verilən vaxt müddətində tələffüzü səhv yazılmış söz olan mətni hansı qrup tapsa qalib olur.
3	Oxuyarkən məni tap	Müəllim şagirdlərə hər hansı sinifdənxaric , müstəqil oxu materialı verərkən onu internetdən özü çıxardır. Bu dəfə qəsdən orada bəzi sözlərin yazılışında səhvlər buraxır. Şagirdlərə oxuyarkən həmin səhvi tapmalarını və səhvi düzəltmələrini tapşırır. Bu zaman şagirdlərin orfoqrafik savadı da yoxlanılır.
4	Rollu oyun	Müəllim şagirdin oxuduğu mətni səhnələşdirməyi tapşırır, bu zaman təbii ki , şagird nitqində dil hadisələri müşahidə olunur.Heca səsdüşümü, səsartımı kimi
5	Yoldaş sayını artır	Müəllim şagirdlərə tapşırıq verir.Bir qrup şagird bildiyi , özü seçdiyi sözlərin düzgün tələffüzünü uzaqdan oxunacaq şəkildə bir vərəqə yazır (rəsm vərəqinə, rəngli qələmlə).-Bir qrup şagird isə onların yazdıqlarına baxır. Daha sonra müəllim tapşırır ki, şagirdlərdən ikisi düzgün yazılan sözləri seçsinlər və həmin uşağı yanına çağırsınlar, digər iki şagird isə vərəqlərdə tələffüzü səhv yazılan sözü seçsinlər və yanına çağırsınlar.Sonda düzgün qərar verən və ətrafında şagird " dost " sayı çox olan qazanır və dostları ilə birgə qiymətləndirilir.Bu zaman düzgün ədəbi tələffüzün formalaşdırılması üzərində iş aparılır.
6.	Yerimi tap	Müəllim şagirdlərə bəzi sözlərin düzgün yazılışını , bəzi sözlərin isə düzgün tələffüzünü qeyd etdiyi vərəqləri göstərir,öz

		stolunun üstünə qoyur, amma məlumat vermir. Daha sonra lövhədən üzərində Belə deyilir, Belə yazılır sözləri olan iki torba asır. Sonra şagirdləri bir-bir çağırır və vərəqlərdən seçərək həmin vərəqin hansı torbaya atılmalı olduğunu soruşur. Şagird düşünür , tapşırığı icra edir. Vərəqi torbaya atmazdan əvvəl isə kənarına öz adını yazır. Sonda torbalar açılır. Səhv atılan sözlər və səhvi edən şagirdlərə digər yoldaşları orfoq-rafik-orfoepik məlumatları bir daha təkrar etdirir.

Oxu materialları üzərində dil hadisələrinin müşahidəsini təşkil edərkən qarşıya qoyulan məqsəd , gözlənilən nəticə aşağıdaki kimidir:

- Məqsəd: Oxu materialları üzərində dil hadisələrinin müşahidəsi prosesində əsas məqsəd şagirdlərin düzgün oxu , yazı və nitq vərdişlərinin formalaşdırılmasıdır.

- Nəticə:

- Şagirdlərin oxu prosesində və nitqlərində dil hadisələri müşahidə olunur.

- Bu hadisələrin oxuda və nitqdə təzahürünün faizi şagirdlərin yaşadığı regiona, ailə mühitinə əsasən dəyişir.

- Düzgün ədəbi tələffüz və ifadəli oxu vərdişləri tədricən və sistemli xarakter daşımalıdır.

- Müəllim şagird nitqini ibtidai siniflərdə əylənərək öyrətməklə formalaşdırmalı, ədəbi tələffüz normalarına uyğun danışığı şagird üçün vərdiş halına gətirməyə çalışmalıdır.

- Təlimin texniki vasitələrindən, müasir təlim metdolarından istifadə etməklə oxu prosesinə yaradıcı yanaşmağı bacarmalıdır.

- Nitq vərdişlərinin inkişafı üzrə aparılan işlərin cümlə qurmaq vərdişlərindən tutmuş fikrini müstəqil ifadə edə bilən şəxsiyyətə çevrilməsi prosesinə qədər davam etməsini təşkil etməlidir.

- Oxu prosesində redaktə xarakterli, sözün səhv yazılışının verilməsi və düzəldilməsi tipli çalışmalara yer vermək mütləqdir.

Ədəbiyyat siyahısı

1. A. Qurbanov. Azərbaycan diliçiliyi problemləri I cild
2. Abdullayev.A. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Azərtədrisnəşr 1964

3. Adilov.M.İ., verdiyeva Z.N. Ağayeva F.M.İzahlı dilçilik terminləri. Maarif 1989
4. Ana dili I sinif üçün dərslik Bakı 2008
5. Azərbaycan Respublikası ümumi təhsilin Konsepsiyası-Milli Kurikulumu . Bakı 2006
6. Azərbaycan dili və ədəbiyyat Metodika və təcrübə. Müəllimlər üçün vəsait Bakı 2005
7. Hüseynov H.Q.Əyləncəli qrammatik oyunlar 1992 .Maarif nəşriyyatı
8. MahmudovM.Azərbaycanın Boloniya prosesinə daxil olmasının reallığa çevrilməsi.Bakı 2009.
9. N.Abdullayev Z.Məmmədov. Müəllimin nitq mədəniyyəti Bakı 2001
10. N.Abdullayev Z.Məmmədov.Azərbaycan dili təlimində ifadəli nitq üzrə aparılan işlər.Bakı 1996
11. N.Ə.Abdullayev. Orfoqrafiya və orfoepiya təlimi məsələləri Bakı 2008
12. Л.С.Выготский. Мышление и речь. М-Л 1934

А.Шейдаева

Диалог на материалы проблема событий

Резюме

В статье говорится о преподавании навыков чтения. А литературная речь имеет большое значение в повышении качества общего образования.

Инновативные методы меняя среду обучения в школе , способствуют повышению уверенности в себя учащихся, способствуют формированию у учащихся навыков самостоятельного приобретения и усвоения знаний , применения их в жизни для достижения своих целей.

Процесс чтения является сложным процессом. Просто учитывая необходимость поиска эффективных путей стимулирования навыков чтения. Для этого, прежде всего, новые педагогические и методические подходы в средних школах является важным. Самое главное, от начальных классах чтение материалов при проведении наблюдений по изучению и применению методов.

A.Sheydayeva

Dialogue on oxu materials
the problem of events
Summary

The article talks about the teaching of reading skills. And oral speech is important and plays an important role in improving the quality of basic education.

Innovative metodhs,changing teaching atmosphere at schools, promotes increasing self – confidence in students, formation of students abilitesin gaining independence and comprehension of knowledge applying them into life in achieving goals.

The reading process is a complicated process. Just taking into account the need to find effective ways of encouraging reading habits. To do this, first of all, new pedagogical and methodological approaches in secondary schools is important. Most importantly, from the primary grades reading materials while conducting surveillance on the study and application of methods.

Rəyçi: İsmayıl Kazımov
filologiya üzrə elmlər doktoru, professor

SƏMAYƏ QULİYEVA
Azərbaycan Dillər Universiteti
semayequliyeva99@gmail.com

NİTQ VƏRDİŞLƏRİNİN FORMALAŞDIRILMASININ PSİXOLOJİ ƏSASLARI

Açar sözlər: psixoloji faktor, affektiv faktor, motivasiya, kommunikativ sərişdə, nitq vərdişləri.
Ключевые слова: психологический фактор, аффективный фактор, мотивация, коммуникативная компетентность, речевые умения.
Key words: psychological factor, affective factor, motivation, communicative competence, speech habits.

Xarici dillərin tədrisi məsələləri ilə bağlı təkcə dilçi və metodistlər deyil, eləcə də psixoloq və pedaqoqlar elmi tədqiqat işləri aparmışlar. Dil özünün mənşə etibarilə psixologiya ilə sıx bağlıdır. Xarici dilin tədrisində müəllim nəinki şagirdlərin psixoloji, həm də fizioloji xüsusiyyətlərini nəzərə almalıdır. Yəni şagirdin mənimsəmə səviyyəsi, təfəkküründün necə inkişaf etməsi, verilən materialları yadda saxlaması, öyrəndiklərini tətbiq etmə bacarığı, özünə inamı və digər məsələlər müəllimin diqqət mərkəzində olmalıdır. Rus pedaqoqu və psixoloqu K.D.Uşinski xarici dilin öyrənilməsinin insanın təfəkküründə müsbət təsirinin olduğunu vurğulamışdır. Uşinski bu fikrini psixoloji aspektden izah edərək qeyd edirdi ki, dil yalnız ifadə etmək üçün deyil, həm də həmin fikri dərk etmək üçündür.

Dili psixologiya ilə əlaqələndirən 19-cu əsrin psixoloji cərəyan nümayəndələri də dili fərdi psixoloji akt hesab edirdilər. Əslində şagirdin psixoloji vəziyyətinin dilə heç bir təsiri yoxdur. Bu ancaq danışanın nitqinə təsir edə bilər.(1, s.165)

Belə bir sual maraq doğurur: Xarici dilin mənimsənilməsinin psixoloji aspektleri hansılardır?

1.Təkrar. Söz və ya cümlə nümunəsinin yadda saxlanılması və ünsiyyətdə istifadə edilməsi üçün mütəmadi təkrar edilməlidir.

2. Dilin öyrənilməsində davamlılıq. Öyrənilən dil materiallarının effektiv istifadəsi üçün davamlı praktik istifadə zəruridir.

3. Səhvlərin edilməsi. İlkin mərhələdə tələffüzdə,cümlələrin qurulmasında, qrammatik qaydaların istifadəsində səhvlər qaçılmazdır. Bu normal qəbul edilməlidir və səhvlər öyrənmə prosesinin bir hissəsi kimi qəbul edilməlidir. Edilən səhvlərə görə tətbiq edilən cəza, yəni aşağı qiymətlərin verilməsi, şagirdin sinif qarşısında danlanması motivasiya əksikliyinə və mənfi nəticələrə səbəb olur. (2, s.96-97)

Nitq vərdişlərinin formalaşdırılmasında affektiv faktorlar həm uğur həm də uğursuzluğa təsir edən ən mühüm xüsusiyyətlərdir. Xarici dilin öyrənilməsində affektiv faktorlar emosiyalar, özünə inam, narahatlıq, dilə münasibət və motivasiya ilə əlaqəlidir. Xarici dildə danışmaq adətən inamsızlıq, həyəcan, narahatlıq və digər amillərlə müşaiət olunur. (3, s.206)

Xarici dildə nitq bacarıqlarının formalaşdırılması uzun zaman tələb edir. Əksər şagirdlər ilkin mərhələdən həvəsdən düşə və bezə bilərlər. Nitq vərdişlərinin formalaşdırılmasının psixoloji əsasını düzgün qurulmuş motivasiya təşkil edir. Öyrənmə prosesi üçün motivasiya mürəkkəb və çoxşaxəli olsa da, dil də daxil olmaqla bütün öyrənmə növləri üçün vacibdir. Şagirdlərin tapşırıq üzərində işləmə həvəsi, kommunikasiya bacarığı, verilmiş tapşırığı uğurla etməsi motivasiyanın nəticəsidir.(4, s.176)

Təlimin ilkin mərhələsində konkret nəticələr dilin mürəkkəb formalarının icrasını tələb kimi qoymaq düzgün deyildir. Əvvəlcə reseptiv bacarıqlar, yəni dinləmək və oxumaq, daha sonra produktiv – danışmaq və yazmaq bacarıqları aşılanmalıdır. Qısa cavablar və sadə çalışmalar məqsədəuyğundur. (2, s.97) Şübhəsiz ki, xarici dilin öyrənilməsi sosial baxımdan digər fənlərin öyrədilməsindən fərqlənir. Xarici dilin öyrənilməsi sadəcə dil bacarıqlarının, qaydalar sisteminin və ya qrammatikanın öyrənilməsini əhatə etmir. O şəxsiyyətdə dəyişməni, yeni sosial və mədəni kontekstə uyğunlaşmanı əhatə edir. Buna görə də dil öyrənənin sosial təbiətinə əhəmiyyətli təsiri olur. Amerika dilçisi Hovard Qardner(1985) bildirirdi ki, xarici dil, öyrədilən digər fənnlərdən fərqli olaraq digər xalqın xüsusiyyətləri olan bacarıqların və davranış nümunələrinin mənimsənilməsini əhatə edir. Dərslərin maraqsız olması, danışıq zamanı edilən səhvlərə görə qiymətləndirmə zamanı aşağı balların verilməsi motivasiyani azaldır. Şagirdlərin sayca çox olduğu siniflərdə dilin təbii olaraq istifadə edilməsində hər kəsə fərdi yanaşmaya imkan yaratmır. Şagirdlər bəzən sinif qarşısında xarici dildə danışmağa utanır. Nitq qabiliyyəti nadir hallarda yoxlanılır və yoxlama yazı işlərində mənadan daha çox formaya üstünlük verilir, yəni qrammatik qaydaların mənimsənilməsinin yoxlanılmasına istiqamətlənir. Bu faktorlar motivasiya əksikliyinə səbəb olan amillərdir.

Öyrənmədə psixoloji faktor kimi həm də şagirdlərin intellektual, idraki bacarıqlarının mövcudluğunu nümunə gətirə bilərik. Dil öyrənmə qabiliyyəti hər kəsdə genetik olaraq proqramlaşdırılıb. Müşahidələrdən məlum olur ki, bəzi şagirdlər qrammatik dəqiqliyə daha az diqqətlidirlər, lakin digərləri koqnitiv strategiyalara müraciət edərək dilin öyrənilməsində bacarıqlıdırlar. (5, s.8) Unutmamalıyıq ki, xarici dil dərsləri təkcə elmi-nəzəri məsələlərin öyrədilməsi deyil, həm də pedaqoji-psixoloji məsələlərin vəhdətini nəzərə almaq, metodikanın ən yeni nailiyyətlərini tətbiq etməkdir.

Şagirdin xarici dilin öyrənilməsinə münasibətini psixoloji cəhətdən aşağıdakı şəkildə xarakterizə edə bilərik:

1. Nitq vərdişlərinin möhkəmləndirilməsinə olan maraq. Bu zaman şagirdin dilə yiyələnməsində məqsəd dil daşıyıcıları ilə ünsiyyətə girə bilmək, təhsilində uğur qazanmaq və digər amillərdir.

2. Xarici dildə ünsiyyət qurmağa olan maraq. Bu halda şagirddə danışmaq üçün daxili motivasiya formalaşmış olur və o dildə ünsiyyət qurmanın zəruriliyini dərk edir. (6, s.117)

O'Malley və Chamot(1990) öyrənənlərə düzgün psixoloji mühitin yaradılması nəticəsində aşağıdakıların mümkün olacağını qeyd edirlər:

1. Narahatlıq və nitqdə ləngimə hallarından yayınma, öyrənmə situasiyalarına pozitiv yanaşmaq;

2. Dil formalarının yadda saxlanılması, qruplaşdırılması və analiz edilməsində və səhvlərin düzəldilməsində bacarıqlı olmaq;

3.Öyrənilən dili istifadə etməyə, mənadan daha çox kommunikasiyaya önəm verməkdir.

4. Müxtəlif öyrənmə şəraitlərinə uyğunlaşmaq bacarığı.

Fikrimizcə, sonuncu məsələ daha aktualdır.Çünki mühitə,müəllimə,dil materiallarına öyrəşmək mühüm psixoloji faktorlardır.

Dilşünas Stephen Kraşhen öyrəncilərdə ruh düşkünlüyünün yaranmaması üçün onların özlərini hazir hiss edəndə danışması üçün şərait yaradılmasını məqsədəuyğun hesab edirdi. Nitq, əlbəttə, dil üçün başlıca məqsəddir. O həm də ona görə vacibdir ki ünsiyyəti stimullaşdırır, bu da zamanla nitqin başa düşülməsinə də müsbət təsir göstərir.(7, s.56) Bu fikirlə qismən razılaşa bilərik. Çünki şagird nitq prosesində özünü tam sərbəst hiss etməlidir. Lakin biz nitq vərdişlərinin inkişafını ilk mərhələdən formalaşdırmasaq yuxarı siniflərdə daha ciddi problemlərlə rastlaşa bilərik.

Rus metodisti Rogova qeyd edirdi ki, nitq motivasiyaedici olmalıdır: Danışan şəxs həmsöhbətinə maraqlı, vacib informasiya ötürmək və məlumat əldə etmək zərurəti duyur. Zənn edək ki, öyrəncilərdən biri öz dostları ilə ünsiyyət qurur. Nə üçün o ünsiyyətə girir? Çünki onda öz dostu ilə fikirlərini bölüşməyə daxili istək vardır. Lakin əksər hallarda şifahi nitq xarici faktorlardan asılı olaraq motivləşir. Şifahi nitq həmişə kiməsə yönəlir.Yəni, öz sözlərimiz, fikrimiz həmişə bizim həmsöhbətimizə ünvanlanır. Öyrənmə prosesini elə təşkil etmək lazımdır ki,sinifdə fikir mübadiləsinə şərait yaransın. Adətən sinifə yeni olmayan mətnin nəql edilməsinə heç kəs qulaq asmır. Çünki mətn informativ deyil və qrup artıq o mətnlə tanışdır. Əgər şagird yeni, individual məlumatlar bildirsə sinifi cəlb edə bilər. Şagirdlərin fikirlərini, hisslərini, münasibətini ifadə edərkən məntiqi xəbəri, fikirdə yeni informasiyanı vurğulamaq üçün intonasiya vasitələrindən necə istifadə etməyi bilməsi labüddür. Bu nə üçün bu və ya digər hekayəni xoşlamasının səbəbini, toxunulan məsələyə, problemə öz fikrini bildirməsi kimi tapşırıqlarla formalaşdırıla bilər.

Şifahi nitq həmişə baş verən situasiyadan asılı olaraq dəyişir. Elə situasiyalar seçilməlidir ki, şagirdlərin nitqini nəinki sinif mühitində həm də sinifdənkənar inkişaf etdirməyə yönəlsin və motivasiyaedici olsun.(8, s.115,116) Aydındır ki, situasiya yaradarkən dialoqlara, simulyasiya və rollu oyunlara müraciət edirik. Daha məqsədəuyğun olardı ki, onlara özlərini ifadə edə biləcək rollar verilsin və onlar bu rollarda özlərini tapsın. Unutmamalıyıq ki, şagirdləri daha yaxşı tanımaq onları nitq fəaliyyətinə cəlb etməkdə əsas amildir. Bu faktorlar şifahi nitqi tədris edərkən nəzərə alınmalıdır. Təlimin ilkin mərhələsində nitqin bacarıqlarının effektiv mənimsənilməsi və kommunikativ vərdişlərin yaradılması üçün müəllimlərə bəzi təkliflər edilir:

- Hədəf dildə şagirdin danışa bilməsi üçün autentik materiallar və tapşırıqlar, əməkdaşlığa əsaslanan tapşırıqlardan ibarət mühitin yaradılmasını təmin etmək;
- Şagirdin cavablarını qiymətləndirərkən müsbət fikirlərə daha çox yer verilsin ki, motivasiya əksikliyinə səbəb olmasın;
- Bu nə məna verir? Sən bu nəticəyə necə gəldin? tipli suallar verməklə onları daha çox fikir yürütməyə cəlb etmək lazımdır. Bu zaman onlar əzbərlədikləri mətni, dialoqdan fərqli olaraq öz fikirlərini söyləmiş olacaqlar;
- Şagirdlər danışarkən onların tələffüz, qrammatik, leksik səhflərinin çox mütəmadi düzəldilməsi məqsədəuyğun deyil. Səhflərin düzəldilməsi şagirdin nitq prosesinə mane olmamalıdır;
- Kommunikasiyadan öncə zəruri lüğətin təqdim edilməsi gərəkdir;
- Hədəf dildə kommunikasiya prosesində şagirdlərin daha çox çətinlik çəkdiyi məqamlar aydınlaşdırılmalı və nitqin praktikası üçün şərait yaradılmalıdır. (2, s.224)

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Adil Babayev, Dilçiliyə giriş, Bakı , 2004
2. Dilara A.İsmailova, Teaching English as a Foreign Language, Baku, 2011
3. Jack C. Richards , Willy A. Renandya, Methodology in Language Teaching, Cambridge University Press, 2002
4. Anna Uhl Chamot, Sarah Barnhardt, The Learning Strategies, Cambridge University Press, 1997
5. Jane Willis, A framework for Task Based Learning, Oxford, 1996
6. Maria Williams, Robert L. Burden, Psychology for Language Teachers, Cambridge University Press, 1997
7. Stephen D. Krashen, Tracy D. Trell, The Natural Approach, Cornwall, 1988

8. Г. В.Рогова, Methods of Teaching English, M, 1983
9. K.D.Uşinski, Seçilmiş pedaqoji əsərləri, Bakı, 1953

С.Гулиева

Психологические основы формирования речевых навыков

Резюме

В статье анализируются психологические аспекты приобретения языка, роль аффективных факторов в формулировании речевых привычек, мотивации и других вопросов. Были разъяснены психологические факторы, которые играют важную роль в формировании речевых привычек. На начальном этапе обучения были продемонстрированы методические рекомендации для преподавателей иностранных языков, которые эффективно справляются с речевыми навыками с учетом психологических факторов. Психологические факторы так же важны, как лингвистические факторы в формировании речевых привычек. Мы не можем сформулировать речевые привычки, не учитывая эти факторы. Анализ психологических аспектов в овладении иностранным языком позволяет выявить существующие проблемы в преподавание языка.

S.Gulieva

Psychological basis of the formation of speech habits

Summary

The article analyzes the psychological aspects of language acquisition, the role of affective factors in formulating speech habits, motivation and other issues. Psychological factors that play an important role in shaping speech habits have been clarified. At the initial stage of the training, methodological recommendations for foreign language teachers have been demonstrated to effectively master the speech skills, taking into account the psychological factors. Psychological factors are as important as linguistic factors in shaping speech habits. We can not formulate speech habits without considering these factors. Analysis of psychological aspects in mastering a foreign language allows identifying existing problems in language teaching.

Rəyçi: Arif Əsədov
Filologiya üzrə fəlsəfə doktoru

SEVİL NƏCƏFOVA
ADNSU
sevil@mail.ru

ÜSLUB VƏ ÜSLUBİYYATIN TƏSNİFİ HAQQINDA

Açar sözlər: söz, dil, ədəbiyyat, üslub
Ключевые слова: слово, язык, литература, стилистические
Key words: word, language, literature, stylistic

«Üslubiyyat» dilçilik elminin bir bölməsidir. Üslubiyyat dilçilik ədəbiyyatında iki mənada: 1.müxtəlif üslublar haqqında elm sahəsi; 2.dilin ekspressiv vasitələri haqqında elm kimi işlədilir. O, dilçiliyin digər şöbələrindən «xüsusi tədqiqat» obyekti olmaması ilə fərqlənir. Əgər fonetika səs sistemini, leksika söz xəzinəsini, qrammatika şəkil və cümlə növlərini araşdırırsa üslubiyyat bu sahələrin hər biri ilə bağlıdır, hamısının ayrı-ayrılıqda üslubi xarakterini və imkanlarını öyrənir. Həmçinin üslubiyyat elmi sözü, ifadəni, cümləni «məqama görə qiymətləndirir və öz məqamına düşməyən leksik, qrammatik vahidlər, fikrin ifadə tərzi məqbul sayılmır. Bayatımızın birində deyilir:

Əzizim göz yeri var,
Üzümüzdə göz yeri var.
Məclisdə məqam gözlə,
Hər sözün öz yeri var.

Büffonun üslub barədə məşhur bir ifadəsi var: «Üslub-insandır». Akademik Məmməd Arif «Dil və üslub məqaləsində faktiki olaraq onun bütün komponentlərini sadalayır: «Yaxşı üslub nə deməkdir? Uzunçuluqdan qaçıb qısa və mənalı yazmaq təsvirlərdə tam, düzgün və canlı bədii mənzərələr və surətlər yaratmağı bacarmaq fikri sadə və aydın ifadə etməkdir» (4.səh.150).

Rus alimi Vinokura göstərir ki, «Dil tarixinin başqa bölmələrindən fərqli olaraq üslubiyyət bir deyil, bir neçə sahə ilə bağlıdır. Üslubiyyatın əsas vəzifəsi dili bütün struktur boyu byrənməkdir, yəni həm səsləri, həm formaları, həm işarələri və onların ayrı-ayrı hissələrini. Beləliklə, onun «öz xüsusi» tədqiq obyekti sanki yoxdur.

Tədqiqatçının fikrinə görə «məhz elə buna görə də həmin əlaqələrin üzə çıxarılması, aydınlaşdırılması dildə gedən prosesləri izləmək, sözlərdə əmələ gələn semantik yeniliyi, onların daxili mənalarını açmaq, funksional rəngarəngliyini üzə çıxarmaq üçün son dərəcə böyük əhəmiyyətə malikdir. Çünki ədəbi dilin üslublarının özünəməxsus xüsusiyyətləri olsa da, onlar bir dil sistemində mövcuddur».

Üslubiyyat haqqında yeni fikri Qərb alimlərindən St.Ulman da belə söyləyir: «Üslubiyyat dilçiliyin ayrıca sahəsi deyil, lakin onun tədqiq etdiyi problemləri tamamilə başqa baçımdan öyrənən paralel bir elmdir».

Üslubiyyat terminin tarixidə çox qədimdir. Hələ yunan dilçiliyində Aristotel insan nitqi və onun fəlsəfi problemlərindən danışarkən üslub məsələlərinə toxunurdu. Sonra Romalılar da üslub anlayışını nitqə tətbiq etdilər. Onlar da yunan alimləri kimi üslub terminini riforika, vəlağətli nitq kimi başa düşürdülər.

Aristotel yazırdı: «Üslubun qiyməti onun aydınlığındadır....» Əgər nitq aydın deyilsə, deməli, o öz məqsədinə nail ola bilməz. Üslub həddən çox alçaq, həddən çox yüksək olmamalıdır, lakin nitqin mövzusuna uyğun gəlməlidir" (8.səh15).

Qədim hindlilər isə üsluba nitqin zahiri əlaməti, onun bəzəyi kimi baxmışlar.İstər yunan və roma fəlsəfəsində, istərsə də Şərq elmində XVIII əsrin sonlarına qədər üslubiyyat ədəbiyyatın bir hissəsi kimi başa düşülürdü. Üslubiyyatda qrammatik qaydalara bənzər qaydalar mövcud idi.

Azərbaycan dilçiliyində də üslubiyyat problemlərinin tədqiqi tarixi olduqca qədimdir. «İfadə-tərzi», «Gözəl danışmaq», «Müraciət vasitəsi», və s. bu kimi məzmunlar bildirən ərəb mənşəli üslub sözü dilimizdə hələ orta əsrlərdən işlənməyə başlamışdır. Lakin zaman keçdikcə üslub sözünün mənası dəyişmiş, «metod», «fərdi bədii üslub» və məzmunları kəsb etmişdir.Üslub bu və ya digər ümumxalq, ümummilli dilin təsir dairəsində işlədilən nitq vasitələrinin seçilməsi və birləşməsi, o xalqın ictimai təcrübəsində başqa vəzifə daşıyan, başqa məqsədə xidmət edən ifadə vasitələri ilə nisbi müqayisədə götürülən priyomların ictimaiyyat tərəfindən dərk edilmiş, təkmilləşmiş və funksional cəhətdən şərtləşmiş, daxilən birləşmiş məcmusudur» (3, səh.73).

Dil inkişaf etdikcə üslubi vasitələr zənginləşir və dilin üslubları da artır. Ümumiyyətlə, dilin tarixi inkişafı həm qrammatik vahidlərdə, sözlərdə və fonetik vahidlərdə, həm də üslubi zənginləşmə və s. şəklində təzahür edir.

Üslubiyyat bir termin kimi XX əsrin I rübütdə elmə daxil olmuş, əsasən, ədəbiyyatşünaslığa aid edilmişdir. Keçən əsrin 40-cı illərindən başlayaraq dilçilikdə ədəbiyyatşünaslıqda lider V.V.Vinoqradov üslubiyyatın müstəqil dil sahəsi olduğunu sübut edərək göstərdi ki, bədii üslub məhz bədii dillə yaranır. Buna görə də o dilçilik sahəsi olmalıdır (6, səh.13).

Dilçilik üslubiyyatının mövzu və məqsəddən asılı olaraq aşağıdakı növləri meydana gəlmişdir: a) ümumi və xüsusi üslubiyyat; b) nəzəri və təcrübi üslubiyyat; c) təsviri, tarixi və müqayisəli üslubiyyat.

Üslublar ümumxalq dilindən istifadə etməsinə, ifadə vasitələrinin və sözlərin seçib işlədilməsinə, aralarındakı əlaqə və tiplərinə görə bir-birindən fərqlənir.

Müşahidələr, tədqiqatlar göstərir ki. üslublar arasındakı qarşılıqlı münasibətlər tarixən ya zəifləmiş. ya da. əksinə, müxtəlif səbəblərdən möhkəmlənmişdir. Məsələn, müasir dövrümüzdə epistolyar üslub elementlərinə elmi əsərlərdə təsadüf edilmədiyi halda. elmi üslubla bədii üslubların əlaqəsi daha da möhkəmlənmişdir. Çünkı elmin və texnikanın inkışaf etməsi ilə əlaqədar müxtəlif elm sahələrinə məxsus terminlər digər üslublara daha intensiv şəkildə daxil olmağa başlamışdır. Əlbəttə, üslubların keçən əsrlərdəki qarşılıqlı əlaqəsi ilə müasir dövrümüzdəki qarşılıqlı əlaqəsi arasında müəyyən fərqlər özünü göstərir. Məsələn, əgər XIX əsrdə çıxan «Kəşkül» qəzetindəki publisist yazılarda rəsmi üsluba məxsus termin olan «qanun» termininin. rusca qarşılığı «zakon» termini ilə paralel işlənməsi təbii hal sayılırdısa, müasir dövrümüzdə belə hal üslub səhvı hesab edilır. Bu da, əlbət ki. dilin illər keçdikcə kənar ünsürlərdən («zakon» -rus sözüdür) təmizlənməsi ilə əlaqədardır. Hal-hazırda belə sinonımlik məhz müəllif tərəfindən müxtəlif məqsədlərlə (surətin savadsızlığını nümayiş etdirmək və yaxud satira yaratmaq məqsədi ilə) bədii əsərə daxil edilir. Belə fərqlərə baxmayaraq. üslubların qarşılıqlı əlaqəsi müasir dövrümüzdə də mövcuddur.

Ədəbiyyar nəzəriyyəsində bu anlayış bir neçə mənada işlənilir:

1)Ədəbi cərəyan, ədəbi məktəb, ədəbi məclis və mənada. Adətən, bu cür ədəbi-bədii birliklər öz yaradıcılıq tərzinə, manerasına görə birləşən, uyğunlaşan, həmfikir olan yazıçılanrı (şair və nasirlərin) fəaliyyəti əsasında yaranır. Dünya ədəbiyyatı tarixində bir çox ədəbi üslublar, o cümlədən "klassik üslub", "romantik üslub" məşhurdur (2, səh.186).

2)Yazıçının üslubu-hər bir söz sənətkarının ideya-bədii xüsusiyyətlərinin cəmi, onun yaradıcılıq tərzi mənasında. Yazıçı üslubu onun ümumxalq dilindən dil vasitələrinin öz arzu və zövqünə, mövzu və məqsədinə görə necə seçib işlətməsi üsulları ilə bağlıdır. Hər bir yazıçının üslubu onun həyata münasibəti, elmi və siyasi biliyi, mədəniyyəti, bacarığı əsasında yaranır. Buna görə də yazıçının dünyagörüşü ilə ifadə tərzinin vəhdəti onun üslubudur. Lakin yazıçının üslubu ümumdil xaricində mövcud deyildir. Bu, ümumidən asılı olaraq onun bir hissəsidir.

Bədii yaradıcılıqda hər bir sənətkarın öz üslubunun olması əsas şərtlərdəndir. Çünki fərdi üslub onun yaradıcılıq orijinallığını müəyyən edir və onu başqalarından fərqli bir sənətkar kimi tanıdır. Elə buna görə də bədii yaradıcılıqda üslub sənətkarın özü deməkdir.

3)Bədii əsərin üslubu-hər hansı bir bədii əsərin dil xüsusiyyətləri mənasında. Məlum olduğu kimi, yazıcının hər bir əsəri üçün material bütün zənginliyi, varlığı ilə ümumxalq dilidir. Hər hansı bir əsərin dili yazıçının ümumxalq dilindən istifadəsinin nəticəsidir. Həm də yaranmış bu və ya digər əsər sənətkarın ümumi yaradıcılığının bir hissəsini təşkil edir.

İnkişaf etmiş hər bir dilin özünə məxsus üslub qolları olur və bu qollar xüsusi cəhətlərinə görə bir-birindən fərqlənirlər. Tarixi kateqoriya olan funksional üslublar tarixi zərurətdən yaranmışdır.

Funksional üslublar mürəkkəb sistem olduğu üçün, hər hansı üslubda işlə dilən söz, ifadə və s. elə seçilməliir ki, oxuyan, dinləyən ona çatdırılacaq fikri başa düşsün.

Üslub fərdidir, danışanların hər birinin özünəməxsus nitq üslubu vardır.

Dil vahidlərinin üslubi keyfiyyətləri müxtəlifdir. Bu keyfiyyətlər dilin fonetikası, leksikası və qrammatikasının imkanları sayəsində yaranır, nitqə üslubi çalarlıq gətirir. Bu barədə Ə.Dəmirçizadə yazır: «Üslub dedikdə biz sözlərin, ifadələrin, qrammatik vasitələrin və fonetik imkanların məqsədəuyğunluq əsasında seçilmiş vahidlər sistemini başa düşürük» (260 səh.). Üslubiyyatın mövzu və vəzifəsi eyni zamanda onun həcminin və quruluşunu da müəyyənləşdirmək üçün lazımi əsasları verir.

Ayrı-ayrı zamanlarda üslubiyyatın özünün dilçilik elmi silsiləsində varlığı mübahisələrə səbəb olmuşdur.

Böyük rus alimi Lomonosov «Üç üslub» nəzəriyyəsində bədii ədəbiyyatın janrlarını əsas götürmüşdür (nəsr, poeziya, dram) (3.səh.235).

Mənbəyi Roma imperiyası sayılan «Üç üslub» nəzəriyyəsinin digər əsası isə söz sənətinin 3 əsas janrı «aşağı», «orta» və «yüksək» idi. Bu nəzəriyyə Romaya da yunanlardan gəlmiş və 3 növ müxtəlif məzmunlu əsərləri özündə birləşdirdi: çoban şeirləri, əkinçiliklə bağlı şeirlər, qəhrəmanlıqla bağlı epik poemalar. Bu 3 janra uyğun olaraq onların tətbiqində nəinki sözlər və onların adlandırdıqları əşyalar, hətta bu əsərlərdəkt qəhrəmanların adları da fərqli olmalı idi (3.səh.235).

XIX əsrdə ədəbi dilmizin nüfuzunu dəyərini zəruriliyini nəzərə alaraq, Azərbaycan filoloqları onun öyrənilməsini fikrini irəli sürmüşlər. Dilmizin tədrisi ilə əlaqədar dilçilik elmimizin əsası qoyulur. Ədəbi dilin bədii üslubunun nəsr qolu əmələ gəlməyə öaşlayır, drammaturgiya, hekayə janr növləri meydana çıxır.

Bəzi mülahizələrə görə dil üslub qatlarından ibarətdir, bu qatlar isə təfəkkür tərzinə görə fərqlənən ifadə tərzinin məqsədəuyğun ifadəlilik vasitələri sistemi əsasında yaranmış qatlardır. Belə qatların bəzisi dil formalaşandan təşəkkül etmiş, bəzisi isə təfəkkürün və onun ifadə tərzinin inkişafı ilə əlaqədar surətdə sonralar formalaşmışdır.

The article sums up some results of studing the case system and facilitating the creation of an idea of the Russian language, which is extremely difficult to study dy foreigners. A great place in the work is occupied by the study of the Russian language and correctly speaking on it.

Then it must be able to use case endings inn their full volume. The main attention is drawn to the reading of scientific literature, where it may be possible to limit oneself to acguaintance only with those forms without which the formal interpretation of the text is unattainable. For this it is necessar6y to celect these forms fnd determine the significance of one form or another for understanding. The work reflected? As is known the grammatical information of each language can be substantial (basic) and redundant (auxiliary). The basic grammatical information expresses the concept or connections that exist objectively. It reports real extralinguistic facts and relationships. And not about the features of words denoting these facts,phenomena, relations. Auxiliary information refers to the plan of inversion and speaksabout the fleatures of the message coded in the words of a language.

S.Quluzadə

İxtisası üzrə ədəbiyyatı oxuyan intensiv hazırlıq halında formaların seçilməsi

Xülasə

Məqalədə vəziyyətin öyrənilməsinin bəzi məsələlərini və rus dilinin ideyasının yaradılmasını asanlaşdırır. Bu, rus dilinin öyrənilməsini genişləndirir. Əsas yer rus dilinin öyrənilməsi və düzgün danışmalara kömək göstərir. Əsas diqqət elmi ədəbiyyatın oxunmasına yönəldilir, burada mətnin formal şəkildə şərh edilməməsi mümkün olmayan formalarla əlaqə yaratmaq üçün özünü məhdudlaşdıra bilər.

Mətnin öyrənilməsinin əsas məqsədi, mətnin kifayət qədər uyğun olmayan anlayışının elmi ədəbiyyatın oxunmasıdır və əsas qrammatik məlumatlar, ekstralinqvistic faktlar və əlaqələr göstərilir. Və bu faktları, hadisələri, əlaqələri göstərən sözlərin xüsusiyyətləri haqqında deyilir.

Rəyçi: Nərmin Musabəyova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

FƏRİDƏ KƏRİMOVA
ADU
karimovafrda@gmail.com

FRANSIZ DİLİNDƏ QRAMMATİKANIN KOMMUNİKATİVYÖNÜMLÜ TƏDRİSİ ZAMANI AUTENTİK MATERİALLARIN ROLU

Açar sözlər: autentik materiallar, kommunikativ yanaşma, induktiv metod, deduktiv metod, real həyat situasiyaları
Keywords: authentic materials, communicative approach, inductive method, deductive method, real-life situations
Ключевые слова: аутентические материалы, коммуникативный подход, индуктивный метод, дедуктивный метод, реальные ситуации

Xarici dil müəllimlərinin əsas məqsədi xarici dili öyrətmək, dilöyrənənlərin dili ünsiyyət vasitəsi kimi istifadə etməsinə imkan yaratmaq və dilin digər istifadəçilər tərəfindən başadüşülməsini təmin etməkdir. Xarici dilin öyrədilməsi zamanı qrammatikanın rolu məsələsi hər zaman tədqiqatçıların maraq dairəsində olmuşdur. Belə ki, P.Ur, C.Skriviner, C.Harmer, S.Sornberi kimi bir sıra tədqiqatçılar qrammatik biliyi xarici dildə səmərəli və uğurlu ünsiyyətin vacib elementi hesab edirdilər [4]. Ünsiyyət prosesinin uğurlu iştirakçısı olmaq üçün düzgün qrammatik biliyə sahib olmaq labüddür. Dilin aspektlərindən biri olan qrammatikanın tədrisi məsələsinə toxunan S.Sornberi aşağıdakı fikirləri qeyd etmişdir:

1) Qrammatika dildə qaydalar sistemidir. Qaydalar haqqında biliklər dil sitifadəçisinin original cümlələr yaratmasına imkan yaradır.

2) Linqvistik səriştənin qəlibləşməsi prosesi qrammatik göstərişləri qəbul edənlərə nisbətən qəbul etməyən dilöyrənənlərdə daha tez özünü göstərir.

3) Qrammatik biliyə yiyələnən hər bir xarici dili öyrənən həmin dil üzrə dil daşıyıcıları ilə ünsiyyətdə daha uğurlu çıxış edərək dil daşıyısının istifadə etdiyi qrammatik vahidləri asanlıqla tanıya bilir.

4) Xarici dili öyrənmək həmin dildə mövcud olan qrammatik kateqoriyaları bilmək və onları istifadə etməyi bacarmaqdır.

5) Qrammatika öyrədilə bilən və yoxlanılan qaydalar sistemi kimi başa düşülür.

6) Qrammatikanın tədrisi zamanı dilöyrənənlərin gözləntiləri nəzərə alınmalıdır. Hər bir müəllim şagirdlərin öyrənmə fəallığını təmin etməlidir.

7) Qrammatikanın tədrisi zamanı əsas məqsəd kommunikativ məqsədlərə nail olmaq olmalıdır [2, s.23].

Orta məktəbdə fransız dili müəllimləri kurikulum əsasında dərs planı hazırlayarkən qrammatik vahidlərin şagirdlər tərəfindən mənimsənilməsi məsələsini nəzərdə tutaraq qrammatikanın tədrisində hansı metodun istifadə olunmasının daha müvafiq olacağı barədə əvvəlcədən düşünürlər. C.Harmer bu məqsədlə qrammatik tərcümə metodu, birbaşa metod, audiolinqvualizm, kommunikativ dil təlimi, tapşırıq əsaslı öyrənmə və leksik yanaşmanın mühüm əhəmiyyətə malik olduğunu vurğulayır. Kommunikativ dil təlimi bu metod və yanaşmalar içərisində xüsusilə seçilir. C.Harmer müəllimlərə bu barədə bir sıra məsləhətlər verir:

- xarici dil müəllimləri dilöyrənmə prosesinin uğurla həyata keçməsi üçün stimuledici mühit yaratmalıdırlar,
- şagirdlər dərs zamanı mənaya nisbətən daha çox formaya fokuslanmalıdırlar,
- şagirdlər hər zaman öz dil biliklərini aktivləşdirməyə ehtiyac duyurlar. Buna görə də müəllimlər pedaqoji fəaliyyət zamanı bu məsələni diqqət mərkəzində saxlamalıdırlar,
- şagirdlər xarici dildə qrammatik strukturlar barədə müəllimdən birbaşa informasiya almamalıdırlar, özləri məlumat axtarmağa həvəsli olmalıdırlar. Şagirdlərin tədqiqata həvəsləndirilməsi zamanı müəllim aparıcı qüvvə hesab olunur,
- dilöyrənmə prosesində qrammatika və leksika birgə tədris olunmalıdır, yəni leksik bilik qrammatik biliklə əlaqələndirilməlidir,
- xarici dil müəllimləri müəllimlər nəyi, harada və necə tədris edəcəkləri barədə özlərinə inamlı olmalıdırlar,
- müəllimlər qrammatikanın tədrisi zamanı müvafiq metodun seçimi barədə məntiqi, yaradıcı və tənqidi düşüncəyə malik olmalıdırlar.

C.Skriniver isə qrammatikanın tədrisi zamanı təbii yanaşma, ümumi fiziki cavab, səssiz metod və s. əhəmiyyətini vurğulayır [4, s.67]. Əlbəttə hər bir metodun istifadəsi öz fərqli xüsusiyyəti ilə seçilir. Eyni zamanda unutmaq olmaz ki, eyni metodun fərqli siniflərdə tətbiqi fərqli təlim nəticələri ilə müşahidə olunur.

Qrammatikanın tədrisində induktiv və deduktiv metodların əhəmiyyəti böyükdür. Deduktiv metod qayda əsaslı öyrənmə, induktiv metod isə kəşfedici öyrənməni nəzərdə tutur. Deduktiv metod birbaşa həyata keçir. Bu metodun istifadəsi zamanı şagirdlərin bilik, bacarıq və qabiliyyətlərinə xüsusi diqqət olunur. Qrammatikanın deduktiv yolla tədrisi müəllimyönümlüdür və kontekstdən asılı olmayaraq fərdi qrammatik strukturların təqdimatını əsas tutur. Qaydaların izahı zamanı ana dilindən istifadəyə icazə verilir və model təkrarlar vasitəsilə bilik təcrübədən keçirilir. Lakin bəzən bu metodun tətbiqi

şagirdləri demotivasiya da edə bilər. Çünki deduktiv metod yalnız qrammatik qaydaları öyrətməklə yekunlaşır. İnduktiv metod isə öyrənmə fəallığını rəhbər tutur. Lakin bu metodun tətbiqi uzun vaxt apara bilər. Belə ki, onlar səhv qrammatik qaydalar və ya səhv qrammatik fərziyyə üzərində işləyə bilərlər. Belə hal müşahidə olunduqda müəllimin müdaxiləsinə ehtiyac yaranır.

Kommunikativ qrammatikanın tədrisi zamanı autentik materialların əhəmiyyəti çox böyükdür. Autentik materiallardan istifadə kommunikativ dil təliminin vacib bir hissəsini təşkil edir. Autentik material şagirdlərin real dil istifadəsinə imkan yaradır, onları şüuraltı dil mənimsənməsi üçün yararlı linqvistik informasiya ilə təmin edir.

Autentik materialları aşağıdakı qruplara bölmək olar:

- ✓ oxuya dair autentik materiallar
- ✓ audio-əyani autentik materiallar
- ✓ internet materialları

Oxuya dair autentik materiallara kitab, jurnal, məktub, e-mail və s., audio-əyani autentik materiallara elanlar, video, cizgi filmləri, musiqi və s., internet materiallarına vebsaytlar, sosial şəbəkə, youtube, bloq, vloq, onlayn oyunlar və s. daxildir. Tədris prosesində fərqli autentik materiallardan istifadə dərsin rəngarəngliyinə gətirib çıxacaq. Hal-hazırda internet materiallarının istifadə olunma səviyyəsi daha yüksəkdir.

Autentik materialların düzgün seçimi və istifadəsi vacib şərtlərdəndir. Autentik materialların seçimi fiziki və əqli xüsusiyyətlərlə birgə yaşa müvafiqliyi də gözləməlidir. Həm leksik, həm də qrammatik cəhətdən autentik dilin mürəkkəbliyinə görə şagirdləri demotivasiya etməyəcək tərzdə autentik materialların seçimi böyük fayda verər.

Autentik materialların seçimi zamanı bir sıra amilləri nəzərə almaq lazımdır. Bu amillər aşağıdakılardır:

- ➢ dilöyrənənlərin ehtiyaclarına və maraqlarına əsasən məzmunun uyğunluğu,
- ➢ konkret dərsin öyrətmə perspektivi,
- ➢ autentik materialların oxunaqlılığı,
- ➢ autentik materialların təqdimatı,
- ➢ autentik materialın yaradıcı imkanları,
- ➢ autentik materialların motivasiya imkanları,
- ➢ autentik materialların şagirdlərin fəallıq səviyyəsi ilə əlaqəsi [1, s. 257].

Bu amillərdən əlavə mədəni amilə də diqqət yetirmək lazımdır. Bəzən autentik materiallar xüsusi mədəni faktlarla zəngin ola bilər və həddindən artıq mədəni əsaslı ola bilər. Bu isə şagirdlərdə anlaşılmazlığa gətirib çıxaracaq. Ona görə də ehtiyac yarandıqda şagirdlərə mədəni terminlər barədə müvafiq izahlar verilməlidir.

Autentik materiallardan istifadənin üstünlüklərindən biri də odur ki, qrammatikanın kommunikativyönümlü tədrisi zamanı dilöyrənənlər yalnız yeni qrammatik biliklərə yiyələnmirlər, eyni zamanda zəngin lüğətə sahib olur və bunun sayəsində onların dil bilikləri zənginləşir. Səlis nitq üçün zəngin lüğətə yiyələnmək əsasdır.

Həmçinin autentik materiallar qrammatika dərslərində tədricən təqdim olunmalıdır. Şagirdlərdə əvvəlcədən autentik materiallardan istifadəyə maraq oyadılmalıdır. Eyni zamanda dərs prosesində autentik materialların istifadəsi zamanı sinifdəki ən zəif və ən fəal şagirdlərin səviyyəsini nəzərə almaq lazımdır.

Autentik materialların daha yuxarı siniflərdə tədrisi tövsiyə olunur. Çünki kiçikyaşlılara nisbətən yuxarı sinifdə təhsil alan şagirdlər ünsiyyət prosesində özlərini daha rahat hiss edirlər. Eyni zamanda autentik materiallar bəzən şagirdlərə tanış olmayan leksik tərkibi, qrammatik strukturları özündə ehtiva edə bilər. Buna görə də həmin materialların şagirdlərin bilik səviyyəsinə uyğunlaşdırılması lazımdır. Bu isə xarici dil müəllimlərindən böyük pedaqoji ustalıq və təcrübə tələb edir. Autentik mətnlərin yaratdığı problemlərin qarşısını almaq məqsədilə onları dilöyrənənin səviyyəsinə uyğun sadələşdirmək mütləqdir. Bu zaman mətndən istənilən çətin sözlər və ya strukturlar çıxarıla bilər, ancaq bu həmin mətni daha az autentik edir.

Autentik mətnləri sadələşdirərkən bir sıra parametrlərə diqqət yetirmək lazımdır:

- linqvistik sadəlik,
- koqnitiv sadəlik,
- psixoloji sadəlik.

Linqvistik sadəlik qrammatik strukturlar, leksik vahidlər, mətnin oxunaqlılıq səviyyəsi ilə, koqnitiv sadəlik dilöyrənənlərin intellektual səviyyəsi ilə, psixoloji sadəlik isə ənənəvi sosial normalar ilə müəyyənləşir.

Qrammatikanın kommunikativyönümlü tədrisini həyata keçirmək üçün ən faydalı autentik material filmlər ola bilər. Lakin film izləmək hər bir dərsin tərkib hissəsi ola bilməz. Eyni zamanda şagirdlərin izləyəcəyi filmi əvvəlcədən düzgün müəyyənləşdirmək labüddür. Şagirdlərin yaş, bilik səviyyəsinə və maraq dairəsinə müvafiq olan filmin seçimi onların marağına da səbəb olacaq. Xüsusilə şagirdlər zaman formalarını öyrəndikdən sonra onların qrammatik biliyinin hansı səviyyədə olduğunu yoxlamaq üçün, şagirdlərə öyrədilən zaman formalarının real istifadə imkanlarını təqdim etmək üçün film izləmək faydalı olar. Filmin nümayişi zamanı şagirdlər öyrəndikləri zaman formalarının işlənmə tərzinə, onların təsdiq və inkar formada istifadə formasına bələd olacaq və bununla da autentik danışıq dilini anlama bacarığına yiyələnəcəklər. Həmçinin dərs prosesində filmdən istifadəni tapşırıq həlli vasitəsilə də həyata keçirmək olar. Bu məqsədlə filmə müvafiq olaraq şagirdlərə kommunikativ qrammatik

tapşırıqların əks olunduğu işçi vərəqləri təqdim oluna bilər. Şagirdlər tapşırıqlarla tanış olduqdan sonra onlar filmin müəyyən olunmuş hissəsini yenidən izləyirlər. Tapşırıqların icrası yekunlaşdıqdan sonra ümumi sinif müzakirəsi çərçivəsində qrammatik çalışmalar yoxlanılır və şagirdlərin etdikləri səhvlər izah olunur. Səhvlər ya ümumi sinif üzrə, ya da fərdi qaydada izah oluna bilər. Müəllim və şagirdlər müzakirə şəklində film barədə öz fikirlərini bölüşürlər. Qrammatik biliyin avtomatlaşdırılması üçün müvafiq suallar şəklində yenidən təkrarlar oluna bilər. Həmçinin filmin seçilmiş müəyyən bir hissəsi şagirdlər tərəfindən rollu oyun şəklində icra oluna bilər. Həyata keçirilən bu fəaliyyət şagirdlərin eşidib-anlama bacarıqlarının inkişafına da müsbət təsir göstərir.

Hal-hazırda xarici dil dərsliklərin tərtibatı ilə bağlı çatışmazlıqlardan biri mətnin dili ilə autentik dil arasındakı boşluq məsələsidir. Tədris prosesində yüksək nəticələr əldə etmək üçün şagirdlərin kommunikativ səriştəsini inkişaf etdirəcək tərzdə tapşırıq, çalışma və fəaliyyət növlərinin əks olunduğu dərsliklər seçilməli və istifadə olunmalıdır. Eyni zamanda dərslikdə əks olunan qrammatik tapşırıqlar kommunikativlik imkanları ilə seçilməlidir[5, s.103].

Autentik materialların bir sıra üstünlüklərini və çatışmazlıqlarını nəzərə alaraq qeyd edə bilərik ki, ümumilikdə kommunikativ qrammatikanın tədrisi zamanı autentik materiallardan səmərəli istifadə fransız dilinin öyrədilməsi prosesinə müsbət təsir edəcək. Dil dərslərində real dünya ilə əlaqənin yaradılması şagirdləri real ünsiyyətin uğurlu iştirakçısına çevirəcək. Real materiallarla işləmək dərs prosesində qeyri-fəal şagirdlərin də utancaqlıqdan azad olmasına kömək olacaq. Həmçinin bəzən autentik materialların mürəkkəbliyi də üstünlük hesab oluna bilər, çünki dilöyrənənlər autentik materiallardan istifadə etməklə daha çox dil biliyi əldə edəcəklər. Bununla yanaşı, autentik materialların uğurlu istifadəsi şagirdlərin müstəqil öyrənmə imkanlarını da genişləndirəcək. Buna görə də fransız dilində qrammatikanın kommunikativ-yönümlü tədrisini həyata keçirmək məqsədilə autentik materialların rolunu danmaq olmaz.

Ədəbiyyat:

1) Hedaywa J. Sourak S. Le rôle des documents authentiques dans l'enseignement/apprentissage du français Langue étrangère. Tishreen University Journal for Research and Scientific Studies - Arts and Humanities Series Vol. 35 No. 2. 2013. p. 257-264
2) Seeger I. Teaching grammar with authentic material: advantages and disadvantages of a deductive and a consciousness-raising approach. MA TEFL / TESL Module 1. 2008. p.35

3) Sorlie Y. Documents authentiques oraux dans l'enseignement du FLE debutant. Universitetet i Oslo. 2013. p.89
4) Stralova E. Teaching grammar using authentic materials. Masaryk University. Brno. 2016. p. 79
5) Uwizeye M. Les exercices de grammaire et le développement de la compétence communicative. Paris: CLE International, 2011. p.106

F.Karimova

Role of authentic materials in teaching grammar communicatively in the French language

Summary

This article deals with role of authentic materials in teaching communicative grammar. Authentic materials play a vital role in organizing language lessons. They are effective for language learners to take part in real-life situations. There is no doubt that selection of authentic materials is also an essential part of preparation of a lesson. So foreign language teachers should be so attentive while choosing appropriate authentic materials in order to teacher grammar communicatively.

While selecting authentic materials teachers should pay attention to main factors such as suitability of content, readability of the authentic material, presentation of attractiveness of the authentic material and cultural context. Also the choice of the authentic material should reflect its appropriateness for the age with its physical and mental features. Communicative grammar activities based on different types of authentic materials will give brilliant opportunities to language learners. Authentic materials will have positive effects on learning process of the French language because of the motivating function of this kind of materials and the real-world connection between the language lesson and the real world outside the classroom.

In addition, differences between inductive and deductive methods of teaching communicative grammar are given in this article.

Ф.Каримова

Роль аутентичных материалов в обучении грамматике коммуникативно на французском языке

Резюме

В этой статье рассматривается оригинальное содержание учебной коммуникативной грамматики. Аутентичный материал при организации языковых занятий. Они эффективны для изучения языка учащимися в реальных ситуациях. Несомненно, выбор подлинных материалов является частью подготовки урока. Поэтому преподаватели иностранных языков должны быть настолько внимательны.

При выборе подлинных материалов вы должны сосредоточиться на таких основных факторах, как пригодность контента, читаемость, аутентичный контент, культурный контекст. Кроме того, выбор исходного материала должен отражаться в его физических и умственных особенностях. Коммуникативная грамматика основана на различных типах аутентичных материалов, которые дают блестящие возможности языковым ученикам. Аутентичные материалы окажут положительное влияние на процесс обучения с французского языка из-за мотивирующей функции этого класса.

Кроме того, в этой статье приводятся различия между индуктивными и дедуктивными методами обучения.

Rəyçi: Teybə Cəlilolva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SEVİNC MƏMMƏDZADƏ
Odlar Yurdu Universiteti
e-mail:mamedzade-1982@mail.ru

QLOBALLAŞMA VƏ ONUN DÜNYA DİLLƏRİNƏ TƏSİRİ

Açar sözlər: qlobal dil, regional variant, standart ingilis dili, qloballaşma
Key words: global language, regional variation, standard English, globalization
Ключевые слова: глобальный язык, региональный вариант, стандартный английский язык, глобализация

Qloballaşma həyatın ən müxtəlif sahələrini əhatə edən elə bir prosesdir ki, uzun illər boyu bir-birindən təcrid olunmuş, parçalanmış hadisələri, vərdişləri texnologiyanın güclü təsiri ilə bir-birinə yaxınlaşdırır, qovuşdurur, dünyada baş verən prosesləri vahid məcraya salır. XX əsrin ortalarından etibarən daha geniş sürətlənən qloballaşma bütün dünyanı əhatə etmişdir. [7]

Qloballaşma beynəlxalq ünsiyyətin durmadan artmasını tələb edir ki, bu da ünsiyyət vasitəsi olan dilin (dillərin) təbiətinə əhəmiyyətli dərəcədə təsir edir. Bu gün dünyada mövcud olan yüzlərlə dildən yalnız bir neçəsi beynəlxalq statusa və nüfuza malikdir ki, həmin dillərin içərisində ingilis dilinin xüsusi mövqeyi vardır. Müasir dövrdə dünyada ingilis dilinin nüfuza malik olmasının bir neçə səbəbləri vardır. Onlardan biri, dünyanın ümumi bir ünsiyyət vasitəsi (dilə) getdikcə ehtiyacının artması və digər dillərlə müqayisədə üstünlüklərinin olmasıdır. Bu gün müasir dünyada ingilis dili əsas beynəlxalq dil kimi sayılmaqdadır. Prof. Fəxrəddin Veysəlli ingilis dilinin dünyadakı hegemonluğunu bu cür qiymətləndirir: "Qloballaşma dövründə ingilis dilinin hökmranlığı bu dilin anası sayılan Böyük Britaniya və A.B.Ş. – ın iqtisadi, siyasi və hərbi vasitələrdən istifadə etməklə həmin dilin qəbul etdirilməsinə gətirib çıxarır ki, bununla da başqa xalqların dillərinə zərbə dəymiş olur." [7]

İngilis dilinin yayılmasının digər səbəblərindən biri onun bir deyil, bir neçə xalqlar tərəfindən dövlət dili kimi istifadə olunmasıdır. İngilis dilinin yayılması tarixində 3 dövr özünü biruzə verir.

Birinci dövr- erkən orta əsr dövrü. Bu dövrdə fransız dili ingilis dilinə o qədər təsir etmişdir ki, ingilis dili daha çox german deyil, roman dillərinə bənzəməyə başlamışdır.

İkinci dövr- renesans və ondan sonrakı dövr. Bu dövrü Şekspir dövrü də adlandırmaq olar. İngilis dilində daha çox dramaturqların təsiri hiss olunurdu.

Üçüncü dövr- II minilliyin sonu, III minilliyin əvvəli. XX əsrin 60-cı illərindən ingilis dilinin dünya miqyasında yayılması çox geniş vüsət almağa

başladı. [3, s.104] Bir çox ölkələr ilk öncə bu dili etnikarası vasitə kimi istifadə etməyə başladılar, lakin, sonralar bu dil tədricən yerli xalqlar üçün doğma olmağa başlamışdır. Beləliklə də, Britaniya ingiliscəsi Amerika ingiliscəsinin, sonralar Avstraliya, daha sonralar Nigeriya, Hindistan, Kanada və s. ingiliscələrinin təməlini qoymağa başladı.

XIX əsrdə Böyük Britaniya aparıcı iqtisadı və ticarı ölkəyə çevrilmişdir. Bu əsr boyunca Britaniya siyasi sistemi ingilis dilinin bütün Yer kürəsinə yayılmasına müvəffəq olmuşdur. İngilis dili bu gun Yunesko, Nato və digər beynəlxalq təşkilatların rəsmi dili olaraq qəbul edilir. [1, s.302] Qloballaşan müasir dünyada ingilis dili beynəlxalq dil funksiyasini yerinə yetirir. Son illərdə ingilis dili xalqlararası ünsiyyət dilinə çevrilmiş və "qlobal dil" (global language) adını qazanmışdır. Bu dilin beynəlxalq statusunun bir kriteriyası da odur ki, ingilis dili bir çox funksiyaları yerinə yetirir: istifadə olunduğu ölkədə dövlət və ya rəsmi dil səviyyəsində qəbul edilir və təhsil sistemi, kütləvi informasiya vasitələrində, məhkəmə və digər sferalarda fəaliyyət göstərir. [4, s.33]

Müasir qloballaşan dünyada beynəlxalq dil sayılan ingilis dili yalnız bir xalqa və mədəniyyətə bağlı deyil. Bu dil getdikcə ikidilli (Britaniya və Amerika ingiliscəsi) terminindən çıxır və çoxdilli adını almağa başlayır. Dünya ingiliscəsi (World English) termini formalaşmağa başlayır. [3,s.98] Dünya ingiliscəsi adını almış ingilis dili hal hazırda A.B.Ş., Kanada, Avstraliya, Yeni Zellandiya, C.A.R., Böyük Britaniya, Hindistan, Şri-Lanka kimi böyük olkələrdə yerli xalqların dillərinin təsirinə məruz qalır. Bununla da, standart ingilis dilinin struktur və formasında dəyişikliklər baş verir və ingilis dilinin yeni variantları meydana gəlir. [3, s. 101]

İngilis dilinin yeni variantları sayılan bu dialektlər regional dialektlərlə müqayisədə beynəlxalq səviyyədə milyonlarla istifadəçi tərəfindən istifadə olunur. Müasir dövrdə ingilis dilinin 3 əsas tipi mövcuddur: I konservativ dil- parlament və kral ailəsinin dili, II standart dil (RP- received pronunciation)- bu tipə bəzən BBC English də deyirlər və nəhayət III "advanced English"- yeni nəslin ingiliscəsi. London və İngiltərənin cənub şərq əhalisinin dili standart ingilis dili hesab olunur. Onun əsasını "düzgün ingilis dili" təşkil edir. [1, s.133] Ən məşhur məktəblərin və universitetlərin (Oxford, Cambridge, Harrow) dili kimi qəbul edilir. Bu dilin əsasını klassik və ədəbi ingilis dili təşkil edir. Kanada, Avstraliya və Yeni Zellandiya variantları da məhz bu klassik Britaniya ingiliscəsinə yaxın hesab edilir.

Amerika isə demək olar ki, yeni bir dil yaradıb: yalnız fonetika və leksikada deyil, hətta, dilin ən təməl hissəsi sayılan qrammatikasında da dəyişikliklər etmişdir. Buna görə, təbii olaraq, müasir dövrdə mübahisələr məhz bu 2 varaint arasında; Britaniya və Amerika ingiliscələri arasında getməkdədir. Britaniya variantından fərqli olaraq Amerika ingiliscəsi dəyişim-

lərə, yeniliklərə daha açıqdır. Məhz buna görə də Amerika ingiliscəsi dünyada daha çox yayılmağa müvəffəq olmuşdur. Britaniya ingiliscəsi ingilis dilinin ən əsas variantlarından birincisi sayılır. Bu dil Böyük Britaniyanın rəsmi dili olub Böyük Britaniyanın hər bir hissəsində (İngiltərə, Şotlandiya, İrlandiya, Uels) danışılır və öz fərqlilikləri ilə seçilir.

Bu gün qloballaşan dünyada ingilis dili nəinki digər dillərə, həmçinin azərbaycan dilinə də təsir göstərməyə başlamışdır. Qloballaşan dünyanın ümumünsiyyət vasitəsinə çevrilən ingilis dili ərəb, alman, və ya fransız dili qədər dil-təfəkkür dahiləri yetirməmişdir. Lakin, bu dilin olduqca işgüzar, müasir dünyanın nəbzini tutmaq bacarığı heç bir başqa dildə yoxdur. [7]

Müasir azərbaycan dilində son illər öz istehsal etdiyimiz məhsullara və hətta, yaradılan yeni müəssisələrə ingilis dilində olan adların qoyulması bir çox dilçiləri narahat etsə belə bu həqiqətdir. Məsələn, supermarket, medical club, rent a car, talkshow və s. Fərqli xalqların dillərinə təsir göstərən ingilis dili öz variantlılığı ilə seçildiyinə görə bu dilin variantlarında mövcud olan fərqli sözlər dünya xalqlarının dillərinə təsirindən yan keçmir. Böyük Britaniyanın 4 hissəsində danışılan ingiliscə öz fərqli xüsusiyyətləri ilə seçilir. Məsələn, şotlandlar öz danışıqlarında [r] səsini daha basqın tələffüz edirlər. Bundan başqa şotlandlar öz nitqlərində bir çox yerli regional söz və ifadələrdən istifadə edirlər. Ədəbiyyatda şotland ruhunu oxucuya ötürmək üçün bir çox sözlərdən istifadə olunur. Məsələn, "yes" əvəzinə "aye", "little" əzəzinə "wee", "I don't know" əvəzinə " I dinna ken" kimi ifadələrdən istifadə olunur. Böyük britaniyada bir insanın şivəsi çox vacib elementdir. Bununla o insanın hansı kökdən olduğunu, hansı təbəqəyə mənsub olduğunu müəyyən etmək olar. Bəlkə də dünyanın heç bir yerində insanın danışıq tərzindən və dialektindən onun sosial vəziyyətini, cəmiyyətdəki yerini Britaniyadakı qədər müəyyən etmək olmaz. [4, s.32] Böyük Britaniyada çox sayda regional dialektlər mövcuddur. Bir sıra iri şəhərlərin belə özlərinə məxsus dialektləri vardır. Getdikcə şəhər dialektində danışan insanların sayı artır və bir çox hallarda bu dialektləri radioda və ya televizor ekranlarında eşitmək mümkün olur. Məsələn, London dialekti, (əsasən kokni- şəhərin şərq hissəsinin dialekti), Liverpul dialekti, Birminqam dialekti və s. Məşhur "Bitlz" qrupunun sayəsində Liverpul dialekti bütün dünyada tanınmağa başladı. Bu dialekt aydın olmayan sait səslərin və burun samit səslərin tələffüzü ilə ayırd edilir. [1, s. 305] Dünya dillərinə təsir edən ingilis dilinin bir başqa variantı Amerika ingiliscəsidir. Bu gün Amerikanın siyasəti, iqtisadi inkişafı, mediyası belə dünya ölkələrinə təsir etməkdədir və bu ingiliscədə olan bir çox sözlər sürətlə dünya xalqları dillərində öz yerlərini almağa müvəffəq olmaqdadırlar. Yuxarıda qeyd olunan ingilis dilinin III tipi sayılan gənc nəslin ingiliscəsinin formalaşmasında məhz Amerika ingiliscəsinin rolu çox böyükdür. Zənnimizcə buna başlıca səbəb bu

variantın daha asan və yeniliklərə daha açıq olmasıdır. Bu gün "Holliwood" filmlərinin dünyaca rekord izlənişi bu filmləri izləyən xalqların nəinki mədəniyyətlərinə, həmçinin dillərinə də öz təsirini göstərir. Amerikan ingiliscəsi və ya ingilis dilinin Amerika variantı Britaniya ingiliscəsindən bir çox xüsusiyyətlərinə görə fərqlənir. Amerikan ingiliscəsi tacirlərin və formalaşmaqda olan burjuaziyanın ingilis dili əsasında formalaşmış bir dildir. [6, s.13] Britaniya ingiliscəsində olduğu kimi Amerika ingiliscəsində də bir çox dialektlər mövcuddur. Bu 2 variant arasında leksik, fonetik, qrammatik fərqlər mövcuddur. Məsələn, Britaniya ingiliscəsinin tələffüzündə bir çox tonlar (enən ton, qalxan ton, enib-qalxan ton və s.) olmasına baxmayaraq Amerika ingiliscəsində yalnız düz şkala və enən ton müvcuddur. Amerika ingiliscəsinin digər məşhur fərqlərindən biri [r] səsinin bir çox sözlərdə tələffüz edilməsidir. Məsələn, more, dinner [m o:r], [dinər] və s. Bu sözlər Şotland ingiliscəsi istisna olmaqla Britaniya ingiliscəsində [r] səsi olmadan tələffüz edilir. Amerika ingiliscəsi 3 əsas regional dialektləri ilə seçilir: yeni İngiltərə dialekti, cənub dialekti və ümumi Amerikan dialekti. Bu dialektlərin hər biri də öz növbəsində kiçik dilalektləri özlərində cəmləşdirir. [2, s.221] İngilis dili qlobal dil səviyyəsinə yüksəldikdən sonra bir çox dillərə öz təsirini göstərməyə başladı. Bu təsirdən azərbaycan dili də yan keçməmişdir. Xarici ölkələrlə əməkdaşlıq, turizmin inkişafı, Amerika, Böyük Britaniya kimi nüfuzlu ölkələrlə qurulan iqtisadi-siyasi əməkdaşlıqlar azərbaycan dilində ingilis sözlərinin formalaşmasına gətirib çıxardı. Bu gün bir çox dilçilər bu məsələ ilə bağlı çox narahatdırlar və həyəcan təbili çalırlar. Digər dillərin azərbaycan dilinə yol tapması və dilimizin leksik tərkibinin dəyişməsi, düşünürük ki, nəinki dilçilərimizi, hətta hər bir azərbaycanlını narahat etməlidir. Azərbaycan dili Azərbaycan respublikasının tarixi sərvət-dəyəri olaraq müasir dünyada gedən qloballaşma qarşısında dayanmışdır. Biz nə qədər çalışsaq da dünyada gedən inkişafın dilə təsirinin qarşısını almaq çox çətindir. Bu çətin olsa belə hər bir azərbaycanlı dilimizin qorunması və onun beynəlxalq nüfuzunun güclənməsi üçün əlindən gələni əsirgəməməlidir. Bu gün Fransada restoranda ingiliscə yaxşı bilən iddialı bir fransız qarsonuna ingilis dilində yemək sifariş verdikdə bir neçə dəfə özünü eşitməzliyə vurursa buna təbii baxmaq lazımdır. Prof. F. Veysəlli qeyd edir ki, " beynəlxalq səviyyədə qlobal dil səviyyəsinə qarşı təkcə sayca az olan millətlər deyil, sayca 100 milyonları aşmış fransız, alman, ispan və s. dillərin təmsilçiləri də mübarizəyə qoşulduqlarını elan edirlər." [7]

Kanadalılar öz ingilis dili variantlarının Amerika və Britaniyada istifadə olunan ingilis dilindən fərqləndiyini iddia etsələr belə məhz Kanada ingiliscəsinin də dünya dillərinə təsiri müvcuddur. Kanada ingilscəsində Amerikada istifadə olunmayan Britaniya mənşəli sözlər və ifadələr vardır. Məsələn, onlar pozana "rubber band" (AmE- elastic), divana "chesterfield"-

(AmE- sofa, couch), idman ayaqqabılarına "runners" (AmE- sneakers) deyirlər. Amerikada bir qadına "madam" və ya bir kişiyə "sir" kimi müraciət edildikdə onlar bunu nəzakətlə qarşıladıqları halda Kanadada bu müraciət qarşı tərəfin narazılığına səbəb ola bilər. (kanadalılar bu müraciət üçün kifayət qədər yaşlı olmadıqlarını iddia edə bilərlər) Bu və ya digər fərqlərə baxmayaraq Kanada ingiliscəsi Böyük Britaniya ingiliscəsindən çox Amerika ingiliscəsinə bənzəyir. Dünyanın digər bölgələrində yaşayan insanlar Kanada ingliscəsini Amerika ingiliscəsi kimi qəbul edirlər. Eyni zamanada Amerikada insanlar kanadalıların danışıqlarında Britaniya aksentini ayırd edə bilirlər. Standart Kanada yazılı dilində həm Britaniya, həm də Amerika ingiliscələrinin xüsusiyyətlərini görmək mümkündür. Əksər kanadalılar "color" əvəzinə "colour", "check" əvəzinə "cheque", "center" əvəzinə "centre" yazırlar. (British English) Eyni zamanda onların yazılarında Amerika ingiliscəsinin xüsusiyyətlərini daşıyan "specialise" əvəzinə "specialize", "draught" əvəzinə "draft", "tyre" əvəzinəı "tire " kimi sözlərə rast gəlmək olar. İngilis dilinin digər variantlarından biri də Avstraliya ingiliscəsidir. Avstraliyalılar bu gün öz Avstraliya ingiliscələri ilə fəxr edirlər: "Əgər bu gün İngiltərədə bir neçə dialekt mövcuddursa bizdə yalnız 2 dialekt mövcuddur" söyləyirlər. Ancaq, Avstraliyanın fərqli şəhərlərinə səyahət edərkən bunun həqiqətə uyğun olmadığı ortaya çıxır. Məsələn, Brisbendən olan bir insanı anlamaq üçün o, gərək iki dəfə yavaş danışsın. Adeloid sakinləri isə o qədər yavaş danışırlar ki, onları hətta ingilis dilini yenicə öyrənməyə başlayan bir şəxs belə anlaya bilər. Yalnız bunu da qəbul etmək lazımdır ki, Avstraliyanın sahəsi Böyük Britaniyanın sahəsindən 30 dəfə böyük olmasına baxmayaraq orada daha az dialektlər mövcuddur və bu dialektlər arasında kəskin qrammatik, leksik və fonetik fərqlər yoxdur. Avstraliya ingiliscəsinin 3 əsas dialektini ayırd etmək olar: Cultivated dialect (əhalinin təxminən 10 %-i bu dialektdə danışır), General dialect (əhalinin əksər hissəsi bu dialektdə danışır) və Broad dialect (əsasən təhsilsiz əhalinin danışdığı dialekt) [5, s. 31] Ölkədəki fərqli mədəniyyətlərin olmasına baxmayaraq Avstraliya ingiliscəsi öz tamlığını qorumağa çalışır. Lakin, getdikcə immiqrantların istifadə etdikləri bəzi ifadələr dildə özlərini biruzə verməyə başlamışdır. Bu gün dünyanın dil mənzərəsi nə qədər rəngarəng və zəngin olsa da, qloballaşma prosesi bu mənzərəyə çox ciddi təsir göstərir. BMT üzvü olan 200-dən artıq dövlətin ərazilərində 6417 dildən hər il bir çoxu ölüb aradan çıxır. [8] Xeyli müddətdir ki, dünyada təkdilliliyə meyl güclənməkdədir. Təbii ki, müstəqillik əldə etdikdən sonra ölkəmizdə azərbaycan dilinin mövqeyi daha da möhkəmlənmişdir. Ancaq, bununla belə paytaxtımızda tez-tez başqa dillərin işləndiyinin də şahidi oluruq. İndi dünyada vahid dilə qarşı çıxan ölkələrdə çoxlu tədbirlər görülür, konfranslar keçirilir. Ancaq, bunlıarın fonunda ingilis dilinin bir addım da geri çəkilmək niyyəti müşahidə olunmur. Qloballaşma vahid

dillilik üçün mühüm amildir. Bu proses ingilis dilini dünya dili statusuna qaldırmışdır. Ancaq, qloballaşma əks təsir də göstərir. Qeyd edək ki, dil müxtəlifliyi hələ uzun müddət planetimizin canlı mənzərəsini nümayiş etdirəcək. Amma, o da doğrudur ki, hazırda dünya əhalisi təkdilliliyə doğru irəliləyir. [8]

Bu gün leksikonumuzda işlənən "OK, fast-food, supermarket, rent a car, industriya" kimi sözlər sözsüz ki, ingilis dilinin dilimizə təsiri nəticəsində meydana çıxmışdır. Onların əvəzinə dilimizdə "oldu, mağaza, maşın kirayəsi, sənaye" kimi sözləri işlətmək olar. Yuxarıda qeyd etdiyimiz kimi, biz nə qədər cəhd göstərsək belə ingilis dili öz hegemonluğunu göstərir və göstərməkdə davam edəcək. Bunun öhdəsindən gəlmək uzun müddət tələb etsə belə hər bir xalqın nümayəndəsi dilinin vahidliyinin qorunması üçün çalışmalı və mübarizə aparmalıdır.Şübhə etmirik ki, qloballaşma dünya dillərinin, eləcə də azərbaycan dilinin qarşısına yalnızca məlum maneələr, yaxud problemlər çıxartmayacaqdır, eyni zamanda təkmilləşmə və inkişaf istiqamətində də geniş imkanlar açacaqdır.

Ədəbiyyat:

1. Аракин В.Д. История английского языка. Москва, 2001, - 310 с.
2. Евдокимов М. С. Краткий справочник американо-британских соответсвий. Москва, 2000, -238 с.
3. Кристалл Д. Английский язык как глобальный. Москва, 2001, 155 с.
4. Коптелова Е. Speak English!// Иностранец, 2000 № 25- 35 с.
5. Кретинина Н.А. Психологический аспект овладения национальными вариантами английского языка. Белгород, 2003, -67 с.
6. Швейцер А.Д. Американский вариант литературного английского языка. Вопросы языкознания, 1995, - 34 с.
7. www.xalqqazeti.com/ news/ education/ azərbaycan dili qloballaşan dünyada/ 7 iyun, 2013
8. www.xalqqazeti.com/ news/ education/ qloballaşma və müasir dünyanın dil mənzərəsi/ 16 iyul, 2015

S.Mamedzade

Globalization and its effect on the world's languages

Summary

Globalization is a social process characterized by the existence of global economic, political, cultural, linguistic and environmental interconnections and flows that make many of the currently existing borders and boundaries irrelevant. One of the greatest casualties of globalization is the

loss of some of the world's more obscure languages. The process of globalization acquires the greatest importance in today's world. With the rapid advancement of science and technology, the world is gradually losing its diversity. It is getting globalized. Language too is getting globalized gradually. The spoken variety of the language is getting mixed with English and we call it "singlish". Face Book English, SMS English are getting popularized among the new generation, especially because it is free of many complicated grammar rules and spelling rules, thereby people can easily grasp it and they like it absolutely.

С.Мамедзаде

Глобализация и его влияние на языки мира

резюме

Глобализация – это социальный процесс, характеризующийся наличием глобальных экономических, политических, культурных, языковых и экологических взаимосвязей и потоков, которые делают многие из существующих в настоящее время границ нерелевантными. Одной из самых больших жертв глобализации является потеря некоторых более неясных языков в мире. Процесс глобализации приобретает наибольшее значение в современном мире. С быстрым развитием науки и техники мир постепенно теряет свое разнообразие. Он становится глобализированным. Язык тоже постепенно глобализуется. Устный разновидность языка смешивается с английским, и мы называем его «одиночным». Face Book English, SMS English становятся популярными среди нового поколения, особенно потому, что в нем нет многих сложных правил грамматики и правил написания, поэтому люди могут легко понять это, и им это нравится абсолютно.

Rəyçi: Səadət Abdurəhmanova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

GÖVHƏR MÜRŞÜDOVA
(ADU)
govhar_11@mail.ru

AZƏRBAYCAN RESPUBLİKASININ ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN 6-cı, 8-ci və 9-cu SİNİFLƏRİ ÜÇÜN FRANSIZ DİLİ DƏRSLİKLƏRİNƏ QRAMMATİK MATERİALLARIN DAXİL EDİLMƏSİ PRİNSİPLƏRİ

Açar sözlər: konseptual qrammatika, spiralvari prinsip, ardıcıllıq prinsipi, sistematiklik prinsipi, induktiv qrammatika, deduktiv qrammatika, implisit qrammatika, exsplisit qrammatika.
Key words: conceptualization grammar, the theory of spiral, the theory of progression, the theory of systematic, implicite grammar, excplisite grammar, inductive grammar, deductive grammar.
Ключевые слова: концептуальная грамматика, спиральный принцип, последовательный принцип, систематемный принцип, индуктивная грамматика, дедуктивная грамматика, имплиситная грамматика, *эксплиситная грамматика.*

Məlumdur ki, tədqiqata cəlb etdiyimiz hər üç dərslik Azərbaycan Respublikasının Milli kurrikulumunun tələblərinə əsasən yazılmışdır. Hər üç dərslik şagirdlərdə kommunikativ yanaşmanın dörd bacarığını aşılamaq məqsədi güddüyündən quruluş etibarilə eynidir. Yəni, dərsliklər səkkiz bölüm olmaqla dörd dərsə və biliklərin qiymətləndirilməsi üçün yekun çalışmalarından ibarətdir.

İstinad edilən dərsliklər, qrammatik materialı leksikadan sonra daxil etmişdir. Autentik materiallar əsasında mənadan çıxış edərək keçirilən qrammatik material kommunikativ yanaşmanın tələblərinə müvafiq olaraq şagirdlərin nitq ehtiyaclarına cavab verməklə yanaşı, ünsiyyətə girmək üçün əsas vasitə hesab edilir. Hər üç dərsliyə qrammatikanın daxil edilməsi prinsiplərini müəyyənləşdirmək məqsədilə qrammatik korpusa nəzər salaq.

Siniflər üzrə seçdiyimiz qrammatik materialların müşahidəsi göstərir ki, dərsliklər nitq ehtiyacından doğan işlək qrammatikaya üstünlük vermişlər. Digər tərəfdən, qrammatika konseptual qrammatika, yəni mətndə işlənmə məna və ya situasiya ilə bağlı qrammatikadır.

Qrammatik materialları nəzərdən keçirərkən aydın olur ki, müəlliflər spiralvari inkişaf (sadədən mürəkkəbə) prinsipinə əsaslanaraq qrammatik materialı tədricən daxil etməklə orta ümumtəhsil məktəblər üçün nəzərdə tutulan proqramın tələblərini gözləmişlər. Qrammatika autentik materiallardan seçilən nümunələr vasitəsilə təqdim edilir. Bununla da müəlliflər kom-

munikativ yanaşmanın ikinci prinsipini izləyərək implisit qrammatikanı dərsliklərə daxil edirlər. Didaktiklərin göstərdiyi kimi, autentik materiallardan şagirdlər mənasına, funksiyasına varmadan qrammatik qaydaları nümunələrdə aşkara çıxarır. Məsələn: expression du passé (keçmişin ifadəsi). Observe et compare (müşahidə et və müqayisə et) başlığı altında seçilən tanış nümunələr verilir:

Ajourd'hui (bu gün)	Hier (dünən)
Je passe mes vacances au bord de la mer.	J'ai passé mes vacances au bord de la mer.
(Tətilimi dəniz kənarında keçirirəm)	(Tətilimi dəniz kənarında keçirdim) və s.

Bu kimi cümlələr müqayisə edilrək, şagirdin diqqəti məna üzərində cəmlənir və şagirdlər induktiv yolla passé composé zamanının keçmiş hərəkətin ifadəsi üçün işləndiyini aşkar edirlər. "Hier" (dünən) zərfi bu mənanın aşkarlanmasında istiqamətverici rol oynayır.Mənanı duyduqdan sonra indiki zamanda "passer" feilini keçmiş zamanla müqayisə edir və şagirdlər "avoir" feilinin indiki zamanını bildiklərindən passé composé zamanının iki feil vasitəsilə düzəldilməsinə diqqət edirlər. Əlbəttə, burada müəllimin köməyilə participe passé izah edilir. Demək ki, bu zamanın düzəlmə qaydasının aşkara çıxarılmasında müəllim istiqamət verir. Müəlliflər cədvələ cümlələr tərkibində "être" köməkçi feili ilə təsriflənən "partir" feilini verməklə diqqəti ayrıca yalnız bu feillə təsriflənən feillərə çəkirlər: Diqqət!

1. Les verbes aller, partir, venir, devenir, entrer, rentrer, sortir, monter, descendre, arriver, rester, tomber, naître, mourir, se conjuguent avec "être" au passé composé.

Aller (getmək), partir (getmək, yola düşmək), venir (gəlmək), revenir (qayıtmaq), devenir (olmaq), entrer (daxil olmaq), rentrer (qayıtmaq), sortir (çıxmaq), monter (qalxmaq), descendre (düşmək), arriver (gəlmək, gəlib çatmaq), rester (qalmaq), tomber (yıxılmaq), naître (anadan olmaq), mourir (ölmək) feilləri keçmiş zamanda "être" feilinin köməyi ilə təsniflənir.

Müqayisə edin: Il a fait (o etdi), il est parti (o yada düşdü)

2. Feilin partisip passé forması mübtəda ilə cinsə və kəmiyyətə görə uzlaşır. Məs. :

1. Lala est parti*e*.
2. Ninon et sa mère sont rest*ées* une semaine à l'hôtel.
3. Toural et son copain sont sorti*s* du collège.

"Lala" qadın cinsli mübtəda olduğundan "partie" participe passé oxunmayan "e" qəbul edir. İkinci cümlədə uzlaşma həm qadın cinsinə, həm də kəmiyyətə görə edildiyindən "restées", "e" və "s" qəbul edir. Üçüncü cümlədə isə mübtəda cəmdə və kişi cinsinə görə "sortis" "s" qəbul etmişdir.

Cədvəldə həmin feillərin partisipe passé formaları da verilir ki, şagirdlər müstəqil şəkildə onları təsrifləndirə bilsinlər.

6-cı sinif dərsliyində yeri gəldikcə digər feillərin partisipe passé formasına rast gəlinir. Məsələn, prendre, boire, connaitre. 8-ci sinif dərsliyində passé composé zamanına yenidən müraciət edildiyindən bu, Xatırla, yada sal! ifadəsi ilə nəzərə çatdırılır:

Le passé composé exprime une action achevée dont le résultat est lié avec le moment de la parole (mürəkkəb keçmiş zaman nəticəsi danışıq anı ilə bağlı olan bitmiş hərəkəti ifadə edir).

Qrammatik qaydanın bu şəkildə tərifini artıq şagirdlər 6-cı sinifdə öyrənmiş, 7-ci sinifdə təkrar etmişlər. Ona görə də qrammatik qaydanın belə verilməsi artıq eksplisit qrammatikanın dərsliyə daxil edilməsindən, başqa sözlə desək, deduktiv üsuldan istifadə edilməsindən xəbər verir. Sonra dialoqdan götürülmüş nümunələr vasitəsilə passé composé yenidən diqqətə çatdırılır.

- *J'ai passé mes vacances avec ma cousine.* – Mən tətilimi əmim qızı ilə keçirdim.

- *Moi, j'ai été au Canada avec mes parents.* – Valideynlərimlə Kanadada oldum.

- *Je me suis installé â l'hôtel. (səh.l3)* – Mehmanxanada qaldım.

Lakin burada passé composé zamanının xatırlatdırmağın məqsədi onun imparfait (bitməmiş keçmiş) zamanı ilə işlənmə fərqini göstərməkdir. Ona görə də artıq tədris olunmuş (6-cı sinifdə) imparfait zamanına Rappel 2-də (Xatırla) qayıdılır.

Bitməmiş keçmiş zaman mürəkkəb keçmiş zamana münasibətdə əlavə hərəkəti təsvir etməyə xidmət edir və adəti və təkrarlanan hərəkətlərin keçmişdə icrasını bildirir (8-ci sinif, s.l3).

9-cu sinif dərsliyində isə passé composé və imparfait zamanlarına keçmiş zaman planında zaman uzlaşmasında rast gəlirik. Burada imparfait indiki zaman mənasında işlənir. Dərslik konstruksiya və ya modellərlə bu zamanları nümunələrlə təqdim edir:

Proposition principale (baş cümlə)	Proposition subordonnée (budaq cümlə)
une action passé (keçmiş hərəkət)	imparfait (au lieu du présent) davamedici (indiki zaman yerinə) zaman
Il a dit (disait) O dedi (deyirdi) ki,	que son ami venait dostu gəlir.

Yuxarıda haqqında danışılan bitməmiş keçmiş zaman, qeyd etdiyimiz kimi, 6-cı sinifdə tədris olunur. Bitməmiş keçmiş zaman (passé composé) kimi dərslik ilkin olaraq mətnlərdən seçilmiş nümunələri şagirdlərin müşahidəsinə verir:

Observe (müşahidə et)

Quand j'étais au collège, j'avais beaucoup d'amis. (Kollecdə olanda, çoxlu dostlarım var idi.). Şagirdlər nümunədə verilən zamanı artıq mətnlərdə aşkarlamışdır. Burada isə, bu zamanın işlənmə funksiyasına, onun nə zaman, hansı hərəkətin icra olunması mənası üzərində işləyir və qrammatikanın fikrin ifadəsində və anlanılmasında rolu vurğulanır. Daha sonra onun düzəldilməsi qaydası nəzərə çatdırılır: L'imparfait se forme avec la première personne du pluriel du présent de l'indicatif + les terminaimaisons de l'imlarfait:

Je ...ais	Nous ...ions
Tu ...ais	Vous ...iez
Il (elle) ...ait	Ils (elles*)* ...aient

Bitməmiş keçmiş zaman feilin xəbər şəklinin indiki zamanında birinci şəxsin cəmi + bitməmiş keçmiş zamanın şəkilçilərindən düzəlir. Bu qaydaya tabe olmayan bir neçə işlək feil être feili həmin zamanda təsrifləndirilir. Göründüyü kimi l'imparfait zamanının verilməsində həm induktiv, həm də deduktiv üsullardan istifadə edilmişdir. Bəzi feillərin dərslikdə təsriflənməsi şagirdlər üçün açardır, bazadır, çünki dərslikdə toxunulmayan digər feillərin də bu zamanda işlədilməsini şərtləndirir.

Tədqiqata cəlb olunan dərsliklərin müşahidəsi göstərir ki, yeni qramrnatik material observe (müşahidə et) termini ilə verilirsə, tanış qrammatikaya yeni bir məna elementi daxil edilərkən rappel (xatırla) terminindən istifadə edilir. Bu o deməkdir ki, müəlliflər öyrənilməmiş qrammatikanı, öyrədiləcək qrammatika ilə əlaqəli verir. Bu o deməkdir ki, müəlliflər qrammatikanı daxil edərkən spiralvari inkişaf prinsipinə əsaslanmışlar. Məsələn, tamamlıq əvəzlikləri "le, la, l', les" 6-cı sinifdə birinci bölümün 3-cü dərsində verilir və onların vasitəsiz tamamlığı əvəz etməsi və cümlədə yerindən bəhs olunur: Les pronoms compléments d'objets directs le, la, 1', les başlığı ilə təqdim olunan qrammatika dialoq şəklində dialoqlarda olduğu kimi verilir:

1. - Tu prends *ce livre*?
   - Oui, je *le* prends.
2. - Tu achètes *cette jupe*?
   - Oui, je *la* prends.
3. - Vous achetez *ce stylo à bille*?
   - Oui, je *l'*achète.

4. - Tu prends *ces baskets,* Eric?

- Oui, je *les* achète.

Nümunələrdən göründüyü kimi, vasitəsiz tamamlıqlar və onları əvəz edən əvəzliklər seçilməklə nəzərə çatdırılır. Bu da şagirdlərə model kimi konstruksiyaları duymağa əvəzlik tamamlıqlarının funksiyasını qavramağa imkan verir. Şagirdlərə təqdim olunan nümunələrdən şagirdlər "le" əvəzliyinin kişi cinsli, "la" qadın cinsli, "l'" saitlə başlayan, "les" isə hər iki cinsdən olan tamamlıqları əvəz etdiyini və isimlə ifadə olunan tamamlığın xəbərdən sonra yerləşməsindən fərqli olaraq, əvəzliklərin ondan əvvəl yerləşdiyinin fərqinə varırlar. Sonrakı cədvəllərdə həmin əvəzliklərin inkar və əmr cümlələrində yerinə diqqət çəkilir: İnkar formada olan feildən əvvəl la, le, 1', les avəzliklərinin yerinə diqqət! Eyni şey feilin əmr formasına da şamil edilir (6-cı sinif, s.30-31). Beləliklə, tamamlıq əvəzlikləri tədricən daxil edilir və müvafiq olaraq şagirdlər də pillə-pillə irəliləyirlər.

Aparılan tədqiqat göstərir ki, dərslikdə təqdim olunan qrammatika şagirdlərin bilik və yaş səviyyəsinə müvafiqdir. 6-cı sinifdə vasitəsiz tamamlığı əvəz edən əvəzliklər 8-ci sinifdə təkrarlanmaqla yanaşı, vasitəli tamamlığı əvəz edən əvəzliklər yeni qrammatik vahid kimi verilir. 6-cı sinifdən fərqli olaraq burada əvvəlcə qrammatik qaydadan çıxış edilərək nümunələrə müraciət olunur: Vasitəsiz və vastitəli tamamlıq əvəzliklərinin yeri.Yada sal. Vasitəsiz və vasitəli tamamlıq əvəzlikləri feildən əvvəl yerləşir. Bu qaydadq vasitəsiz tamamlıq əvəzliyinin yerinə dair məlumatı olan şagirdlər müqayisə edilən nümunələr əsasında yeni qrammatik qaydanı anlaya bilirlər:

Il écrit *des lettres*. Il *les* écrit.

Il parle *à son ami.* Il *lui* parle.

Il a écrit *des lettres*. Il *les* a écrites.

Il a écrit à *son ami*. Il *lui* a écrit.

Verilən nümunələrdə şagirdlər bildikləri nümunələr əsasında yenini aşkar etsələr də, onlar burada digər bir çətinliklə qarşılaşırlar. Bu da passé composé zamanında köməkçi "avoir" feilindən əvvəl vasitəsiz əvəzliklərlə participe passé-nin uzlaşmasıdır. Bu qrammatik xüsusiyyətə şagirdlər əvvəlki dərslərdə rast gəldiyindən təkrar hesab oluna bilər.

6-cı sinifdə onlar hissə bildirən artikllərlə qarşılaşırlar (s. 50-51). Bu artikllər "A la cantine du collège" mövzusu ilə bağlıdır. Dialoqda məktəb yeməkxanasında şagirdlərin özünəxidmət şəkildə yemək növlərinin seçilməsindən söhbət gedir və məlumdur ki, qida ərzaqları hissə bildirən artikllərlə işlənir. Ona görə də şagirdlərin marağına tam cavab verən dialoqdan istifadə edərək, digər ünsiyyət şəraitində həmin artikllərin işlənməsi şagirdlərin biliklərini möhkəmləndirməklə yanaşı, onları öz nitqlərində istifadə edilməsinə imkan verir.

Ədəbiyyat

1) 6-cı sinif fransız dili dərsliki, müəllif Bilal İamayılov, Çəmən Babaxanov, Rəfiqə İsayeva, "Kövsər" Nəşriyyat-Poliqrafiya Məhdud Məsuliyyətli Cəmiyyəti, Bakı 2007.
2) 8-ci sinif fransız dili dərsliki, müəllif Bilal İamayılov Çəmən Babaxanov Rəfiqə İsayeva "Kövsər" Nəşriyyat-Poliqrafiya Məhdud Məsuliyyətli Cəmiyyəti, Bakı 2015.
3) 9-cu sinif fransız dili dərsliki müəllif Bilal İamayılov, Çəmən Babaxanov, Rəfiqə İsayeva, "Kövsər" Nəşriyyat-Poliqrafiya Məhdud Məsuliyyətli Cəmiyyəti, Bakı 2016.
4) Christine Tagliante Le classe de la langue, Paris 2001.
5) Jean-Pierre Cuq et Isabelle Gruco Cours de didactique du français langue étrangère et seconde, Grenoble 2014.

Г.Муршудова

Принципы включения грамматики в ученики 6, 8, 9 классов

Резюме

Известно, что в этом разделе мы исследуем грамматику французского языка в учебниках 6, 8, 9 классов. Все три исследуемых учебника в соответствии с требованиями национального куррикулума (учебного плана) были составлены на основе коммуникативного подхода. При расстоянии принципов составления учебников 6, 8, 9 классов мы увидим, что за основу взято четыре способа коммуникативного подхода к обучению.Основная причина предпочтения коммуникативного подхода в этих учебниках, это учитывая языковые способности учеников научить их общению.

Основная причиной использования в учебниках аутентических материалов является учитывание языковых способностей учеников. Надо отметить, что в учебниках грамматические материалы основаны на трёх принципах:

а) спиральном (от простого к сложному);

б) последовательном, систематическом;

в) концептуальном, то есть привязанная в тексте к причине и ситуации грамматика.

В результате исследования можно прийти к выводу, что в каждом этом учебнике грамматика систематичная, взаимосвязанная, последовательная концпетуальная грамматика и его объяснение опирается на дедуктивный и индуктивный способы. В этих учебниках видны следы

имплиситной и эксплиситной грамматики. В имплиситной грамматике заметно, что ученики, не обращая внимания на причины и функции определяют грамматические правила. Включение в учебники отличной от имплеситивной и эксплиситной грамматики указывает на использование дедуктивной грамматики. И в заключении следует указать, что изучение грамматических правил является одним из важных составляющих.

Govhar Murshudova

The theory of addition grammar to 6th 8th and 9th french manuals.

Summary

Rəyçi: Svetlana Məmmədova
Filologiya üzrə fəlsəfə doktoru,dosent.

TAMILLA QAFAROVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
t.gafarova@outlook.com

LINGUISTIC DEVELOPMENTS OF THE GERMANIC LANGUAGES

Açar sözlər: German dilləri, linqvistik inkişaf, rəsmi dil, ortaq nəsil, doğma dildə danışanlar
Ключевые слова: Германские языки, лингвистические развитие, официальный язык, общие поколение, носитель языка
Key words: The Germanic languages, linguistic development, common ancestor, official language, native speakers

The Germanic languages are a branch of the Indo-European language family spoken natively by a population of about 515 million people mainly in Europe, North America, Oceania, and Southern Africa.The West Germanic languages include the three most widely spoken Germanic languages: English with around 360–400 million native speakers; German, with over 100 million native speakers; and Dutch, with 23 million native speakers. Other West Germanic languages include Afrikaans, an offshoot of Dutch, with over 7.1 million native speakers; Low German, considered a separate collection of unstandardized dialects, with roughly 0.3 million native speakers and assuming 6.7—10 million people who can understand it (5 million in Germany and 1.7 million in the Netherlands); Yiddish, once used by approximately 13 million Jews in pre-World War II Europe and Scots, both with 1.5 million native speakers; Limburgish varieties with roughly 1.3 million speakers along the Dutch–Belgian–German border; and the Frisian languages with over 0.5 million native speakers in the Netherlands and Germany.Themain NorthGermanic languages are Swedish, Danish, Norwegian, Icelandic and Faroese, which have a combined total of about 20 million speakers.The East Germanic branch included Gothic, Burgundian, and Vandalic, all of which are now extinct. The last to die off was Crimean Gothic, spoken until the late 18th century in some isolated areas of Crimea. The SIL *Ethnologue* lists 48 different living Germanic languages, 41 of which belong to the Western branch and six to the Northern branch; it places Riograndenser Hunsrückisch German in neither of the categories, but it is often considered a German dialect by linguists. The total number of Germanic languages throughout history is unknown as some of them, especially the East Germanic languages, disappeared during or after the Migration Period. Some of the

West Germanic languages also did not survive past the Migration Period, including Lombardic. As a result of World War II, the German language suffered a significant loss of *Sprachraum*, as well as moribundness and extinction of several of its dialects. In the 21st century, its dialects are dying out anyway due to Standard German gaining primacy. The common ancestor of all of the languages in this branch is called Proto-Germanic, also known as Common Germanic, which was spoken in about the middle of the 1st millennium BC in Iron Age Scandinavia. Proto-Germanic, along with all of its descendants, is characterized by a number of unique linguistic features, most famously the consonant change known as Grimm's law. Early varieties of Germanic entered history with the Germanic tribes moving south from Scandinavia in the 2nd century BC, to settle in the area of today's northern Germany and southern Denmark.West Germanic Languages. English is an official language of Belize, Canada, Falkland Islands, Malta, New Zealand, Ireland, South frica, Philippines, Jamaica, Dominica, Guyana, Trinidad and Tobago, American Samoa, Palau, St. Lucia, Grenada, Barbados, St. Vincent and the Grenadines, Puerto Rico, Guam, Hong Kong, Pakistan, India, Papua New Guinea, Vanuatu, the Solomon Islands and former British colonies in Asia, Africa and Oceania. Furthermore, it is the *de facto* language of the United Kingdom, the United States and Australia. It is also a recognized language in Nicaragua and Malaysia. American English-speakers make up the majority of all native Germanic speakers, including also making up the bulk of West Germanic speakers. German is an official language of Austria, Belgium, Germany, Liechtenstein, Luxembourg and Switzerland and has regional status in Italy, Poland, Namibia and Denmark. German also continues to be spoken as a minority language by immigrant communities in North America, South America, Central America, Mexico and Australia. A German dialect, Pennsylvania Dutch, is still present amongst-Anabaptist populations in Pennsylvania in the United States.Dutch is an official language of Aruba, Belgium, Curaçao, the Netherlands, Sint Maarten, and Suriname. The Netherlands also olonized Indonesia, but Dutch was scrapped as an official language after Indonesian independence and today it is only used by older or educated people. Dutch was until 1925 an official language in South Africa but evolved in and was replaced by Afrikaans, a partially mutually intelligible daughter language of Dutch.

Afrikaans is one of the 11 official languages in South Africa and is a *lingua franca* of Namibia. It is used in other Southern African nations, as well.Low German is a collection of very diverse dialects spoken in the northeast of the Netherlands and northern Germany.

Scots is spoken in Lowland Scotland and parts of Ulster (where the local dialect is known as Ulster Scots). Frisian is spoken among half a

million people who live on the southern fringes of the North Sea in the Netherlands, Germany, and Denmark.Luxembourgish is a Moselle Franconian dialect that is spoken mainly in the Grand Duchy of Luxembourg, where it is considered to be an official language. Similar varieties of Moselle Franconian are spoken in small parts of Belgium, France, and Germany.Yiddish, once a native language of some 11 to 13 million people, is used by some Jewish communities throughout the world, mainly in North America, Europe, Israel, and other regions with Jewish populations. Limburgish varieties are spoken in the Limburg and Rhineland regions, along the Dutch–Belgian–German border.

North Germanic languages

In addition to being the official language in Sweden, Swedish is also spoken natively by the Swedish-speaking minority in Finland, which is a large part of the population along the coast of western and southern Finland. Swedish is also one of the two official languages in Finland, along with Finnish, and the only official language in the Åland Islands. Swedish is also spoken by some people in Estonia.

Danish is an official language of Denmark and in its overseas territory of the Faroe Islands, and it is a *lingua franca* and language of education in its other overseas territory of Greenland, where it was one of the official languages until 2009. Danish is also spoken natively by the Danish minority in the German state of Schleswig-Holstein, where it is recognized as a minority language.Norwegian is the official language of Norway. Icelandic is the official language of Iceland.Faroese is the official language of the Faroe Islands, and it is also spoken by some people in Denmark.All Germanic languages are thought to be descended from a hypothetical Proto-Germanic, united by subjection to the sound shifts of Grimm's law and Verner's law. These probably took place during the Pre-Roman Iron Age of Northern Europe from c. 500 BC. Proto-Germanic itself was likely spoken after c. 500 BC, and Proto-Norse from the 2nd century AD and later is still quite close to reconstructed Proto-Germanic, but other common innovations separating Germanic from Proto-Indo-European suggest a common history of pre-Proto-Germanic speakers throughout the Nordic Bronze Age.From the time of their earliest attestation, the Germanic varieties are divided into three groups: West, East, and North Germanic. Their exact relation is difficult to determine from the sparse evidence of runic inscriptions.The western group would have formed in the late Jastorf culture, and the eastern group may be derived from the 1st-century variety of Gotland, leaving southern Sweden as the original location of the northern group. The earliest period of Elder Futhark (2nd to 4th centuries) predates the division in regional script variants, and linguistically essentially still reflect the Common

Germanic stage. Vimose inscriptions AD 160, are the oldest Germanic writing. The earliest coherent Germanic text preserved is the 4th century Gothic translation of the New Testament by Ulfilas. Early testimonies of West Germanic are in Old Frankish/Old Dutch (the 5th century Bergakker inscription), Old High German (scattered words and sentences 6th century and coherent texts 9th century), and Old English (oldest texts 650, coherent texts 10th century). North Germanic is only attested in scattered runic inscriptions, as Proto-Norse, until it evolves into Old Norse by about 800.Longer runic inscriptions survive from the 8th and 9th centuries (Eggjum stone, Rök stone), longer texts in the Latin alphabet survive from the 12th century (Íslendingabók), and some skaldic poetry dates back to as early as the 9th century.By about the 10th century, the varieties had diverged enough to make inter-comprehensibility difficult. The linguistic contact of the Viking-settlers of the Danelaw with the Anglo-Saxons left traces in the English language and is suspected to have facilitated the collapse of Old English grammar that resulted in Middle English from the 12th century.

The East Germanic languages were marginalized from the end of the Migration period. The Burgundians, Goths, and Vandals became linguistically assimilated by their respective neighbors by about the 7th century, with only Crimean Gothic lingering on until the 18th century.

During the early Middle Ages, the West Germanic languages were separated by the insular development of Middle English on one hand and by the High German consonant shift on the continent on the other, resulting in Upper German and Low Saxon, with graded intermediate Central German varieties. By early modern times, the span had extended into considerable differences, ranging from Highest Alemannic in the South to Northern Low Saxon in the North, and, although both extremes are considered German, they are hardly mutually intelligible. The southernmost varieties had completed the second sound shift, while the northern varieties remained unaffected by the consonant shift.

The North Germanic languages, on the other hand, remained unified until well past 1000 AD, and in fact the mainland Scandinavian languages still largely retain mutual intelligibility into modern times. The main split in these languages is between the mainland languages and the island languages to the west, especially Icelandic, which has maintained the grammar of Old Norse virtually unchanged, while the mainland languages have diverged greatly.

Ədəbiyyat siyahısı

1. Germanic_languages#West_Germanic_language
2. Huseynov S. Nitq mədəniyyəti

3. Brown G. and Yule G. Discourse Analysis. Great Britain, Cambridge University Press, 1983
4. Halliday M.A.K, and Hasan R. Cohesion in English. London: Edward Arnold, 1978

T.F. Qafarova

German dillərinin linqvistik inkişafı

Xülasə

Məqalə German dilləri ailəsi və onların qollarından bəhs edir. Məqalədə qeyd edilir ki, alman dilləri qrupu Hindu – Avropa dilləri ailəsinin bir qrupudur və təxminən 515 milyon əhali bu dilin daşıyıcısıdır və bu əhali əsasən Avropa, Şimali Amerika, Okeaniya və Cənubi Afrikada məskunlaşmışlar. Bu dil qrupunun əsasını ingilis dili təşkil edir və ingilis dili Kanadadan tutmuş Avstraliya və Yeni Zelandiyaya qədər olan dövlətlərin dilidir.

Bir sözlə bütün qitələrdə bu ailənin dillərindən istifadə olunur. German dilləri qrupuna daxil olan dillərdən bir birinə çox sözlər keçmisdir, və zaman, dövr keçdikcə bu sözlər keçdiyi dilin qaydalarına tabe olub, və müəyyən orfaqrafik və fonetik dəyişgənliyə məruz qalmışdır.

Т.Ф.Гафарова

Лингвистические разработки германских языков

Резюме

В статье рассматривается немецкоязычной семьи. В статье говорится что немецкоязычная группа семья индоевропейских Семей, и 515 миллионов человек является носителем этого языка.

Статья также расследует реформы в образование, капитал, вложенный в образование, а также прибыль, которую приносит образование отстраняет в сторону более важные целы. Население в основном населена в Европе, северной Америке, Северной и Южной Африке.

Основой это языковый группы является английский язык. Английской язык является официальный язык стран из Канады в Австралию и Новую Зеландию.

Rəyçi: Gülnarə Əhmədova
Fəlsəfə elmləri namizədi, dosent

ELNURƏ VERDİYEVA
Bakı Slavyan Universiteti
elnura@selcuk.edu.tr

AZƏRBAYCAN VƏ RUS ATALAR SÖZLƏRİNDƏ "ANA" KONSEPTİ

Açar sözlər: "ana" konsepti, atalar sözləri, mental mahiyyət, milli düşüncə
Ключевые слова: концепт «мать», пословицы, ментальная сущность, национальное мышление
Key words: concept "mother", proverbs, mental essence, national thinking

Konsept dilçilik elmində nisbətən yeni termin olduğu üçün, onun hələ də hamı tərəfindən qəbul edilən ümumi bir tərifi yoxdur. Bununla belə, bu anlayışın həm ümumi tədqiqinə, həm də fərqli-fərqli konseptlərin araşdırılmasına kifayət qədər elmi əsər, elmi məqalə həsr olunub. İstənilən konkret konsepti təhlil etmədən öncə konsept anlayışının məzmununa nəzər yetirmək çox önəmlidir. "Konsept" termini meydana çıxdığı ilk dövrlərdə onu "məna" termini ilə eyniləşdirirdilər. (6, 2) Amma rus tədqiqatçı Y.S.Stepanovun fikrincə məna konseptlə müqayisədə daha sadə struktura malikdir. Mənanın strukturunda məzmun tərkib hissələri üstünlük təşkil edir və konseptin strukturunda təmsil olunan komponentlərin heç də hamısı iştirak etmir. Digər fərqlər də mövcuddur: məna özündə əhəmiyyətli və zəruri əlamətləri cəmləyir, konseptdə isə çox da əhəmiyyətli olmayan əlamətlər belə toplana bilər (7, 16). Bununla belə V.A.Maslova konsept və məna arasında aşılmaz səddlərin olmadığını qeyd edir. Onun fikrincə müəyyən şəraitdə mənalar konseptlərə çevrilə bilər (4, 17).

Bəzi alimlər hesab edirlər ki, konseptin mahiyyətini açа bilmək üçün ən yaxşı vasitə dildir. Onlardan bəziləri bir sözdən ibarət olan konseptləri sadə, söz birləşmələri ilə təmsil olunan konseptləri isə mürəkkəb konseptlər kimi qəbul edirlər. Digərləri sadə konseptləri leksikanın detallı təhlili zamanı müəyyən edilən semantik əlamət və markerlərdə tapırlar. Bir başqaları dilin leksik sistemlərinin təhlilinin az sayda "primitivləri"in müəyyən edilməsinə gətirib çıxara biləcəyini iddia edirlər. Onlar düşünürlər ki, bu "primitivlər"in kombinasiyası vasitəsilə dilin bütün lüğət tərkibini təsvir etmək mümkündür. Nəhayət, məlum olan ən ortaq mövqeyi ifadə edən alimlər hesab edirlər ki, konseptual informasiyanın bir hissəsi dil "düyünü"nə - yəni bu informasiyanın dil ilə ifadə olunması imkanına sahibdir. Amma belə informasiyanın özünün də bir hissəsi insan psixikasında tamam fərqli bir yolla – digər tip mental reprezentasiyalarla – obrazlarla, rəsmlərlə, sxemlərlə və s. əks olunur. Biz məsələn, şam və küknür ağacları arasındakı fərqi əslində, onları müxtəlif

əlamətlərin məcmusu və ya fərqli konseptual birləşmələr kimi təsəvvür edə bildiyimizə görə müəyyənləşdirmirik. Bu fərqi müəyyənləşdirməkdə bizə bu ağacları görüntü olaraq bir-birindən ayırd edə bilməmiz yardımçı olir. Yəni onların konseptləri bizim üçün ilk növbədə görüntülü, obrazlı konseptlərdir.

Konseptlərin araşdırılması sahəsində son dövrlər koqnitiv dilçilər böyük irəliləyişlər əldə etmişlər. Vətən, ailə, ana, övlad və s. kimi demək olar ki, bütün dünya xalqlarının milli mədəniyyətlərində mövcud olan konseptlər kifayət qədər ətraflı tədqiq edilmişdir. Xüsusilə, ailə və ana konsepti çox sayda elmi araşdırmanın mövzusu olmuşdur. Y.V.Jeleznova, A.A.Məmmədhəsənova, N.N.Zanegina, M.A.Terpak, A.S.Truşinskaya, A.S.Skazko, E.S.Sirotkina kimi alimlər "ailə" konseptini, J.L.Flandran, L.Stoun, R.Trambeç, E.Şorter, A.T.Allen, F.Heyer, O.Hauton, P.A.Andreyeva, N.L.Puşkaryova, N.M.Janpeisova, Q.Şokım kimi alimlər isə "ana" konseptini öz tədqiqatlarının əsas mövzusu olaraq seçmişlər.

"Ana" konsepti qədim mifoloji köklərə sahibdir. Buna görə də bu konsepti tədqiq edərkən mütləq mifologiyaya, şifahi xalq ədəbiyyatına, dastanlara, nağıllara, əsatirlərə, eləcə də atalar sözlərinə, deyimlərə nəzər salmaq lazımdır. Azərbaycan dastanlarının, nağıllarının böyük əksəriyyətində ana obrazı var. Təbii ki, bu dastanların, nağılların hamısı ədəbiyyatşünaslar tərəfindən bu günə qədər kifayət qədər detallı tədqiq edilib, onlardakı obrazlar haqqında saysız-hesabsız elmi məqalələr yazılıb. Amma təəssüflər olsun ki, ümumiləşdirilmiş ana konseptinin ətraflı tədqiqinə bu məqalələrin, elmi əsərlərin heç birində rast gəlmək mümkün deyil. Halbuki istər şifahi, istər yazılı ədəbiyyatımızda ana konsepti milli-mədəni dəyərlərimizin hər zaman məhəng daşı olub. Ana ailə ocağının qoruyucusu, qayğıkeş, mehriban tərbiyəçi, övladları, ailəsi yolunda min-bir əziyyətə qatlanan cəfakeş insan kimi daim mərkəzdə dayanıb. Ana konseptinin mental mahiyyəti hər zaman ədəbiyyatşünasların, mədəniyyətşünasların, dilçilərin, filosofların diqqətini özünü çəkib. Amma məsələ burasındadır ki, bu tədqiqatçıların heç biri təmsil etdikləri konkret elmin tədqiqat çərçivələrini aşa bilməyiblər və buna görə də, sözügedən konseptin öyrənilməsi hər dəfə yarımçıq şəkildə aparılıb.

Vətən, ailə, ana, övlad və s. bu kimi konseptlər Azərbaycan türklərinin və rusların təfəkküründə xüsusi yerə sahibdir. Son 300 ildəki sıx tarixi, siyasi, sosial bağlar bu iki xalqın təfəkküründəki bu tip konseptlər arasında bir yaxınlaşma yaratmışdır. Məsələn, ana konsepti ilə bağlı həm rus, həm də Azərbaycan atalar sözlərində, deyimlərində üst-üstə düşən çoxlu məqamlar mövcuddur. Hər iki xalqda vətən bir çox halda ana ilə assosiasiya olunur, sıx-sıx "Ana vətən" («Родина-мать») ifadəsi işlədilir. Böyük Vətən müharibəsi illərinin ən məşhur şüarının "Ana vətən çağırır" («Родина-мать зовёт») olması da bu mənada təsadüfi deyil. Ana ilə vətənin assosiasiya olunması heç də bir bu şüarla məhdudlaşmır. Məsələn, rus dilindəki

«Родина любимая – мать родимая» (5, 10) (“Sevimli vətənim doğma anamdır”), «Береги землю родимую, как мать любимую» (3, 136) (“Doğma torpağını sevimli ananı qoruyurmuşsan kimi qoru”), «За Родину-мать не страшно умирать» (“Ana vətən üçün ölmək qorxulu deyil”), «Одна у человека родная мать, одна у него и Родина» (3, 137) (“İnsanın doğma anası da, vətəni də birdir”), «Родина – всем матерям мать» (“Vətən analar anasıdır”), «Родина – мать, умей за нее постоять» (“Vətən anadır, onu qorumağı bacar”), «Родина смелому – мать, трусу - мачеха» (“Vətən cəsura ana, qorxağa ögey anadır”), «Родину-мать ничем не заменишь» (“Ana vətəni heç nəyə dəyişmək olmaz”), «Родину-мать умей защищать» (“Ana vətəni müdafiə etməyi bil”), Azərbaycan dilindəki “Ana kimi yar olmaz, vətən kimi diyar”, “Bu dünyada şirin şey, bir anadır, bir vətən” kimi atalar sözləri bunun başqa nümunələridir. Qeyd edilən bu atalar sözlərində “ana” və “vətən” konseptlərinin birlikdə işlədilməsi heç də təsadüfi deyil. Dünya xalqlarının çoxunda vətəni və ananı qorumaq şərəf və namus məsələsi hesab olunur. Bu kimi atalar sözləri, deyimlər xüsusilə, müharibə vaxtlarında, hərbi konfliktlər zamanı aktuallıq qazanır. Müasir psixologiya sübut etmişdir ki, ana sevgisi fərdin xoşbəxt olmasına, yaşamaq istəyinin yüksəlməsinə güclü emosional stimul verir. Ə.Fromm bununla bağlı yazırdı: “Ana – qidadır, sevgidir, istilikdir, torpaqdır. Ana tərəfindən sevilmək diri olmaq, köklərə sahib olmaq, ev hissini yaşamaq deməkdir” (8, 305)

Kişi, ata və qadın, ana konseptləri hər bir millətin varlığının əsasında dayanır. İstənilən millətin yaddaşında ata və ana sevgisinin təzahürlərini görmək mümkündür. Və bu sevgidən çox vaxt vətən sevgisinə keçid edilir. Məsələn, rus dilində iki vətən sözü var. Biri kökündə ata (отец) köliməsi duran «отечество», digəri isə kökündə doğurmaq (родить) köliməsi duran «родина». «Отечество» adətən güc, qüvvə ilə, «родина» isə sevgi ilə assosiasiya olunur. Həm ata, həm ana övladını mənsub olduğu milli mədəniyyətin təməl dəyərləri ilə tanış edir. Amma çox vaxt uşaq ana dilində ilk sözləri, mahnıları, nağılları anasından eşidir. Məhz ana övladına ilk həyat dərslərini verir. Görünür, elə buna görədir ki, “ana” leksemasının işlənmə tezliyi, “ata” leksemasının işlənmə tezliyindən daha yüksəkdir. “Rus dilinin sıxlıq lüğəti”ndə “ana” lekseması qohumluq bildirən sözlər arasında ən sıx-sıx işlədilən leksema kimi qeyd edilir (ana – 350, ata – 148, baba - 84, nənə - 207, qız – 116, oğul – 332). “Rus düzəltmə sözlər lüğəti”ndə bu leksemanın 50-dən çox törəməsi qeyd edilir. Onlardan ən çox istifadə edilənlərini belə sıralamaq olar: мать/мама - мамаша, маменька, мамка, матерь, матушка, мачеха, мамуля, мамуся, мамочка, маманя və s. Lüğətdə verilən bu törəmə sözlərin on ikisi «мама», qırx dördü isə «мать» sözündən törəmişdir. Bu rəqəmlər “ana” konseptinin rus mədəniyyəti üçün nə qədər önəmli olduğunu göstərir. Eyni şeyləri Azərbaycan mədəniyyəti üçün də söyləmək

mümkündür. Doğrudur, Azərbaycan dilində "ana" leksemasının rus dilindəki qədər çoxsaylı törəməsi yoxdur. Amma "Kitabi-Dədə Qorqud"dan başlayaraq bir çox şifahi xalq ədəbiyyatı nümunələrimizdə, klassik şairlərimizdən Nizaminin, Füzulinin, Xaqaninin yaradıcılığında, sonrakı dövrlərdə dəyərli bədii ədəbiyyat əsərlərində ana obrazı hər zaman aparıcı yerlərdən birini tutub. Azərbaycan atalar sözlərində də ana mövzusu, ananın ailədəki rolu haqqında çox dəyərli fikirlər var. Məsələn, "Uşaq atadan yox, anadan yetim qalar" atalar sözündə övlad üçün ananın dəyəri çox aydın şəkildə müəyyənləşdirilir. Buna bənzər rus atalar sözü də mövcuddur: «Без отца – полсироты, а без матери и вся сирота» ("Atasız yarım, anasız tam yetimsən"). Azərbaycan və rus atalar sözlərində bu cür bənzərliklərin sayı təbii ki, daha çoxdur. Həm Azərbaycan, həm rus təfəkküründə ana xeyirxahlıq, qayğıkeşlik, mehribanlıq simvoludur. Rus atalar sözlərində bu aşağıdakı nümunələrdə öz təsdiqini tapır: «Нет лучше дружка, чем родная матушка» ("Doğma anadan daha yaxşı dost yoxdur"), «При солнышке тепло, а при матери добро» ("Günəş istilik, ana xeyirxahlıq bəxş edir"), «Материнская молитва со дна моря вынимает» ("Ana duası adamı dənizin dibindən çıxarar"), «Сердце матери лучше солнца греет» ("Ana ürəyi günəşdən daha yaxşı qızdırır"), «Птица радуется весне, а младенец — матери» ("Quş yazın gəlməsinə, körpə anasına sevinir"), «Материнская ласка конца не знает» ("Ana nəvazişinin sonu olmaz"). Oxşar mövzulu Azərbaycan atalar sözləri isə bunlardır: "Ana bala ucundan canını oda yaxar", "Anadan əziz yenə anadır", "Ananın səbri tükənməz olur" və s.

Ana konseptinin mərkəzdə durduğu Azərbaycan və rus atalar sözlərindəki digər bir bənzərlik ananın öz övladına olan sevgisi ilə bağlıdır. Bu mövzuda olan rus atalar sözlərinin bəzi nümunələri: «Всякой матери милы свои дети» ("Hər anaya öz övladı əzizdir"), «Хоть дитя и криво, а отцу с матерью мило» ("Uşaq taygöz olsa da, ata-anasına əzizdir"), «Никто так детям не верит, как мать родная» ("Uşaqlara öz doğma anaları qədər heç kim inanmır"), «Для матери ребенок до ста лет дитёнок» ("Ana üçün uşağı yüz yaşında da uşaqdı"), «У матери дети - что на руке пальцы: за который не укуси, все больно» ("Ana üçün uşaqlar əldəki barmaqlar kimidir: hansını dişləyirsən dişlə, ağrıdır"). Eyni məzmunlu Azərbaycan atalar sözləri nümunələri: "Ata-ananın canı övlada bağlı olar", "Qız da, oğlan da övladdır, hər ikisi bir-birindən şirin" və s.

Təbii ki, ana təkcə mehriban, qayğıkeş deyil, sərt, tələbkar da olar bilir. Bu sərtlik, tələbkarlıq da çox sayda Azərbaycan və rus atalar sözlərində öz əksini tapmışdır. Rus atalar sözləri: «Мать праведна - ограда камена» ("Ədalətli ana daş hasar kimidir"), «Материнский гнев, что весенний снег: и много его выпадет, да скоро стает» ("Ana qəzəbi çox yağıb tez əriyən yaz qarı kimidir"), «Материны побои не болят, мать и бия, не бьет»

(“Ana zərbələri ağrıtmaz, ana döyəndə də döymür”), «Родная мать и высоко замахивается, да не больно бьёт» (“Doğma ana əlini yüksəyə qaldırar, amma bərk vurmaz”), «Мать и высоко подымёт, да не больно опустит руку» (“Ana əlini yüksəyə qaldırsa da endirəndə bərk vurmaz”). Eyni məzmunlu Azərbaycan atalar sözləri: “Ataya oğul, anaya qul”, “Yanan da ana, yaman da ana”, “Atanın duası, ananın ahı”, “Övladına cəza verməyən özü cəza alar” və s.

Rus dilində ana konseptinin Azərbaycan dilində olmayan fərqli variantlarına da rast gəlmək mümkündür. Bu ilk növbədə dini adət-ənələrlə bağlıdır. Xristianlıqda mövcud olan “xaç anası” («крестная мать»), “mənəvi ana” («духовная мать» və ya «матушка»), “kirvə ana” («посаженая мать» - toy mərasimində bəy və ya gəlinin anasını əvəz edən şəxs) kimi anlayışlar rusların həm şifahi xalq ədəbiyyatında, həm də yazılı ədəbiyyatında özünə yer etmişdir. Bu zaman adətən qohumluq əlaqəsi termini kimi işlədilən ana lekseması özünün bu xüsusiyyətini itirir və xaç suyuna çəkmə, toy kimi adət-ənənələrə uyğun olaraq simvolik, qan qohumluğu bildirməyən yaxınlıq əlaqəsinin ifadə olunmasında işlədilir. Ana konseptinin rus nəsrində bu cür işlədilməsinin çox sayda nümunəsinə rast gəlmək olar. Məsələn: «Крестная мать ласкала меня и кормила сластями» (А.В.Никитенко. Моя повесть о самом себе (1860-1877)). (“Xaç anam məni oxşayırdı və şirni yedizdirirdi” (A.V.Nikitenko. Özüm haqqında povestim (1860-1877)). Və ya: «Посаженый отец и посаженая мать встретили их хлебом и солью, благословили иконами и посадили перед поставцем, на котором стояли суды и овощники» (А.Ф.Вельтман. Кощей бессмертный. Былины старого времени (1833)). (“Kirvə atayla kirvə ana onları duz-çorəklə qarşıladılar, ikonalarla xeyir-dua verdilər və üzərində buludlar, tərəvəz qabları olan dolabla üzbəüz otuzdurdular” (A.F.Veltman. Ölümsüz koşşey. Köhnə zamanların dastanı (1833)).

Yuxarıdakı nümunələrdə verilən ana konseptinin bu variantlarına dini inanc, adət-ənənələr fərqliliyinə görə təbii ki, Azərbaycan ədəbiyyatında rast gəlmək mümkün deyildir.

Digər tərəfdən, ana konseptindən törəyən “ögey ana” kimi konseptlərə həm rus, həm də Azərbaycan ədəbiyyatında, hər iki xalqın atalar sözlərində tez-tez rast gəlinir. İki xalqın atalar sözlərində bu növ törəmə konseptlərə yanaşma da bir-birinə bənzəyir. Məsələn, ögey ana bir qayda olaraq mənfi obraz kimi verilir: Rus atalar sözləri: «В лесу медведь, а в дому мачеха» (“Meşədə ayı, evdə ögey ana”), «Из дому гонит мачеха, а из лесу медведь» (“Evdən ögey ana qovur, meşədən ayı”), «Маменька родимая – свеча неугосимая, мамонька неродная – похлебочка холодная» (“Doğma ana – sönməyən şamdı, ögey ana – soyuq şorbadı”), «Кто имеет мачеху, тот и печаль имеет» (“Kimin ögey anası varsa, onun kədəri də var”), «Какое без солнышка тепло, такое от мачехи добро» (“Günəşsiz isti nədirsə, ögey anadan gələn xeyir də odur”), «Не всякая мачеха – крапива,

не всякая падчерица – маков цвет» (“Hər ögey ana gicitkən, hər ögey qız lalə çiçəyi deyil”), «Мачеха добра, да не мать родна» (“Ögey ana mehribandır, amma yenə də doğma ana deyil”), «Сыр калача белее, а мать мачехи милее» (“Pendir qalacdan ağdı, ana ögey anadan əzizdir”) və s. Azərbaycan atalar sözləri: “Yetim qızın daşı ağır olar, ögey ananın sözü”, “Ata evində ögey ana, ər evində qaynana” və s.

Azərbaycan və rus atalar sözlərində “ana” konsepti ilə bağlı bir başqa oxşar cəhət ana və qız övladının tez-tez müqayisə edilməsi və ya onların münasibətlərinin müəyyənləşdirilməsidir. Rus atalar sözləri: «У матери дочь и в тридцать лет дочурка» (“Ananın yanında qızı otuz yaşında da qızcığazdır”), «Дочка ягодки ела, а у матери оскомина» (“Giləmeyvəni qızı yeyib, anasının dişləri qamaşır”), «Мать по дочке плачет, а дочка по доске скачет» (“Anası qızına görə göz yaşı tökür, qızı taxtanın üstə atılıb düşür”), «По матери и дочка пошла» (“Qız da anasına oxşayıb”), «Хороша дочь, как мать хвалит» (“Qız anasının tərifləyiyi kimi yaxşıdır”) və s. Azərbaycan atalar sözləri: “Analı qızın işi görünər, anasız qızın dişi”, “Qız anadan öyüd alar”, “Analı qızın özü böyüyər, anasız qızın sözü”, “Anası çıxan ağacı qızı budaq-budaq gəzər”, “Anasına bax qızını al, qırağına bax bezini al” (2, 47), “Ana qızına taxt verər, ata oğluna baxt” (1, 71), “Ananın keçdiyi körpüdən qızı da keçər”, “Bir anaya bir qız, bir kəlləyə iki göz”.

Rus atalar sözlərində “ana” leksemasının mücərrəd anlayışlara şamil olması hallarına da rast gəlinir. Bunun da aydın izahları var. Ana insanı dünyaya gətirən varlıqdır, deməli, həyat başlanğıcını anadan alır. Mücərrəd anlayışların başlanğıcını adətən dolayı yolla ana ilə əlaqələndirirlər. Məsələn, «Безделье – мать пороков» (“Bekarçılıq – qüsurların anasıdır”), «Праздность – мать всех пороков» (“Veyillik – bütün qüsurların anasıdır”), «Достаток – мать, убожество - мачеха» (“Rifah – anadır, qıtlıq – ögey ana”), «Иному счастье - мать, а иному - мачеха» (“Biri üçün xoşbəxtlik anadır, bir başqası üçün ögey ana”), «Счастье мать, счастье мачеха, счастье бешеный волк» (“Xoşbəxtlik anadır, xoşbəxtlik ögey anadır, xoşbəxtlik quduz canavardır”), «Иному служба мать, иному мачеха» (“Biri üçün iş anadır, bir başqası üçün ögey ana”), «Солдату отец – командир, мать и мачеха - служба» (“Əsgərə komandir – atadır, xidmət – ana və ögey anadır”), «Повторение – мать учения» (“Təkrar – təhsilin anasıdır”) və s.

Digər tərəfdən konkret anlayışların da ana ilə assosiasiya olunması hallarına tez-tez rast gəlinir. Məsələn, «Баня – вторая мать» (“Hamam – ikinci anadır”), «Печь нам мать родная» (“Peç bizim üçün doğma anadır”), «Каша – мать наша, а хлеб - кормилец» (“Sıyıq – bizim anamızdır, çörək - atamız”), «Щи да каша – мать наша» (“Şi və sıyıq – bizim anamızdır”), «Мать наша – гречневая каша: не перцу чета, не прорвет живота»

(“Bizim anamız – qarabaşaq sıyığıdır: bibərin tayı deyil, qarnını da yırtmaz”), «Пахарю земля – мать, а лентяю - мачеха» (“Əkinçiyə torpaq – anadır, tənbələ - ögey ana”), «Земля мать – подает клад» (“Torpaq anadır – xəzinə verər”), «Волга – всем рекам мать» (“Volqa - bütün çayların anasıdır”), «Киев – мать городов русских» (“Kiyev – rus şəhərlərinin anasıdır”), «Москва кому мать, кому мачеха» (“Moskva kimin üçünsə ana, kimin üçünsə ögey anadır”), «Москва – всем городам мать» (“Moskva – bütün şəhərlərin anasıdır”), «Темна ночь вору родная мать» (“Qaranlıq gecə oğru üçün doğma anadır”) və s.

Təbii ki, Azərbaycan atalar sözlərində də yuxarıdakı yanaşmanı görmək olar. Məsələn, “İnsaf qanunların anasıdır”, “Təkrar biliyin anasıdır”, “Ocaq anamızdır, müqəddəsdir” və s.

Ana konseptinin ətraflı öyrənilməsi üçün təbii ki, sadəcə atalar sözlərinin müqayisəli təhlili kifayət etmir. Amma konseptin atalar sözlərində geniş işlənməsi, bu atalar sözlərinin təhlilinin onun kompleks tədqiqinə böyük töhvə verə biləcəyi şübhəsizdir.

Ədəbiyyat

1. Əbülqasim Hüseynzadə. Atalar sözü (İkinci nəşr). Bakı: Yazıçı, 1982, 336 səh.
2. İlyas Həmidov, Bəhruz Axundov, Leyla Həmidova. Azərbaycanca-rusca, rusca azərbaycanca atalar sözləri və zərbi məsəllər lüğəti. Bakı: Təhsil, 2009, 560 səh.
3. Жигулев А.М. Русские пословицы и поговорки. Москва: Наука, 1969, 448 с.
4. Маслова В. А. Когнитивная лингвистика (Учебное пособие). Минск : Тетрасистемс, 2004, 256 с.
5. Народные пословицы и поговорки. Москва: Московский рабочий, 1956, 154 с.
6. Степанов Ю. С. Константы. Словарь русской культуры. Опыт исследования. Москва: Языки русской культуры, 1997, 824 с.
7. Степанов Ю. С., Проскурин С.Г. Константы мировой культуры. Москва: Наука, 1993, 158 с.
8. Фромм Э. Здоровое общество // Хорни К., Фромм Э. Психоанализ и культура. Москва: Юристь, 1995, 623 с.

Э.Вердиева

Концепт «мать» в азербайджанских и русских пословицах

Резюме

В статье на основе азербайджанских и русских пословиц анализируется концепт «мать» . Различные варианты этого концепта вместе с примерами включены в исследование. Корни концепта «мать» в устной народной литературе были исследованы, и было определено его место в национальной культуре и менталитете обеих народов. Концепт «мать» рассматривается в контексте семейных отношений, абстрактных понятий, религиозных убеждений, национальных традиций. На основе примеров дается похожие и разные аспекты концепта «мать» в азербайджанских и русских пословицах. Заботливый, ласковый образ матери, роль, которую мать играет в семье, сравнение родины и матери в азербайджанских и русских пословицах, - это другие темы, которые исследуются в статье.

E.Verdiyeva

“Mother” concept in Azerbaijani and Russian proverbs

Summary

Analysis of “mother” concept used in Azerbaijani and Russian proverbs are presented in the article. Different variants of this concept are discussed with examples. The core of “mother” concept in folklore is researched and its place is defined in the mind and culture of two nations. “Mother” concept is explored on the basis of family relationships, abstract ideas, religious beliefs, and national customs context. Different and similar features of “mother” concept in azerbaijani and russian proverbs are revealed. Other topics analysed in the article are; kind and compassionate mother image, mother’s role in the family, comparison of mother and motherland.

Rəyçi: **Leyla Əliyeva**
filologiya üzrə fəlsəfə doktoru, dosent

ƏDƏBİYYATŞÜNASLIQ

QALİB SAYILOV
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Folklor İnstitutu
qalibsayilov@mail.ru

"FOLKLOR-DİN" PROBLEMİNƏ MİF-DIN MÜNASİBƏTLƏRİ KONTEKSTİNDƏ BAXIŞ

Açar sözlər: Mif, mifologiya, din, mif-din keçidi, magiya, materializm, idealizm, folklor, mifoloji şüur, tarixi şüur
Key words: myths, mythology, religion, myth-religion transition, magic, materialism, idealism, folklore, mythological consciousness, historical consciousness
Ключевые слова: миф, мифология, религия, переход миф-религия, магия, материализм, идеализм, фольклор, мифологическое сознание, историческое сознание.

Materializm dini insan düşüncəsinin məhsulu hesab edirsə, idealizm onu insan düşüncəsinin fövqündə duran ideya – yaradıcı sbaşlanğıc kimi qəbul edir. Bu yanaşmalar fəlsəfəyə aiddir. Biz özümüz bir müəllif-tədqiqatçı olaraq dini ilahi risalət – Allah (c.c.ə.ş.) tərəfindən yerə nazil edilmiş sakral informasiya, başqa sözlə, teoinformasiya hesab edirik. Bizim şəxsi qənaətimizə görə, ideyanı deyil, materiyanı/maddəni ilkin hesab edən materializm bir fəlsəfə və dünyagörüşü kimi elə bu materyanın növlərindən biri olan "havadan asılı qalıb". Materializm insan şüurunu yüksək təşəkküllü materiyanın (beyinin) xassəsi hesab edir. Şüura elə bu cür yanaşdığı üçün materializm materiyanın istənilən növü, tipi, şəkli, forması və ümumən təzahür formalarının hamısına xas olan "başlanğıc" konseptini gülünc şəkildə izah edir. Yəni maddənin struktur məntiqinə əsaslanan materializm "başlanğıc" məsələsində məhz öz məntiqinin ziddinə gedir.

Əlbəttə, biz bütün bu məsələləri bir kənara qoyub, "din" fenomenini ictimai şüur konseptlərindən biri kimi götürərək, onun mif və folklorla münasibətlərini incələməyə çalışacağıq. Bu barədə fikirlər, əlbəttə, çoxdur, lakin biz həmin fikirlərin hamısına deyil, onlardan konseptual əhəmiyyət kəsb edənlərə toxunacağıq.

Qabaqcadan bəyan etmək itəyirəm ki, Azərbaycan sahəsində bu barədə gözə dəyən əhəmiyyətli fikir yoxdur. Çünki din mövzusu sovet dönəmində, sözün hərfi mənasında, çox qorxulu və yasaq mövzu idi. Burada heç bir fərdi təşəbbüsə, şəxsi öxünüifadəyə yol vermək olmazdı. Bütün yazılar elm sahəsindən, mövzusundan və janrından asılı olmayaraq, Moskvadan gələn ideoloji ustanovkalar əsasında yazılırdı. Antidin mahiyyət daşıyan və əsas etibarilə təbliğati xarakter daşıyan bu saysız-hesabsız "əsərlərin" fəlsəfi mahiyyətini dinin uydurma olması haqqındakı tezis təşkil edirdi. Azərbaycandilli ədəbiyyatlarda dinə bu materialist baxış müasir maskirovkalar altında bu gün də davam edir. Folklor-din, mifologiya-din münasibətlərinə baxış da bu çərçivədə davam etməkdə olub, sovet epoxasında deyilənlərin təkrarından ibarətdir. Lakin keçən dönəmlərdən fərqli olaraq müasir folklorşünaslıq tədqiqatlarında bir ideoloji azadlıq var: tədqiqatçı dinə əsaslanan görüşlərini sərbəst şəkildə ifadə edə bilir. Bu, xüsusilə təsəvvüf folkloru, o cümlədən folklordakı dini mənşəli obraz və motivlərlə bağlı yazılarda açıq görünür. İndi əksinə, tədqiqatçılar antidini baxışlarını gizlətməyə, pərdələməyə çalışırlar. Buna müasir Azərbaycan ictimai fikrində gedən proseslər də öz təsirini göstərir. Dinin dövlətdən ayrı olduğu Azərbaycan cəmiyyətində keçmiş sovet epoxasından fərqli olaraq, heç bir antidini fəaliyyətə yol verilmir.

Əlbəttə, bütün bunların fonunda diqqətəlayiq orijinal fikirlər, təhlilə gələcək baxışlar da meydana çıxmaqdadır. Biz də öz növbəmizdə diqqətimizi bütün bu "sonsuz çoxluq" içəruisində məna kəsb edən məqamlara yönəltmək istəyirik. Bu cəhətdən diqqətimizi ilk növbədə sovet dönəminin görkəmli etnoqrafı S.A.Tokarevin "Dünya xalqlarının mifləri" ensiklopediyasında çap olunmuş "Din və mifologiya"adlı məqaləsi cəlb edir (3, 376-378). Bu yazı sovet antropoloji-humanitar firkinin din və mifologiya münasibətlərinə baxışını ifadə edən ümumiləşdirici oçerkdir. Müəllif oçerkə din-mifologiya münasibətlərinə fərqli baxışların olması fikri ilə başlayır: "Din və mifologiyanın münasibətləri məsələsi müxtəlif istiqamətlərə məxsus olan alimlər tərəfindən fərqli həll olunmuşdur. Əsasən hindavropa və qismən də başqa xalqların mifoloji materialını ilk dəfə olaraq sistemli şəkildə tədqiq etməyə başlayan köhnə mifoloji (astral-mifoloji, naturist) məktəb bu məsələni birbaşa formada qoymurdu. Ona görə ki, din (xristianlıq, islam, iudaizm və s.) o dövrdə ancaq mürəkkəb dini təlim hesab olunurdu. Mifologiya isə qədim poeziya kimi qəbul olunurdu. Həm də mifoloji məktəbin nümayəndələri mifologiyanı bu mənada xalq dini inanclarından ayırmırdılar" (3, 376).

Burada diqqəti cəlb edən ən mühüm məqam mifologiyadan, başqa sözlə, mifologiya elmindən dinə olan baxışdır. Və göründüyü kimi, mifoloji məktəbin nümayəndələri dinlə mifologiya arasında elə ciddi sərhəd qoymur, bunları vahid poetik sistem daxilində götürürdülər.

XIX əsrin sonlarından başlayaraq, mifologiyanı dindən ayırmağa cəhd etdilər. Bu cəhdlər dini onu etibarsızlaşdıran, gözdən salan mifoloji elementlərdən, qədim mütəfəkkirlərin gülüş obyekti olan sadəlöhv və yaxud əyləncəli hekayələrdən təmizləmək, arındırmaq təmayülünü ifadə edirdi (3, 377). Monoteizm nəzəriyyəsinin tərfdarları açıq şəkildə belə bir fikri ifadə edirdilər ki, mifologiya dini çirkləndirir (3, 377). Marksistlər (İ.Trençeni-Valdapfel) belə hesab edirdilər ki, din – insanı gizli qüvvələrə tabe edən mürtəce güc, mifologiya – insana özünüdərk qanadları verən, müsbət qəhrəmanlar, hətta insanın yüksək kamilləşmə səviyyəsi olan gözəl tanrı obrazları yaradan tərəqqi qüvvəsidir (3, 377). Müasir elmdə mifologiya və dinin arasında sıx əlaqələr olmaqla, hər birinin müstəqil olması haqqında rəy hakimdir. Din və mifologiyanın qaynaqları fərqlidir. Dinin kökləri – insanın koratəbii təbii və sosial stixiyalar qarşısında gücsüzlüyü, mifologiyanın kökləri – insan şüurunun onu əhatə edən dünyanı anlama və izah etməyə olan elementar ehtiyacı ilə bağlıdır (3, 377).

Bu fikirlər, göründüyü kimi, din və mifologiya münasibətlərinə sırf materialist baxışlardır. Bu cəhətdən S.A.Tokarevin dinə başqa bir əsərində verdiyi tərif də bu materialist ruhu özündə əks etdirir. O yazır: "Din sosial hadisədir. Dini təsəvvürlər heç vaxt fərdi yaşantı və hərəkətlərlə məşdudlaşmır: o, həmişə ictimai nizamın bu bu və ya digər faktı ilə ifadə olunur. Din – insanın təsəvvür edilən fövqəltəbii dünyaya olan münasibətidir. İnsan bu münasibət çərçivəsində heç vaxt təcrid olunmuş fərd kimi fövqəltəbii dünyaya qarşı durmur. Din ideoloji forma kimi, yalnız insan şüurunda baş verən idraki proseslərə aid deyildir. O, insan fəaliyyətinin, çox, ya az şəkildə, geniş qatlarını əhatə edərək, ictimai münasibətlərin səciyyəvi şəkillərini inikas edir və doğurur" (4, 39).

S.A.Tokarevin verdiyi bu tərif, ümumən, rəsmi sovet ideologiyasının hakim tezislərini özsündə ifadə edir. Heç şübhəsiz ki, dini sosiumdan kənarda təasəvvür etmək olmaz: din, bu mənada doğrudan da, sosial hadisədir. Lakin müəllifin yanaşmasında din yalnız sosial hadisə kimi tərif olunur. Bunun səbəbi çox aydın və üzdədir. Sosium/cəmiyyət – insan toplumu deməkdir. Marksist-leninçi fəlsəfə dini ilahi mənşəli hadisə yox, insan təxəyyülünün məhsulu hesab edir və bütün təfsirlər, nəzəriyyələr, baxışlar, konsepsiyalar, istisnasız olaraq, bu müddəanın üzərində qurulur.

Mif-din münasibətlərinin ifadə sahələrindən biri magiya-din münasibətləridir. Magiya bir tərəfdən mifologiya, o biri tərəfdən din ilə sıx bağlıdır. Dünyaca məşhur etnoqraf Ceyms Corc Frezer magiya haqqında yazır: "Magik düşüncə iki prinsipə əsaslanır. Onlardan birincisində deyilir: oxşarlıq oxşarlığı yaradır, yaxud nəticə öz səbəbinə oxşayır. İkinci prinsipə görə, bir dəfə bir-birinə toxunan əşyalar birbaşa ünsiyyətdən sonra uzaqdan uzağa da qarşılıqlı təsiri davam etdirirlər. Birinci prinsip bənzəmək (oxşamaq), ikincisi isə təmas, yaxud yoluxma qanunu adlana bilər. Maq birinci prinsipə, yəni

oxşarlıq qanununa əsasən belə bir qərar gəlir ki, o bir şeyi təqlid etməklə hər bir arzuedilən hərəkəti həyata keçirə bilər, O, ikinci prinsip əsasında belə bir nəticəyə gəlir ki, onun əşyalar vasitəsilə etdikləri nə vaxtsa həmin əşyalara toxunmuş, onlarla bədəninin hansı hissəsi iləsə təmasda olmuş şəxslərə də təsir edir. Bu oxşatmaq qanununa əsaslanan cadugər üsullarını *homeopatik*, yaxud təqlidi magiya adlandırmaq olar. Təmas, yaxud yoluxma qanununa əsaslanan cadugər üsulları isə *kontagioz* magiya adlana bilər" (6, 19).

Göründüyü kimi, magiya ilkin mifik-dini təsəvvürlər sisteminə əsaslanan cadugərlik praktikasıdır. Bu praktikanın ideoloji bazasını, inanc əsaslarını miologiya, ibtidai dini təsəvvürlər təşkil edir.

Edvard Taylor yazır: "Əgər qısa şəkildə desək, magiyanın tarixdəki yeri belədir: o, öz əsas prinsipinə görə məlum sivilizasiyaların ən aşağı pillə-sinə aiddir. Magiya dünyanın əqli inkişafında çox az rol oynamış ibtidai cəmiyyətlərində indi də bütün gücü ilə qorunmaqdadır. Onu bu səviyyədən başlamaqla daha yüksək səviyyələrdə müşahidə etmək mümkündür: Belə ki, vəhşilərin əksər üsul və vərdişləri əhəmiyyətli dəyişiklik olmadan öz yerini qorumaqda davam edir. Zamanla yeni üsullar meydana çıxmış və köhnə ilə yeninin bu qarışığı ən yeni mədəni xalqlarda qorunub qalmışdır. Lakin həmin əsrlər ərzində qabaqcıl cəmiyyətlər öz rəylərində ketdikcə daha çox təcrübi yoxlamalara əsaslandıqca bu sirli fəaliyyət sadə mədəni qalıqlar səviyyəsinə düşdü və biz onu müasir dövrdə əsasən elə bu şəkildə də aşkar edirik" (1, 92).

Göründüyü kimi, Taylor da magiyanı sivilizasiyanın – mədəni düşüncə tarixinin ilk pilləsinə aid etməklə onu mifoloji təsəvvürlər səviyyəsində təsdiqləyir. Bu cəhətdən, magiya-din münasibətləri kontekstində söylənmiş fikirlər bizə mif-din münasibətlərini antropoloji fikrin klassik nümunələri əsasında nəzərdən keçirməyə imkan verir.

Mirça Eladenin yazır: "İnanc və mərasimlər bizi *magik* düşüncə sahəsinə çəkib aparır. Lakin biz xalq praktikasının magiyadan asılılığını qəbul etməklə düyünvurmanın (düyünçalmanın) ümumi simvolikasını magik mentallığın müstəsna yaradıcılığı kimi nəzərdən keçirməkdə haqlıyıqmı? Biz fikirləşmirik ki, bu, belə olub. Hətta hind-avropalılarda düyünvurma mərasim və simvolları xtonik-ay elementlərinə də malik olub, bundan irəli gəlməklə magik təsirlərlə yoğrulsa da, təkcə əsil dini təcrübəni deyil, həm də insan və dünya haqqında ümumi təsəvvürləri əks etdirən sənədlərə də izah vermək lazımdır" (7, 200).

Müəllifin fikirlərindən bəlli olur ki:

~ Folklor mif və ritualların (inanc və mərasimlər) nümunəsində magiya ilə bağlıdır.

~ Magiya həm də din (dini praktika) ilə bağlıdır.

C.C.Frezer miflə magiyanın qovuşduğu məqama diqqət yönəldərək yazır: "Bir sıra magik ayinlərdə ruhların müdaxiləsi nəzərdə tutulur: dualar və qurbanvermələr vasitəsilə onların xeyirxahlığını qazanmağa cəhd olunur. Bu hallarda magiya din ilə qovuşmada çıxış edir" (6, 53).

Buradan nə aydın olur?

Frezer ruh, dua, qurbanvermə kimi hadisələri din anlayışına daxil olan konseptlər kimi götürür. Bu cəhətdən onun din fenomeninə münasibəti belədir: "Dinin təbiəti qədər elə bir predmet yoxdur ki, onun haqqında rəylər bir-birindən bu qədər güclü şəkildə fərqlənsin. Dinə hamını təmin edəcək bir tərifin verilməsi mümkün deyildir. Müəllif ancaq iki şeyi edə bilər:

– birincisi, din adı altında nə başa düşdüyünü ifadə edə bilər;

– ikincisi, bu termini göstərilmiş mənada ardıcıl şəkildə işlədə bilər.

Bax bu mənada *mən din adı altında insanın fövqündə duran, təbiət hadisələrinin və insan həyatının gedişatını istiqamətləndirən və onlara nəzarət edən qüvvələrin rəhmə gətirilməsini və sakitləşdirilməsini başa düşürəm* (kursiv bizimdir – **Q.S.**). Din bu mənada nəzəri və praktiki ünsürlərdən, daha konkret desək, ali qüvvələrin varlığına inamdan, onları rəhmə gətirməyə və onların işlərinə yaramağa çalışmaqdan təşkil olunur. Birinci yerdə, əlbəttə, inam durur: çünki tanrıya qulluq etmək üçün əvvəlcə onun varlığına inanmaq lazımdır. Lakin əgər bir din dini həyat tərzi keçirməyə vadar etmirsə, o, artıq din yox, sadəcə teologiyadır. Müqəddəs Yakovun dediyi kimi, "əməlsiz inam ölü kimi bir şeydir". Başqa sözlə, hər hansı bir kəs öz davranışlarında müəyyən dərəcədə də olsa Allahdan qorxmağa, yaxud onu sevməyə əsaslanmırsa, o, dindar deyil. Digər tərəfdən, dini inama əsaslanmayan davranışı dini hesab etmək olmaz" (6, 54-55).

Beləliklə, Frezerə görə, din tanrıya inam və bu inama əsaslanan həyat tərzidir. Əlbəttə, bu tərif öz ümumi konturları daxilində bizim tərfimizdən qəbul olunur. Dinin mövcudluğunun ilkin şərti inamdır, bu unam özü ilə həmin dinin yaşam təcrübəsini və dini praktikanı gətirir.

Frezer magiya ilə dinin əsas fərqi haqında belə yazır: "Dinə görə, dünyanı şüurlu qüvvələr idarə edir və inandırmaq yolu ilə onların qarşısını almaq olar. Məhz bu cəhət fundamental olaraq magiya və elmə ziddir. Magiya və elm üçün öz-özlüyündə aydındır ki, təbiət proseslərinin gedişatını istəklər, yaxud fövqəladə varlıqların şəxsi möcüzələri deyil, mexaniki qanunların dəyişməz hərəkətləri müəyyənləşdirir. Magiya tez-tez ruhlarla işləyir və bu, onu dinlə qohumlaşdırır. Lakin magiya onlarla eynilə cansız güclərlə davrandığı kimi rəftar edir, yəni dində olduğu kimi onları rəhmə gətirmir, əksinə onları məcbur və vadar edir" (6, 56).

Beləliklə, Frezer dini tanrıya və onun yaratdığı fövqəladə varlıqlara inam və ilahi iradəyə tabe olma, magiyanı isə insanın ilahi iradəyə tabe olmayıb, fövqəlgüclərə təsiretmə praktikası kimi qəbul edir. Bu, mif-din

münasibətləri kontekstində mifoloji şüur daşıyıcısı olan insanın da belə bir dindənkənar "azadlığa" malik olduğunu ortaya qoyur.

ƏDƏBİYYAT

1. Тайлор Э.Б. Первобытная культура. Москва: Политиздат, 1989, 574 с.
2. Токарев С.А. Обряды и мифы / Мифы народов мира. В 2-х томах. Том 1. Москва: Советская энциклопедия, 1982, с. 235-237
3. Токарев С.А. Религия и мифология мифы / Мифы народов мира. В 2-х томах. Том 2. Москва: Советская энциклопедия, 1982, с. 376-378
4. Токарев С.А. Ранние формы религии. Москва: Издательство политической литературы, 1990, 622 с.
5. Токарев С.А, Мелетинский Е.М. Мифология / Мифы народов мира. В 2-х томах. Том 1. Москва: Советская энциклопедия, 1980, с. 11-20
6. Фрезер Дж.Дж. Золотая ветвь. Москва: Издательство политической литературы, 1984, 703 с.
7. Элиаде М. Миф о вечном возвращении. Москва: Ладомир, 2000, 414 с.
8. Элиаде М. Священное и мирское / М.Элиаде. Миф о вечном возвращении (сборник). Москва: Ладомир, 2000, с. 249-356
9. Элиаде М. Аспекты мифа. Москва: Академический проект, 2001. 240 с.

Г.Сайылов

Взгляд на проблему «фольклор-религия» в контексте отношений миф-религия

Резюме

В статье проблема «фольклор-религия» была исследована в контексте отношений миф-религия. В результате исследования мы пришли к выводу, что, религия как форма общественного сознания является крайне сложным феноменом. Существуют материалистическое и идеалистическое отношение к религии. Если материализм считает религию продуктом человеческого мышления, идеализм воспринимает ее как идею – созидательным началом, сверхъестественным и независимым от человеческого мышления. По нашему мнению, религия – это сакральная информация, посланная на землю Всевышним, иными словами, теоинформация. Религию невозможно представить вне социума: в этом смысле, религия и вправду является общественным явлением. Одно из областей выражения отношений миф-религия, является

отношение магия-религия. С одной стороны магия тесно связана с мифологией, с другой с религией. Магия – практика колдовства основанная на систему первичных мифических- религиозных представлений. Идеологическую базу и основу верований этой практики составляют мифология, примитивные религиозные верования. Первое условие существования религии – это вера, а вера в свою очередь привносит практику существования этой религии, и в общем, религиозную практику.

G.Sayilov

A view to the problem of "folklore-religion" in the context of myth-religion relations

Summary

In the investigation the problem of "folklore-religion" was studied in the context of myth-religion relations. According to our conclusions, religion is a very complex phenomenon as public consciousness. There is a materialistic and idealistic attitude to religion. If materialism considers the religion as the product of human thinking, idealism perceives it as an idea that is beyond human thinking - a creative beginning. According to our thinking religion is a sacred information sent by Allah to the Earth, in other words, it is theo-information. It is impossible to imagine religion outside the sociology: religion, in this sense, is a social phenomenon. One of the fields of expression of myth-religion relationships is magic-religion relations. On the one hand the magic is a closely related to mythology, on the other hand it is connected with the religion. Magic is the practice of gambling based on the initial mythical-religious imagination system. The ideological basis of this practice consists of the mythology, the primitive religious imaginations. The initial term of the existence of religion is belief, it brings the life experience of the religion and the religious practices with itself.

Rəyçi: Nadir Məmmədli
Filologiya üzrə elmlər doktoru, professor

ARZU HÜSEYNOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Sumqayıt Dövlət Universiteti
sdu.adil@gmail.com
Ünvan: 5008, Sumqayıt şəhəri, 43-cü məhəllə

XX ƏSRİN 40-50-Cİ İLLƏRİNDƏ CƏNUBİ AZƏRBAYCAN MÜHACİR ƏDƏBİYYATINDA BÖLÜNMÜŞ VƏTƏN İDEYASI

Açar sözlər: fədailər, 21 Azər günü, vahid Azərbaycan, demokratik dövlət, İran, şah, hərbi dəstə, Tehran hökuməti, mühacirət ədəbiyyatı.
Ключевые слова: федаи, День 21 Азара, единый Азербайджан, демократическое государство, Иран, шах, отряд, правительство Тегерана, эмигрантская литература.
Key words: fedais, day of 21 Azar, whole Azerbaijan, democratic country, Iran, shah, military detachment, government of Iran, immigrant literature.

40-50-ci illər mühacirət ədəbiyyatında vətən eşqi, əcdadlarımızın yadigarı olan doğma dil, Azəristan məhəbbəti, Babəklər, Koroğlular, Səttarxanlar yurdu bütöv Azərbaycan sevgisi, 21 Azər gününün fəxrlə yad edilməsi, Azərbaycanın vüqarı Təbrizin vəsfi, fədailərin qəhrəmanlığı öz əksini tapmışdır. Eyni zamanda həmin ədəbiyyatda sovet hökumətinə, sovet ordusuna, Leninə, kommunistlərə, Oktyabr inqilabına təriflər, şaha, şahlığa, taxt-taca nifrət, vahid Azərbaycanın düşmənləri tərəfindən parçalanması, Şimali Azərbaycanın qardaşlıq köməyilə zəfər bayrağının yenidən Təbrizdə sancılması, demokratik dövlətin süqutunun milli matəm hesab edilməsi kimi məsələlər bədii şəkildə təcəssüm etdirilmişdir.

A.P.Makulunun 1949-cu ildə yazdığı "Mübarizlər" əsəri 1952-ci ildə çap olunmuşdur. Yazıçının bu əsəri də 40-cı illərdə yazdığı əsərlərin süjetinə bənzəyir: 1946-cı ildən Tehran hökuməti Azərbaycan milli hökumətinə qarşı öz düşmənçilik siyasətini daha da gücləndirmiş, artıq gizli qəsddən açıq təcavüzə girişmişdi. Amerika və ingilis silahları ilə silahlanıb sivil paltar geyinmiş İran sərbazları və jandarmları yerli mülkədarların atlıları adı ilə Azərbaycan kəndləri üzərinə basqın etmək üçün göndərilmişdilər. Bu quldur dəstələri soxulduqları kəndləri çapıb-talayır, dinc əhalini qarət edir və öldürürdülər. Azərbaycan xalqını mürtəce İran hökumətinin bu quldur dəstələrindən qorumaq üçün Azərbaycan milli demokrat hökuməti ölkənin bəzi kəndlərində kiçik qoşun dəstələri saxlayırdı. Həsən kəndində yerləşmiş dəstə də bu qoşun hissələrindən biri idi.

Başqa dəstələr kimi bu dəstə də xüsusi rabitəçilər vasitəsilə öz mərkəzi ilə əlaqə saxlayırdı. Bu rabitəçilərdən əlavə, dəstənin radioqəbuledici cihazı da

var idi ki, əsgərlər hər gün Təbrizdən verilən xəbərləri eşidirdilər"[2,4]. Hərbi dəstə milli azadlıq hərəkatının fəallarından Azərbaycan milli ordusunun kapitanı Rəşidin başçılığı ilə Tehran işğalçılarına qarşı gizi silahlı müqavimətə başlayırlar.

Azərbaycan milli hökuməti ilə bağladığı sazişi xaincəsinə pozan şahənşah rejiminin qoşunları quldurcasına Azərbaycana basqın edir, milli hökumət isə qırğınlara, dağıntılara yol verməmək naminə düşmən qoşunlarına atəş açmağı milli orduya qadağan etdi. Lakin Tehran qoşunları ən alçaq yola əl ataraq silahsız əsirləri kütləvi şəkildə məhv edirdi. Öz cinayətlərini ört-basdır edən şahənşah hökuməti guya Azərbaycana "xeyirxah məqsədlə daxil olduğunu, seçkilər zamanı asayişi bərpa etmək istədiklərini" bildirirdilər. "Tehran qoşunları Azərbaycana soxulmaqda davam edir; onlar şəhər və kəndləri çapıb-talayır, dinc əhalini vəhşicəsinə qırırlar. Bir kəndli İran təyyarələrinin saldığı vərəqələrdən birini gətirmişdi; bu vərəqədə Tehran hökuməti Azərbaycana yağlı vədlər verirdi. Haman kəndli nağıl edirdi ki, bu vədlərin tamamilə əksinə olaraq, İran tanklarının körpələri, qadınları, qoca və uşaqları əzdiyini öz gözü ilə görmüşdür. Söylənilənə görə, fədailərin və əsgərlərin çoxu silahlarını götürüb dağlara çəkilmişlər, camaat da onlara əlindən gələn köməyi edir. Çəyirtkə kimi hər tərəfə səpələnən İran qoşunları bu gün –sabah Həsən kəndinə soxula bilərdi"[2,9].

Yaralı əsgərlərin çobana söylədiyi sözlər bütün Azərbaycan xalqının rəyini ifadə edir: Çobanın: "Demək hər şey puç olub getdi. Yenə də fars təpiyi altına düşdük?" deyə soruşan çobana əsgər deyir: "Yox! Hələ heç kim məhv olmamışdır!-dedi- Azərbaycan xalqı, onun milli dövləti və demokrat firqəsi yaşayır və yaşayacaqdır! Mübarizə davam edir! Biz təslim olmayacağıq! Qana-qanla cavab verəcəyik! Öldü var, bu yoldan döndü yoxdur"[2,21]. Düşmənlə qeyri-bərabər açıq döyüşdə əsgərlərini itirən Rəşid partizan müharibəsinə rəhbərlik edir.

Şahənşah rejimi Azərbaycanın müstəqilliyi uğrunda mübarizlərə divan tutur. Şahın Azərbaycana gəlməsi münasibətilə İran qoşunlarının Təbrizdəki komandanı fars generalı milli azadlıq hərakatının əhəmiyyətini heçə endirmək üçün belə bir təklif edir:- Məhbusları əlahəzrət şahənşaha ərizə yazmağa məcbur etmək lazımdır. Bu ərizədə onlar deməlidirlər ki, "Biz demokrat-filan deyilik. İndidən qiyamətə kimi də Azərbaycanda milli hökumət qurulmasını istəmirik. Özümüz də azərbaycanlı yox, əslən fars oğlu-farsıq. İndi danışdığımız dil də ləjceyin-məhəlli və fars dilinin bir şöbəsindən başqa bir şey deyil. Üç-beş nəfər mühacir bizləri yoldan çıxarıb özlərinə qarışdırdılar. Əlahəzrət padşah bizim mehriban atamızdır. "Kiçikdən xəta, böyükdən əta" deyiblər. Cavan, mehriban, adil və demokrat padşahımızdan təvəqqe edirik ki, bizim ailə vəziyyətimizi nəzərə alıb zindandan azad olunmağımızı əmr etsin. Biz söz veririk ki, əlahəzrətin dostu ilə dost, düşməni ilə düşmən olacağıq. Milli muxtariyyət sözünü

bir də dilinə gətirənlərin dilini kökündən çıxardacağıq... və sairə bu növ...-”[2,52-53]. Burada vətən xainlərinin xalqı şah rejiminin Azərbaycandakı farslaşdırma, parçalama, assimiliyasiyalaşdırma siyasətilə barışdırmaq fikirləri əks olunmuşdur.

M.Mehdibəyova yazıçının hadisələri obyektiv şəkildə qiymətləndirə bilməməsini yaşadığı sovet ideologiyasından irəli gəldiyini göstərir: “Buna baxmayaraq, mübarizənin davam etməsi, azadlıq mücahidlərinin qanlı qırğınlardan panikaya düşməməsi, ən ağır bir zamanda soyuqqanlı hərəkət etməsi oxucuya gələcəyə ümidlə baxmaq duyğuları aşılayır. Doğrudur, müharibədən bilavasitə sonra Sovet İttifaqında qələmə alınmış bir romanda İrandakı və Cənubi Azərbaycandakı geosiyasi vəziyyətin bütün obyektivliyi ilə təsvir ediləcəyini gözləmək sadəlövhlük olardı. Burada şübhəsiz ki, müəllif Sovetlərin tərəfini saxlamalı, Stalinin sovet qoşunlarını xəyanətkarcasına İrandan geri çəkməsi və bununla da demokratik qüvvələri arxa və dayaqdan məhrum etməsi, ingilis və amerikan havadarlarına söykənən vəhşi İran cəlladlarının dinc əhaliyə qarşı qanlı qırğınlarına soyuqqanlıqla rəvac verməsi faktlarını açıqlamamalı idi və açıqlaya da bilməzdi”[3,108-109]. Yazıçı sovet və beynəlxalq kommunist liderlərinin xəyanəti, xüsusilə türk dünyasına nifrət edən Stalin və onun erməni ətrafının Böyük Azərbaycan ideyasının əleyhdarı olan qüvvələrlə birləşib Cənubi Azərbaycan xalqını İran fars faşistlərinin qurbanına çevirdiyini acı təəssüflə bilsə də əsərdə bu fikrini açıq ifadə edə bilmir.

ABŞ konsulu kürd əyanlarından Ağayi İbrahimini Kürdüstandakı üsyançıları şahın düşmənləri olan Azərbaycan demokratlarının əleyhinə qaldırmağı, onları bunun üçün “Amerikanın yeni silahları ilə təmin etməyi” təklif edir. ABŞ diplomatı Lenin və Stalinin şəkli toxunulmuş Təbriz xalçalarını Azərbaycan demokratlarının “kommunist agentləri olduqlarını sübut etmək üçün əşyayi dəlil hesab edirlər. ABŞ hökuməti İrana Cənubi Azərbaycanı itaətə sövq etmək, Şimalla birləşməsinə “əbədi son qoymağın yollarını göstərir: “Gərək hər şeyi biz deyib, biz göstərək. Siz özünüz də fikirləşib təzə tədbirlər icad edin. Bu üsyankar Azərbaycanı birdəfəlik məhv edib onun yerində itaətkar bir Azərbaycan tikmək vaxtı çoxdan çatmışdır. Bu Azərbaycana elə bir od vurmaq lazımdır ki, tüstüsü Arazın o tayına yayılsın! Bircə dəfə də olsa demokratiya deyilən dillər dibindən qoparılmalıdır! Siz, İranın hər tərəfindən şahlıq üsulunu saxlamaq üçün su yerinə qan axıtmalısınız!..Mən təkrar edirəm: Bu demokratlardan bir neçə nəfərini şaha qurban kəsməlisiniz!..Divarlardakı elanlara bax...İndi də karxanaların bağlanma-sını, işsizlərin çoxalmasını, İran iqtisadiyyatının tənəzzülünü amerikalılardan görürlər,-konsul ani bir fasilədən sonra üzünü nəzmiyyə rəisinə çevirdi:-bu xüsusda mənim ağayi sərhəngdən gileyim var. Bu günə kimi belə vərəqələr buraxanları hələ də ələ gətirə bilməyibdir. Mən əvvəl də demişəm, indi də deyirəm: nə qədər ki, bu cür elanları gizlində nəşr edən demokrat mətbəələri dağıdılmayıb, xalq onlardan ümidini kəsmə-

yəcəkdir. Əgər siz bir daha Azərbaycanda milli hökumət qurulmasını istəmirsinizsə, onda işlərə daha ciddi yanaşmalısınız. Necə olursa-olsun, onların mərkəzi komitəsini ələ keçirməlisiniz"[2,62-63]. Beləliklə də, ABŞ diplomatı öz ölkəsinin geosiyasi maraqlarını güdərək yeri gələndə müstəqillik, demokratiya haqqı olan bir xalqın məhv olmasına belə rəvac verir. Onu ən çox narahat edən İranın Sovet İttifaqı ilə qonşu olması, Şimali və Cənubi Azərbaycanın birləşmək təhlükəsidir: "Siz beş nəfər demokrat tutub həbs etməklə bütün işlərinizi bitmiş hesab edirsiniz. Bir halda ki, məsələ qətiyyən bununla qurtarmır. Unutmayın ki, siz Sovetlər ölkəsi ilə həmsərhədsiniz, Təbrizdən Bakıya cəmi bir neçə saatlıq yol vardır. Siz buranı əsl cəbbəxanaya çevirməlisiniz. Burada hərbi məqsədlər üçün yaxşı şose yolları, böyük təyyarə meydanları, sərhəd boyu istehkamlar, gələcək müharibə üçün təzə silahlarınız və nəhayət, hər şeydən artıq amerikalılar kimi sizə də düzgün məsləhətlər verən məşvərətçi dostlarınız olmalıdır. Siz hər işdə Birləşmiş Ştatlara arxalanın, ağalar, mən öz hökumətim adından sizi əmin edirəm ki, həmişə bizə bel bağlaya bilərsiniz... Mən ümidvar oluram ki, bizim məsləhətlərimiz sizin üçün bir dərs olar və İran öz böyük dostu Amerikanın sözündən çıxmaz!"[2,64] .Bununla da ABŞ İranda İngiltərənin yerini tutmaqla yanaşı, İranın hərbi mövqeyini möhkəmləndir-məklə hər iki Azərbaycanın bir-birinə yaxınlaşmasının qarşısının alınmasını təkid edir, Böyük Azərbaycanın yaranmasının əleyhinə çıxır.

Edama məhkum olunan demokratlar Azərbaycanın müstəqilliyə qovuşacağına inamlarını ifadə edirlər: "Fars işğalçılarının əsarətində qalıb onların ağası olan ingilis-amerika istismarçılarına qul olunca, vətən yolunda, xalq yolunda, azadlıq və istiqlal yolunda mərdliklə ölmək böyük bir nemətdir! Qoy amerikan-ingilis imperialistlərinin əlində oyuncaq olan şah bilsin ki, bu gün biz ölsək də, Azərbaycan xalqı ölməyəcəkdir! Qoy Tehran cəlladları bilsinlər ki, artıq onların şahlıq və sərmayə-darlıq üsulunun sonu yaxınlaşır...Qardaşlar, unutmayın ki, bu üsulu kökündən baltalamaq üçün gərgin mübarizə lazımdır. Biz əminik ki, siz bu mübarizəni qalibiyyətlə sona qədər davam etdirəcəksiniz. Buna görə də biz həyatdan arxayın gedirik. Sağlıqla qalın, yoldaşlar! Sizə müvəffəqiyyət və səadət arzu edirik! Rədd olsun zülm və irtica! Yaşasın azadlıq və demokratiya!...Yaşasın Azərbaycan xalqı və bünövrəsi illərdən bəri şahidlərin qanı ilə yoğrulan Azərbaycan cümhuriyyəti!" [2,94-95]. Beləliklə, vətənpərvər demokratlar ölümdən qorxmayaraq Azərbaycan demokratik respublikasının yaranacağına və parçalanmış millətin birləşəcəyinə inamlarını itirmirlər.

Əsərdə Rəşidin başçılıq etdiyi gizli silahlı dəstə xalqın intiqamını alır, sürgünə göndərilən məhbusları azad edir və partizan müharibəsilə mübarizəni davam etdirir. M.Mehdibəyova A.P.Makulunun əsərlərində süjet oxşarlığından bəhs edərək yazır: "Bütün süjet boyu təbii bir axarla inkişaf edən süjet finalda Cənub mühacirət nəsri üçün xarakterik olan sünilikdən

yaxa qurtara bilmir; jandarmlardan terror yolu ilə intiqam alan kəndlilər qalan ömürlərini qaçaqçılıqla keçirərək jandarmlara və ajanlara qarşı partizanlıq edirlər. Beləliklə, müəllif hekayənin başlanğıcında yaxşı qoyduğu və ortasında uğurla inkişaf etdirdiyi süjeti təbii sonluğuna çatdıra bilmir və yurdsuzların intiqamını buyruq qulu olan jandarmalardan almaqla oxucunun keçirdiyi sarsıntını aradan qaldırmaq istəyir. Aydındır ki, sosializm realizminin təlqin etdiyi nikbin sonluq ideoloji yönətimindən irəli gələn bu ədəbi üsul ancaq infantil (sadəlövh-A.H.) oxucunun başını qataraq onda "xoşbəxt gələcək" haqqında xoş xülyalar yaratmaqdan başqa bir şeyə yarıya bilməzdi"[3,49]. Müəllif haqlı olaraq onun bütün əsərlərində nikbin sonluğun sosialist realizmindən və yaşadığı sovet ideologiyasının təsiri altında baş verdiyini göstərir.Lakin "Mübarizlər" əsərində intiqam ruhuna baxmayaraq Abbas Pənahi-nin kiçik həcmli əsərlərindəki terrorçuluq meyli burada yoxdur. "Hətta şahı terror etmək istəyən Şövkət xanıma, daha yetkin inqilabçı olan Mərziyənin dediyi aşağıdakı sözlər terrorizmə qarşı mübarizənin qlobal şəkil aldığı çağdaş siyasi şərait üçün çox aktual səslənir: "Biz şah və onun dəstəsi ilə düşmən olduğumuz kimi, terrorçuları da müdafiə etmirik. Əzizim, "mollanı öldürməkdən fayda çıxmaz, əlifbeyi öldürmək lazımdır". Rza şahın birinci oğlunu öldürərsən, ikinci oğlu onun yerinə keçər, onu öldürərsən, üçüncüsü onu əvəz edər...Unutmayın ki, biz tək şahı yox, şahlığın bütün üsulunu öldürməliyik. Bu çürümüş dəzgahı aradan qaldırmaqla yüz ildən bəri zəli kimi qanınızı soran ingilis imperialistlərinin də vətənimizdən ayağını kəsməliyik. İngilislərdən daha insafsız və yüz dəfə vəhşi olan amerikalıları ölkəmizdən çıxarıb qovmalıyıq! Bizim mübarizəmiz fərdi yox, ümumi olmalıdır"[2,88]. Buradan məlum olur ki, vətənin o tayındakı milli-azadlıq hərəkatı separatçılıqdan və terrorçuluqdan uzaq, demokratik üsul-idarə qurmağı, sosial-iqtisadi və mədəni islahatları həyata keçirməyi qarşısına məqsəd qoymuş xalq hərəkatıdır.

Beləliklə, A.P.Makulu mühacirət dövründə 1947-ci ildən sonra yazdığı əsərlərilə bölünmüş vətən və milli-mənəvi vəhdət ideyasının təbliğinə sovet dövrünün məhdudiyyətlərinə baxmayaraq öz töhfəsini vermiş yazıçılardandır.

40-cı illərdə Şimali Azərbaycanda mühacirət həyatı sürən şairlərdən Balaş Azəroğlu, Mədinə Gülgün, Hökumə Billuri, Əli Tudə və Söhrab Tahir hər iki Azərbaycanın görkəmli şairləri kimi yaradıcılıqlarında vətənin ağır dərdlərini, ikiyə bölünmüş vətən ideyasını, vahid bir xalqın milli mənəvi dəyərlərini bədii şəkildə əks etdirmişlər.

Hər iki Azərbaycanın görkəmli yazıçısı, ürəyi vətənin birləşməsi üçün döyünən akademik Mirzə İbrahimov bu dövrün ədəbiyyatını onun ictimai-siyasi şəraitlə bağlılığını belə səciyyələndirirdi: "1940-1950 –ci illər Cənubi Azərbaycan ədəbiyyatının çiçəklənmə dövrü oldu. Bunun da kökləri həmin illərdə ictimai həyatın canlanmasında, xalqın milli-azadlıq və demokratik

hərəkatının o vaxta qədər görünməmiş dərəcədə genişlənməsində, fırtınalı dərya kimi coşaraq şiddətli dalğalarla şəhərlərdən kəndlərədək ölkənin bütün guşələrini əhatə etməsində, bütün ictimai təbəqələri hərəkətə gətirməsində idi. Bu canlanma, bu geniş ictimai hərəkat bir tərəfdən Rza şah Pəhləvi istibdadının xalq kütlələrini cana gətirməsi, həyatı dözülməz dərəcədə pisləşdirməsi ilə bağlı idisə, digər tərəfdən dünya siyasi vəziyətinin son dərəcə gərginləşməsi və İkinci dünya müharibəsinin başlanması ilə dövlətlərarası münasibətlərdə törəmiş ağır vəziyyətlə əlaqədar idi"[4,8]. M.İbra-himov 40-50-ci illər ədəbiyyatının çiçəklənməsinə təsir edən amillərdən İkinci dünya müharibəsində faşizm üzərində qələbəni və Cənubi Azərbaycanda milli azadlıq və demokratik hərəkatın genişlənməsilə milli dövlətin yaranmasını xüsusi qeyd edir.

Bölünmüş vətən ideyasını özündə əks etdirən bədii əsərlər "vaxtilə ərazisi Dəmirqapı Dərbənddən başlayıb Həmədana-Qəzvin-Ərak-Qumadək uzanan Azərbaycan türklərinin ayrılıq dərdi, həsrəti, bir-birinə qovuşmaq arzusu və istək harayının poeziya dili ilə verilmiş nümunələridir. Bu bölünmənin ağrılı-acılı yükü-nü, iki əsrə yaxın bir müddət ərzində çəkmək məcburiyyətində qalmış xalqımız nə o vaxt, nə də indi bu haqsızlıqla barışmamışdır. Milli birlik ideyasından narahat olan kəslərin təmsilçisi olduğu millətin taleyində belə bir faciə baş versəydi, onun vətəni zorla parçalansaydı, ata oğula, ana balaya, bacı qardaşa, qohum qardaşa ancaq sərhəd məftilləri arxasından baxmalı olsaydı və üstəlik onun millət bütövlü-yü danılsaydı, görəsən onlar bu faciə ilə barışardılarmı? Bu ağır, əzablı yükə tab gətirə bilərdilərmi? Həsrət, ayrılıq yarası neçə-neçə nəsillərimizi bu yaranın əzablarını çəkə-çəkə, hicranı qovub vüsala çatmaq diləyi ilə yaşatmalı olmuş, minlərlə insan vüsala qovuşmaq həsrəti ilə dünyasını dəyişmişdir"[6,9]. Buradan aydın olur ki, Böyük Azərbaycanı məqsədyönlü şəkildə bölüb-parçalayan qüvvələr onun milli-mənəvi vəhdətini poza bilməmiş, birlik duyğusunu məhv edə bilməmişlər.

Böyük Azərbaycanı "şimala" və "cənuba" bölənlər millətin vəhdəti və bütöv-lüyünü, vahid tarixini, mədəniyyətini, ədəbiyyatını unutdura bilməmiş, xalq öz kökünü, dilini, milli kimliyini qoruya bilmişdir.

40-50-ci illər Cənubi Azərbaycan mühacirət ədəbiyyatında Gəncəli Səbahinin, Fəthi Xoşginabinin və Həmid Məmmədzadənin nəsr əsərləri də mühüm yer tutur və bu əsərlərdə Azərbaycan xalqının milli-mənəvi vəhdəti, dil, mənəviyyat, mədəniyyət birliyi məsələləri öz bədii əksini tapmışdır.

Gəncəli Səbahinin "Həyat faciələri" əsərində Cənubda mülkədarların Azərbay-can Milli Hökumətinin süqutundan sonra xalqa etdiyi zülmdən, qanunsuz-luqdan, ədalətsizlik və özbaşınalıqdan bəhs edilir. Əsərdə Qüdrət mərdlik, ədalətlilik, qeyrətlilik, namusluq mücəssəməsi olan azərbaycanlı obrazıdır. Yazıçı ərbabın bakirə bir qıza hücum etməsi, Qüdrətin sevgilisini

xilas etməsi, namusu uğrunda mübarizəsini təsvir etməklə ümumi Azərbaycan üçün milli-mənəvi vəhdət hesab olunan igidlik (“İgid basdığını kəsməz”), namusluluq (“ərbab rəiyyətinin ağası, atası, sərvəridir, ehtiramı əzizdir. Ancaq başqasının namusuna əl atsa, ölümü vacibdir”), vüqarlılıq, qürurluluq dəyərlərini, xalqın mənəviyyatının əsası kimi təsvir etdiyi halda, qanunsuzluğu dərəbəylik dövrünün hökmü, ərbabların iradəsi, əmniyyələrin şallağı kimi təqdim edir: “İstədikləri kimi evlərə soxulub talasınlar. Döyüb, söyüb təhqir etsinlər. Başqasının namusuna əl atsınlar. Bütün bu yaramazlıqları üçün heç kəs onlardan hesab istəməyəcəkdir. Nə vaxt bunlara son qoyulacaqdır?!”[5,391]. Buradan belə bir fikir hasil olur ki, bütün bu dərəbəyliyə yenidən xalq öz milli hökumətinin birliyini əldə etdikdən sonra istibdada, zülmə, sitəmə son qoyulacaqdır.

Fəthi Xoşginabi Cənubi Azərbaycanda milli-demokratik hərəkatda iştirak etmiş, orada ədəbi fəailiyyətə başlamış, ADF-nin orqanı olan “Azərbaycan” ruznaməsinin redaktoru olmuş, milli hökumətin süqutundan sonra Şimali Azərbaycanda mühacirət həyatı sürmüşdür. Bakıda “İki dost” (1951), “Son bayraqlar”(1954), “Hekayələr”(1956), “Ata” (1959), “İki qardaş”(1959) kitabları nəşr olunmuşdur.

“Əsərlərini üç dildə-Azərbaycan, fars və rus dillərində qələmə almış Həmzə Fəthi Xoşginabi çağdaş Güney Azərbaycan nəsrində orijinal üsluba, rəvan dilə, maraqlı obrazlı ifadələrə malik olan bir yazıçı kimi tanınmışdır. Həmzə Fəthi hələ Təbrizdə olarkən nəsr sahəsində qələmini uğurla sınamış və sonralar bu fəailiyyətini mühacir yazıçı kimi davam etdirmiş sənətkarlardandır”[3,34-35].

Həmzə Fəthi hekayələrində, xüsusilə “Ulduz” hekayəsinin nümunəsində ADF və Azərbaycan Milli Hökumətini ideallaşdırır, sinfi ziddiyyətlərin antaqo-nizmindən, sosialist həyat tərzi və partiya intizamından yazmış, onu fetişləşdirmiş, onun simvollarını bütövləşdirmişdir. “Bəşəriyyətin nicat yolunu Şimalda parlayan ulduzda görən yazıçı və onun qəhrəmanı üçün qiblə Kəbədə deyil, Moskvadadır. Hətta qəhrəman ölərkən də üzünü Şimaldakı parlaq ulduza çevirərək dünyadan rahat gedir və elə bu vəziyyətdə də dəfn edilməsini vəsiyyət edir”[3,38].

“Dördüncü adam” hekayəsində yazıçı sosializm realizmi prinsiplərinə uyğun olaraq sovetin Cənubi Azərbaycana ixrac etdiyi “inqilab”dan, kommunist partiyasına bənzər demokratik firqəni xatalı iş hesab edən Səməd ağa fanatik firqəçilər tərəfindən “səfeh adam” kimi qiymətləndirilir. “Bolşevik vədinə aldanmış, ixrac olunmuş inqilabın onlara xoşbəxtlik gətirəcəyinə sadəlövhlüklə inanmış, sidq-ürəkdən iman gətirmiş insanlar isə buna görə onu “gic” adlandırırlar”[3,41].

F.Xöşginabi “Uzunqulaq meşəyə gedir” təmsilində göstərir ki, meşəyə qaçan uzunqulağı şah seçirlər, onun vəziri isə tülkü olur.Yazıçı İrandakı şah-

lıq üsul-idarəsini tənqid edir. Onun verdiyi qanunda şahlığın İran üçün dəyişməz üsul-idarə olduğunu, uzunqulağın (şahın) bu məmləkətin hökmdarı, padşahlığın "ədalətli" quruluş olduğunu, hökmdarlığın –uzunqulaq (şah) nəslinin irsi olduğunu göstərir, meşədəki (cəmiyyətdəki) narazılığın isə səthi islahatlar-heyvanların adlarının dəyişməsi yolu ilə "aradan qaldırıldığı" tənqid olunur. Əslində yazıçı Cənubi Azərbaycanın müstəqillik yolu ilə uzunqulaq (şah) xanədanının müstəbiliyindən xilas olmasının zəruriliyini göstərir.

Cənubi Azərbaycanın mühacir nasirlərindən biri də Həmid Məmmədzadədir. H.Məmmədzadənin 40-50-ci illərdə Şimali Azərbaycanda "Hekayələr"(1957), "Futbol" (1959) kitabları nəşr olunub.H.Məmmədzadənin "Milli meydan" hekayə-sində şahlıq üsul-idarəsinin və Azərbaycan Milli Hökumətinin azadlıq bəxş etdiyi günləri müqayisə edilir, qəhrəman azərbaycanlı qadınların müstəqillik uğrunda apardıqları mübarizə təsvir edilir.

Mühacir nasirlərdən "Dadaş" imzası ilə yazan Firuz Sadıqzadənin "Bıçaq sümüyə dayananda" hekayəsində Cənubi Azərbaycanda vətənpərvər azərbaycanlıların zülm və istibdad altında olan həyatı təsvir edilir. Lakin artıq istibdad zülmündən cana doymuş kəndlilər ağaların qarşısında müti qul olmaq istəmirlər, müxtəlif təşkilatlarda birləşərək, azadlıq uğrunda mübarizəyə qoşulurlar. Məhəmməd də torpaq və azadlıq uğrunda mübarizlər cərgəsindədir. Ancaq o, öz doğma kəndinin nicatını Təbrizdə görür və Azərbaycanın bu qədim mədəniyyət mərkəzinə, azadlıq uğrunda görkəmli mücahidlər yetirmiş bu şəhərə can atır, öz nişanlısı gözəl Rənanı da özü ilə aparmaq istəyir. Bu hadisə onun bu niyyətini daha da tezləşdirir və məcburiyyət şəklinə salır. Hekayənin simvolik adı da elə həmin hadisə ilə bağlıdır"[3,90].

Cənub mühacirət nəsrində şər qüvvələr üzərində xeyirxah qüvvələrin qələbə çalması, Azərbaycanın demokratik gələcəyinə inamın əsas yer tutması özünü göstərir. Bütün bunlar isə sosialist realizmi prinsiplərindən irəli gəlir.

Mühacirət nasirləri nümayəndələrindən biri Məhəmməd Rza Afiyətin "Gizli kitablar" əsəri və 1958-ci ildə Bakıda nəşr olunmuş "Alov" kitabı diqqəti cəlb edir. "Biz yenə qayıdacağıq" hekayəsi Cənubi Azərbaycanda müstəqillik ideyasının reallaşmasına ümidin olmasıı ilə fərqlənir. Bu hekayədə də oxucuya nikbin sonluq bəxş etməkdə yazıçı müəyyən qədər səxavət göstərməyə çalışmış və buna nail olmuşdur. Soyuqdan donan və ananın artıq öldüyünü zənn edən körpə Yadigarın sağ qalması, eləcə də Fəridənin son dəfə Mərəndə baxaraq vətənlə vidalaşması epizodunda bir daha görüşmək ümidini itirməməsi-əsərin bu funksiyasına xidmət edən bədii detallardır. "Öz vətəni ilə axırıncı dəfə vidalaşdığı üçün Fəridənin gözlərinin yaşı axırdı. Lakin bu həsrət dolu gözlərdə bir ümid var idi. Fəridə Yadigarı əlləri üstdə yuxarı qaldıraraq: Əlvida, doğma Mərənd! Əlvida ana vətən! Biz yenə də sənin doğma qucağına qayıdacağıq!-deyib başqa bir səmtə üz tutdu"[1,300]. Bununla da yazıçı Cənubi Azərbaycan demokratik hərəkatın

reallaşacağına inamı ifadə edir. Bütövlükdə Cənubi Azərbaycan nəsri səksən illik formalaşma və inkişafı dövründə keçməkeşli bir yol keçmiş, bəzən süstlük və durğunluğun dadını da hiss etmişdir.

Cənubi Azərbaycan mühacir nəsri "çağdaş Şimali Azərbaycan və Türkiyə nəsrinə deyil, bütövlükdə dünya nəsrinə inteqrasiya etməkdədir. 1946-1950-ci illər mühacirət nəsri isə bütün fərqləri və ayrılıqları ilə birlikdə bu nəsrin tərkib hissəsi kimi qiymətləndirilə bilər. Onu da qeyd etmək yerinə düşərdi ki, keçən əsrin qırxıncı illərindən uzaqlaşdıqca Cənubi Azərbaycan mühacirət nəsrində inqilabçı pafosun və yaxın qələbənin, yurda dönmənin lap yaxınlarda baş verəcəyinə ümidin bədii təsviri getdikcə öləziyir və öz yerini sərt həyat reallığının bədii-publisist inikasına verir. Bu baxımdan Güney Azərbaycan mühacirət nəsrinin tarixi inkişaf yolu-inqilabi romantikadan və sosializm realizmindən gerçəkliyin olduğu kimi dərkinə və bədii əksinə doğru ağrılı bir yol kimi qiymətləndirilə bilər" [3,97]. Müəllif bu dövrün mühacir ədəbiyyatının sosialist realizminin təsiri altında olmasına baxmayaraq obyektiv həqiqətləri də əks etdirdiyini bildirir.

Beləliklə, XX əsrin 40-50-ci illər milli demokratik mühacir ədəbiyyatını öyrənərkən ona təsir edən aşağdakılar amilləri qeyd edə bilərik:

- İranda Rza şahın istibdadının sarsılması;
- Cənubi Azərbaycanda demokratik hərəkatın güclənməsi, şah rejimi əleyhinə mübarizənin genişləndirilməsi və Azərbaycan Milli Hökumətinin yaranması nəticəsində siyasi, iqtisadi, sosial-mənəvi, mədəni həyatın, ədəbi həyatın canlanması;
- Bu dövrlərdə təcrübəli yazıçıların ruhlanması, ədəbiyyata istedadlı gənclərin gəlməsi;
- Yeni mütərəqqi məzmunlu, dolğun ədəbi əsərlərin meydana gəlməyə başlaması.

Ədəbiyyat

1.Cənubu Azərbaycan yazıçılarının ədəbi məcmuəsi.Bakı:Azərnəşr,1986,320 s.

2. Makulu A.P. Mübarizlər.Bakı: Azərbaycan Uşaq və Gənclər ədəbiyyatı nəşriyyatı,1952 ,112 s.

3.Mehdibəyova M. Cənubi Azərbaycan mühacirət nəsri (1947-1990-cı illər) Bakı:Nurlan, 2007,190 s.

4.İbrahimov M.Milli-azadlıq mübarizəsi və demokratik hərəkatın qızıl səhifələri// Cənubi Azərbaycan ədəbiyyatı antalogiyası 4 cilddə, III cild (1941-1953-cü illər) Bakı: Elm, 1988,s.8 (8-16) [552s]

5. Sabahi Gəncəli, Həyat faciələrindən, Bakı: Azərnəşr,1987,398 s.

6.Rəhimli Ə. Hicran dərdi, vüsal həsrəti//Parçalanmış millətin harayı. Bakı: Nurlar.2007,s.9-22, 656 s.

Арзу Гусейнова

Идея разделенной родины в эмигрантской литературе Южного Азербайджана в 40-50-ые годы XX века

Резюме

В статье исследуются произведения прозаиков эмигрантской литературы А.П.Макулу, Ф.Хошкинаби, Генджали Сабахи, Ф.Садыгзаде и Г.Мамедзаде, занимающихся творчеством в Северном Азербайджане в 40-50-ые годы XX века. В этих произведениях отражается печаль по разделенной родине.

Автор изобличает преступные деяния Иранского государства в Южном Азербайджане против народа, о которых сказано в эмигрантской литературе, и подробно разъясняет то, каким образом это государство пыталось заглушить праведный голос азербайджанского народа, пытающегося обрести независимость и свободу.

Эмигрантская проза 1946-1950-ых годов со всеми её отличиями может оцениваться как составная часть азербайджанской прозы. Автор отмечает, что отдаляясь от 40-ых годов прошлого века, эмигрантская проза Южного Азербайджана с её революционным пафосом, уверенностью в близкой победе и скором возвращении на родину постепенно уступает место литературно–публицистическому отражению жёстких жизненных реалий. С этой точки зрения, эмигрантская проза Южного Азербайджана, пройдя исторический путь развития от революционной романтики до социалистического реализма, начинает воспринимать и отражать действительность такой, как она есть. В то же время автор отмечает, что несмотря на влияние социалистического реализма эмигрантская проза того периода в лучших своих образцах отражала и объективную реальность.

Arzu Huseynova

The Idea of Divided Homeland in South Azerbaijani Immigrant Literature in 40-50s of XX century

Summary

The sorrow of divided homeland is researched in the works of A.P. Makulu, F.Khoshginabi, Ganjali Sabahi, F.Sadigzade, H.Mammadzade who were immigrant prosaists living in Northern Azerbaijan in 40-50s of XX century. The author has disclosed the criminal deeds of government of Iran to the nation in Southern Azerbaijan and has comprehensively illustrated suffocation by Iran of Azerbaijani people's voice of truth who wanted to achieve its freedom and sovereignty.

1946-1950's immigrant prose could be evaluated as a part of Azerbaijani prose together with all differences and diversities. According to works of prose after the 40s, the author notes that artistic description of revolutionary pathos, close victory in South Azerbaijan immigrant prose and the hope of returning home soon decreases gradually upon moving away from 40s of last century and it gives its place to artistic-publicist reflection of the severe life reality. Historical growth way of South Azerbaijan immigrant prose turns to be a painful path towards perceive of reality and artistic reflection by passing through revolutionary romanticism and the realism of socialism. At the same time, the author notifies that immigrant literature of this period sometimes expresses objective realities despite being under the influence of socialist realism.

Rəyçi: **Aftandil Məmmədov**
Filologiya üzrə elmlər doktoru, professor

PƏRVANƏ MƏMMƏDLİ
Filologiya üzrə fəlsəfə doktoru
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
mamedlli_ph@yahoo.com

İRANDA TÜRKÇÜLÜYÜN İDEOLOQU - ƏLI TƏBRIZLİ

Açar sözlər: Əli Təbrizli, ideoloq, Güney Azərbaycan, "Ədəbiyyat və milliyyət" əsəri, türkçülük
Key words: Ali Tabrizli, a man of thought and deed, the national resistance movement, the book "The literature and the nationality", ideology.
Ключевые слова: Али Тебризли, идеолог, Южный Азербайджан, книга "Литература и национальность»,тюркизм

Əli Təbrizlinin ötən əsrin 60-cı illərində qələmə aldığı "Dil və Ədəbiyyat" əsəri Güneydə yazılan ilk tənqidi əsərlərdən sayıla bilər. Kitabda o kəskin bir tənqidçi kimi Azərbaycan türkcəsinə xor baxanları, ana dili və tariximizi təhrif edənləri kəskintənqid edirdi.

Əli Təbrizli 1929-cu ilin iyun ayının 25-də Şərqin qədim elm və sənət mərkəzlərindən biri sayılan Təbriz şəhərinin "Münəccim" məhəlləsində anadan olub. İbtidaı və orta təhsilini Təbrizdə alıb. 1945-ci ildə ona Azərbaycan Demokrat Hökuməti dönəmində Türkcə təhsil almaq nəsib olur. On beş yaşında olarkən ailəsi ilə birgə Tehrana köçür. Tehranda özünü qərib hiss edən Əli meylini kitablara salır,böyük səy və həvəslə dərgi və kitablar oxuyur. Ana dilinə böyük maraq və sayğısı da o illərdən başlayır.Ana dilinə olan sevgisi onu bu dildə yazıb yaratmağa ruhlandırır, ilk sevdasını şeirlə əks etdirir. Aradan çox keçməmiş"Əli Təbrizlinin qəzəlləri" kitabını nəşr edir.

Qənc ikən, çeşidli işlərlə məşğul olur və nəhayət "Atropat" yayın evini açır. Dəfələrlə Pəhləvi rejiminin zindanlarında dustaq olur. Şah rejiminin bütün təzyiqlərinə baxmayaraq türk folklor nümunələrini toplamağa başlayır. "Kərəm ilə Əsli" dastanını xalqdan,ağızlardan toplayıb yazıya köçürərək nəşr edir.Daha sonra Şah İsmayılın həyatı və şeirlərini əhatə edən, iki cilddə "Şah İsmayıl" romanını yazıb nər edir.Bəzi mütəxəssilərin fikrinə görə bu əsər Güney Azərbaycanda roman janrında yazılmış ilk əsər sayıla bilər.

1955-ci ildən sonra Həsən Məcidzadə Savalanla bərabər çalışmağa başlayır.Bu işbirliyinin gözəl nəticəsi olaraq 4 ildən sonra Əliağa Vahidin " Vahidin külliyatı" kitabı, ərsəyə qəlir.Daha sonra isə "Azərbaycan nəğmələri və bayatıları" (iki cilddə), "Koroğlu" dastanı işıq üzü qörür.

" Azərbaycan klassik ədəbiyyatından şeir məcmuələri", "Füzuli divanı", Salman Mümtazın şeirləri, Azərbaycan türkcəsi, Əziz Nesinin bir

neçə hekayəsi və Savalan ilə birlikdə daha bir neçə başqa kitablar hazırlayır və çap etdirir. Əli Təbrizli bir naşir olmaqla bərabər həm də özünü bir şair, araşdırıcı, publisist kimi tanıtdırır.

Dövrün tanınmış gənc ziyalılarından ikisinin əsərini Əli Təbrizlinin "Ədəbiyyat və milliyyət" və Əlirza Nabdilin(Oxtay) "Azərbaycan və milli məsələ" əsərlərini təhlilə cəlb edən professor Nəsib Nəsiblinin çox maraqlı bir fikri var. O belə qənaətə gəlir ki, 60-70-ci illərdə Güney Azərbaycanın milli ideologiyasında iki fərqli təmayül – milli nihilizm və türkçülük meydana çıxmşdı.(2) Əlirza Nabdilin(Oxtay)ın əsərini təhlilə cəlb etmək başqa bir konuya aid olduğundan onun üzərində dayanmayacağıq. Əsas məqsəd Əli Təbrizlinin yaradıcılığındakı milli məfkurə, türkçülük, türk birliyi ilə bağlı məsələləri üzə çıxarmaqdır. Lirik şeirlər yazan şair Əli Təbrizli yaşadığı ölkədə hakim rejimin apardığı assimilyasiya siyasətinə, eləcə də millətinə qarşı edilən ayrıseşkilik və haqsılıqlara dözə bilmirdi. Əli Təbrizli əvvəlki nəsillərdən fərqli düşünən, milli məsələlərdə daha cəsarətli olan və milli kimlik axtarışlarında bulunan yeni nəslin nümayəndəsi idi. Bu yaradıcı və düşünən nəslə mənsub olan Əli Təbrizli Pəhləvi rejiminin heç bir elmi əsası olmayan ölkədə etnik təmizləmə konsepsiyası ilə barışa bilmirdi.Əli Təbrizli"Ədəbiyyat və milliyyət" əsərinin ilk səhifəsini belə başlayır; "Gözəl türk dilimizdə indiyə kimi belə bir yazı və kitab yazılmayıb və nədənsə milyonlarla fateh və əsir türkün qafasından bu mahiyyət və məziyyət üçün heç bir düsüncə keçməyib. Ola bilər ki, bu gün bu kitabı çox da alqışlamasınlar, çünki bu kitabda olan sözlər və mövzular nə soldan asılıdır, nə də sağdan, halbuki hələlik bu gün türk ya sola vurğundur, ya sağa məftun."Dövrə xas olan heç bir siyasi meyllərin təsirinə düşmədiyini vurğulayandan sonra müəllif türklərdə milli təəssübkeşliyin zəif olmasına təssüflənib yazır: "...hər oyuna baş vurub, tarix və coğrafiya oxuyub-yazıb, hər cür özgə dillər öyrənib və öyrədib, hakim və məhkum olub, varlı-varsız olub, dünya millətlərini və dillərini tanıyıb və hər cür boyağa bulaşıb. Ancaq öz milləti kim imiş, kimdir və kim olacaq? - Bunu bilməyib, hələ də bilmir və bilmək də istəmir.

Gah behişt nemətləri və huri-qılman üçün dinçi olub, gah dünyanın maddi ləzzətləri və məqamları üçün solçuluq yolunda candan çalışıb və keçib. Ancaq milli mənəviyyatı, milli izzəti-nəfsi və milli vicdan və şərəfi üçün zərrə qədər də çalısmayıbdır.

Bu baxımdan tutduqları yollar və məramlar köksüz və rişəsiz olduğuna görə boşa çıxıb və bu gün dünya millətləri arasında əllərində milli bir mahiyyət və milli bir ərdəm sənədi yoxdur". (2)

Əli Təbrizli bi əsərin bir neçə bölümünü tarixə həsr edib."Dilsiz baş" bölümündə müəllifin məqsədi fars şovinizminin və onun ortaya atdığı Ariya

irqçiliyinin tarixlə, kültürlə bağlı qondarma tezislərini ifşa edib soydaşlarına dürüst bilgi verir.

Əli Təbrizli bütün dövrlərdə türklərə xas bir bir məqamı da vurğulayıb qeyd edir ki, tarix boyu türkün başqa millətlərə hüquq və ehtiramı, olduğu kimi, bunu bir vəzifə bilib həmişə basqa qövmlərə və ellərə insani nəzər ilə baxardı.

Məmaliki-Məhrusə ilə bağlı açıqlamasını davam edərək sonra yazır ki, Məmaliki-Məhrusə demək hərasət olunan məmləkətlər demək idi ki, türkcəsi "qorunan ölkələr" mənasını verirdi və hüquq və əxlaq baxımından birinin o birindən üstün və yuxarı tutulması yox idi. O halda bu Məmaliki-Məhrusədə olanlar milli giley və rejim təbizləri eşitmədən bütün Məmaliki-Məhrusə vətəndaşları ilə səmimi və qardaş olaraq, vətən düşmənlərinin qarşısında tamamilə birlik göstərdilər.(2)

Əli Təbrizli onu da qeyd edirdi ki, hakimiyyətdə olan türk sülalərinin fars şair, yazar və ədiblərini himayə və təşviq edib bəslənmələri türk qövmünün vətəni və milli əxlaqından irəli gəlirdi ki, əli altında olan millətlər də türk millətləri ilə birlikdə hüququ baxımdan eyni idilər.

Son zamanlarda bu Məmaliki-Məhrusəyə başdan-başa "İran" adı verildi və məmləkət yerinə əyalət və ya ostan adı qoyuldu. Əlbəttə, bu adlar nə milli, nə də hüquqi deyil, bəlkə, idarə olunmaq baxımından seçilmişdi.

Ancaq keçmişdəki milli hüquq və əxlaq yerinə mərkəzi dövlət tabizleri və milli giley siyasəti ortaya qoyuldu. Və sonra təhqirlər və töhinlər şiddət ilə başlandı. Bu siyasətlərin və tabizlərin çirkin təsiri altında olaraq üstün tutulanlar təhqir olunanlara özgə və əcnəbi gözü ilə baxdılar və onlara "qeyri-irani" və hətta "özgə toxumu" dedilər.

Açıqcası bu ki, keçmişdəki mütəqabil ehtiram və əxlaq yerinə ziddiyyət və düşmənliklər mərasimi idi. Və vətən düşmənlərinin qarşısında ayrılıqlar və soyuqluqlar ortaya çıxdı.İranlı olmağı -məhz fars olmaq siyasətini irəli sürüb farsları basqa qövmlərin üstünə təhrik etdilər. Və yüzlərlə kitablar və məqalələr yazıb, yalanlar qurasdırıb onların milliyyət və əsliyyət köklərinə baltalar və teşələr vurdular.

İranlı olmağı, fəqət fars olmaqla məhdudlaşdıranlar, bu qövmi əvvəl milliyyətçi, sonra şovinist ruhiyyəsinə itələdilər və ona yalançı və hiyləgər tarixlər, mahiyyətlər və tarixi əsərlər qurasdırdılar və beləliklə, basqa qövm və ellər üçün faşistlərin əsasları kimi bir rayis ortaya çıxardılar.

Keçmişdə və dünənə kimi, süfrəmizin başında olan, onunla qardaşca yaşadığımız, türk kəlməsini şeir divanlarında (gözəllik və igidlik) təcəssümü göstərən farsdan, bu gün bizim üçün bir barışmaz düşmən və milliyyət müfəttişi adətdən nejad sevənlər həm bizə, həm başqa vətən qardaşlarımıza, həm də vətənimiz üçün ən birinci nakişi və qırıcı düşmənlərdir".(2)

Əli Təbrizli kimliyini axtaran hər bir Azərbaycan türkünü düşündürən "bir millət olaraq nədə yanıldıq və bu günə düşdük?" sualına cavab verir, həm də onun həlli yollarını göstərir. "Azərbaycan İranın başı, sözünü eşidən türk və azərbaycanlı, bu tərif və təhrikdən şişir və məğrur olar. Özünü belə də unudulmuş və yaddan çıxmış görməz. Həmişə "sipəri bəla" olmağı bir növ qəhrəmanlıq və tamamiyyət ərzi üçün özünün artımın bilər. Dəyənək və çomaq yerinə hislənilən və zaman-zaman əllərdə qolçaq və oyun olan basetlah azərbaycanlı heç özündən soruşmaz ki, əgər Azərbaycan İranın başıdırsa, bəs bu başın dili hanı? Yoxsa bu baş, bir daş kələm və ya qəmbərdi? Dilsiz baş, ruhsuz bədən, mahiyyətsiz türk, özünü tanımaz bir insan ölüdür.Əli Təbrizli yazının sonunda üzünü soydaşlarına tutub bu suallı verir;"Dilsiz baş bir daş kələm, bir qəmbər, bir qabaq və tənbəl pişik deyil, bəs nədir? Bunun üçün gərək bu gün ayıldığımızı və yaxşı varis olduğumuzu göstərək və doğrusu budur ki, özümüzü toplamalı qorumalıyıq. Yenə də bunu düsünmək lazımdır ki, dilsiz baş olduğumuz üçün bu gün bizə bitki ilə insan ortasında verilən yer və yükləmə olan edif hankı bir mövcudun yeridir.(3) Əsərin dili son dərəcə oxunaqlı və sadədir,eyni zamanda düşündürücüdür. Təbrizli Əli şeirlərində də özəlliklə qəzəllərində çox sadə və axarlı bir bir dildə, siyasi və milli mövzulara toxunur və bütün millət düşmənlərini tənqid atəşinə tutur. O, qəncləri, sağşılar və solçuların tələlərindən çəkindirir və elə ona görə də dəfələrlə Şah quldurlarının işqəncəsinə məruz qalır. O, ötən çağın sıxıntı və boğuntu içində, Atropat kitab evində Azərbaycan dil və ədəbiyyatına ömrünün sonuna kimi bacardığı qədər qulluq etmişdir. (4)

Əli Təbrizlinin xalqa milli ruh aşılayan fikirlərinə, yazılarına və kitab evindəki fəaliyyətlərinə görə şahın qizli polis təşkilatı SAVAK onu 6 illik həbsə məhkum edib əsərlərinə qadağa qoydurlar.

Həbsdən çıxandan sonra az müddət ərzində "Qud Amuz" adında türkcə-Farsca bir lüğət hazırlayıb çap etdirir. . Bir çox soydaşları kimi o da məktəb üzü görmədən oxuma yazmağı öyrənmiş; küçə satıcılığından nəşriyyat rəhbərliyinə qədər yüksəlmişdir. Yavuz Akpınar Əli Təbrizlinin şifahi xalq ənənələrindən faydalanaraq qələmə aldığı iki cildlik "Şah İsmayıl" adlı əsərini Güneydə roman növünün ilk türkcə nümunəsi olduğunu yazır. Romanda ümumi mənada oxucu rəngarəng keyfiyyətli surətlər və bir-biriylə əlaqəli hadisələr mənzuməsi şəklində olub, bir-biriylə ciddi şəkildə fərqlilik göstərən hadisə və qəhrəmanlarla qarşı-qarşıya gəlir.

"Ğöz yasları", "Dil və ədəbiyyat " adlarında iki kitabı da həmin dövrün məhsuludur." Dil və ədəbiyyat" adlı kitabı 1978-1979- cu illər İran İnqilabı ərəfəsində nəşr olunur. Bu kitabında müəllif özünü artıq Əli Təbrizi yox, Təbrizli Əli kimi təqdim edib.

Ancaq "Ğöz yasları" adlı əsəri hələ də əlyazma halındadır.

Onun türkiyəli türklərə həsr etdiyi "Türkiyə milləti" şeiri böyük sevgi ilə yazılıb. Şeirdə Mustafa Kamal Atatürk yad olunur,onun xidmətləri qeyd olunur;

Şair eyni soykökdən,azacıq fərqlə eyni dilə,kültürə malik iki qardaş xalqı birliyə,ülfətə səsləyir.

Çox diqqətçəkicidir ki, Əli Təbrizli o dövrdə bizdə bir çoxlarının bilmədiyi,gizlin mətləblərə də toxunur.Uzun illər Bakının yenidən qurtulmasını,o cümlədən qəhrəman Türk Ordusunun Bakını bolşevik və daşnaqlardan azad etməsini xatırladır;

Təkcə yollamırı salam Təbrizi,
Bəlkə bütün ellər yad edir sizi,
Bakıda siz idiz qurtaran bizi,
Ölümdən, zillətdən göstərən qeyrət,
Ey Türkiyə milləti, ey qəhrəman millət!(5)

Əli Təbrili "Ərdəbil" şeirində Səfəvilər dövründə dövlətin paytaxtı olmuş,İranı dünyaya tanıtdırmış,Azərbaycanın fəxri şəhəri Ərdəbili anır.Onun indi gözdən iraq salınmasına kədərlənir.

Güney Azərbaycanın istedadlı şairi, təqib və təzyiqlərə baxmayaraq əsərlərini ancaq ana dilində yazan Səhəndin ölümündən bərk təsirlənərək ona "Səhənd üçün" şeirini ithaf edir.(6)

Əli Təbrizli ayrı-ayrı vaxtlarda üç dəfə həbs olunub, işqəncələrə məruz qalsa da,əqidəsindən dönmədi, bütün çətinliklərə mərdliklə sinə qərdi.

Əli Təbrizli 1998-ci ilin yanvar ayının 18-dəTehranda əbədiyyətə qovuşmudur və öz vəsiyyətinə əsasən doğma yurdu Təbriz şəhərinin "Vadi-yi Rəhmət" qəbristanlığının ailəvi məzarlarında torpağa tapşırılmışdır.

Görkəmli fikir və əməl adamı olan Təbrizli Əli, Güney Azərbaycanda milli dirəniş hərəkatının simvollardan biri olmuşdur. Özəlliklə onun "Ədəbiyyat və milliyyət" kitabı mürtəce-irqçi suçlamalara Güney türklüyünün ilk ümumiləşdirici cavabı idi. İlk təşəbbüs olmasına baxmayaraq, həmin kitab bu gün də Güneydə Türk millətçiliyinin möhtəşəm abidəsi sayılmaqdadır.

Ədəbiyyat:

1.Nəsib Nəsibzadə.Təbrizli Əlinin harayı _Gunaz TV Məqalələr www.gunaz.tv/?id=4&vmode=1&sID=2196&lang
2.Təbrizli Əli.Ədəbiyyat və milliyyət .Tehran.(ilsiz)
3.Əli Kafkasiyalı.İran Türk ədəbiyyatı antolojisi.Erzurum.VI hissə.2002
4. Pərvanə Məmmədli. Cənubi Azərbaycan:Şəxsiyyətlər portretlər.Bakı.-Sabah,2015
5.Abdullah Ağcaköylü, Tebrizli Aliden Seçme Şiirler, Türk Kültürü, sayı 2, ıl 1, 1962

6. 3.Əli Təbrizli.”Səhənd üşün”. ”Varlıq”dərgisi. 3-cü sayı,1979.

P.Mamedli

The Ideologist of Turkish movement in Iran

Summary

Ali Tebrizli was one of the prominent leaders who stood against the racism and the violation of rights of the ethnic Turks within Iran. Moreover, Ali Tabrizli the man of good thought and deed is considered to be one of the noticeable symbols of national resistance movement.

Apart from being an excellent publisher, he gained a recognition as a poet, researcher, writer and a scholar. Ali Tebrizi was not onlu one of the leaders of national movement but also one of the mental ideologists of the movement. His book ‘The literature and the nationality’ was a solid Turkic response to a racism within the South.

Although it was a first attempt, the book is still regarded as a great monument of the South Turkic nationalism.

П.Мамедли (Мамедова)

Идеолог тюркского движения в Иране

Резюме

Али Тебризли был одним из видных лидеров, выступавших против расизма и нарушения прав азербайджанских тюрок в Иране. Кроме того, Али Тебризли считается одним из самых заметных представителей национального движения сопротивления.

Помимо того, что был отличным издателем, он еще получил признание как поэт, исследователь, писатель и ученый. Али Тебризли был не только одним из лидеров национального движения, но и одним из его идеологов.

Его книга "Литература и национальность» был твердым ответом на расизм в Южном Азербайджане. Эта книга до сих пор считается памятником тюркизма в Южном Азербайджане.

Rəyçi: Almaz Ülvi
Filologiya elmləri doktoru

ARİF KAZIMOV
Azərbaycan Dövlət Pedaqoji Universiteti
arifkazimov@gmail.com

AZƏRBAYCAN XALQ TAPMACALARINDA «GİZLİ» (EYHAMLI) NİTQİN TƏZAHÜRÜ

Açar sözlər: toy mərasimləri, poetik dil, tabu, aldatma üsulu, tapmacaların dili, uşaq folkloru, əvəzləyici sözlər, şərti nitq.
Ключевые слова: свадебные церемонии, поэтический язык, табу, метод обмана, головоломки, детский фольклор, замещающие слова, условная речь.
Key words: wedding ceremonies, poetic language, taboo, method of deception, puzzles, children's folklore, substituting words, conditional speech.

Tapmacaların yaranmasına dair folklorşünaslıqda müxtəlif baxışlar mövcuddur. Bir qrup tədqiqatçılar (Haytal, Taylor, Virtanen, Maranda) belə hesab edirlər ki, tapmacalar toy mərasimlərində yaranmışdır. Belə ki, bəylə gəlinin ağlını, mərifətini yoxlamaq məqsədilə sınaqlar keçirirdilər. Poetik dillə suallar verib cavab alırdılar. [1; 4]

Digər qrup tədqiqatçılar (V.P.Anikin, F.A.Nadrişina, G.Axundova və başqaları) isə tapmacaların yaranmasını qədim eyhamlı nitqlə əlaqələndirmişlər. Tanınmış folklorşünas V.P.Anikin bu haqda yazır: «Elm sübut etmişdir ki, mərasimlərlə əlaqədar olmasından başqa, tapmacaların ta qədim dövrlərdə inkişafı gizli nitqlə, heyvanların, balıqların, bitkilərin və müxtəlif əşyaların ilin müəyyən fəsillərində və müəyyən şəraitdə bilavasitə düzgün adının çəkilməsinin qadağan edilməsi ilə əlaqədardır» [2; 206]

İkinci fikrin tərəfdarlarının mülahizələri, istinad etdikləri faktlar daha inandırıcı görünür. Tarixdən məlum olduğu kimi, ibtidai dövrlərdə insanlar təbiətin sirlərinin səbəbini dərk edə bilmədiyindən təbiət hadisələrini, səma cisimlərini canlı, qeyri-adi bir varlıq kimi təsəvvür etmiş, Allahın, müqəddəs ruhların göydə məskən tutduğuna etiqad bəsləmişdilər. İbtidai insan əmin idi ki, heyvan və ov silahlarının adını çəkmədən hazırlıqlarını gizlətməklə heyvanların təhlükələrdən xəbər tutmasına imkan vermir və bununla da ovunun uğurlu olmasını təmin edir. Məhz ibtidai ovçunun, heyvandarın və əkinçinin inancına görə insan həmişə və hər yerdə – tarlada, meşədə, sularda və yaşadığı yerdə özündə uğursuzluqlar, epidemiyalar, bədbəxtliklər, yanğın və səfalət gətirən canlı, şüurlu düşmənlə qarşılaşır. Bu qüvvəni aldatmaq lazımdır, bunun üçün isə gizli şərti nitq lazımdır.

Rus folklorunda, o cümlədən bəzi türk xalq tapmacalarında da eyhamlı (gizli) nitqə təsadüf olunur. Qazax alimi J.D.Adambayevanın «Qazax

tapmacalarının ədəbi-üslubu və dil xüsusiyyətləri» əsərində qazaxlarda qədim şərti nitqin qalığı kimi eyhamlı toy nitqinə dair verilmiş nümunələr diqqəti cəlb edir. [3; 6]

Tapmaca ilə şərti nitqin əlaqəli olmasına dair faktlara başqırd xalq tapmacalarında daha çox rast gəlinir. F.A.Nadrişina bu münasibətlə yazır: «Bu gün də Başqırstanın bir çox yerlərində keçmişdə başqırdların şərti eyhamlı dilinin və ya tabu sözlərin olduğunu sübut edən inanclara rast gəlmək mümkündür. Misal üçün, bəzi heyvan, ev həşəratlarının, ayrı-ayrı xəstəliklərin adlarını çəkmək yasaqdır. Adətən, qadağan olunmuş yasaq sözlər dəyişdirilmiş adlarla əvəz olunur: «kuyan» /dovşan əvəzinə «şeş kulak» / dik qulaq, «ayin» /ayı əvəzinə «babay»/baba, «yılan»/ilan əvəzinə «kamsı» (qamçı, «kır təkəhe»/çöl qoyunu əvəzinə «şaltəkə»/boz qoç və s. [4; 19]

Bu gün biz Azərbaycan toy mərasimləri, uşaq folkloru və tapmacalarda şərti nitqin izlərinə rast gəlirik. Tədqiqatçı- alim G.Axundova da Azərbaycan xalq tapmacalarının meydana gəlməsinin şərti nitqlə bağlılığını inandırıcı surətdə faktlara sübut edir [5; 141]

Şərti nitq (əvəzləyici söz)
İlan–qamçı

Tapmacalar
Bir qamçım var,
Əlimə ala bilmirəm. (ilan)

Dovşan – əyri ayaq/ Çəpbəl qulaq
O nədir ki, əyri ayaq,
Çəpbəl qulaq
Dodağı mırıq,
Ağzı çırıq. (dovşan)

Şir – at
Bir atım var, minə bilmirəm,
Ağzın açsa, dinə bilmirəm. (şir)

Yeri gəlmişkən, onu da qeyd edək ki, bir sıra türk dillərinə xas olan tapmacalarda şərti nitq (əvəzləyici sözlər) demək olar ki, müştərəkdir.

Azərbaycan tapmacalarında (ilan haqqında):

Yer altında yağlı qamçı,
Suyu içər damcı-damcı.

Qırğızda:
Tosoq arasında maylı kayış.

Anadoluda:
Yer altında yağlı qayış.

Azərbaycanda: (at quyruğu haqqında)
1) Suya girdi dağıldı,

Sudan çıxdı yığıldı.
2) Suya girər açılar,
Sudan çıxar yumular.
Tatarcada:
Suğa girsə minin bolur,
Sudan çıqsa bir bolur.
Azərbaycanda: (yumurta haqqında):
1) Bir bardaqda iki su,
2) Bir sucam var, iki rəngli su tutur.
Tatarcada:
Bir qıçada iki rəng su,
Suğa salsa, su bolur,
Otqa salsa, moz bolur.
Azərbaycanda: (Ay, gün, buğda haqqında):
1)Yerə vurdum baltanı,
Ağzı gümüş xaltanı.
Yerdən bir oğul çıxdı,
Cümlə cahan sultanı.
2) Burdan vurdum baltanı,
Ordan çıxdı qaltanı,
Anam bir oğlan doğdu
Yerin, göyün soltanı.
Türkməncədə:
Yerə uldum haltanı,
Ağzı gümüş paltanı,
Yerdən bir oğlan çıqdı,
Ulu ilin sultanı. [6; 13-14]

Animistik və totemistik görüşlərlə əlaqədar olaraq, qədim insanlarda guya heyvanların da insanın dilini, fikrini başa düşdüyü əqidəsi yaranırdı. Ona görə də ibtidai ovçu vuracağı heyvanın, quşun, silahın adını açıq şəkildə deməkdən çəkinmiş, onların adını gizli, yəni heyvanların başa düşə bilməyəcəyi bir dildə söyləyirmiş. Beləliklə, o, vuracağı ov heyvanlarını guya aldadırmış. İnsanlar nəinki ov heyvanları haqqında belə düşünürmüş, hətta elə zənn edirmişlər ki, meşənin, səhranın, suyun və sairənin də guya ecazkar görünməz sahibi varmış. Onları da müxtəlif yollarla aldatmaq lazım imiş. Beləliklə, ilk gizli-sirli danışıq dili əmələ gəlməyə başlayırdı ki, bu da tapmacalarda, cüzi də olsa, öz izlərini saxlamışdır. [7; 7]

Tapmacaların dilində işlənmiş miqdar sayları da eyhamlı nitq nümunəsi ola bilər. Azərbaycan xalq tapmacalarında iki dişi olanda – maşa, üç dişi olanda – yaba, beş dişi olanda – ding və s. nəzərdə tutulmuşdur.

Bütün bu deyilənlərə belə yekun vurmaq olar ki, tapmacalarda eyhamlı (gizli) nitq insanın dünyanın sirlərini öyrənmək tələbatından yaranmışdır.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXIV kitab. Bakı, 2007.
2. Аникин В.П. Современный русский фольклор. Изд. «Наука», М., 1966.
3. Адамбайева Ж.Д. Литературно-стилистические и языковые особенности казахских загадок. Алма-Ата, 1966.
4. Надришина Ф.А. Афористические жанры башкирского фольклора (пословицы, загадки) УФА, (автореферат кандидатской диссертации), 1971.
5. Axundova G. Azərbaycan xalq tapmacalarının leksik və sintaktik xüsusiyyətləri. Bakı, 2014.
6. Zeynallı H. Azərbaycan tapmacaları. Bakı, 2013.
7. Tapmacalar. «Şərq-Qərb», Bakı, 2004.

Arif Kazimov

The manifestation of a hidden speech in Azerbaijani folk puzzles

Summary

The article tells that there are two opinions about the origin of puzzles. Proponents of the first view argue that puzzles are associated with the wedding ceremony. Supporters of the second view connect puzzles with the ancient manifestation of hidden speech.

The arguments of the supporters of this view are convincing. Ancient people created the first secret - the mysterious language of deception as a means of deception, because they could not understand the nature of nature and society.

The manuscripts of the language have been preserved in our puzzles. The article also provides examples of puzzles for language evidence.

Ариф Казимов

Проявление скрытой речи в азербайджанских народных головоломках

Резюме

В статье говорится, что есть два мнения о происхождении головоломок. Сторонники первого взгляда утверждают, что головоломки связаны с свадебной церемонией. Сторонники второго взгляда связывают головоломки с древним проявлением скрытой речи.

Аргументы сторонников этого взгляда убедительны. Древние люди создали первый секрет - таинственный язык обмана как средство обмана, потому что они не могли понять природу природы и общества. В наших головоломках сохранились рукописи этого языка. В статье также приводятся примеры головоломок для языковых доказательств.

Сегодня мы встречаем следы условной речи в свадебных церемониях Азербайджана, детском фольклоре и головоломках. Исследователь-ученый Г. Ахундова также доказывает убедительные доказательства традиционной речи о появлении азербайджанских народных головоломок.

Rəyçi: **Buludxan Xəlilov**
Filologiya üzrə elmlər doktoru, professor

NƏRGİZ HƏSƏNLİ
Azərbaycan Dillər Universiteti
e-mail:nara070792@gmail.com

MƏNƏVİ İKİLƏŞMƏNİN SATİRİK İFŞASI

Açar sözlər: Dedektiv elementlər, "Ziyafət", şəxsiyyətin ikiləşməsi "Köməkçilər və təhrikçilər".
Ключевые слова: Детективные элементы, «Банкет», личность двойникования, «Помощники и подстрекатели».
Key words: Detective elements, "Symposium", personality twinning, "Aiding and Abetting".

Muriel Spark XX əsr ingilis ədəbiyatının ən maraqlı nümayəndələrindəndir. Onun əsərləri arasında dünya ədəbiyyatşünaslığının diqqətini cəlb edən, əsasən, "Memento Mori" (*1959*) və "Xanım Cin Brodinin ən yaxşı çağı" (*The Prime of Miss Jean Brodie, 1961*) romanları olmuşdur. Yazıçının 20-dən çox irihəcmli əsəri vardır ki, onların da əksəriyyəti 1957-90-cı illərdə qələmə alınmışdır. Həmin dövrdə o, çox məhsuldar işləmiş, hətta bəzən hər il bir təzə roman çap etdirmişdir. Lakin 1990-cı illərdə yaradıcılığında müəyyən lənglik müşahidə olunan M.Spark həmin onillikdə oxucularına bir neçə hekayələr məcmuəsini, "Curriculum Vitae" avtobioqrafik nəşrini, tənqidi məqalələrini və yalnız bir romanını – "Ziyafət"i (*Symposium, 1990*) təqdim edə bilmişdir. Ömrünün ahıl çağında da yazıçı roman yaradıcılığını davam etdirmiş, 2001-ci ildə "Köməkçilər və təhrikçilər" (*Aiding and Abetting*) romanı çapdan, 2004-cü ildə isə "Son sinif" (*The Finishing School*) romanlarını yazmışdır.Bəzi tənqidçilər M.Sparkın son əsərlərinin satira və psixoloji təhlil nöqteyi-nəzərindən ilk romanlarındakı zirvəyə yetişə bilmədiyini qeyd edirlər [1]. Bununla belə, həmin əsərlər də kifayət qədər maraqla oxunur.Dedektiv elementlərin də olduğu "Ziyafət" romanı müasir ingilis cəmiyyətinin həyatından bəhs edir. Tənqidçi C.Martinin fikrincə, əsərdəki dedektiv süjet nahar səhnəsinin təsvirinə, nahar səhnəsi isə xarakterlərin açılmasına xidmət edir [2] "Köməkçilər və təhrikçilər"in də süjeti dedektiv səciyyəlidir və müxtəlif səviyyəli cinayətkarları, şeytana uymaq, şəxsiyyətin ikiləşməsi, adamyeyənlik kimi qeyri-adi elementləri ilə daha çox komik faciə təsiri bağışlayır. Bununla belə, hər iki əsərdə yazıçı əvvəlki romanlarındakı yaradıcılıq ənənələrini davam etdirmişdir. Onun vaxtilə dini inanc olaraq katolikliyi seçməsi, əvvəlki fəlsəfi-dini xarakterli romanlarındakı kimi, həm "Ziyafət"ə, həm də "Köməkçilər və təhrikçilər"ə təsirsiz qalmamışdır. Bu romanlarda da Spark öz yaradıcılığına xas olan

postmodernist ədəbi priyomlardan və kəskin satiradan məharətlə istifadə etməklə yanaşı, bəzi yeni yanaşmalar da göstərə bilmişdir.

Dedektiv ustası kimi tanınsa da, M.Spark bu janrın imkanlarından daha çox özünün dini-fəlsəfi ideyalarıını ifadə etmək üçün faydalanmışdır. Onun dedektivə meyilli romanlarına kompozisiya oxşarlığı xasdır desək, yanılmarıq. Hadisələrin gedişi tamamilə dedektiv janrın tələblərinə tam cavab verir: bu əsərlərdə əsas dedektiv elementlər - cinayət, xəfiyyə, şübhəlilərin məhdud sayı və s. elementlər mövcuddur. Lakin hadisələrin inkişafı göstərir ki, əslində, çinayətin özü yoxdur, uydurma kriminal hadisələrin köməyi ilə personaşların ələ salınması, onların mənəvi tənəzzülünün ifşa edilməsi Sparkın satirasını daha da sərtləşdirir.

"Ziyafət" romanının həlqəvari kompozisiyası vardır: birinci fəslin böyük bir hissəsi beş ingilis ər-arvadın dəvət olunduğu nahar səhnəsindən ibarətdir və əsər də elə bu səhnə ilə yekunlaşır. Qalan hissələri isə həmin cütlüklərin həyatından bəzi epizodlar təşkil edir. Dedektiv elementləri romana canlılıq, hərəkətlilik gətirir. Elə ilk səhifələrdəcə oxucu cinayət baş verməsi ilə rastlaşır: ziyafətdə iştirak edən cütlüklərdən birinin – lord Syuzinin və onun gənc xanımının evi qarət edilmişdir. Digər varlı ər-arvad – Ernst və Ella Untzingerlərin isə onların qonaqlıqlarında qulluqçuluq edən və mənzil oğruları dəstəsinin üzvü olduğu üzə çıxan gənc tələbə ilə əlaqələri vardır [3].Sonrakı hissələrdə Spark bu kriminal olayda əsas rolu ziyafətin iştirakçısı, cadugərlik qabiliyyəti olan sarı saçlı xanım Marqaret Damennin oynadığını israrla vurğulayır. Hələ gənc olmasına baxmayaraq, onun xoşuna gəlməyən adamları cadurgərliklə məhv etməkdə təcrübəsi vardır. Maqaretin yeganə problemi odur ki, onun vurduğu zuyan yalnız "gözdəymə"dən ibarətdir. Amma cadugər xislətli bu gənc qadın öz qaynanasını qurban seçərək əsil qətl törətmək, bununla da qara cadunun daha fəal şəkildə özünü göstərməsinə imkanı yaratmaq niyyətindədir. Cani və onun qurbanı arasındakı konflikt hekayətin hissələrinin, müəyyən dərəcədə, yeganə birləşdiricisidir və əsərə lazımi dinamika verir. Bununla belə, konfliktin inkişafında Spark özünün ənənəvi üsulundan istifadə edir: Marqaretin qara cadusu, nəhayət, işə düşməyə hazır olduğu bir vaxtda onun qaynanası Hilda, həqiqətən, ölür. Ancaq cadu nəticəsində deyil, adi bir vəziyyətdə – mənzil oğrularının əlində həlak olur. Özü də qətl onun təyyarədəki təsadüfi tanışlığının ciddi və möhkəm ailə münasibətlərinə çevrilməsi ərəfəsində baş verir.Uzun müddətdən bəri planlaşdırılan və həyata keçməyən cinayətlə qəfildən yaranan, lakin dərhal da məhv edilən məhəbbət romana yeni probltmatika gətirir. Katolik üçün xeyir də, şər də eyni dərəcədə Allahın iradəsinə tabedir: hadisələri sərbəst şəkildə idarə etmək çəhdinin nəticəsi olmur və belə cəhdlər əksər hallarda acınacaqlı nəticələr verir. Ümumiyyətlə, açıq və ya gizli dini yozum Spark yaradıcılığı üçün səciyyəvi hesab edilə bilər. "M.Sparkın əxlaqı xristian mənəviyyatına əsaslanır.

Xristianlığın mənəvi dəyərləri səfeh və qəddar tamahkarlara çevrilən adamların mənəviyyatsızlığına, ədəbsizliyinə və düşkünlüyünə qarşı qoyulur" [4].

Romanın digər xüsusiyyəti – satirikliyi də dedektiv xətlə bağlıdır. Yüksək səviyyəli, tənətənəli ziyafətə dəvət edilənlərin, demək olar ki, hamısının cinayətkarlıqla hansısa əlaqəsi vardır. Lord Syuzi evini quldurların necə vəhşililklə qarət edildiyi barədə hekayəti dayanmadan təkrarladığı anlarda onun gənc arvadı masanın o biri başında zəhlətökən ərdən qurtulmağın sınanmış üsulları barədə təklifləri dinləyir. Dürüst yeksənək həyatdan yorulmuş Ernst Untzinger qəsdən xidmətçinin əlinə toxunmağa çalışır və onu qaşığı yerə salmağa məcbur edir, xidmətçi isə mənzil qarət etmək imkanlarını götür-qoy edir, Marqaret öz bəd əməlininin planını qurur.

Bunlar Londonun tez-tez cildini dəyşən, sifətdən-sifətə düşən, adi kələkbazdan hörmətli və qanunpərəst vətəndaşa çevrilən seçmə adamlarıdır. Onlarun uğuru öz rollarını vəziyyətə uyğun olaraq dəyişə bilmək qabiliyyətindən asılıdır. Bu kübar cəmiyytində hər şey zahiri effektə hesablanıb: hər şey xəyalidir, illüziyadır, həddən ziyadə sünidir. Valideyn hislərinə xəyanət olunur, düzlük, mərhəmət, təmənnasızlıq, kömək etmək, köməkdarlığa hazır olmaq çatışmır" [5, 63]. Ümumən, şəxsiyyətin ikiləşməsi, çoxsifətlilik, müxtəlif vəziyyətlərdə öz iç üzünü göstərmək təkcə Sparkın personajlarına deyil, ümumən, postmodernizmə xas olan haldır. Bu üsulla qəhrəmana düşdüyü məkanda məhdudiyyətsiz azadlıq imkanı yaradılır. "Köməkçilər və təhrikçilər" romanı da bu üslubda qələmə alınmışdır. Romanın qəhrəmanları "bir-biri haqqında çoxlu əhvalatlar uydurmaqla, asanlıqla bu əhvalatların içərisinə girib-çıxaraq, növbə ilə, bir-birini ələ salırlar" [6]. Yazıçı özünün mürəkkəb mətn strukturu ilə hər bir personajın iç üzünü müxtəlif tərəflərdən açır. Romanın adı sanki ikiüzlülüyə, kələkbazlığa bir işarədir.Əsərin baş qəhrəmanı – parisli xanım psixoloq-həkim Hildeqard Vulfdur. Onun universitetlərdə öyrədilən və hamı tərəfindən qəbul edilən maraqlı bir metodu var: xəstələri diqqətlə dinləmək əvəzinə öz problemləri haqqında uzun-uzadı danışır və bu zaman onlara iri məbləğdə hesab təqdim etməyi də unutmur. Həkimlə xəstənin rolunun bu cür dəyişdirilməsi sarkazmın – acı kinayənin ən bariz təzhürüdür. Hildeqard ağır ruhi sarsıntı keçirən keşişə Allahla yerini dəyişməsini – ömrü boyu məşğul olduğu vaizlikdən və natiqlikdən əl çəkməyi, amma Allahın səsinin lal dinləyicisi olmağı məsləhət görürür.

Bir dəfə doktor Vulfun yanına qətl törətdiyinə görə iyirmi ildir axtarışda olan lord Lukan gəlir. Onun müalicəsinin çətinliyi təkcə, özünün söylədiyi kimi, şeytanla sazişə girməsində deyil, özünü lord Lukan adlandıran daha birisinin mövcudluğundadır. Onların hər ikisi 1974-cü ildə Londonda öz arvadının yerinə qızının dayəsini öldürdüyünü etiraf edir. Bir-birinə oxşamasalar da, hər ikisində axtarışda olan şəxsin xüsusiyyətləri var.

Hildeqard psixoloqluğu bir tərəfə qoyub gizli xidmət orqanına xəbərçilik etmək haqqında düşündüyü bir vaxtda vəziyyət qəfildən dəyişir: o, Lukanları şantaj eləmək əvəzinə Lukanlar onu şantaj edirlər. Hansının həqiqi, hansının yalançı oluduğu bilinməyən Lukanlar öyrənirlər ki, Vulf gəncliyində bədənini Məsihsayağı neştərləyərək başqa ad altında dindarlara təsir göstərmiş, möcüzəyə inandırmış və bundan pul qazanmışdır [7].

Sonra süjet xətti Lukanların cidldən-cildə girərək bir-birini və Hildeqardı növbə ilə izləmələri və gözlənilməz hadisələrlərlə davam etdirilir. Nəticədə isə Hildeqard, necə deyərlər, sudan quru çıxır, Lukanlar oyunu uduzurlar: onlardan biri müvəqqəti Şaxta baba olur və sonra mühacirətə gedir, digəri isə Afrikada adamyeyənlərin əlinə düşür. Yazıçı Lord Lukanın, onun oxşarı Uokerin və Hildeqrad Vulfun şəxsində pulun məhvedici hakimiyyətinin insanı simasızlaşdırdığını göstərir. Mənəviyyatsızlıq, ədəbsizlik, acgözlük, zalımlıq, hakimiyyətə canatma – romanın qəhrəmanlarının əsas xüsusiyyətləridir [5, 59]. Romanın finalı məhşur ingilis romançısı İvlin Vonun yaradıcılığın ilkin dövründə yazdığı əsərlərdəki rasisizmlə səsləşir. Ümumiyyətlə, bu yazıçının bir çox aspektlərdə M.Sparkın yaradıcılığına təsir göstərdiyi iddia edilir. "Köməkçilər və təhrikçilər" romanında yazıçı şəxsiyyət probleminin yozumunda psixoloji aspektləri ustalıqla ifadə etmiş və bu zaman mövcud psixoanaliz nəzəriyyələrinə də toxunmuşdur. Belə ki, həkim Hildeqard Vulfun həqiqi adı Bit Pappenheymdir. Onun həm qondarma, həm də həqiqi adı məşhur psixoanalitik Z.Freydin nəzəriyyəsi ilə birbaşa əlaqəlidir [8]. Pappenheym - üzərində psixoanaliz metodu ilk dəfə sınaqdan keçirilən və bu metodun çox ciddi təsirinə məruz qalan adamın adıdır. Müalicə nəticəsində xəstə özü elə çılğın vəziyyətə gəlib çıxmışdır ki, psixoanalitik dəhşət içərisində ondan qaçıb yaxasını qurtarmağa məcbur olmuşdur.

Vulfun yen soyadı da Freyd nəzəriyyəsinin daha bir məşhur fiquru ilə - Canavar Adamla (Wolf Man) əlaqəlidir. O, ikili həyat yaşayır: gerçək və psixoanaliz seanslarında yaradılan. Özü də bu iki plan heç vaxt bir-biri ilə kəsişmir. Vulfun həqiqi dostları psixoloqlardan xəbərsizdirlər, psixoloqlar isə Vulfun seansdankənar həyatı haqqında heç nə bilmirlər. Hildeqard Vulfun da həyatı belədir: gəncliyində onu müqəddəs rahib kimi tanıyanlar Parisdəki psixoloq karyerasından xəbərsizdirlər.Spark "Köməkçilər və təhrikçilər" romanında daim həqiqət axtarışında olan, Tanrı qarşısında bəraət almaq üçün əzab çəkmiş katolik-qəhrəman obrazı yaratmaq iddiasında deyil. Ona əxlaqsızlığa bulaşmış, əsas dəəyərlərini itirmiş dünyanı təsvir etmək üçün şər daşıyıcı olan ifşaçı qəhrəman daha çox əl verir: necə deyərlər, iki mənfi bir müsbət verir. Bəzi ədəbiyyatçılar Hildeqardı yazıçının "Pekhem Ray haqqında ballada" (*The Ballad of Peckham Rye*, 1960) romanındakı qəsəbənin durğun həyatına hərc-mərclik salan, guya alnında kəsilmiş buynuz yerinin çapığı qalmış sərsəri gənc Duqal Duqlas obrazına bənzədirlər [1].

Hildeqard da Duqlas kimi öz taleyini yaşamaqla yanaşı, həm də Tanrı cəzası funksiyasını daşıyır. Vaxtilə sitayişinə gəlib öz pullarını ona verənlər özləri özlərini cəzalandırıblar: Sparka görə, təzə peyda olan müqəddəslərə, cadugərlərə, saxta dini cəmiyyətlərə inanmaq həqiqi dindən uzaqlaşmaq və cəzaya layiq olan ağır günahdır. Spark psixoloqları da bu sıraya aid edir. Həkim Vulf Hildeqardın obrazı – həmin peşənin kəskin satirik yozumudur. Bununla yanaşı, hər Lukan da, sözün həqiqi mənasında, cinayətkardırlar, Hildeqardla savaşı uduzaraq öz layiqli cəzalarını alırlar. Beləliklə, nəzər yetirdiyimiz hər iki romanda M.Spark şəxsiyyət probleminə münasibətdə özünün mənsub olduğu katolik inancını büruzə verməklə yanaşı, gerçəkliyin kəskin satirik təsvirinə də nail olmuşdur. Bu romanlar bədii dəyərinə yazıçının əvvəlki romanlarına çatmasalar da, satirik təhkiyənin kəskinliyinə, üslub zərifliyinə, maraqlı süjet xəttinə və şəxsiyyət probleminin qouyuluşuna görə diqqəti cəlb edirlər.

İstifadə olunmuş ədəbiyyat:

1. Шлянникова М. В. Позднее творчество Мюриэл Спарк. Русская и сопоставительная филология. - Казань, 2004. - с. 336-341.
2. Martin J. The Action Is Not at the Table // www.nytimes.com/books/97/05/11/ reviews/ 970511.11/fitzget.htm.
3. Spark M. Symposium / M. Spark. - London: Penguin Books, [Б.г]. - 192 p.
4. С.М. Коновалов. История сатирической традиции в английской литературе. Веснік БДУ. Сер. 4. 2007. № 1. с. 34-39.
5. Ализаде А.А. Женское мировосприятие и его художественная реализация в прозе современных русских и английских писательниц. Монография. – Баку: Мутарджим, 2017. – 160 с.
6. Apostolou F. Seduction and Death in Muriel Spark's Fiction / F. Apostolou. - Connecticut, Lnd: Greenwood Press, 2001. - 121 p.
7. Spark M. Aiding and Abetting / M. Spark. - London: Penguin Books, [Б.г]. - 212 p.
8. https://psychologistinbaku.wordpress.com// Ü.İsayeva. Ziqmund Freyd – Bildiklərimiz və bilmədiklərimiz.
9. Шлянникова М. В. Позднее творчество Мюриэл Спарк. Русская и сопоставительная филология. - Казань, 2004. - с. 336-341.

Н.Гасанли

Сатирическое воздействие моральное двойникование
Резюме

Статья посвящена одному аспекту проблемы личности в творчестве английского писателя М.Спарка. В романах писателя «Банкет» («Симпозиум», 1990) и «Помощник и подстрекательство» раскрываются моральный и моральный распад, а также попытка проанализировать сюжетную линию обеих работ. В романе «Помощники и мотивы» писатель умело упоминает психологические аспекты проблемы личности, а также указывает на существующие теории психоанализа. Роман «Банкет» содержит раздражающую композицию: большая часть первой главы состоит из обеденной сцены, в которой приглашаются пять английских пар, и работа заканчивается этой сценой. М.Спарк продемонстрировал свою католическую веру в свою проблему личности, а также добился резкого сатирического описания реальности. Хотя эти романы не доходят до романа, их привлекает острота сатирической природы, элегантность стиля, интересная сюжетная линия и проблема идентичности.

N.Hasanli

The satirical impact of moral twinning
Summary

The article focuses on some aspect of personality problem in the creativity of the English writer M.Spark. The writer's “Symposium” and “Aiding and Abetting” novels reveal the moral and moral decay, and the attempt to analyze the plot line of both works. In the novel “Aiding and Abetting” the writer skillfully mentions the psychological aspects of the problem of personality problem, and also pointed to the existing psychoanalysis theories. The “Symposium” novel contains a snippet composition: a large part of the first chapter consists of a lunch scene where five English couple are invited, and the work ends with that scene. M.Spark has demonstrated his Catholic belief in his personality problem, and has also achieved a sharp satirical description of reality. Although these novels do not reach the novel's novel, they are attracted by the sharpness of the satirical nature, elegance of style, the interesting plot line, and the identity problem.

Rəyçi: **Şəhla Nağıyeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ŞƏFƏQ DADAŞOVA
Filologiya üzrə fəlsəfə doktoru, BMU
shafag13@mail.ru

AVTOBİOQRAFİYALARIN KULTUROLOJİ TƏHLİLİ

Açar sözlər: avtobioqrafiya, mədəniyyət, Şərq-Qərb, özünüidentifikasiya, Kinqston, Banin, Franklin.
Ключевые слова: автобиография, культура, Запад-Восток, самоидентификация, Кингстон, Банин, Франклин.
Key words: autobiography, culture, East-West, self-identity, Kingston, Banine, Franklin.

Avtobioqrafiyanı ilk dəfə ədəbi janr kimi öyrənən Filipp Löjenin ona verdiyi tərifin hər bir müddəası müasir tədqiqatçıların polemika ərazisinə çevrilir. İlk baxışdan ətraflı, əhatəli görünən interpretasiya, avtobioqrafik əsərlərin dərinliyinə getdikcə, bu janrın ziddiyyətli təbiətinə bələd olduqca, onun yeni xüsusiyyətlərini aşkara çıxardıqca, daha çox mübahisə obyektinə çevrilir.

Avtobioqrafiya şəxsin öz fərdi xüsusiyyətləri, keçmiş həyatına retrospektiv baxışdır. Bu tərifdə əsas müzakirə olunan məsələ əvəzliklərdir. Əsərin yazılmış olduğu fransız dilində və onun ən çox oxunduğu ingilis dilində əvəzliklər cinsə malik olduqlarına görə, Filipp Löjenin kişi cinsinə məxsus əvəzliklərdən istifadə etdiyi üçün digər tənqidçilər onu son zamanlar daha çox diqqət mərkəzində olan qadın avtobioqrafiyalarını nəzərə almamaqda günahlandırır.

İkinci müzakirə obyekti isə fərdi özünüidentifikasiya məsələsidir. 70-ci illərdə Löjen avtobioqrafiyanı tədqiq etməyə başlayanda bu janr barədə heç bir nəzəri material yox idi. Avtobioqrafiyanın tipologiya və nəzəriyyəsinə maraq artdıqca fərdi özünüdərketmənin milli özünüdərketmə ilə bağlı olması tədqiqat üçün zəngin mənbəyə çevrilir.

Avtobioqrafiya müəllifi öz arzuları, əməlləri, qorxularını təsvir etməklə söylədiklərindən daha çox məlumatı – özünün də aydın başa düşmədiyi, tam bələd olmadığı şüuraltısını ifadə edir. Yəni müəllif öz avtobioqrafiyasını oxuyarkən özünü yeni səmtdən görür. Psixoanalitika yuxuları fərdin, arxetipik nəzəriyyə isə mifləri millətin şüuraltısı adlandırır. Avtobioqrafiyada həm fərdin özü haqqında bildikləri və bilmədikləri, həm də onun fərdi fikirləri, dəyərlər sistemi, cəmiyyətə müsbət və ya mənfi münasibəti vasitəsilə milli özünüidentifikasiyası ön plana çıxır. Avtobioqrafiyada həm fərdin özü, həm onun mənsub olduğu millət haqqında müfəssəl, dolğun, ən əsası isə səmimi, qərəzsiz məlumat almaq mümkündür. Əlbəttə, avtobioqrafiya müəllifinin məqsədi mənsub olduğu millətin xüsusiyyətlərindən danışmaq deyil. Ümumilikdə yanaşdıqda,

avtobioqrafiya yazıçısının məqsədinə görə də avtobioqrafik əsərləri iki qrupa bölmək olar.

Birinci qrup müəlliflər həyatlarında istədikləri mövqeni tutmuş, məqsədlərinə nail olmuş şəxsiyyətlərdir. Mişel Monten, Jan Jak Russo, Bencamin Franklin kimi belə insanlar yeni cığırlar açmaqdan çəkinməmiş və avtobioqrafiya yazmaqla öz təcrübələrini sonrakı nəsillərə faydalı olacağını düşünmüşlər. B.Franklin öz avtobioqrafiyasının əvvəlində yazır:

«Kasıb və qeyri-müəyyən bir mühitdə doğulub boya-başa çatdığıma baxmayaraq mənim cəmiyyətdə nüfuz sahibi olmaq səviyyəsinə qədər keçdiyim yol bir çoxları üçün maraqlı və faydalı ola bilər»[1, 7]. Franklin əsər boyu öz səhvlərindən, zəif cəhətlərindən də danışır. Amma onun danışıq tərzindəki özünə inam, bu səsin sahibinin danışmağa və dinlənilməyə adət etdiyindən xəbər verir. Bu səs titrəmir, keçmişə tənqidi və təhliledici nəzər salır, öz səhvlərini etiraf etməkdən çəkinmir. Əsərin həm müəllifi, həm də təhkiyəçisi olsa da, o, obyektiv və hər şeydən xəbərdar təhkiyəçi rolunu seçir, öz zəifliklərinə haqq qazandırmır, özünü çox yaxşı başa düşür və oxucu harmonik bir şəxslə tanış olur, onun ifadə etdiyi ideyaları asanlıqla, tərəddüdsüz qəbul edib özününküləşdirir. Qətiyyətli ifadə tərzi və özünə inam söylənilənləri inandırıcı edir.

Arxetipik nəzəriyyədə üç əsas arxetipin – kölgə, anima və personanın insanların şəxsiyyətini müəyyən etməsi fikri irəli sürülür. Kölgə psixoanalizdə olan «id»-lə, demək olar ki, eyni məfhumdur və insanların şüurlu yox şüuraltı arzu və istəklərini, instinktlərini ifadə edir. Kölgə tipli insanlar öz istədiklərini edir, öz maraqlarını başqalarınkından üstün tutur, ətrafdakılar üçün təhlükə yaradır. «İd» kimi kölgə də hər bir insanın psixikasında var, amma ağıllı insanlar onu şüurla idarə edir və dağıdıcı qüvvəyə çevrilməsinə imkan vermir. Anima şəxsin özünüdərketməsidir. İnsan öz zəifliklirini bilirsə, onlara haqq qazandırmaq əvəzinə özünə və başqalarına səmimi etiraf edirsə, o, özü ilə ətraf mühit arasında harmoniya tapır, sanki rahat olur. Belə insanlar sakit, sabit psixikaya malik olur, özlərinə kənardan baxmağı, hərəkətlərini düzgün qiymətləndirməyi bacarır. Əgər insan özünü həqiqətdə olduğundan fərqli göstərməyə çalışırsa, cəmiyyət üçün maska geyinirsə, onun spixikası uzun müddət bu yükə davam gətirə bilmir və müxtəlif mental problemlər yaranır. Ətraf mühit üçün geyilən maska isə personadır.

Birinci qrup avtobioqrafiya yazıçılarında anima üstünlük təşkil edir. Onlar öz zəifliklərini asanlıqla boyunlarına alır və onlarla mübarizə aparmaq yollarını göstərirlər. B.Franklinin mükəmməlliyə nail olmaq üçün tərtib etdiyi 13 fəzilətdən ibarət cədvəli bir neçə yüzillik ərzində minlərlə gəncin gündəliyinin əsas hissəsi olmuşdur. Tələbələrin eynilə Franklin kimi 13 fəzilətdən ibarət cədvəl tutması və eynilə onun kimi hər həftə bir fəzilətin üzərində işləməsi, xətaya yol verdikdə isə həmin günün qarşısındı nöqtə

qoyması, nöqtələrin azalmasına, sonra isə yox olmasına qədər oradakı qaydalara əməl etməsi ABŞ ədəbiyyatından mühazirə deyən müəllimlərə tanışdır. Franklin bu tələbələr üçün nüfuz sahibidir, təqlid olunmağa layiq bir şəxsiyyətdir.

İkinci qrup müəlliflər isə cəmiyyətdə yüksək mövqeyə malik deyil. Onların ifadə tərzləri qətiyyətli olmaqdan çox uzaqdır. Belə avtobioqrafiyalar bir növ özünüaxtarışdır. Maksin Kinqston «Qadın döyüşçü» adlı avtobioqrafik əsərində özünü heç üzünü belə görmədiyi, 18 yaşında ikən dünyaya nigah-dankənar uşaq gətirdiyi üçün intihar etmiş xalasına bənzədir. Daha sonra o, anası ilə mürəkkəb münasibətlərini özü üçün aydınlaşdırmağa çalışır. Anasını onu kifayət qədər sevməməkdə günahlandıran Kinqston anası ilə aralarındakı gərgin münasibətlərdə özünə haqq qazandırmağa çalışsa da, özünə inamsız ifadə tərzi onun, kimin haqlı, kimin haqsız olduğuna əmin olmadığını, bunu indi oxucuların köməyi ilə, özü oxucu olmaqla, hadisələrə kənardan obyektiv nəzər salmaqla araşdırmağa çalışdığını söyləyir.

Kinqstonun valideynləri çinli olduğu, özü isə ABŞ-da böyüdüyü üçün iki mədəniyyətin daşıyıcısı kimi öz hərəkətləri, davranışı, fikirləri ilə hər iki sivilizasiyaya öz münasibətini ifadə edirdi. Anası ilə gərgin münasibətlərinin əsas kökünü anasının mənsub olduğu Şərq mədəniyyətində, Amerikada böyümüş, təhsil almış özünün isə bu mədəniyyəti qəbul edə bilməməsində görürdü. Şərqdə, adətən, ailədəki oğlan uşaqlarını qızlardan üstün tutur, onların hər bir nailiyyətini təntənə ilə qeyd edirlər. Kinqston məşhur universitetlərdən birindən məzul olaraq evə qayıdan zaman özünün də qardaşı kimi təntənə ilə, hörmət və məhəbbətlə qarşılanacağını arzulasa və gözləsə də, valideynlərini onun uğurlarına etinasız yanaşması xəyallarını alt-üst etmiş onda dəyərsizlik kompleksi yaratmışdı.

Beləliklə, özünüidentifikasiya prosesi özünə inamsızlıq, dəyərsizlik kompleksi səbəbindən qeyri-müəyyən forma alır. Şərq mədəniyyətinin bir çox cəhətlərini qəbul edə bilməyən müəllif özünün onun bir parçası olduğunu və özündə bu mədəniyyətin bir parçasını daşıdığını inkar edə bilmir. Şüuraltısında olan «Şərq mədəniyyətini rədd etmə» instinkti reallıqdakı «bunun mümkünsüzlüyü» gerçəkliyi ilə qarşı-qarşıya gəlir və, beləliklə, müəllifin psixikasında konflikt yaranır. Psixoanalitika insan psixikasının şüuraltı fazası olan id və reallıq fazası olan eqo arasında uzunmüddətli və dərin konflikt olduğu zaman həmin şəxsin əsəbi, hətta nevropat olduğunu, şizofreniya və paranoya kimi psixi xəstəliklərə düçar olduğunu iddia edir. Kinqston da özü ilə ətraf mühit arasında ahəngdar bir münasibət qurmağa nail olmuş harmonik bir şəxsiyyətə bənzəmir. Özünüaxtarış, özünüdərketmə arzusu nevrotik həyəcana keçi rvə müəllifin fikirlərinin sistemli nizamını pozur, fraqmentar epizodlar, dağanaq süjet təəssüratı yaradır.

Müəllifin yazı manerası onun istədiyi şəxs ola bilmədiyini ara-sıra bəyan edir. Oxucudan onu başa düşməyi istəsə də, əslində, özü özünü anlamağa, öz daxili ilə bir ahəngdarlıq tapmağa can atır və sanki öz avtobioqrafiyasını oxuyub özünü olduğu kimi görəndən sonra, sətirlərin deyil, sətir altındakıların mənasını anlayandan sonra həyatının istədiyi kimi olmamasında günahı başqalarında deyil, özündə görməyə öyrənərsə, özü ilə barışarsa, rahatlanacağını özü də başa düşür.

Ümumiyyətlə, özünüidentifikasiya bu və ya digər səbəbdən iki mədəniyyətə mənsub olan şəxslərdə çox vaxt mürəkkəb və ziddiyyətli olur. Meksiko-amerikalı, çin-amerikalı və başqa müxtəlifmillətli ailələrin övladları bəzən bir-birinə tamamilə zidd olan kulturologiyalar arasında ahəngdarlıq tapmaq məcburiyyətində qalır. Alternativin mövcud olması hər iki mədəniyyəti müqayisə etməyə, iki millətin dəyərlər sistemini qarşılaşdırmağa, bu müqayisələri öz fərdi dəyərlər sistemi süzgəcindən keçirməyə səbəb olur. Fenomenoloqların bədii əsər üçün söylədikləri «müəllif şüuru ilə oxucu şüurunun qarşılaşıb ümumi bir nəticəyə gəlməsi» prosesi iki mədəniyyətə mənsub şəxslərin onlardan asılı olmayan obyekiv reallıqla öz subyektiv dəyərlər dünyasını öz şüurunda bir məkana gətirib, onların öz təhtəlşüuruna uyğun olan cəhətlərini toplayaraq fərdi və kollektiv dəyərlərdən ibarət bir şüuraltı formalaşdırmasına səbəb olur.

Koqnitiv, didaktik, məsləhət verən, nəyisə aşılayan kitabları, məqalələri oxuyarkən insan şüuru öz şüuraltısına uyğun cəhətləri seçib ayırır, ona lazım olmayanları isə ümumiyyətlə nəzərə almır. Öz şüuraltısına uyğun olanları «tanıyaraq» və eksponent kimi şüuraltısından digər eksponentləri dartıb çıxararaq bu «tanıma»-ya sevinir. Şüurla təhtəlşüur, müəlliflə oxucu vahid bir zamana və məkana yerləşib yeni bir məkan yaradır.

Banin, valideynlərinin hər ikisi azərbaycanlı olsa da, dünyagörüşünə, təhsilinə, əqidəsinə, daxilinə, dəyərlərinə görə o, özünü daha çox Avropa mədəniyyətinə aid olan bir şəxs kimi görür və buna uyğun düşünür, hərəkət edir. Baninin avtobioqrafiyasında onun müasiri, başqa Azərbaycan köklü mühacir Azərbaycan yazıçısı Qurban Səiddən fərqli olaraq öz xalqına məxsus olan kulturologiyanı mükəmməlləşdirmək, Avropa mədəniyyətinin müsbət cəhətlərini götürüb öz xalqının ona mənfi görünən xüsusiyyətlərini atmaqla onunla sintez edib, optimal, bütün dünyanın diqqətini cəlb edəcək, bu mədəniyyəti, bu ölkənin dilini öyrənməyə maraq oyadan bir kulturologiya formalaşdırmaq istəyi yox, az qala bütünlükdə mənfi hesab etdiyi «doğma» mədəniyyətinin xronotopunda özünə heç cür yer tapa bilməyərək qaçmaq, bu mədəniyyətə mənfi münasibət fonunda başqa bir mədəniyyəti ideallaşdıraraq özünü onun daşıyıcısı hesab etmək, orada özünü xoşbəxt hiss edəcəyi ümidi ilə ona sığınmaq istəyi hiss olunur. Banin öz seçimi ilə iki mədəniyyətə məxsusdur. Öz kökünə görə aid olduğu mədəniyyətə bir qədər qərəzli

münasibəti onu bu mədəniyyətdə təkcə mənfiliklər görməyə, öz qohumlarını avropalı və rus tanışları ilə sonuncuların xeyrinə müqayisə etməyə sövq edir. Dayəsi freyleyn Anna, rus inqilabçısının arvadı və başqaları həm təhsil, həm mədəniyyət və hətta mənəviyyat baxımından onun nənəsindən, bibisindən, bacılarından yüksək mövqedə göstərilir. Avropalıların bir çox cəhətləri onun daxili aləmi ilə səsləşir. Avropa mədəniyyətində Banin özünə aid çox şey tapır, daha doğrusu, Avropaya aid olan hər şey Banini cəlb edir. Amma onun lap ürəyindən xəbər verən Avropa mədəniyyətinə xas olan cəhət daxili azadlıqdır. Ömrü boyu bu azadlığa can atan Banin yalnız Fransada, azadlığın beşiyi olan kulturoloji reallıqda olarkən və bu reallığın müxtəlif vəziyyətlərdə təzahürləri ilə qarşılaşan zaman özünün bu kulturologiyanın doğma sakini olmadığını anlayır. Bacıları həm Qafqazda, həm də Avropada özlərini nə qədər rahat hiss edirlərsə, Banin bir o qədər narahatdır, O, öz şüuraltısında belə formalaşmamış bir mədəniyyət axtarır. Ailə üzvlərinin, qohumlarının xarici mədəniyyətə belə tez uyğunlaşması onların ümumiyyətlə kulturologiya məsələlərinə ciddi yanaşmaması, öz istəklərinə, imkanlarına, rahatlıqlarına uyğun həyat tərzi seçməsi, fərdi xüsusiyyətləri ilə kulturoloji özünəməxsusluq arasında ortaq, barışdırıcı mövqe tutmaları, əslində isə nə fərdi, nə də kulturoloji cəhətlərin olmaması, onların hər hansı bir mühitə düşdükdə ona uyğun «yaşama mexanizmi» formalaşdırması həyatı onlar üçün asanlaşdırır. Banin isə həm fərdi, həm də kulturoloji özünüdərketmədə çətinlik çəkir. Faktiki azadlığa nail olduqdan sonra o, müxtəlif sahələrdə çalışır, avropalı qadınların bir çoxu kimi çörək pulunu özü qazanır. Amma karyera məsələlərində də o, bir yerdə qərar tuta bilmir, nə istədiyini, ona nə lazım olduğunu düzgün qiymətləndirə bilmir. Burada da axtarışlar davam edir. Nə modelyer, nə tərcüməçi, nə də yazıçı kimi istədiyi səviyyəyə çata bilməyən Banin yenə də öz hədəflərini çox yüksəkdə qurur, rahatlıq bilmədən onlara doğru dartınır və sonra xəyali hədəfləri daha yüksəyə qaldırır və beləliklə onlara çata bilmir. Kənar təsirlərə asanlıqla düşən, ətraf mühitin, cəmiyyətin ona münasibətindən asılı olan Banini əsasən yazıçılar əhatə etdiyi üçün o, bədii yaradıcılıqla daha intensiv məşğul olur.

Kulturologiya məsələlərində də Banin qətiyyətli deyil. Özünün mənsub olduğu mədəniyyətdə özünü tam yad hiss etsə də, xarici mühitə düşəndən sonra o, bu mədəniyyətdə müsbət cəhətlər axtarıb tapır. Fransada nigahdankənar əlaqələr adi, gündəlik həyatın bir hissəsi olsa da, bu, Baninin həyat tərzinə çevrilmir. Onun şüuru və kulturoloji, kollektiv şüuraltısı mövcud reallıqla qarşılaşır və bu dəfə əvvəlkindən fərqli olaraq hər şeyi inkar etmir, seçim edir və özünə lazım olanı, düzgün hesab etdiyini götürür.

Banin də başqa ikinci qrup avtobioqrafiyaçılar kimi özünə oxucuların gözü ilə baxmaq istəyir. Oxucu özü də malik olduğu kulturoloji informasiyadan azad deyil. Eyni tarixi, taleyi, inqilabi potensialı paylaşan

insanların oxumasında ümumi cəhətlər çoxdur. Banin avtobioqrafiyasını Azərbaycan oxucusu ilə fransız oxucusu eyni cür oxumur. Ümumiyyətlə, insan ona yad olan bir məkana düşəndə bir müddətdən sonra ona öyrəşir və düşünür ki, bundan daha real gerçəklik yoxdur. Əvvəllər yaşadığı həyat, cəmiyyət isə ona yuxu kimi görünür. Amma obyektiv qiymətləndirmək üçün həmin həyata kənardan, başqa bir məkandan və fərqli zamandan baxmaq lazımdır. İnsan daxilində olduğu gerçəkliyi obyektiv qiymətləndirmək iqtidarında deyil. Həm zaman, həm də məkan fərqi insana öz fərdi xüsusiyyətlərinə də, kulturoloji məsələlərə də kənardan baxmağa, mənsub olduğu mədəniyyətin onun fərdi xüsusiyyətlərinə nə qədər, nə dərəcədə təsir etməsini görməyə imkan verir. Qərbdə yaşayarkən Banin bir müddət əvvəl tərk etdiyi Şərq mədəniyyətinin dəyərlərinə artıq başqa nəzərlərlə baxır.

Ədəbiyyat

1.Franklin, B. Autobiography. London : J.M. Dent ; New York : Dutton. 1948, 240 p.
2. Kingston, M. Woman Warrior, South Yarmouth, Ma : J. Curley. 1978, 403 p.

Shafag Dadashova

Cultural analysis of autobiographies
Summary

The paper is suggesting that writing one's own life enables the author better understand the own self. Life-writings are classified into two groups: the first group includes life-writings of famous people who had carved their names in the world history while the second group includes autobiographies of authors who were in eternal search for self-identity. As the material of study, there were analyzed autobiographies by such authors as Benjamin Franklin, Maxine Kingston, Banine. These writers' works were studied from cultural and gendered perspectives. As important components of autobiographical writings, time and place play crucial roles in understanding of social and historical situation in the above-mentioned books. Banine was an immigrant writer who was looking at her past in Baku from Paris; Kingston was a Chinese child who grew up in the USA. Temporal and spatial distance provides their writings with objectivity and allows them to analyze their own lives not as participants but as critics.

Шафаг Дадашева

Культурологический анализ автобиографий.
Резюме

Статья предполагает, что написание своей жизни дает писателю возможность лучше понимать себя. Жизнеописания подразделяются на два вида: в первую группу входят автобиографии известных людей, которые оставили свои следы в мировой истории, и во вторую группу относятся прооизведения, авторы которых находятся в вечном поиске самоидентификации. В качестве материала, были проанализированы автобиографические произведения таких авторов как Бенджамин Франклин, Максин Кингстон и Банин. Произведения этих писателей были рассмотрены с культурологической и гендерной перспективы. Как важные компоненты автобиографических работ, время и пространство играли важную роль в понимании общественной и исторической ситуации в этих книгах. Банин была писателем-иммигрантом, который ретроспективно анализировал свою жизнь в Баку, смотря на нее из Парижа; Кингстон родилась в семье китайцев и выросла в США. Временная и пространственная дистанция придают их жизнеписаниям объективность и поозволяют авторам изучать свою жизнь не как ее участники, н как критики.

Rəyçi Nəzrin Səmədova
Filologiya üzrə fəlsəfə doktoru

NAİLƏ SÜLEYMANOVA
Azərbaycan Dillər Universiteti
elshadomarov.86@mail.ru

LUİS SİNKLER YARADICILIĞINDA YENİ TİP VƏ XARAKTERLƏRİN BƏDİİ ƏKSİ

Açar sözlər: Sinklerin ədəbi irsi,Bebbit obrazı,yenilikçi insan, elmi üslub
Key words: Sinclair's literary heritage, the character of Babbitt, innovator man, scientific style
Ключевые слова: литературное наследство с Синклера, образ Бебита, человек инноватор, научная стиль

XX əsr amerikan ədəbiyyatının görkəmli nümayəndəsi Luis Sinkler özünəməxsus yaradıcılıq üslubu və yeni xarakterlər, obrazlar yaradıcısı kimi nəinki Amerika mədəniyyətinə, eləcə də dünya mədəniyyətinə nadir incilər bəxş edən bədii söz ustasıdır. Müasir dövrlə səsləşən ,dövrümüzün aktual problemlərini üzə çıxaran nümunəvi əsərlərin müəllifi olan ədib Amerika ədəbiyyatında Nobel mükafatına layiq görülən ilk yazıçıdır. O, bu mükafatı bədii incəsənətin təsvirində yeni tip xarakterlər yaratmaq bacarığına görə almışdır. Yaradıcılığının erkən dövrlərində o, Yel universitetində təhsil almışdır və ilk romantik şeir, oçerklərini məhz universitetin ədəbi jurnalında çap etdirmiş və sonralar həmin jurnalın redaktoru kimi çalışmışdır.

Ədəbiyyatla daha dərindən məşğul olmaq üçün yazıçı Nyu-Yorka yollanmış və hekayələrini buradakı ədəbi jurnallarda nəşr etdirmişdir. Yazıçı özü də etiraf edir ki, ehtiyac üzündən bir sıra hekayələrinin ideya və süjetini satmaq məcburiyyətində qalmışdır. Cek Londonun ideyasını Sinklerdən pulla aldığı əsərlərdən biri də "Qətllər bürosu" romanıdır. Lakin yazıçı romanı yekunlaşdırmamış dünyasını dəyişmişdir.

Sinklerin ilk romanı 1914-cü ildə çap etdirdiyi "Bizim cənab Vrenn" adlanır. Bu əsəri oxuduqca qəhrəman başdan-başa oxucuya ədibin özünü xatırladır. "Bizim cənab Vrenn" romanını yazıçının ilk avtobioqrafik romanı hesab etmək olar. Əslində yazıçı peşəkar fəaliyyətə məhz bu romanla başlayıb. Demək olar ki, yazdığı əsərlərin əksəriyyətinin mövzusu aşağı təbəqədən çıxan, cəmiyyətdə özünə yer axtaran, özlərini təsdiq etməyə çalışan insanlara həsr olunmuşdur. Müəllif bir-birinin ardınca "İş", ("The Job",1914), "Sadəlövhlər"("The İnnocents",1917), "Açıq havada"("Free Air",1919), "Baş küçə"("Main Street",1920) romanlarını öz oxucularının ixtiyarına vermişdir.Amerika mədəniyyətinin tənqidçisinə çevrilən Luis Sinkler "Baş küçə" romanında balaca amerikan şəhərciklərinin xəyali miflərinə bir növ zərbə endirmiş oldu. O, bir yazıçı kimi ən böyük uğurunu

“Bebbit”(“Babbitt”,1922) romanını yazmaqla əldə etmişdir. Yazıçı bu əsərində Amerikanın ticari mədəniyyətini tənqid atəşinə tutur. Hadisələr Uinnemakda,Zenitdə baş verir. Əslində Uinnemak adlı bir şəhər mövcud deyil, bu yazıçının təxəyyülünün məhsuludur. “Bebbit” əsəri amerikan orta təbəqəsinin konformizminə,nadanlıq və riyakarlığına bir növ ironiyadır. Romanın vvəlində I Dünya müharibəsindən sonra Zenit şəhərinin təsviri təqdim edilmişdir. Əsərin baş qəhrəmanı orta yaşlı, Zenitdə dəllal kimi çalışan Jorj F. Bebbitdir. Əsərin əvvəlində o, orta təbəqənin konformizmini,riyakarlığını,cahilliyini,düşüncəsizliyini özündə cəmləşdirən tipik Zenitli obrazı kimi diqqəti çəkir. O, həmçinin bu cür monoton və şərti həyat tərzindən usanıb. Bebbit xəyallarında gəncliyini özünə qaytaran gözəl bir qız haqqında düşünür. Bebbitin ailəsi üç uşağından-Verena,Ted,Tinka və onun sədaqətli həyat yoldaşı Miradan ibarətdir. Bebbitin ən yaxın dostu, sinif yoldaşı Pol Rislinq öz həyat yoldaşı ilə münasibətindən giley-güzar edir. Gəncliyində peşəkar skirpkaçı olmağı arzu etdiyinə baxmayaraq o, indi həyat bataqlığında üzür. Zilla, Polun həyat yoldaşı həmçinin Zenitdəki həyatından cana doymuşdur. Lakin çalışırdı ki, əri Polun bu davranışlarına dözsün. Rislinq tez-tez arvadından boşanmaq haqda düşünürdü, Bununla belə Jorj onu hər dəfə bu fikrindən yayındırırdı. Rislinq və Bebbit bu problemdən çıxış yolunu birlikdə Mayn şəhərinə səyahətdə axtarırdılar, lakin onların bu azadlıqları qısamüddətli idi. Nəhayət evlərinə qayıtmalı idilər. Rislinq etiraf edir ki,həyatı acınacaqlıdır və rahatlığı qolları arasında duyacaq başqa bir qadın axtardığı üçün heç də özünü günahkar saymır. Sonda Rislinq mübahisə zəminində arvadını güllələyir.Rislinqin bu hərəkəti Bebbitin arzularını həyata keçirmək üçün mübarizə ruhunu daha da yüksəldir və o başa düşür ki,xəyallarındakı o gözəl qadına ehtiyacı vardır. Cazibədar dul qadın Tanis Judiqlə tanış olanda dərk edir ki,öz xəyallarının qadınını tapib. Eyni zamanda dostlarının mühafizəkar fikirlərinə qarşı tənqidi münasibət bildirir. Zenitdə ümumi tətil hərəkatı baş qaldıranda Bebbit Tanisin vasitəsilə qoşulduğu Bohemian hərəkatının nümayəndələrinə bəzi köməkliklər göstərir. Mira xəstə bacısına qulluq etməyə gedərkən əri Tanisə və Bohemian dostlarına qonaqlıq verir. Dostları nə qədər Bebbiti bu mübarizədən döndərməyə çalışsalar da, öz əhatələrinə qaytarmaq istəsələr də o, bu dikbaşlığından əl çəkmir. Zenitə qayıdan Mira ərinin davranışlarından şübhələnir. Lakin əri onu inandırır ki, qadın fikrində yanılır.

Mira appendisitdən xəstə yatanda Bebbit başa düşür ki, üsyan etmək üçün artıq çox gecikib. Yenidən sadiq ər olur və öz həyat yoldaşından ağrı-acısına səbəb olduğu üçün dərin üzrxahlıq edir. Bebbit başa düşür ki,hər hansı bir ortadoks hərəkat üzündən ailəsinə və uşaqlarına əziyyət verməyə dəyməz.

Jorjun oğlu Ted isə kollecə daxil olsa da, bu onun ürəyincə deyildir. Onun ən böyük arzusu mexanik olmaqdır. Bu arzusunu həyata keçirmək üçün o, əlindən gələni edir. Bebbit oğluna etiraf edir ki, onun mübarizə üçün

yaşı çoxdan keçib,lakin oğlunun öz xoşbəxtliyini tapması üçün çox böyük imkanları vardır.

Əsəri oxuyarkən oxucuya elə gəlir ki, bu həyat yoldaşları ilə münasibətləri korlanan insanların taleyini "yaşayır". Lakin əslində Bebbitin, Polun ailəsindən bezməsi nisbi xarakter daşıyır. Bu onların yaşadıqları mühitə, həyat tərzinə, ümumi və geniş məzmunda isə bütün dünyaya etiraz aksiyasıdır. Bu iki qəhrəmanın başqa qadın axtarması da şərti səciyyə daşıyır. Diqqətli oxucu o dəqiqə anlamalıdır ki, onlar qadınlarının deyil, yaşadıqları cəmiyyətin başdan-başa dəyişməsini arzulayırlar. Tedin simasında isə biz yenilikçi obrazı görürük. Öz arzularından vaz keçməyən gənc atasının da dəstəyini alır. Ata isə bir növ öz həyata keçməyən arzu və istəklərinə oğlunun timsalında çatmış olur. Əsərdə rast gəldiyimiz bir termin var : "Bohemian" hərəkatı.Bu əslində o dövrün ən məşhur azadlıq hərəkatı idi. İnsanlar etirazlarını bildirmək üçün fərqli, qeyri-adi geyinir, küçələrdə dolaşır və öz azadlıqlarına bu yolla çatmaq , özlərini bu yolla təsdiqləmək istəyirlər. Həmçinin ikinci arvada meyillik nüansı oxucuya müəllifin avtobioqrafiyasını xatırladır. Sinkler də iki dəfə evlənib. Roman müasir dövrlə tamamilə səsləşir. "Bebbit" həmçinin yeni kitabın qeydlərini özündə yaşadan bünövrə rolunu oynayır. Zenitdə "ikinci planda olan" personajlar burada məskunlaşdırılıb və gələcək romanlara köçürülüb. "Bebbit"də onlar balaca fiqurlara bənzəyirlər. Daha sonra isə yazıçı onları ön plana çəkir və onlara sanki yeni can, yeni ruh verir. "Bebbit"də iki alimin təsvir olunduğu qısa bir fraqment "Erousmit"də Amerika həyatını əks etdirən bir lövhənin yaradılmasında proloq rolunu oynayır. Yazıçının "Bebbit"dən sonra növbəti şedevri 1925-ci ildə qələmə aldığı "Erousmit" romanıdır. Bu əsəri yazmaq üçün müəllif ciddi şəkildə bakteriologiyanı və epidemiologiyanı öyrənir.Həmçinin romanındakı hadisələrin baş verməli olduğu xəstəxanaların və laboratoriyaların planını öncədən cızmışdır. Demək olar ki, bu romanın ərsəyə gəlməsinin səbəbkarı həkim Pol de Krui və onunla olan elmi söhbətlər olmuşdur. Ümumiyyətlə tibb sənətinin bütün incəliklərinə bələd olmadan, tibbi sevmədən , eyni zamanda o ruhda böyümədən insan "Erousmit" kimi bir əsəri yazıb ortaya çıxara bilməz. Luis Sinklerin qəhrəmanı Martin Erousmit tibbi tədqiqatçıların ikonik surəti, amerikan tibb tələbələrinin və gənc həkimlərin ilham mənbəyi nə çevrilib. Romanın əsas elementlərindən biri Karib adalarında epidemiya dövründə taun əleyhinə profilaktik tədbirlərin sınaqdan keçirilməsinin dramatik təsviridir. Roman Pulitser mükafatına layiq görülüb, lakin yazıçı bu mükafatı qəbul etməyib. Sinkler "Nobel nitqi"ndə bu mükafatı qəbul etməməsinin səbəbi kimi özünü bu mükafata layiq bilməməsini göstərib. Sinkler əvvəlcə bu romana "Maks Qotlibin kölgəsində" adını verməyi də düşünüb. Əsərin əvvəlində hadisələr yazıçının öncəki əsərlərində də istifadə etdiyi , xəyallarında uydurduğu şəhərdə,

Uinnemakda baş verir. Əsərin baş qəhrəmanı Martin Erousmit Elk-Milzdə doktor Vikersonun kiçik müayinə kabinetində tibb sənətinin sirrlərini öyrənməyə çalışır. Romanın qəhrəmanı Martin Elk-Milzdə doktor Vikersonun kabinetində saatlarla "Qreyin Anatomiyası"nı və digər tibbə dair kitabları oxumağa vaxt sərf edir. Bu erkən təhsil sonradan onun kollecə və nəhayət Uinnemak Universitetinə daxil olmasının təminatı olur. Yaxşı həkim olmaq üçün Vikerson ona 3 kitabı oxumağı tövsiyə edirdi: Qreyin "Anatomiya"sı, Bibliya, Uilyam Şekspir.

Martin bu universitetin sadəcə tələbəsi deyildi.Uinnemak universiteti Martinin dünyasına çevrilmişdi. Artıq onun üçün Elk-Milz yox idi, ona tibbi sevdirən "Dok" Vikerson sanki ölmüşdü. Kimya kafedrasının rəhbəri Edvard Edvards Martinin səcdəgahı idi. Bu universitetdə o, alman professoru və tədqiqatçısı Maks Qotliblə tanış olur. Maks Qotlibin simasıyla Sinkler oxucuya dövr üçün aktual olan digər vacib məsələlərdən biri olan yəhudi məsələsini də çatdırmaq istəyib. Əslində bu obraz siyasi baxımdan təqdim olunmasa da, bizləri bəzi nüansların şahidi olmağa çağırır. Əsərdə Edvard Qotlibi "dəfn olunmuş işlərin ustası" adlandırır, onun başqa alimlərin yaratdığı nəzəriyyələri dağıtmağa illər sərf etdiyini, özünün isə elmə yeni heç nə vermədiyini söyləyirdi. Əslində bu onların Qotlibin zəkasına olan paxıllığıdır. Martinin universitetə daxil olduğu andan ən böyük istəyi Qotlibin tələbəsi olmaq idi. Bunun üçün o, bir çox çətinliklərə qatlaşır, səy göstərir. Gələcəkdə isə Qotlibin həyata keçirməyi arzuladığı işlərin reallaşdığını Martin obrazında görürük.

Tibb məktəbində oxuyarkən Martin tələbə Madelina Foksla sevgi günlərini yaşayır və hətta bu yaxınlıq onların nişanlanmasına səbəb olur. Lakin Martinin Leora Tozerə aşiq olmasından sonra bu münasibətə son qoyulur. Universiteti bitirdikdən sonra Martin və Leora özlərinə iş axtarmaq qərarına gəlirlər. Bu məqsədlə hər ikisi Leoranın doğma vətəni olan Uitsilvaniyaya gəlir və burada Martin kənd həkimi kimi çalışır.İlk gündən cəmiyyətin rəğbətini qazansa da sonradan bu inamı itirir. Digər tərəfdən də həyat yoldaşı Leora bətnindəki uşağı salır. Bu şəhərin onlara uğursuzluq gətirdiyini düşünən cütlük Nautilusa köçməyə qərar verirlər. Burada Martin gigiyena və təmizlik haqda şeirlər yazan həkim Pikkerbonun rəhbərliyi altında həyata keçirilən "həftə"ənənəsinin həyata keçirilməsində ona köməklik göstərir. Məsələn, "Coşğunluq Həftəsi", "Mehribanlıq Həftəsi", "Ailə Ocağı Həftəsi", "Təmizlik Həftəsi", "Milçəkləri Öldür Həftəsi"," Körpə Həftəsi", "Vərəm əleyhinə Həftə" və sair. Daha sonra Martin tələbə yoldaşı Anqus Dyuerin təklifi ilə Çikaqoda yerləşən Raunsfild klinikasına dəvət olunur. Martin görür ki, bura xəstəxanadan daha çox həkimlərin oyun meydançasıdır,daha doğrusu kimin kimdən daha çox pul qazandığı məlum olur. Elmi-tədqiqat işi həmişə Erousmiti özünə cəlb edib, amma tibb bacısı

Leora ilə evlənməyi onu iş axtarmağa vadar edir. Kənd həkimi, orta-qərb şəhərlərində ictimaiyyətə sağlamlıq xidmətləri göstərən həkim və Çikaqoda dəbdə olan xəstəxalardan birində pataloq kimi bir sıra vəzifələri yerinə yetirir.Tədqiqat arzusu heç vaxt onu tərk etmir. Martinin müəllimi Maks Qotlib Nyu-Yorkda Mak-Qerk Tədqiqat İnstitutunda işləyirdi və Martinə də komandasına qoşulmağı təklif edir. Martin həyatının ən böyük şansının qabağına çıxdığı üçün çox xoşbəxt olur və təklifi təbii ki qəbul edir. Nəhayət tədqiqatlarında böyük zəfəri əldə edir: pnevmaniya və tauna qarşı bakteriofaqı kəşf edir. Öz kəşfini sınaqdan keçirmək üçün taun xəstəliyinin geniş yayıldığı Müqəddəs Hubert adalarına göndərilir. Bu işdə Leora da ona qoşulur. Lakin arvadının təsadüfən taun çöplərinə yoluxması nəticəsində ölümü Martinin depressiyaya düşməsinə səbəb olur. Bir müddət işdən uzaqlaşır. Lakin sonra qərara gəlir ki,virusun yayıldığı ərazidə yaşayan insanları peyvənd etsin. Aylar sonra bu tədbirlər özünü doğruldur və bu ərazilər virusdan təmizlənir.

Həyat yoldaşının ölümündən sonra Nyu-Yorka gələn Martin zəngin qadın Coys Lenionla evlənir. Lakin bu evlilik onu heç də xoşbəxt etmir. Əsərin sonunda Martin Terri ilə Vermontda laboratoriya açmağı qərara alır.

Martinin daxili aləminə varanda görürük ki, o, bir-birinə zidd olan iki xarakteri özündə birləşdirir:həm soyuqqanlılıq, həm də şəfqətlilik. Eyni zamanda o, daxilən romantikdir. Əsərdə hadisələr üçüncü şəxsin dilindən verilir. Həmçinin digər qəhrəmanların daxili aləminin narrator tərəfindən göstərildiyi bir sıra epizodlar da əksini tapıb. Hadisələr demək olar ki, keçmiş zamanda baş verir, lakin bəzi nüanslarda yazıçı onu indiki dövrlə də əlaqələndirir. Hadisələrin baş verdiyi məkanlar da çoxdur: Müqəddəs Hubert adaları, Uinnemak(Elk-Milz), Nautilus, Çikaqo, Nyu-York, Vermont.

Əsəri oxuyarkən bəzi simvolik elementlərə də rast gəlirik.Məsələn əvvəldə Martinin nənəsinin uşaqlığının təsviri verilir,qızcığaz əzab çəkir. Əslində bu Martinin özünün də həyatda çəkəcəyi əziyyətə işarədir. Digər simvolik element kimi biz Vikersonun lupasını da göstərə bilərik.

"Erousmit" bildunqsroman hesab edilir. Çünki yazıçı qəhrəmanın həyatının bir çox dönəmlərini təsvir edir. Martinin 14 yaşından yetkin bir insan , alim kimi formalaşmasını oxucuya göstərir.

Roman postmodernizmin bir çox xüsusiyyətlərini özündə birləşdirmişdir. Bədii əsərin daxilində digər incəsənət növü kimi tibb elminə dair biliklərin istifadəsi intertekstuallığın əlaməti kimi diqqəti çəkir. Təhlilini verdiyimiz əsərdə həddən çox binar elementlərə rast gəlmək mümkündür. Əsərdə baş qəhrəmanın iki dəfə ailə qurması sırf Luis Sinklerin həyatından götürülmüş bir səhnə təsiri bağışlayır, bu da avtobioqrafik göstərici sayıla bilər. Bütövlükdə Sinklerin yaradıcılığı yenilikçiliyi ,dünyəviliyi ilə seçilir.

Ədəbiyyat

1.Schorer, Mark.Sinclair Lewis:An American life /New York:McGraw-Hill,1961
2.D.J.Dooley.The Art of Sinclair Lewis,1967
3.James M.Hutchisson. The Rise of Sinclair Lewis.1920-1930, 1996
4.Glen A.Love. Babbitt: An American Life
5.www.ncbi.nlm.nih.gov
6.Lüis Sinkler. Seçilmiş əsərləri /Bakı: "Şərq-Qərb",2010

N.Suleymanova

Artistic reflection of new type and characters in the creativity of Lewis Sinclair

Summary

Lewis Sinclair was American novelist, short-story writer and playwright. He was the first writer from the United States to receive the Nobel Prize in Literature, which was awarded "for his vigorous and graphic art of description and his ability to create new types of characters.

The novels of "Babbitt" and "Arrowsmith" by Lewis Sinclair are best known which discuss the important problems of the society. In the novel "Babbitt" the writer describes a stranged man in the character of Babbitt.

Here the writer demonstrates the man who is dissatisfied in his life style .In the novel "Arrowsmith" the writer depicts the secrets of medicine profession as well.

The protoganist of the novel Martin rescues the society with his discovery against plague.

Н.Сулейманова

Художественное отражение новых типов и характеров в творчестве Льюиса Синклера

Резюме

Льюис Синклер был американским романистом, драматургом и автором которкых рассказов. Он был первым американским писателем, получившим Нобелебскую премию в области литературы «за энергичное и графическое искусство изображения и за способпость создавать новые типы характеров.

Известные романы «Баббит» и «Ароусмит» Льюиса Синклера посвещены важным проблемам общества. В романе «Баббит» писатель представляет новый тип характера в лице главнево герое романе Баббита.

Герой удовлетворен своим образом жизни.

В романе «Ароусмит» писатель раскрывает секреты профессии медика. Главный герой романа Мартин спосает людей от чумы благодаря изобретенному им лекарству.

Rəyçi: Şahin Xəlilli
Filologiya üzrə elmlər doktoru, professor

MƏTANƏT ABBASOVA
Filologiya üzrə fəlsəfə doktoru
AMEA
abbasova_metanet@rambler.ru

XALQ ŞEİRİNİN GENEPOETİK SİSTEMİNDƏ "SU" KULTU

Açar sözlər: su, kult, şeir, poetik, inanc, müqəddəslik
Key words: water, cult, poem, poetic, belief, holiness
Ключевые слова: вода, культ, стихотворение, поэтический, поверье, святость.

Azərbaycan folklorunun genepoetik sistemində "su" kultu digər yaradılış ünsürləri də daxil olmaqla obraz sakrallığı və mətn funksionallığı ilə seçilməkdədir. Şifahi ədəbiyyatın ayrı-ayrı janrları – nağıl, dastan, əfsanə, rəvayətlər, bayatı, alqış-dua, qarğışlar və s. su mifo-poetik düşüncədə geniş yayılmış arxetipik obrazlardan biri kimi simvolizə edilmişdir. Bədii sənətdə tarixi- estetik məzmunda ifadə olunan, daha çox paklıq, təmizlik simvolu kimi obrazlaşdırılan "su" xalq təfəkkürü, mifik düşüncəsində "həyat", "başlanğıc", "kosmosun bərpası" motivilərindən çıxış edir. Yaradılış, bərpa funksiyasında su xaosun kosmosa çevrilmə aktının mifoloji mahiyyətini təşkil etməklə digər tərəfdən ilk ünsür elementləriylə dünyəvi varlıqların yaradılmasını da meydana qoyur. Yunanlarda Poseydon, Altaylarda su iyələri, şumerlərdə Enlil kimi mifoloji obrazlar folklor əfsanə, rəvayət mətnlərində ayrıca himayəçi, ilahə, tanrı obrazlaşmasında qeydə alınmışdır. Burada su tanrılarının tabeliyində olan "ikinci dərəcəli sahiblər" də qədim türklərin mifoloji görüşlərində geniş yayılmış inanclardandır. "Şumerlərdə Enlinin iradəsindəki Anunnakilər yerin səthində və altındakı sularda yaşayan ikinci dərəçəli tanrılardır. Sonra Ea (Enkidə), Enlil kimi suların və fırtınaların tanrısı oldu. Eanın idarəsində (Hanuş) adında ikinci dərəcədə bir kiçik su tanrısı daha vardır." (14, 180) Suyun kosmosu bərpa sakrallığı, yaradıcı enerji mənbəyində çıxış etməsi, nəticə olaraq kultun bir çox folklor mətnlərində sakral məkan informativliyini müəyyənləşdirmişdir. (Məsələn, qəhrəmanlıq dastanlarından olan "Koroğlu"da qəhrəmanın ilahi güc və qabiliyyətləri həm də Qoşabulağın suyuna bağlıdır- M.M. Abbasova).

Əfsanə, nağıl və dastanlarda olduğu kimi, xalq bayatılarında da şəfaverici bulaqların timsalında su müqəddəsliyinin izi eyni kontekstdə izahını tapır. Suyun axması, həyat, yaşarılıq, dirilik simvolunda çıxış etməklə, həm də bu xüsusiyyət xalq şeirində metoforik düşüncədə zamanın keçməsini ifadə edir:

Bu sular asda gedər,
Dolanar, asda gedər.
Su gəlir qalxa-qalxa,
Tökülür bizim çarxa.

Dünyanın vəfası yox, Arzu- kam yetişibdir,
Şad gələn xəsdə gedər.(4, 127) Bildirin toyu xalxa. (11, 139)

Suyla bağlı eyni poetik –mifoloji görüş uşaq –ovsun nəğmələrində də yer almaqdadır:

Su aşağı, İldə qulac,
Balam yuxarı: Balam, uzan!
Gündə dırnaq, Su aşağı
Həftədə barmaq, Balam yuxarı. (2, 18)
Ayda qarıç,

Folklorumuzda suya inam və düşüncənin kökündə möhkəmlənən mifoloji görüşlərdən biri də əbədi həyat bəxş edən "abi-həyat", yaxud "dirilik" çeşməsinə bağlı motivlərdir. Bir çox əfsanə, rəvayətlərdə "abi-həyat"ı yalnız Xızır və İlyasın içdiyi qeydə alınır. "Abi-həyat"ı dadan və ölməzlər sırasına qatılan bu qəhrəmanlar bir rəvayətdə ildə bir dəfə gül fidanı altında, yaxud dəniz kənarında görşürlər ki, o gün də məhz Xızırəlləz adlandırılır" (14, 184). Qədim rəvayət və əfsanələrdə dirilik suyunu tapan İskəndərə, digər bir mətində isə cavan oğlana Diri baba – onların ölümsüzlük qazanmalarına mane olur (5, 47). Bütün hallarda folklor qəhrəmanları "abi-həyat"ın axtarışına çıxsalar da, "dirilik çeşməsi"ni əldə edə bilməmiş, yaxud suyun məkanını tapdıqları halda onu dadmağa müvəffəq olmamışdılar. Əslində xalq təfəkkür və düşüncəsində nağıl, əfsanə, rəvayətlərdə gerçəkləşdirilən "abi-həyat"ın tapılmaması, yaxud ondan içə bilməmək dünyanın, kosmosun ilkin nizamlılığının qorunması məntiqinə bağlıdır. Kosmosun bərpası, yaradılış, ayrıca varlıqların əlaqəliliyi türk mifik təfəkküründə möhkəm bir sistemdə müəyyənləşir ki, burada ən xırda akt-elementin çevrilməsi mifoloji dünya durumunun dəyişilməsinə səbəb ola bilər. İkinci bir halda, mif həm də "reallıq" kimi qəbul olunmaqdadır. "Mif nə qədər qeyri-inandırıcı olsa da, yarandığı dövrdə və ərazidə həqiqət hesab olunurdu, reallığı şübhə doğurmayan gerçəklik sayılırdı. Təkcə ona görə yox ki, mif düşünülmür, məqsədi bədii yaradıcılıq deyildi, mif yaranan ömrün özü idi" (9, 5). İnsan ömrünün suyla əlaqələndirilməsi, yaxud uzunömürlülüyə suda nicat axtarma motivinə Qarabağ folklorundan toplanan bir mifoloji mətndə aşağıdakı motivdə rastlanılır: "Bir günnəri bir qoca yol gedirmiş. Gedif görüf bir təpə var. Təpədə bir qapı var. ...Gedir qapıdan girir içəri: Görür ki, bırda küpələr var. Küpələrdəki sudu. Bıra gəlif-gedənnərdən soruşur ki, bu nə suyudur belə? Eləsi var yarımçıxdı, eləsi var doluy daşır. Camahat deyir ki, bu insanların ömür suyudu. Qoca deyir ki, indi görəsən mənim də ömür suyum bırdadı? Bırda olan bir şəxs gəlir bir küpəni göstərir. Amma küpədə bir damcı su var. Deyir: «Bı görəsən, kimin suyudu, lap qutarıf? Qutaran kimi öləcək. Yanında duran deyir ki, o sənin ömür suyundur" (7, 209). Mifoloji mətində ömrün suyla əlaqələndirilməsi, digər əfsanə və pəvayətlərdə əbədi ömür, ölümsüzlük bəxş

edən "dirilik suyu"na inam bilavasitə suyun ilkin, başlanğıc, yaradıcı stixiyası, canlılıq, inkişaf simvolikasından qaynaqlanır. Suya olan bu inam xalq şeirində bir çox bayatı mətnlərində də öz izini qoruyub saxlamışdır:

Durum gedim suya mən,
Sudan alım dua mən.
Qaranquşca olmadım,
Damda tikəm yuva mən. (3, 150)

Bir çox bayatılarımızda sudan dua almaq, yaxud ona tapınma, bilavasitə Araz çayının özünə müraciətlərdə verilir. Arazın obrazlaşması bayatı mətnlərində tarixi, dini-mifoloji baxımından ikili səciyyə daşıyır. İlkin variantda Araz etnosun yer, yurd yeri olmaqla, həm də tarixi yaddaşda bir xalqı ayıran ayrılıq, kədər və vüsalı simvollaşdıran məkan motividir. İkinci istiqamətdə isə Araz türk toplumunun tapındığı arxaik su kultundan formalaşan xüsusi obrazdır. Arzu, şikayət, dua və motivlərin Araza yönəldilməsi bu baxımdan həm də su tanrısı, ilahəsi, yaxud əyəsindən kömək umma kimi ibtidai təcrübəyə əsaslanır:

Arpa axır Araza, Araz, Araz, xan Araz!
Araz yanı yar aza. Sultan Araz, xan Araz!
Xudadan arzum budur, Çayın, çeşmən qurusun,
Qızlar çatsın muraza. (8, 165) Mənim təki yan Araz! (8, 165)

Xalq məişətindən toy nəğmələrində də suya, konkret olaraq çaya olan inam pay-qurban ritualında ifadə edilir:

İrliyinə, birliyinə, gəlin qızın dirliyinə,
Araz-Araz xan payına,
Bəy oğlanın sağlığına,
hurre-hurre! (12, 15)

Suyla bağlı mifoloji görüşlərin daha zəngin bir qaynağı mərasim ritullarında qorunmaqdadır. Məlumdur ki, Novruz bayramı ilə bağlı mərasimlər- adət-ənənələrin bir çoxu su üzərində aparılır. Burada axar su üzərinə getmə, bəxtin su kənarında qoyulan yumurtada izlənməsi, sudan evin bucaqlarına səpilməsi su ruhu, Tanrısına tapınma inancından irəli gəlir. Çaydan götürülən su isə sudan alınan dua kimi qapı- bacaya səpilməklə, magik elementin əsas tərəfi kimi çıxış edir "Od" çərşənbəsində oda inam, pislik, xəstəlik və s. odda yanması bu mərasimdə "su" ilə əvəzlənir. "Ağırlığım-uğurluğum suya, azarım-bezarım suya" söylənməklə ağrıların, pislik, xəstəliklərin su üzündən keçərkən, magik səslə ona ötürülməsi, arınma, təmizlənmə üçün ilkin şərtdir.

Su mərasim nəğmələrinin mifopoetik strukturu mərasimin arxaik, sakral düşüncə sisteminin inanclarına bağlıdır:

Sel çapar, Su axar,

Su çapar,
Bir günah işlətmişəm,
Gəl onu,
Yel apar.
Anamın bir balası,
Nəyə möhtac qalası,
Sudan atlı keçməsə,
Meylin kimə salası?

Yolun tapar.
Su olmaz,
Ölüm qapar.
Suya verdiyin itməz.
Susuz buğda, oğ bitməz.
Suyu bol olan elin, əyəmməz düşman belin.
Su gəlsin, duru gəlsin,
Yazın uğuru gəlsin. (3, 50).

Nəğmə mətnində metoforikləşən zaman anlamında "selin, suyun çapması", günahın işlənməklə, həm də yellə bəlanın dəfinə işarədir. Burada su kultu digər yaradıcı elementlərin hava-yelin birliyində kosmosun bərpasında üç yaradıcı ünsürlə birləşir. Suyun II mifoloji ünsürünün onun ölümsüzlük, həyat mənasında "su olmazsa ölüm qopar" fikrində cəmləşir. Suyun stixaya şəklində mövcudluğu burada həm də onun "sakral güc mərkəzində olmasını şərtləndirir". "Sakral enerjinin ən çox toplandığı yer isə dünyanın tən ortasında, su üzərində olan yerdir, mifoloji inama görə, o yerə əcəl gəlməz". (10, 326). Ofsun nəğmələrində rastlanılan başqa bir mətndə isə suyun ambivalent xüsusiyyəti müəyyənləşir:

...Bəni-adəmdən, bədasil
heyvandan,
Cindən, şəyatindən,
Axar sudan, baxar sudan,
Yeddi yol ayrıcından...

…Axmaz sudan
Kölgədən, röyadən...
...Gələn havanı,
Dəyən qadanı,
Qarı düyən çilləni
Kəsdim, atdım bucağa. (15, 123)

Əvvəlki nəğmələrdə suyun müqəddəs sayıldığı, su üzərinə duaya gedib uğur gətirildiyi halda, bu ovsun mətnində "axar su", "baxar su", "bəni-adəm şəkli düşən" axmaz sudan gələn qada-bala bağlanılıb odda yandırılır.

Mifoloji semantikada suyun xeyir-uğur başlanğıcı yansıdığı kimi şər ruhun, bəlanın da gözlənilməsi labüddür. Bir çox araşdırmalarda suyun mifoloji strukturu həmçinin məkanlararası sərhəd müəyyənliyində də təsbit olunmuşdur. Çay, geniş mənadasa su bu baxımdan yeraltı və yerüstü dünyaların sərhəddində qərarlaşmaqdadır. Əldə olunan şaman əfsanə və söyləmələrində şamanın ölən adamı o biri dünyaya məhz çayın üzərindən keçməklə (Kancul, Çaşcul) "canı yola salması" faktı da suyun ayırdığı mifoloji məkan sərhədlərinə bağlıdır (13). Məlumdur ki, su, çay dərəsi mifologiyada həm də bir çox demonoloji obrazların gizli məskəni kimi də qəbul olunmaqdadır. (Hal anası, su pəriləri v.s.- M.M. Abbasova)

Suyun insan, bütövlükdə varlıqların surətini əks etdirməsi, onun "güzgü mifik anlamında öyrənilməsini də ehtiva edir". Professor. B.Abdulla "ilkin düşüncə çağlarında" insanların suda gördüklərini ruh olaraq qəbul edilməsinə toxunaraq, onun "ayna" adı daşımasını türk dillərinin

çoxmənalılığında araşdırmışdır (1). Hətta güzgünün su ilə birgə magik kombinasiyası bir xalq inancında belə qorunur: "Uzaq səfərə getmiş bir adamdan bəlanı dəf etmək üçün evin ortasına güzgü qoyub üstünə su tökərlər" (6, 10). Güzgünün ruh anlamı, eləcə də ölənin ruhunun ona keçməsi və s. uyğun olaraq, suyun üzü ilə eyniləşir. Acıqlı ruhların verə biləcəyi qorxu, xətər, eynilə "bəni-adəm" şəkli düşən sudan qovulur. Suyun daşıdığı ikili funksiyanın folklorda müəyyənləşən digər bir tərəfi onun cəzalandırma motivlərində iştirakıdır. Folklorda çətinlik və cəzalandırmalarda daşa dönmə motivi burada həmcinin suya dönməklə ifadə edilir. Suyun xalq şeirində mifoloji, sakral mövcudluğunun poetikləşdirildiyi digər istiqamət dini-fəlsəfi motivdə ideallaşdırılmasıdır. Bütün yaradılış ünsürləri öz ilkinliyi, başlanğıcı yaratması, müqəddəsliyini zamanla sonrakı dini-dünyagörüşlər, ayrıca islam, onunla yanaşı bir sıra dini təriqətlərə ötürmüş və təriqət ədəbiyyatının bədii-estetik məzmununda çıxış etmişdir.

Xalq şeirinin "su"yla bağlı inanc və inamlarla zəngin poetikasında "kult"un sakral, mifoloji xüsusiyyətlərinin folklorda obrazlaşma imkanları zəngin olmaqla, həm də çoxcəhətlidir. Bayatılar, xalq mahnıları, ovsun nəğmələri, mərasim şeirində "su" kultunun arxaik, mifoloji özəllikləri burada həm mifoloji şüurun poetikası, həm də mifik forma özəlliyində birləşməklə mifopoetik düşüncənin mahiyyətinə bağlanmaqdadır.

İstifadə olunmuş ədəbiyyat

1. B.Abdulla. «Kitabi-Dədə Qorqud»un poetikası, Bakı, Elm, 1999, 224 s.
2. Azərbaycan Folkloru Antologiyası. XV cild. Dərələyəz folkloru (tərti .e.d. prof. İ.Mirzəyev, f.e.d. H.İsmayılov, f.e.n. Ə.Ələkbərli) Bakı, Səda, 2006, 484 s.
3. Bayatılar (Toplayanlar: V.Vəliyev, S.Paşayev. Tərtib edəni və ön sözün müəllifi: V.Vəliyev), Bakı, Yazıcı, 1985, 199 s.
4. Əzizinəm Qarabağ. Bayatılar (Tərtib edən. İnqilab Quliyev) Bakı, Gənclik, 1993, 191 s.
5. Əsatirlər, əfsanə və rəvayətlər (Tərtib edən: Arif Acaloğlu, Cəlal Bəydili, redaktoru: İ.Abbaslı). Bakı, Şərq-Qərb, 2005, 304 s.
6. F.Hicran. Güzgü arxetipi folklorda. Bakı, Elm və təhsil, 2012, 56.
7. Qarabağ: Folklor da bir tarixdir. IV kitab.(Toplayanlar: fi.üz.f.d. İ. Rüstəmzadə, S.Bağdadova) Bakı, Elm və təhsil, 2013, 458s.
8. Laçın folkloru (toplayıb, tərtib edən: İlham Qəhrəman). Bakı, Adiloğlu, 2009, 256 s.
9. A. Məmmədov (Ön söz). Dünya xalqlarının əfsanələri. Dünya Uşaq Ədəbiyyatı Kitabxanası, Bakı, Gənclik, 1990, 504 s.
10. C.Məmmədov. Türk mifoloji sözlüyü. Bakı, Elm, 2003, 326

11. Min bir Azərbaycan bayatısı. Tiflis, Universal nəşriyyatı. 2010,184s.
12. Nəğmələr, inanclar, alqışlar... (Toplayıb, tərtib edən: prof. A.Nəbiyev), Bakı, Yazıçı, 1986, 213s.
13. Şaman əfsanə və söyləmələri. (Tərçümə və tərtib edənlər F. Gözələv, C Məmmədov), Bakı, Yazıçı, 1993, 144 s.

Türk dilində

14. Murat Uraz, Türk mitolojisi. Düşünen Adam Yayınları, İstanbul, 1994, 267 s.

M.Abbasova

Cult of "water" in the system of geneopoetics of people's poetry

Summary

In the article the known semantic-functional features of the cult of water in folklore are denoted, the specifications of folk poem in poetic structure are investigated, The initial creative element of the cult of water-renewal holiness of cosmos, mythological roots in energy source are investigated in folk bayaties (quatrain)- exorcism songs, songs and other texts. The article explores these issues on the basis material of Azerbaijan folklore. The author also touches on the situation in which conspiracies and spells appear, as well as the situation and rites of their realization. The article also examines the mythological roots of various conspiracies and spells.

М.Аббасова

Культ “воды” в системе генеопоэтики народной поэзии

Резюме

В статье исследуется особенности поэтической структуры народной поэзии, в основе которой стоят известные в фольклоре семантико-функциональные особенности культа «воды». Изначальное зарождение культа “воды” сакральность восстановления составной части космоса, творческая энергия мифологических корней народных баяты – исследуются в текстах песен, заговоров и т.д. В статье исследуются эти вопросы на обширном материале Азербайджанского фольклора. Автор затрагивает также ситуацию в которой заговоры и заклинания появляются, а также ситуацию и обряды их реализации. В статье также исследуются мифологические корни тех или иных заговоров и заклинаний.

Rəyçi: **Şakir Albalıyev**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

YEGANƏ HÜSEYNOVA
Gəncə Dövlət Universiteti
yeganesabirhuseynli@gmail.com

B. VAHABZADƏNİN POEMALARINDA İNSAN PROBLEMİ

Açar sözlər: Vətən, yaradıcılıq, şair, insan, cəmiyyət, şəxsiyyət
Keywords: Motherland, creative activity, poet, human,community.identity
Ключевые слова: Родина, творчество, поэт.человек.обсество.личност

İnsan-şəxsiyyət, zaman-dünya və onların bir-birilə qarşılıqlı münasibətləri həmişə ədəbi-ictimai-humanitar fikri düşündürən aktual və ümumbəşəri problemlər kimi prioritet istiqamət və sahələrə çevrilməsi heç də təsadüfi hal hesab olunmamalıdır. Çünki insan bir fərd və bioloji varlıq olmaqdan başqa, həm də cəmiyyətin ictimai-mədəni, sosial-iqtisadi sferasında özünəməxsus yer və mövqe tutur. İnsanın dar mənada yaşadığı mühitlə, böyük mənada dünya ilə münasibətlərinin bir sıra elə səciyyəvi cəhətləri var ki, onu birmənalı şəkildə pozitiv yanaşma kimi qəbul etmək çətindir. Bu, həyatın və bütövlükdə dünyanın barışmaz ziddiyyətlərini, təzadlı məqamlarını da açıq-aydın büruzə verir. İnsanın şəxsiyyət səviyyəsinə qədər - keçdiyi mənəvi təkamül prosesi dini, etik-əxlaqi, sosial-fəlsəfi yönlərdən ona münasibəti də bir zərurət kimi doğurur, elmin, incəsənətin ayrı-ayrı sahələri bu əbədi və əzəli problemə müxtəlif baxış bucaqlarından gur işıq salmağa cəhd göstərir. Heç şübhəsiz ki, insanı (şəxsiyyəti) bütün tərəf və yönlərdən öyrənmək və təhlil predmeti seçmək ədəbiyyatın da, bədii yaradıcılığın da qarşısında dayanan taleyüklü məsələlərdəndir. Bu baxımdan ədəbiyyatın "insanşünaslıq elmi" (Maksim Qorki) adlandırılması təbii ki, obyektiv və inandırıcı görünür. Yuxarıda xüsusi vurğuladığımız kimi, insanı bir çox yönlərdən öyrənən elm sahələri mövcuddur. Ancaq insanı bir fərd kimi, şəxsiyyət kimi öyrənməyi önə çəkən, onun ruhi-mənəvi aləmində baş verən təbəddülatları, dönməz iradi keyfiyyətləri, sarsılmaz xarakterləri, eyni zamanda tərəddüd və ziddiyyətləri ədəbiyyat qədər dolğun və hərtərəfli təhlil predmetinə çevirən ayrıca bir sahəni təsəvvürə belə gətirmək mümkün deyil. İnsanın iç dünyasına baş vurmaq, onun qəlb aləminə məxsus əlamət və xüsusiyyətləri, müxtəlif situasiyalardakı hal və vəziyyəti, ovqat və psixologiyanı özünəməxsus şəkildə canlandırmaq və ifadə etmək söz sənətinin, ədəbi-bədii düşüncənin qarşısında dayanan mühüm yaradıcılıq vəzifələrindən biridir.Dünya ədəbiyyatının, ayrı-ayrı milli ədəbiyyatların tarixən təşəkkül tapan zəngin yaradıcılıq təcrübəsi, bu istiqamətdəki axtarışları da belə bir yekun nəticəyə gəlməyə tam əsas verir. Artıq insanın bir problem kimi öyrənilməsinə artan maraq son onilliklərdə daha intensiv və yüksələn xətt

üzrə inkişaf etməkdədir. Görkəmli ədəbiyyatşünas Yaşar Qarayev İsmayıl Vəliyevin "Ədəbiyyatda insan konsepsiyası; tarixi təşəkkülü və inkişaf mərhələləri" monoqrafiyasına yazdığı "Sənətin ilkin və əbədi mövzusu – insan problemi" adlı "Ön söz"ündə belə bir doğru qənaətə gəlir ki, "İnsan "problemi" tarixən ən qədim və ən ciddi problemdir, elmin və sənətin daimi mövzusudur. Bu problem cəmiyyətin, təbiətin, eyni zamanda elmi-fəlsəfi təfəkkürün, bədii surətlərin axtarışlarının əsası hesab olunur. Dünyanın dərki, bəşər cəmiyyətinin inkişafı və idarə olunması, tarixi sivilizasiya məsələləri məhz insanla, onun fiziki və intellektual təkamülü ilə bağlıdır. Ona görə də insanı problem kimi götürmək, onu öyrənmək zəruridir" (5, 3). B.Vahabzadənin şeirlərində vətəndaşlıq pafosu və mövqeyi başlıca yer tutur. Şairin poemalarında da insan, cəmiyyət və şəxsiyyət probleminin bir mövzu istiqaməti kimi aparıcı mövqe qazanması, hər şeydən əvvəl, həyat və zaman, cəmiyyət və ictimai-sosial şərait, elmi-texniki nailiyyətlər və onun insanların mənəviyyatına, psixologiyasına və dünyagörüşünə göstərdiyi təsir və izlər özünün dolğun ifadəsini tapır. Hələ 60-cı illərdə tənqidçi M.Əlioğlu şairin yaradıcılığındakı vətəndaşlıq pafosunu yüksək qiymətləndirərək yazırdı: "Vətəndaşlıq pafosu Bəxtiyarın şeirlərində çox qüvvətlidir. Müasir cəmiyyətin, xalqın işıqlı və təmiz ideallarının təsdiqi mövqeyindən ictimai yaramazlığın, mənəvi rəzalət və fənalığın inkarı - həmin vətəndaşlıq pafosunun başlıca məfkurəvi-estetik əlaməti olaraq meydana çıxarmışdır. Şair cəmiyyətin həyatı, xalqın taleyi və müqəddəratı ilə kökündən bağlı amillərə və müasir insanın mənəvi aləminə yabançı olan hər növ saxtalığa qarşı amansızdır" (2, 50).B.Vahabzadənin poemalarında insan və cəmiyyət, şəxsiyyət və onun mənəvi fikir dünyası yeni mahiyyət qazanır. Şairin poemalarındakı insan taleləri zaman və məkan hüdudlarını aşıb keçən, özünün geniş vüsət və xarakteri ilə səciyyəli keyfiyyətləri əldə edir. Burada insanla (şəxsiyyətlə) zaman arasında baş verən ziddiyyətlər, qarşıdurmalar, kolliziyalar və onu doğuran səbəblər, nəticələr ümumiləşdirmələr nəticəsində, özünəməxsus fəlsəfi mühakimələr sayəsində daha təsirli və yadda qalan olur, geniş məna və məzmun tutumu ilə seçimli bir xüsusiyyət qazanır. Əslində insan və şəxsiyyət, onun dövrün, zamanın qovğalarından dözüm və mətanətlə çıxmaq əzmi B.Vahabzadənin bütün yaradıcılığında özünəməxsus bir yer tutur. Bunu yalnız şairin konkret bir yaradıcılıq sahəsindəki axtarışları ilə əlaqələndirmək o qədər də məntiqli görünmür. Ancaq bir cəhəti də xüsusi olaraq vurğulamaq lazımdır ki, ayrı-ayrı dövr və zaman kəsimlərində insanı və şəxsiyyəti hərtərəfli – bütün ziddiyyət və təzadları ilə bərabər təsvir etmək B.Vahabzadənin epik yaradıcılığına müstəsna bir dəyər və əhəmiyyət aşılayır. "Hər baharın öz qaranquşu" (1963) poemasında qaldırılan problemlər insanla həyat və zaman arasında baş verən təzad və ziddiyyətləri əks etdirir. Gəlimli, gedimli dünyanın qəribəlikləri; bir tərəfdə toy, bir tərəfdə "vay" kimi

əvəzlənmə üstündə bərqərar olan gərdişin mahiyyətinə varmaq poemada əsas məram və məqsəd kimi önə çəkilir. Tarzən dostunun yas mərasimindən evinə qayıdan qocaman xanəndə Həsrətin evində tamam başqa bir ovqatın və əhval-ruhiyyənin hökm sürməsi onda olduqca qəribə hissiyyatların baş qaldırmasına səbəb olur. Dost itkisi, uzun illərin sədaqət və etibarından nəşə tapan ünsiyyətin qırılması Həsrəti qəm-qüssə içərisində düşüncələrə qərq edir. Belə bir psixoloji sarsıntı içərisində olan Həsrətin evində oğlu Əvəzlə həyat yoldaşının heç bir şey olmamış kimi toy mərasiminə hazırlaşmaları, dədə-babalardan qalma adət-ənənələrdən tamam fərqli bir əxlaq və davranış nümayiş etdirmələri qocanın bir dərdini min dərdə çevirir. Nəvəsi Eldarla baş-başa qalan Həsrətin həyat və zaman, köhnəlik və yenilik haqqında təsəvvürləri mücərrəd və xəyali xarakter daşımır, o gerçək hadisələrin mahiyyətindən yaranır. Bunu, hətta, adi əşya və predmetlərə münasibətdə də o özü üçün bir səbəb və nəticə kimi müəyyənləşdirib üzə çıxarır. Evdən köhnə radionun artıq və yarasız bir əşya kimi çıxarılaraq çardağa atılması da Həsrətdə olduqca gözlənilməz təəssüratlar oyadır, o əvvəl bu haqsızlıqla barışmaq istəmir, o belə məqamlarda insanı, insan talelərini göz önünə gətirir, bu təhlükəli yanaşmadan vahiməyə düşür, sözlə ifadəsi çətin olan gözlənilməz anlar yaşayır. Vaxtilə dalğalarında dünyanın dürlü-dürlü yerlərindən xəbərlər yayan, könüllərə ruhi-mənəvi qida verən nəğmələri, muğamları səsləndirən radionun artıq əşya kimi sıradan çıxması qocada digər bir düşüncəni və analogiyanı gündəmə gətirir; insan da beləcə sıradan çıxa və köhnələ bilər və cəmiyyət üçün yararsız bir əşya timsalına çevrilə bilər. Hətta şair burada qocanın keçirdiyi hissi-emosional təbəddülatları təbiətdə baş verən dəyişmə və əvəzlənmələrlə müqayisə edərək, onun bu cavabsız suallarına müəyyən mənada haqq qazandırmış olur:

Qəribə qurulub doğrusu aləm–
Yaz həyat gətirir quru çöllərə.
Bəs insan ömrünə neçin bilmirəm,
Bir kərə verilir, bahar, bir kərə? (3, 275).

Şair qocanın özü, yaşadığı ömür yolu barədə müfəssəl təsəvvür yaratmaqla, əslində insanların və insanlığın mənəvi dünyasında baş qaldıran çox qəribə və eyni zamanda haqlı nigarançılıq dolu hissiyyatların mahiyyətinə dərin nüfuz edir, hər gələn baharın ətraf aləmə min bir hüsn-təravət aşılaması fonunda insanın belə bir fiziki-mənəvi təzələnmədən kənarlaşdırılması təbiətə və yaranışa qarşı bir etiraz kimi səsləndirilir.

Bir-birini bada vermək, dostun öz dostunu danoslarla şərləmək 37-ci ildən başlayan bir vasitə və metod kimi 50-ci illərdə də, repressiya olunanlarla bağlı bəraətin verilməsinə baxmayaraq, işlək bir mexanizm kimi davam etməsi poemada açıq-aydın özünü büruzə verir. Məhz belə bir vahimə

və qorxu həm şairə, həm də bəstəkara həyəcanlı anlar yaşadır. Dilində səslənən sözlərə görə yenidən həbsxana küncünə atılmaq qorxusu, ona həmsöhbət olan müsahibi, bir fikir və məslək ortağı kimi bu prosesdə birgə iştirakı birbirinə inamsızlığa gətirib çıxarır. Bütün gecəni vahimə içərisində yaşamaq, anbaan gözlənilən hədə-qorxu və həbs olunmaq təhlükəsi ilə qarşılaşmaq iki qorxunun təlaş və həyəcanlarını bariz şəkildə nəzərə çatdırır. Zəmanəmizin yük sənətkarı Çingiz Aytmatovun vaxtilə B.Vahabzadə haqqında dediyi fikirlər bu məqamda yada düşür: "Bizi əhatə edən aləmdə hər nə varsa, şairi dərindəndərinə düşündürür; xeyirlə şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi, bir sözlə insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq ehtimalı Bəxtiyarın fitrətindədir" (1, 5). Bu obyektiv və prinsipial səciyyə daşıyan mülahizələri eynilə "İki qorxu" poemasının ümumi ruhuna da şamil etmək olar. Yaşanan ömrün anlarını, arxada qalan günlərin ovqat və təəssüratını yenidən sənətin dili ilə canlandırmaq bacarığı burada da öz sözünü deyir. İki qorxunun, vahimə və səksəkənin yaratdığı həyəcan və narahatlıq məhz zamanın ümumi məcrasında nəzərdən keçirilməsi ciddi sınaq anları ilə bərabər şəxsiyyətin dözüm və iradəsini, gələcək üçün cavabdehlik, məsuliyyət daşımasını da istisna etrmir. Poemada bu bir ideya kimi bütün parametrləri ilə qabardılır. İnsanın özü ilə haqq-hesabı, şəxsi-mənəvi dünyasında baş verən ikiləşmə B.Vahabzadənin 1961-ci ildə qələmə aldığı "Etiraf" poemasının mövzu və problematikasını müəyyən edən mühüm xüsusiyyət kimi nəzərə çarpır. Əvvəlki əsərlərində olduğu kimi, şair insanı ən müxtəlif yönlərdən bədii mühakimənin mərkəzinə çəkir, onun bir-birindən tamamilə fərqli situasiyalarda əxz etmiş olduğu keyfiyyətlər üzərində təfərrüatı ilə dayanır. İnsanın kamilliyini, bir xarakter kimi bütövlüyünü üzə çıxaran dramatik məqamlar belə təsvirlərdə bütün ciddiyyəti ilə əsas münasibət və baxış bucağı kimi ön mövqeyə çəkilir.

Ədəbiyyat:

1. Aytmatov Ç. Yaradıbdır inam məni, mən inamın övladıyam (Ön söz) // Vahabzadə B. "Axı dünya fırlanır". Bakı: Yszıçı, 1987.
2. Əlioğlu M. Şair ləyaqəti, şair sevgisi. Azərbaycanın Bəxtiyarı. Bakı: "Azərbaycan" nəşriyyatı, 1995.
3. Vahabzadə B. Əsərləri. 11 cilddə. Bakı: "Azərbaycan", 2002, CIII.
4. Vahabzadə B. Əsərləri (1980-1989). 11 cilddə, Bakı: Çaşıoğlu, 2002, C V.
5. Vəliyev İ. Ədəbiyyatda insan konsepsiyası. Tarixi təşəkkülü və inkişaf mərhələləri. Monoqrafiya. Bakı: Günəş, 1999.

Y.Huseynova

The human problem in B.Vahabzadeh s poems.
Summary

Though lyrics determines the essence and main direction of creative work of BakhtiyarVahabzada, from the first periods of his poetic researches he tried his pen in epic poem. Soon was presented his first poem concerning the reality, public relations of period and time he lived in. Surely, experience and professionalism,BakhtiyarVahabzada gained in his lyrics, played an important role in writing epic poems and mastering its creative secrets. Since the first periods, themes the poet applied to and variety and wide spectrum of public issues trying to reflect realities of life were differentiated and divided into various directions. In this period of creative work the objective was to achieve description of much wider and broad scale events moving out of a narrow and limited frame of problems and themes a poet was interested in. It is important to note one more feature that in first epic poems of a poet, you can see repeated subject matters and it demonstrates that creative search of a poet not reached to a proper level yet at first times.

Э.Гусейнова

Проблема человека в поэма х Б. Вахабзаде
Резюме

Несмотря на то, что основную суть и направление творчества БахтияраВахабзаде определяет лирика, он, с первых же этапов своих поэтических изысканий проявляет инициативу испытать себя в жанре эпического стихотворения. Вскоре появляется его первая поэма, повествующая о реалиях времени, эпохи, в котором он живет, человеческих отношениях. Естественно, в приходе БахтияраВахабзаде к эпическому стихотворению и освоении секретов его создания активно участвует опыт и профессионализм, приобретенный им в лирических произведениях.С первого же этапа дифференцируется разнообразие и широкий спектр выбранных поэтом тем, и общественные сюжеты, в которых он старался отобразить реальную жизнь, выделяются отдельные направления. На данном творческом этапе основной целью становится выход за узкие и ограниченные рамки тем и проблем, заботящих и волнующих поэта, и достижение описания и отображения более широких и масштабных событий.

Rəyçi: Bədirxan Əhmədov
Filologiya üzrə elmlər doktoru, professor

LEYLA HƏSƏNZADƏ,
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
VÜSALƏ HƏSƏNOVA
BDU
qasanzade.leyla@mail.ru
hakse.hasanova@gmail.com

KLASSİK KOREYA ƏDƏBİYYATI

Açar sözlər: Ədəbiyyat, orijinaldan tərcümə, qədim dövr, Şilla dövləti dövrü ədəbiyyatı, mədəniyyət.
Ключевые слова: Литература, перевод с оригинала, литература времена Шиллы, культура,
Keywords: Literature, translation from the original, Silla literatura, culture.

Bütün qədim xalqların ədəbiyyatlarında olduğu kimi Koreya ədəbiyyatının kökü də xalqların tapınma ehtiyaclarından irəli gəlmişdir. Koreyalılar Göylərin Ağası dedikləri ən uca tanrıya sitayiş edirdilər. Allaha minnətdarlığını bildirmək üçün mərasimlər keçirərdilər. Musiqi, rəqs və mahnı bu mərasimlərin bir hissəsi idi. Puyo dövləti dövrünün "Yonggo" (Təbil ruhunu çağırma) adlı mərasimi, Koquryo dövləti dövrünün "Tongmaeng" (Chumonga sitayiş etmə) adlı mərasimi, Tonqye dövrünün "Muchon" (Cənnət rəqsi) adlı mərasimi, Mahan dövrünün "Ovolce vəŞivolce" (May və Oktyabr dövrü biçinləri) adlı mərasimləri, şifahi ədəbiyyatın başlanğıcı olmuşdur [1, s.2]. Hanca adlı yazı sisteminin e.ə 2-ci əsrdə Koreyaya daxil olması ilə şifahi ədəbiyyatın yazılı formaya keçməsi təmin olunmuşdur. Hanca ilə yazılan və dövrümüzə qədər gəlib çatan ən qədim abidələr Kim Bu-Şik (1075-1151) tərəfindən yazılmış Samquk saqidən ibarət məqalələr (Üç krallıq dövrünün tarixi protokolları) ilə Buddist bir keşiş olan Il-yon (1211-1289) tərəfindən hazırlanan Samguk yusa (Üç krallıq dövründən qalan qeydlər) - dır. Samguk saqi, qədim Koreya qeydləri və Çin mənbəyini, Samguk yusa isə Koreyanın ilk kralı Dangun və digər tarixi, mifoloji, əfsanəvi qəhrəmanlarının ənənəvi vahidlərini əhatə edir. Xüsusilə Samguk yusa qədim Koreya hekayələri haqqında izlər tapmağı düşünənlər üçün daha əhəmiyyətlidir. Şeirlər əhəmiyyətli hekayələrin bəzi hissələrinə sıxışdırılmış və hekayələrdən başqa, fərdi mənalar da kitabda yer almışdır. Bu kitab hazırda mövcud olan şifahi ədəbiyyatın ilk toplusudur. Eyni zamanda yazılmış hekayələrin ilk antologiyasıdır. Üç krallıq (e.ə.57-936) dövründə cəmiyyətlər daha yaxşı birləşdikcə və ölkə sistemi də qaydaya düşdükcə Koreyada əhəmiyyətli dəyişikliklər olmuşdur. Buddizm kimi kənardan gələn mədəni təsir Koreyada səmərəli bir mühit taparaq

inkişaf etmişdir. Buddizm və Hanca ilə birlikdə Han mun haq (Şino-Koreya Ədəbiyyatı) deyilən ədəbiyyat inkişaf edib. Üç Krallığı təşkil edən (Şilla e.ə.57-.935, Koguryo e.ə.37- 668, Bekçe e.ə 18- 660) hər bir krallığın özünəməxsus quruluşu və mədəniyyəti vardır. Birləşmiş Şilla (668-935) krallığının da mədəni baxımdan əsas xüsusiyyəti "Hyanqa" adlı şeir növü idi. Koreya ədəbiyyatının ilk nəğməli şer olmaqla yanaşı lirik şeir janrıdır. Hyanqa Birləşmiş Şilladan sonra Koreya yarımadası ərazisində zövqlə yaradılıb yaşadılan geniş yayılmış Koreya xalqının ədəbiyyatıdır. Hanqıl olmadığı dövrdə məcbur qalaraq çin heroqriflərinin səsi və mənasını götürərək hyanqçalın yaranmasına baxsaq kəskin subyektivlik görünür. Hyanqa Koreya ədəbiyyatının ən mükəmməl lirik şeir olmaq baxımından xüsusi ədəbi əhəmiyyət kəsb edir. Həmçinin bu şeirin sözləri Şilla dövrü dilinin tədqiqatında qiymətli material olub, bu şeir şəkli xarici mədəniyyətin qəbul olunması və inkişaf etdirilməsini göstərən bariz nümunədir. Mövzusu yüksək ideal axtarışı olan bu ədəbiyyat növü sadə olmaqla yanaşıdərin ifadə vasitələri ilə zəngindir və şillalıların ruhunu əks etdirir. Həmin dövrdə Koreya dilini yazıya alacaq Koreya əlifbası olmadığından Hyanqçal kimi yazı növündən, yəni çin hecasından istifadə edərək yazıya almışlar. Hyanqçal Birləşmiş Şilla dövründə çin heroqrifinin səs və mənasından istifadə edərək Koreya dilini ifadə edən yazıya deyilir. Hyanqa sözü dar mənada Şilla mahnısı, vətən mahnısı və ya adi çin dilində yazıya alınmış Koreya şeirindən fərqli olaraq Koreya dilində yazıya alınmış mahnı mənasında adlandırılır.Hyanqanın forması 4,8,10 və s. misralıdır. 4 misralı hyanqa şifahi xalq mahnısının yazıya alınmış formasıdır, 8 misralı hyanqa həmin dövrün paytaxtı olan Kyonqcudan başqa ərazilərdə məşhur olan mahnıdır. 10 misralı hyanqa ən mükəmməl forma kimi son hissəsində "aiy" və s. nidaları yer almışdır ki, bu əlamətə sonralar meydana gələn şiconun son hissəsində də tez-tez rast gəlinir, kasa janrında da bu əlamətlər mövcuddur [2, s.28].

Koryo (918-1392) dövründə Hyanqalarəhəmiyyətlərini itirmişdi. Bu dövrdə dövlət xidmətləriüçün məmurluq imtahanları keçirilirdi. Bu imtahana "Qvaqo"deyilirdi. Dövlət məmuru olmaq üçün klassik Çin dilində yəni hanca ilətəşkil olunan bir imtahanı vermək lazım idi. Beləliklə də"Han mun hak" (Çin heroqlifləri ilə yazılan ədəbiyyat)inkişafına davam etmişdir. Yenə bu dövrdə aristokrat təbəqənin istifadə etdiyi hanca ilə, "Qyonqiçeqa" deyilən şeir janrı inkişaf etdirildi. Xalq arasında da "Koryo sokyo" (Koryo nəğmələri) deyilən janr inkişaf etmişdir. Xalq o dövrdə oxuyub yazmağı bacarmadığından bu şeirlər dildən-dilə gəzib dolaşmışdır. Ancaq Coson (1392-1864) dövründə "Koryo sokyo" (Koryo nəğmələri) şeirləri yazıya alınmışdır. Koryo dövründə nəsr inkişaf edərək xalqın ağızdan ağıza yayılaraq söylədiyi şifahi ədəbiyyatın ötürücüsü olan "Məhəllə Hekayələri"

adlanan əyləncəli hekayələr yazıya alınmışdır.İ-Kyu-bonun (1168-1241) əsəri olan"Bequn Sosol" (Ağ Buludun Romanı) bu sahədə yazılmış ən yaxşı məhsul kimi göstərilməkləyanaşı həmçinin yeni romanın formalaşmasına da zəmin yaratmışdır. Daha sonrakı dövrlərdə də "Təmsil" ortaya çıxaraq "satirik ədəbiyyatı" və "nəsihət ədəbiyyatı" formalaşmağa başlamışdır. Imçun(1147-1197) tərəfindən yazılan "Guksuncon"(içki insan) ilə İ-Qok tərəfindən qələmə alınan "Cukbuincon" (Bambuk Qadın) adlı bu iki əsər Koreya ədəbiyyatında əhəmiyyətli bir yerə malikdir.Coson Krallığı (1392-1864) iki dövrə ayrılır. Krallığın hər iki dövründə də hər sahədə olduğu kimi, ədəbiyyat sahəsində də fərqlər var. Krallığın Birinci Dövr Ədəbiyyatı Yaponiya ilə aparılan İmcin Veran (1592-1598) müharibəsinə qədər davam etmişdir. Krallığın ilk dövrlərində Koreya əlifbası Hanqılın yaradılması ilə ilk dəfə Koreya xalqı özlərinə məxsus əlifbaları ilə şifahi ədəbiyyat mənbələrini yazılı şəkildə yaratmağa başlamışdılar. Bu dövrdə xarici ədəbiyyat tərcümələri də ölkəyə daxil olaraq Koreya Ədəbiyyatı tarixi böyük ölçüdə dəyişikliyə uğramışdır [3, s. 20].

Coson Krallığının I dövründə Hanqıl ilə yazılan şeirlər əhəmiyyət qazanaraq Şico (Gündəlik Mahnı), Akcanq (Musiqi Yazıları), Gyonqiçeqa (Uzun Mahnı), və Qasa (Mahnı və Rəqs Sözləri) tərzi şeirlər inkişafını davam etdirmişdir. "Yonqbioçonqa" (Uçan Əjdaha Mahnıları) ilə Seconq kralın yazıdığı "Vorinçongangcigok" (Min Çay Üzərindəki Ayın Təzahürləri Nəğməsi) dövrə aid iki mühüm əsərdir. Yongbioçonga, Coson Krallığının qurulmasıtarixi ilə bağlı bir dastandır. "Vorinçongangcigok" Buddanın rəhbərliyindənbəhs edən bir əsərdir.Bu dövrdə konfüçyanist düşüncə və zadəganların həyat tərzləri şeirlərin məzmununu formalaşdırmışdır. Konfüçyanist təlimlər və Budizimdən sutra tərcümələri də Hanqıl ilə yazılaraq xalq arasında yayılması təmin olunmuşdur. Ancaq xalq oxuma yazma bilmədiyindən dolayı ədəbiyyatda fəal iştirak etməyib.

Koryo sokyo (Koryo Nəğmələri) və Qyonqiçeqanın təsirləri bu dövrdə də görülmüşdür. Yeni qasa tərzi şeirlərin meydana gəlməsi və şico Coson Krallığının iki mühüm xüsusiyyəti olmuşdur. Chonq Cholun "Hunminga" (Hunminin Mahnısı) ilə Li-İnin "Gosanquqokqa" (Ulu Dağ və Təpələr) adlı şicoları Coson Krallığının ilk dövr şicolarının ən yaxşı nümunələrindəndir.

Krallığın II Dövr Ədəbiyyatı İmcin Veran Müharibəsinin başlanğıcından Kabokyonqcanq (1894) modernləşmə islahatına qədər olan dövrü əhatə edir. Müharibənin təsiri ilə ortaya çıxan siyasi qarışıqlıq, iqtisadi pozğunluq, Şilhak (Tətbiqi Elmlər), qərb elminin ölkəyə daxil olması, xalqın maariflənməsi kimi anlayışlar dövrün ədəbiyyatında təsirli olmuşdur. Bu səbəbdən də Krallığın ikinci dövr ədəbiyyatında daha çox tənqid ədəbiyyatı hakim olmuşdur. Həmçinin Şilhak anlayışı ilə əsərlərin məzmunu da

dəyişmişdir. Şilhak tərəfdarı olan Pak Ci-Von(1176-1800)un hanca ilə yazdığı "Yanqbancon" (Aristokratın Hekayəsi) adlı əsəri sosial ziddiyyətləri xırdalayan və tənqid edən dövrə aid bir tədqiqatdır.Hanqıl ilə yəni milli dildə yazılmış olan ilk roman Honqiltonqcon (Honqiltonqun Hekayəsi) dur. 1705-ci ildə Ho Qyun tərəfindən yazılmış bu romanın mövzusu bir vəzifəli məmurun evlilikdən kənar olan Honqiltonun qeyri- qanuni uşaqlara qarşı tətbiq edilən ayrı-seçkilik siyasətinə etiraz etmək üçün dəstə rəisi olmasıdır. Koreya romanının şah əsərlərindən Kim Man-Cungun (1637-1692) Buddhaciliktan ruhlanan "Quun monq"unu (Doqquz Buludun Yuxusu) da dövrə aid idealist bir romandır. Yenə eyni müəllifin nikahlı həyat yoldaşı ilə nikahsız həyat yoldaşı arasındakı mübarizəni anlatdığı "Saşinamconqi"sini (Sanın Cənuba Səfəri) qeyd etmək olar.

Krallığın ikinci yarısında "pansori"roman janrı canlanmışdır. Hekayələrin böyüyüb romanjanrı formasına çevrilməsi ilə yazıçılar, ümumi bir idealizm ilə müasir problemlərə daha əhatəli bir şəkildə toxunmuşlar.

"Çunhyangcon" (Çunhyangin Hekayəsi) Pansorinin roman sahəsinə daxil olduğunu göstərən dövrün realist romanının bir nümunədir. Bu romanda gənc bir zadəgan olan Nahardan Mongyong ilə məclislərdə şərab paylayanın qızı olan Çunhyang arasındakı məhəbbəti və ictimai maneələri necə dəf etdiyini izah edən bir əsərdir [4, s. 20].

Coson Krallığının ikinci dövründə Şico və Qasalar əvvəlki dövrə nisbətən daha uzun bir forma almış və mövzuları da şaxələnmişdir. "Qihenqasa" (Səfər Mahnısı), "Yubeqasa" (Sürgün Mahnısı) və qadın şairlərin yazdığı "Nebanqasa" (Otaq Mahnıları) dövrün mühüm qasalarıdır. 17-ci əsrdənəzmdən çox nəsr fəaliyyətinin artması səbəbindən Şico və Qasalar bu dövrdə yarı nəsr şəklində yazılmışdır. Həmçinin şico və qasa antologiyaları yaradılmışdır.

Ədəbiyyat siyahısı:

1. H. Köroglu, Kore edebiyatina genel bir bakis. Kayseri 2002
2. Ким В.Н., Пак И.Л., Сайдазимова У.Т. Литература страны изучаемого языка (Корея): учебное пособие.-Ташкент, 2009
3. İm Hyoncin, Kvon Donqcin, V.E. Həsənova, Koreya Ədəbiyyatı, BDU, Bakı 2012
4. Корейская классическая поэзия. Москва, 1956

Л.Гасанзаде
В.Гасанова

"Классическая Корейская литература"
Резюме

Автор статьи рассматриваются основные этапы и направления исследования этих связей как азербайджанскими, так и корейскими учеными, литераторами, видными общественными деятелями. В заключение подчеркивается, что такиевзаимосвязи способствуют дальнейшему укреплению и развитию не только литературных, но и, в целом, культурных связей между Азербайджаном и Кореей. В последние годы в республике переводиться довольно много художественных произведений на Азербайджанский язык непосредственна с иностранных языков. Этот процесс, видимо, найдет свое развитие и становление в будущем. Однако анализ показывает, что большое число переводов из других языков мира далек от современных требований, предъявляемых художественному переводы.

***L*.Hasanzade**
V.Hasanova

"Classical Korean Literature"
Summary

The author of article the main stages and directions of the study of these links are being studied by both Azerbaijani and Korean scientists, writers, prominent public figures.The article is devoted to the history of development and research of Azerbaijani-Korean literary relations, and studies basic stages and study methods of these relations both by Azerbaijani, and Korean scientists, writers and public figures. Here the main stages and directions of the study of these links are being studied by Azerbaijani and Korean scientists, writers, prominent public figures. It is concluded, that such interrelations promote the further strengthening and development of not only literary, but also cultural ties between Azerbaijan and Korean. In recent years quite a lot of art works have been translated into the Azerbaijani language directly from foreign languages. This process, apparently, will find its development and formation in the future. However, analysis shows that a large number of translations from other languages of the world are far from the modern requirements for artistic translations.

Rəyçi: Lüdmilla Səmədova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ZÜLQƏDDƏ ABDULKƏRİMLİ
Azərbaycan Dillər Universiteti
E-mail:zulgedde.abdulkarimli@gmail.com

UİLYAM BATLER YEYTS YARADICILIĞININ SİMVOLİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: Uilyam Batler Yeyts, simvolizm, okkultizm, mistisizm.
Key words: William Batler Yeats, symbolism, occultism, mysticism.
Ключевые слова: Уильям Батлер Йейтс, символизм, оккультизм, мистика.

Uilyam Batler Yeyts iyirmi yaşlarindaykən ağlında belə bir fikir formalaşmışdı: "Cəmiyyətlə ayaqlaş". Yeyts bu fikrin üstündə qalaraq qeyd edirdi ki, erkən yaşlarıma qayıtmaq şansım olsaydı bütün etdiklərimi bu məntiqlə sınaqdan keçirərdim.

Yeyts hesab edirdi ki, həyat və incəsənət ayrılmazdır. Aydındır ki, vəhdət halında götürsək onun həqiqət konsepsiyası və inamı belədir ki, simvollar bu həqiqətləri aşkara çıxara bilər. Öz şəxsi təcrübəsindən və bir sıra təfəkkür sistemlərinin sintezindən çıxış edərək Yeyts bu fikrini inkişaf etdirirdi. Müxtəlif növ üslubların birliyi gənc yaşlarından, irland hərəkatına cəlb olunduğu vaxtlardan bəri onun ideyalarında mühim yer tuturdu.

Yeyts poeziyasından istifadə edərək " birlik olmaq " ideyasını həyata keçirtməyə nail olmaq istəyirdi. Gənc yaşlarında Yeyts ümid edirdi ki, İrlandiyanın birliyi üçün onun ədəbiyyatını – nağıllarını, əfsanələrini toplamaq lazımdı və beləliklə o xalqını, xalqının keçmişini bir araya toplaya bilərdi. Nə zamankı bu təşəbbüslər uğursuzluqla nəticələndi, " Birlik " ideyası şəxsi mənada onun bilavasitə marağına çevrildi. İrland mifalogiyasında sintezlər apararkən Yeyts okkultizmlə maraqlanmışdı və bir sıra xüsusi okkultizm təlimlərinə cəlb edilmişdi. Əlaqəli şəkildə digər incəsənət nümayəndələrinin və filosofların asərləri və nəzəriyyələri ilə tanış olurdu. Bu ideyaların bəziləri tədricən onun fikirləri ilə bütövləşərək özünkiləşirdi. Nəhayət nadir, şəxsi simvolik sistem ortaya çıxdı. Yeytsin görüşləri və cəhdləri həqiqəti simvolizmə əsaslanaraq gözdən keçirtməyi irəli sürürdü.

Gənc adam kimi Yeyts maraqlarının əsasən üç istiqamətdə olduğunu yazırdı: " ədəbiyyat sahəsində, fəlsəfə sahəsində və milliyətçilik inancı " .

Ronslinin qeydlərindən çıxış edərək deyə bilərik ki, Yeytsin İrlandiyaya olan sevgisi, daim onun birliyinə can atması onun Sligada keçən uşaqliq xatirələrinə dayanır. Körpə uşaq kimi o, tez- tez nənəsini müşahidə edirdi. Nənəsiylə burada vaxt keçirən Yeyts onunla bu sahillərdə dolaşardi və vaxtının çoxsunu xidmətçilərlə keçirməyi üstün tutardı. Beləliklə Yeyts

xidmətçilərin danışdığı hekayələrə heyran qalırdı. “ Bütün tanınmış ailələrin ya gülməli, ya romantik, ya daki faciəvi əfsanələri vardı ”. Yeyts bütün bu hekayələri eşitmişdi. Vizual hekayələr, peyğəmbərlik xülyaları, yüksək təbəqə üçün heç bir önəmi olmayan qulluqçular – bütün bunlar onun gündəlik təcrübələrinin tamamını təşkil edirdi.Eyni zamanda onun qohumlarının İrlandiya həsrəti onların İngiltərəyə olan ikrah hissi Yeyts tərəfindən müşahidə edilmişdi. Nə zamankı Yeytsin ailəsi 1875 – ci ildə Londona köçdü, o ilk baxışda təcrübə etdi ki, vətəni ilə İngiltərə arasında böyük uçurumlar var. Və bu uçurumlar sonralar onun həyatının hər bir sahəsində özünü göstərirdi. Yeyts İngiltərə mədəniyyətini və tarixini rədd edirdi. Rousle qeydlərində bildirir ki, Yeyts İrlandiyanın İngiltərə hakimiyyətindən azad şəkildə “ Dublin Çağdaş Klubunda ” (haradakı adətən siyasət məsələləri müzakirə olunurdu və onun nümayəndələri arasında milliyətçilik ruhu yüksək idi) tanış olduğu Con O ` Liarin təsiri ilə ciddi istiqamət götürməyini istəyirdi. Rosli qeyd edirdi ki, Yeyts ilk başlarda utanqaclığını aradan qaldırmaq üçün qrup müzakirələrində iştirak edirdi. O` Liarin dinamik şəxsiyyəti və idealizmi Yeytsi cəzb edirdi və beləliklə Yeyts hərəkatın aktiv iştirakçısına çevrilməyə başladı. Bundan sonrakı dövrlər ərzində də Yeyts poeziyasından istifadə edərək dostları ilə birlikdə irland azadlıq hərəkatına daim dəstək vermiş və hər zaman vətəninin müdafiəsində durmuşdu. İlk zamanlarda hərəkat qismən uğurlu olsa da sonradan Yeyts və hərəkatın nümayəndələri jurnalist və yazıçılardan istədiyi dəstəyi ala bilmədi. Get- gedə hərəkat uğursuzluğa düçar oldu. Hərəkatın uğursuzluğa düçar olmasi əlbəttə ki, buna öz enerjisini, öz güclərini sərf etmiş şəxslər üçün məyusluq idi. Rosli öz qeydlərində bildirirdi ki, Yeyts hərəkatın uğursuzluğuna münasibətini 1901 – ci ildə öz gündəliyində yazırdı. Yeyts xatırladırdı ki, “ hərəkat qəsdən təsəvvürlərdəki müqəddəs şəhərin yaradılmasından və ya irland beyinlərinə oturmuş müqəddəs Greldən imtina etməlidir və biz gördük ki, fərdi izah etmək üçün məzmun olmalıdır”. Bolgerin də qeyd etdiyi kimi Yeytsin həyatının qalan iyirmi üç ili boyunca irland kimliyi mövzusuna marağı dəyişməz qaldı. Onun əsasən üç istiqamətdə olan maraqlari sona qədər də belə davam etdi.

Yeytsin “ Birlik olmaq ” ideyası istiqamətində inkişaf edən “ milliyətçilik inancı ” və bunlarla əlaqədar hadsisələr onun simvolist şair kimi inkişaf etməsinə kömək edirdi. O, Ballisodoru ətrafındakı sahillərdə buradakı xalq tərəfindən eşitdiyi nağıllar və hekayələrdən ovsunlanmışdı. Yeyts deyirdi: “ Mən ağlıma inanmırdım ” “ Amma mən hisslərimə və ölkə insanlarının inancına inanırdım ”. Onun əsasən marağı xalq adət - ənənələrinə idi və fövqəltəbii yetişkənliyi onun simvolist şair kimi inkişafına böyük təkan verdi. Bütün bu təsirlər onun okkultizmlə maraqlanmasına yol açdı.

1901 – ci ildə Yeyts “ Sehr ” - i (Magic) yazdı. Mən bizim tərəfimizdən sehr adlandırılan şeyin təcrübəsinə və fəlsəfəsinə inanıram; nəki mən onu ruhların çağırılması adlandırmalıyam, baxmayaraq ki, onların nə olduğunu dəqiq bilmirəm. Sehirli illuziyaların yaradılması gücündə, həqiqəti görməkdə, ağlın dərinliklərində nə zamanki gözlər bağlıydı, mən qədim zamanlardan bəri yaradılmış və bütün sehirli təcrübələrin əsasını təşkil edən üç prinsipin olduğuna inanırdım. Bu prinsiplər aşağıdakılardır:

1) Ağlımızın sərhədləri dəyişkəndir, bir fikirdən başqa fikrə keçə bilərik. Bildiyimiz kimi tək bir fikir, tək bir enerji yaradaraq aşkara çıxarda bilərik.

2) Xatirələrimizin sərhədləri dəyişkəndir; və bu xatirələrimiz böyük bir yaddaşın, təbiətin yaddaşının bir parçasıdır.

3) Bu böyük yaddaş simvollardan yarana bilər.

Yeytsin bu “ böyük yaddaş ” a olan inancı onun “ Sehr ” (Magic) əsərində diqqətlə izah olunub.

1889 – 90 – cı illərdə Yeyts yazır: mən və tanışım “ sirli bir hadisəyə şahid olmuş ” adamin evinə dəvət edildik. “ Həmin şəxs səsləndi və Yeyts davam edir, demək olar ki, bu hadisədən mənim mənim təsəvvürlərim hərəkətə gəlir və məni beynimdə öncədən mövcud olan canlı təsəvvürlərə gətirir, onların hərəkəti, həyatı hansı ki, mən nə dəyişə, nə də formalaşdıra bilərəm ”. Onlar birlikdə bir – neçə hadisəyə şahid oldular və Yeyts bunlara qarışıq hisslərlə reaksiya verdi. Yeyts guman edirdi ki, bu illuziyalarin hamısı onun beyninin məhsulu deyil, ola bilsinki bu gormələrdə həmin şəxsin də təsiri var. Bunlar birlikdə onlarin hər ikisinin beyninin məhsuludu. “ Yeyts hələdə bu görmələri daha çox təsəvverlərin üstünlüyünün sübutu, bir olan çoxlu beyinlərin gücü, nitqi ilə birinin digərinə qəsdi, onların tək qaldığları andakı sözsüz düşüncələri, gərgin, tərəddüdsüz enerji kimi qəbul edirdi.” Baş verən hadisələr Yeytsə fikirlərini yenidən nəzərdən keçirtməyə səbəb verdi. Bir dəfə Yeyts keçid vəziyyətində olduğu zaman həyat ağacı görən gənc bir qadını müşahidə etdi. Evə qayidandan sonra Yeyts Gizli Sirr (Concealed Mystery) kitabında Xeyir və Şər ağacından bəhs edən hissə tapdı, hansı ki, Yeyts bu zamana qədər bu hissəni oxumadığını deyir. Bu hadisədən sonra Yets bu dəfə öncəki hadisəyə bənzər, dağın təpəsində divarla əhatələnmiş bağdakı simvolik agacı nəzərdən keçirən keçid vəziyyətində olan gənc adam gördü. Yeyts bu vəziyyəti belə izah edirdi: Təbiət simvolları və keçmişdə baş verən hadisələri aşkara çıxara bilən yaddaşa malikdir. Onun açıqlamaları biliyindən güc alırdı və Yeyts bu məsələdə tək deyildi.Yetsin bu yöndə inancı beləydi:

Bir – çox ölkələr və əsrlərin mistikləri bu yaddaşın varlığına inanıb, ondan bəhs ediblər. Dürüst insanlar və şarlatanlar bu sirli adət - ənənələri

saxlayıb, bu adətlər bir gün folklor nümunələrinin bir parçası kimi öyrəniləcək. Onların iddialarının əsas təməli bu yaddaşla əlaqədardır. Mən Paracelsus və bəzi Hindistan kitablarında bu adətlərlə yaşayan xalqlar haqqında oxumuşam: " Düşün və əməl et " . Bu fikri mən Uilyam Bleykin öz təsəvvürlərini Los Holun parlaq heykəlləri adlandırdığı "Kəhanət kitabları"-da (Prophetic books) kitabında tapdım. Bleyk qeyd edir: bütün bu hadisələr, " sevgi hekayələri " bu təsəvvürlər vasitəsiylə özlərini yeniləyirlər.

Baxmayaraqki bu uzun zaman öncəydi, Yeyts simvolların gücünü etiraf edirdi. Şəxsi düşüncəsi olan böyük yaddaşın kəşfi nəhayət ki, onun simvolist movqeyinin inkişaf strukturunda mühüm rol oynadı. Rajanın notlarından aldığımız məlumata əsasən Yeyts simvolları belə hesab edirdi: " bütün güclərin ən nəhəngi " təbiətin öz yaddaşını oyada bilməsinə qadirdir.

Ədəbiyyat:

1.Cleeve, Brian (1972). W. B. Yeats and the Designing of Ireland's Coinage. New York: Dolmen Press. ISBN 0-85105-221-5
2.Finneran, Richard. Yeats: An Annual of Critical and Textual Studies 1995. University of Michigan Press, 1997. 82
3.Harper, George Mills, ed. (1975). Yeats and the Occult. Macmillan of Canada and Maclean-Hunter Press. ISBN 0-7705-1308-5
4.Jordan Anthony J. (1997). Willie Yeats & The Gonne-MacBrides. Westport Books ISBN 0-9524447-1-2
5.Jeffares, A Norman (1968). A Commentary on the Collected Poems of W. B. Yeats. Stanford University Press. ISBN 0-8047-0661-1
6.Logenbach, James. Stone Cottage: Pound, Yeats, and Modernism. Oxford: Oxford University Press, 1988. 13–14
7.Nobel Prize in Literature 1923". NobelPrize.org. Retrieved 7 December 2014
8. W. B. Yeats, Autobiographies (1956), p. 12. London: Macmillan.

İnternet:
9.https://www.poetryfoundation.org/poets/william-butler-yeats
10.https://www.irishcentral.com/roots/wb-yeats-and-the-muses-110436429-23772779

З.Абдулкаримли

Эстетические особенности творчества Уильяма Батлера Йейтса

Резюме

Данная статья посвящена символическим особенностям творчества Уильяма Батлера Йейтса. В статье исследуются символические особенности работ Йейтс. Уильям Батлер Йейтс- ирландский поэт и один из виднейших деятелей культуры 20-го века. Будучи поэтом-символистом, он использовал символические образы и символические структуры на протяжении всей своей творческой деятельности. Уильям Батлер Йейтс был одним из величайших англоязычных поэтов 20-го века, а в декабре 1923 года Йейтс был удостоен Нобелевской премии по литературе «за его всегда вдохновленную поэзию, которая в высокохудожественной форме выражает дух целой нации ".

Йейтс обычно считается одним из ведущих англоязычных поэтов двадцатого века. Он выбрал слова и собрал их так, что помимо конкретного значения, они предполагают абстрактные мысли, которые могут показаться более значимыми и резонансными. Использованные ими символы обычно являются чем-то физическим. В отличие от других модернистов, экспериментировавших со свободным стихом, он был мастером традиционных форм. Влияние модернизма на его творчество проявляется во всё большем отказе от более условно поэтической дикции его раннего творчества в пользу более строгого языка, который все больше характеризует поэзию и пьесы среднего периода.

Z.Abdulkarimli

The symbolic features of William Butler Yeat's creative work

Summary

This article is about symbolic features in the William Batler Yeat's creativity. In this article the symbolic features of Yeat's works were investigated. William Butler Yeats was an Irish poet and one of the foremost figures of 20th century literature. A pillar of both the Irish and British literary establishments. He was a Symbolist poet, using allusive imagery and symbolic structures throughout his career. He helped to found the Abbey Theatre, and in his later years served as an Irish Senator for two terms.

William Butler Yeats was one of the greatest English-language poets of the 20th century and in December 1923, Yeats was awarded the Nobel Prize in Literature, "for his always inspired poetry, which in a highly artistic form gives expression to the spirit of a whole nation".

Yeats is generally considered one of the twentieth century key English language poets. He chose words and assembled them so that, in addition to a particular meaning, they suggest abstract thoughts that may seem more significant and resonant. His use of symbols is usually something physical that is both itself and a suggestion of other, perhaps immaterial, timeless qualities. Unlike other modernists who experimented with free verse, Yeats was a master of the traditional forms. The impact of modernism on his work can be seen in the increasing abandonment of the more conventionally poetic diction of his early work in favour of the more austere language and more direct approach to his themes that increasingly characterises the poetry and plays of his middle period.

Rəyçi: Xuraman Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ZEYNƏB ALLAHVERDİYEVA
ADPU
zeyneb.allahverdiyeva@box.az

ƏDƏBİYYAT VƏ VƏTƏNPƏRVƏRLİK

Açar sözlər: vətənpərvərlik, mənəvi və estetik dəyərlər, ədəbiyyat və tərbiyə, milli özünüdərk, bədii əsərlər,
Key words: patriotism, moral and esthetic values, literature and education, national self-esteem, artistic works
Ключевые слова: патриотизм, моральные и эстетические ценности, литература и образование, национальная самооценка, художественные работы

Ədəbiyyatın insan şəxsiyyətinin formalaşmasında çox böyük təlim-tərbiyəvi əhəmiyyəti var. Təsadüfi deyil ki, ədəbiyyat –"ədəb", "mərifət" sözündən götürülmüşdür. Onun birinci vəzifəsi insanı tərbiyə etməkdir. İnsanın başqalarına münasibətində, dünyagörüşünün inkişaf edib formalaşmasında, özünüdərk etməsində, layiqli vətəndaş kimi tərbiyə olunmasında ədəbiyyat mühüm bir vasitədir.

Bədii ədəbiyyat müasir cəmiyyətin özünüdərkini formalaşdırır. Lakin bədii əsərin tərbiyə potensialı öz-özünə deyil, ilk növbədə ədəbiyyat dərslərində formalaşır. Şagirdlər ədəbiyyatdan müxtəlif dərslərdə, məşğələlərdə müstəqil mütaliə vasitəsilə müəyyən mənəvi və estetik dəyərlər sisteminə yiyələnirlər. Ədəbiyyat dərslərində tərbiyə vəzifələrini müxtəlif cür qruplaşdırmaq olar ki, bunların da bir neçəsini sadalayaq:

- vətənpərvərlik tərbiyəsi, gənc nəsildə milli birlik hissinin formalaşdırılması;
- ana dilinə sevgi, ana dilini dəyərləndirmək və qorumaq hissinin aşılanması;
- əməyə məhəbbət, əməkçi insana hörmət hissi tərbiyəsi;
- milli və ümumbəşəri mənəvi dəyərlər aşılanması və.s.

Şagirdləri vətənpərvərlik ruhunda tərbiyə etmək, ucsuz-bucaqsız vətənimizə, onun rəngarəng təbiətinə, əsrarəngiz gözəlliklərinə və böyük qüdrətinə məhəbbət yaratmaq işi bütün fənlərdən daha çox yuxarıda da qeyd olunduğu kimi ədəbiyyat dərslərinə aiddir. Əgər hər hansı bir xalqın keçmişi, düşmənə qarşı inadlı mübarizəsi, onun həyat və məişət tərzi tarix dərslərində öyrədilirsə, onun bədii lövhələr şəklində inikası ədəbiyyat dərsləri ilə mümkün olur. Fikrimizi daha da dəqiqləşdirmək üçün belə bir nümunə verək.Tutaq ki, şagirdlər ərəblərin doğma vətənimiz olan Azərbaycanı işğal

etməsini tarix dərslərində öyrənirlər. Babək haqqında da müəyyən məlumat alırlar.

Şagidlər həmin dövr haqqında nə qədər mükəmməl bilik əldə etsələr belə, yenə ərəblərin işğalı və Babəkin qəhrəmanlığını təxəyyüllərində dumanlı şəkildə canlandıracaqlar. Lakin bu dövr haqqında yazılmış "Od gəlini " əsərini oxuduqdan sonra şagirdlər ərəb işğalı və Babəkin qəhrəman surətini sanki şahidi olduğu bir hadisə kimi təsəvvür edirlər. Babəkin müəzzəm və sarsılmaz xarakteri onların gözü önündən çəkilmir. Çünki böyük dramaturq tarixi hadisələri təhrif etmədən canlı həyat materialını bədii lövhələr şəklində əsaslandırmışdır. Məhz buna görədir ki, şagirdlərdə vətənpərvərlik ideyalərını qüvvətləndirmək üçün bədii ədəbiyyatdan geniş istifadə edilir.

Vətən mövzusu hələ yazılı ədəbiyyatın olmadığı bir dövrdə şifahi xalq yaradıcılığında öz dərin ifadəsini tapmışdır. Atalar sözləri, bayatılar, mahnılar, dastanlarda vətənə məhəbbət şəxsiyyətin başlıca keyfiyyətlərindən biri kimi tərənnüm edilmişdir.

Ədəbiyyat dərslərində vətənə məhəbbət və sədaqət, öz millətinə, onun dilinə, dəyərlərinə, mədəniyyətinə hörmət hissi tərbiyəsi müxtəlif yollarla həyata keçirilir:

1.sənətkarın şəxsiyyəti, həyat yolu, vətənpərvərliklə bağlı fikirlərin öyrənilməsi;

2.bədii əsərin öyrənilməsi zamanı vətənpərvərlik tərbiyəsi imkanlarının həyata keçirilməsi;

3.vətənpərvərlik mövzusunda əsərin sinifdənxaric oxusunun təşkili;

4.vətənpərvərlik mövzusunda əsərlər üzrə ədəbi-bədii kompozisiyalar, kitab müzakirələri, disputlar, inşa yazı müsabiqələri və.s. sinifdənxaric işlərin təşkili.

Tərbiyə işi uzunmüddətli prosesdir və bu işin nəticələrinin üzə çıxması uzun zaman tələb edir. Gənc nəslin bədii ədəbiyyatla tərbiyəsini, xüsusilə vətənpərvərlik tərbiyəsini ara-sıra deyil, sistemli şəkildə aparmaqla həyata keçirmək mümkündür.

Yeni tələblərlə hazırlanmış Ədəbiyyat dərsliklərində yuxarıda qeyd olunan xüsusiyyətlər hamısı öz əksini tapmışdır. Nümunə olaraq 6-cı sinif Ədəbiyyat dərsliyini göstərə bilərik. Belə ki, burada şagirdlərə vətənpərvərlik ruhu, tərbiyəsi aşılayan xeyli sayda bədii əsərlər göstərə bilərik ki, bunların da bir qismini lirik şeirlər təşkil edir. M.Araz "Azərbaycan-dünyam mənim", Ə. Kürçaylı "Vətən", X.R.Ulutürk "Gerbimiz-qəlbimiz" kimi şeirlərində vətəndaşlıq mövqeyindən çıxış edərək şagirdlərdə və ümumən insanlarda güclü vətəndaşlıq keyfiyyətləri, milli özünüdərk formalaşdırmağa çalışmışlar.

M.Araz " Azərbaycan-dünyam mənim"

Standartlar:

1.1.5 Əsərdə təsvir vasitələrini müəyyənləşdirir.

1.2.3 Əsərdəki təsvir vasitələrinin rolunu izah edir.

1.2.4 Əsərin ideyasını müəyyən edir, əsaslandırılmış münasibət bildirir.

2.2.1 Yoldaşlarının fikrindən faydalanır.

İş forması: Böyük qruplarla iş

İş üsulu: əqli hücum, suallar, diskussiya

Dərsin tipi: induktiv

Resurslar: Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. (Müəlliflər: Afət Süleymanova, təranə Bağırova) Bakı,2015, səh68-69

Dərsin mərhələləri:

1. Motivasiya.....3 dəq.
2. Tədqiqat aparılması.....12 dəq.
3. Məlumat mübadiləsi.....8 dəq.
4. Məlumatın müzakirəsi.....10 dəq.
5. Nəticə və ümumiləşdirmə.....5 dəq.
6. Yaradıcı tətbiqetmə.....4 dəq.
7. Qiymətləndirmə.....3 dəq.

Cəmi: 45 dəq.

1.Motivasiya. Bu mərhələdə şagirdlərə görkəmli Azərbaycan və sovet opera və estrada müğənnisi Müslüm Maqomayevin "Azərbaycan " mahnısını dinlədirəm. Daha sonra şagirdlərə müraciət edirəm.

- Siz bu musiqini dinləyərkən hansı hissləri keçirdiniz?

Şagirdlərdə Vətənə qarşı hədsiz məhəbbətin, sevginin mövcudluğunu, vətənpərvərlik duyğularının cuşa gəlddiyini aşkar şəkildə müşahidə edirəm.Şagirdlər Vətəni qorumaq və onun müqəddəsliyi, vətəndaşlıq borcu haqqında maraqlı fikirlər söyləyirlər.

2.Tədqiqatın aparılması: Bu mərhələdə böyük qruplarla iş aparıram. Şagirdlərə vərəqlər paylanır və hər bir qrupun sualı üzərində qeyd olunur.

VƏTƏN qrupu: Azərbaycan dünyasından dünyaya baxsan, nə görərsən?

ANA qrupu:

" Azərbaycan-mayası nur, qayəsi nur ki,
Hər daşından alov dilli ox ola bilər."

Bu ifadələr reallığı nə dərəcədə əks etdirir?

YURD qrupu:

" Oğulları Kür gəzdirər biləklərində,
Oğulların göz atəşi gözəl əridir."

Bu misralarda hansı bədii ifadə vasitələrindən istifadə edilmişdir?

Hər sıranın tapşırığı necə icra edəcəklərinə dair məlumat verirəm. Tədqiqatın aparılacağı müddəti elan edirəm.

3.Məlumat mübadiləsi: Tədqiqat üçün ayrılmış vaxt bitdikdən sonra tapşırığın icrasının başa çatdığını bildirirəm. Bundan sonra şagirdlər informasiyanın təqdimatına başlayır, əldə etdikləri yeni məlumatları digər iştirakçılarla bölüşürlər.

4.Məlumatın müzakirəsi: Bu mərhələdə əsas məqsəd yeni əldə edilmiş informasiyanı sistemləşdirmək və qrupların hazırladıqları təqdimatlar arasındakı əlaqəni üzə çıxarmaqdır. Bu mərhələdə həmçinin köməkçi suallardan istifadə etməklə əldə olunmuş faktların məqsədyönlü müzakirəsi təşkil edilir.

5.Nəticə və ümumiləşdirmə: Şagirdlərin köməyi ilə əldə olan bilgiləri ümumiləşdirir, və belə nəticəyə gəlirik ki, vətəni öz canı kimi sevmək, onu qorumaq hər bir kəsin mənəvi borcudur. Müəllif də məhz vətəndaşlıq mövqeyindən çıxış edərək bu hissləri insanlara aşılamaq istəmişdir.

6.Yaradıcı tətbiqetmə: Şeiri oxuyarkən təsəvvüründə canlandırdığın Azərbaycan mənzərəsi ilə bağlı esse yaz.

7. Qiymətləndirmə və ya refleksiya:

MEYARLAR	**VƏTƏN**	**ANA**	**YURD**
İdeyanın müəyyənləşdirilməsi			
Mövzunun mənimsənilməsi			
Yaradıcılıq			
Ideyaya münasibət			
Əməkdaşlıq			

İstifadə olunmuş ədəbiyyat:

1.Bilal Həsənli “Ədəbiyyatın tədrisi metodikası” “Müəllim” nəşriyyatı Bakı, 2014
2.F.Yusifov “Azərbaycan ədəbiyyatının tədrisi metodikası” Bakı,2017
3.C.Əhmədov “Ədəbiyyat tədrisi metodikası” “Bakı Universiteti Nəşriyyatı” 2007
4.Ş.Mikayılov “Orta məktəbdə ədəbiyyat tədrisi” II hissə Bakı, Maarif 1976

З.Аллахвердийева

Литература и патриотизм

РЕЗЮМЕ:

Одной из основных проблем, стоящих перед учебным процессом литературы, является единство образования и воспитания. Литературная литература играет важную роль в обучении современного молодого поколения независимого Азербайджана как гражданина высоких интеллектуальных, национальных и общечеловеческих ценностей как демократической продуманной, творческой личности. Пропаганда патриотизма в преподавании соответствующих предметов в уроках литературы. Чувство любви к родине является основой воспитания. Все остальные качества начинаются с этого основания и распространяются. Чтобы привить это чувство учеников, выражения, слова, поэтические слоги должны интерпретироваться и интерпретироваться с высоким мастерством. Эти качества отражены в учебниках литературы, подготовленных с новыми требованиями. Таким образом, ученики получают активное гражданство через эти работы.

Z.Allahverdiyeva

Literature and patriotism

Summary

One of the major challenges facing the teaching process of the literature is the unity of education and upbringing. Literary literature plays an important role in educating the modern young generation of independent Azerbaijan as a citizen of high intellectual, national and universal values, as a democratic thoughtful, creative personality. Propaganda of patriotic education in the teaching of relevant subjects in literature lessons should be emphasized. The feeling of love for the motherland is the basis of upbringing. All other qualities start from this foundation and spread. In order to instill this sense of pupils, expressions, words, poetic syllables should be interpreted in a clear way. These qualities are reflected in the literature textbooks prepared with new requirements. Thus, pupils gain an active citizenship position through these works.

Rəyçi: Sədaqət Hüseynova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

DƏRYA ƏLİYEVA
ADPU
derya.eliyeva1995@gmail.com

DRAMATİK ƏSƏRLƏRİN FƏAL/İNTERAKTİV METODLARLA TƏDRİSİ

Açar sözlər: fəal/interaktiv təlim, dram əsərlərinin tədrisi, fəal dərsin mərhələləri, "Müsibəti-Fəxrəddin", məzmun üzrə iş
Ключевые слова: активное/интерактивное обучение, преподавание драматических произведений, активные этапы урока, "Мюсибати-Фахраддин", работа с содержанием
Key words: Active / interactive training, teaching of dramatic works, active stages of the lesson, "Mushibasi-Fakhraddin", content work

Müasir cəmiyyətin inkişafı təhsilin qarşısında ciddi tələblər qoyur. Bu tələblərdən irəli gələn zərurət əsasında həyata keçirilmiş təhsil islahatına görə halhazırda fəal/interaktiv təlimdən istifadə olunur. Bu təlim bir çox xüsusiyyətlərinə görə ənənəvi təlimdən fərlənir. Ənənəvi təlim şagirdə yalnız geniş informasiya verməyi öyrədirdisə, fəal təlim şagirdə bu informasiyanı əldə etməyin yollarını öyrədir. Həmçinin ənənvi təlimdə şagird obyekt kimi çıxış edirdisə, fəal təlimdə o, subyekt kimi çıxış edir. Burada müəllim istiqamətverici, şagird isə tədqiqatçı kimi çıxış edir. Fəal təlim məqsədyönümlü xarakter daşıyır və onun məqsədi yüksək mənəvi və idraki keyfiyyətlərə malik olan şəxsiyyət formalaşdırmaqdır.

Təhsil islahatı əsasında tədris olunan hər bir fənn üzrə ayrıca kurikulumlar hazırlanmışdır. Eləcə də, "Azərbaycanın dövlət müstəqilliyi əldə etməsi, uğurla həyata keçirilən təhsil islahatı orta ümumtəhsil məktəblərində ədəbiyyat tədrisinə, onun məqsəd və vəzifələrinə, forma, üsul və metodlarına yeni yanaşmanı zəruri etmişdir." (2, 9) Ədəbiyyat fənni üzrə hazırlanmış kurikulumun giriş hissəsində fənnin məqsəd və vəzifələri, xarakterik xüsusiyyətləri qeyd olunur. Daha sonra fənnin məzmunu, təlim strategiyaları və şagird nailiyyətlərinin qiymətləndirilməsi bölmələri yer alır. Fənnin məzmununa ümumi təlim nəticələri, məzmun xətləri, məzmun xətləri üzrə təlim nəticələri və məzmun standartları daxil edilir. Ümumi təlim nəticələri şagirdlərin tədrisin sonunda qazanmış olduğu bilik və bacarıqları ifadə edir. Ədəbiyyat fənni üzrə məzmun xətlərinə isə ədəbiyyat və həyat həqiqətləri, şifahi nitq və yazılı nitq aiddir. Bu məzmun xətləri üzrə hər bir sinif üçün əsas və alt standartlar müəyyənləşir.

Ədəbiyyatın fəal metodlarla tədrisində mövzuları bu cür qruplaşdıra bilərik: "1. Tərcümeyi-hal materiallarının tədrisi; 2. Nəsr əsərlərinin tədrisi; 3. Lirik əsərlərin tədrisi; 4. Dramatik əsərlərin tədrisi; 5. İcmal mövzuların tədrisi." (4, 46) Bunlardan dramatik əsərlərin fəal/interaktiv metodlarla tədrisinə nəzər salaq. Dramatik əsərlərin fəal metodlarla tədrisi zamanı bir sıra xüsusiyyətlərə nəzər salmaq lazım gəlir. Bu xüsusiyyətlər dramativ növün mahiyyətindən, özünəməxsusluğundan irəli gəlir. "...dramatik növün təbiəti dərsdə rəngarəng iş növlərinin, metod və priyomların tətbiqini tələb edir." (1, 150) Müəllim dramatik əsərin tədrisini planlaşdırdığı zaman nəzərə almalıdır ki, burada obrazların xarakteri, müəllifin ideyası məhz surətlərin danışığında aydın olur. Obrazların xarakterini, müəllif ideyasını müəyyənləşdirmək bütün şagirdlər tərəfindən eyni dərəcədə mümkün olmur. Tədrisin keyfiyyətli olması üçün müxtəlif iş üsullarından, metod və priyomlardan, texniki vasitələrdən istifadə zərurətə çevrilir. Bu üsullar və texniki vasitələr mövzudan və onun tədris imkanlarından asılı olaraq uyğun şəkildə seçilməlidir. Dramatik əsərlərin dinamikliyi iş üsullarından rəngarənglik, əyaniliyi isə texniki vasitələrin geniş tətbiqini tələb edir. Məhz texniki vasitələrin köməyi ilə dram əsərlərini göz önündə nümayiş etdirə, dram əsərlərinin xüsusiyyətləri, əsərdəki obrazların daxili və zahiri görüntüsü haqqında şagirdlərdə daha dəqiq və dolğun fikir formalaşdıra bilərik. Texniki vasitələrdən həm dram əsərlərinin oxusunda, əsərin məzmununun öyrənilməsində, əsərin təhlilində, həm də ayrı-ayrı obrazların səciyyələndirilməsində istifadə edə bilərik.

Dərs nümunəsi olaraq 10-cu sinifdə tədris olunan Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərinin tədrisinə nəzər salaq. Bu əsərin tədrisinə dörd saat vaxt ayrılmışdır. Dörd saatın ikisi onun məzmununun öyrənilməsinə həsr olunub. Əsərin məzmununun mənimsənilməsi üçün birinci dərsə nəzər salaq. Bunun üçün ilk növbədə mövzunun tədrisinin planlaşdırılması lazımdır:

Mövzu: N.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsinin məzmunu üzrə iş

Məqsəd: 1) N.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərinin məzmununun mənimsənilməsi; 2) Əsərin ideyası haqqında ilkin təsəvvürün formalaşdırılması; 3) Şagirdlərin ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi

Standartlar: 1.1.2. Ədəbi nümunələrin oxusunda emosionallıq nümayiş etdirir, 2.2.1. Müzakirələrdə mövzu ilə bağlı topladığı materiallar əsasında çıxış edir, 3.1.3. 3-4 səhifə həcmində təsviri, mühakimə xarakterli mətnlər (inşa, esse, hekayə) yazır.

Dərsin tipi: induktiv

İş forması: kiçik qruplarla və kollektivlə iş

İş üsulları: açar sözlər, esse

İnteqrasiya: tarix, incəsənət

Resurslar: dərslik, iş vərəqləri, əyani vəsaitlər, proyektor, elektron lövhə.

Motivasiya: M.F.Axundovun "Müsyo Jordan və Dərviş Məstəli şah" əsərini, A.Bakıxanov, H.Zərdabi, C.Məmmədquluzadə "Molla Nəsrəddin"inin adlarını yazıb sxem şəklində veririk. Onları birləşdirən cəhəti ifadə edən sözü sualla əvəz edirik. Artıq maarifçilik haqqında əvvəlki dərslərdən məlumat almış şagirdlər bu sənətkarları və əsərləri birləşdirən sözün maarifçilik olduğunu tapırlar. Dərsimiz N.Vəzirov olduğuna görə sinifə belə bir sualla müraciət edirik: "Bəs N.Vəzirovun maarifçilik ideyalarını təbliğ edən hansı əsərləri var?" Şagirdlər onun maarifçiliyin təbliğinə həsr olunmuş əsərinin "Müsibəti-Fəxrəddin" olduğunu tapırlar.

Mövzunu elan edirik: N.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərinin məzmunun öyrənilməsi. Daha sonra tədqiqat sualını qoyuruq: Xalqı nadanlığın buxovlarından qurtarmaq üçün nə etmək olar? Şagirdlər müxtəlif cavablar verirlər. Cavabların doğruluğunu müəyyənləşdirmək üçün "Müsibəti-Fəxrəddin" əsərinin oxusunu təşkil edirik.

Bundan sonra şagirdləri dörd qrupa bölürük. Əsərin birinci və ikinci məclislərini dörd hissəyə bölərək qruplara oxumağı tapşırırıq. Bu artıq tədqiqatın aparılması mərhələsidir. Bu mərhələdə şagirdlər özlərinə tapşırılmış hissələri oxuyurlar. Onlar başa düşürlər ki, bu adi oxu deyil. Yəni bu oxu tədqiqat sualının cavablandırılmasına yönəldilib. Şagirdlər əsərin oxusunu müxtəlif şəkildə həyata keçirə bilərlər. Onlar əsərin parçalarını növbəli şəkildə hissələrlə yaxud bir şagird oxuyub digərləri dinləməklə oxuya bilərlər.

Əsəri oxuyub bitirdikdən sonra dərsin məlumat mübadiləsi mərhələsi gəlir. Bu mərhələdə artıq şagirdlər əldə etdikləri məlumatları bütün siniflə paylaşırlar. Əsərin məzmununun öyrədildiyi dərsdə bu iş məzmunun şagirdlər tərəfindən hissə-hissə deyil, bütövlükdə qavranılmasının təşkilini tələb edir. Buna görə də hər qrupdan bir şagird seçilir və onlar özlərinə aid olan hissənin məzmununu danışırlar. Beləliklə, bütün şagirdlər əsərin məzmununu mənimsəmiş olurlar.

Məlumatın müzakirəsi və təşkili mərhələsində isə əldə olunmuş məlumatlar müzakirə olunur, əsas diqqət tədqiqat sualına yönəlir. Bu mərhələdə müəllimin verdiyi istiqamətləndirici suallar da mühüm rol oynayır. Məsələn, müzakirə zamanı şagirdlərə bu suallarla müraciət edirik: 1) Rüstəm bəyin monoloqundan nə aydın olur və o, nökərlərini çağırıb hansı işi planlaşdırır? 2) Mahmud bəy atasına nə üçün etiraz edirdi? 3) Gülbahar və Səadət xanım Rüstəm bəyin niyyətini bildikdə necə hərəkət edirlər? 4) Hürü nənə Fəxrəddinin yanına niyə gəlmişdi? 5) " Dnyanın hər bir işi cəngi-məğlubədir; amma vəhşi nadanlıqla cəng etmək mümkün deyil. Neyləmək? Çünki oldu dəyirmançı, çağır gəlsin dən Koroğlu..."deməklə nəyi nəzərdə tuturdu? 6) Fəxrəddinin gələcək niyyəti nə idi? 7) Fəxrəddin Rüstəm bəyin niyyətini bildikdən sonra necə davranır? və s.

Əldə olunmuş məlumatlar müzakirə olunduqdan sonra şagirdlər əsərin məzmununu mənimsəməklə bərabər onun ilkin ideyası haqqında da ilkin təsəvvürləri formalaşdırmış olurlar.

Ümumiləşdirmə mərhələsində isə tədqiqat sualına verilmiş cavablar ümimiləşdirilir. Yəni şagirdlər Fəxrəddinin simasında xalqı nadanlıqdan xilas edəcək insanı görürülər və onun atdığı addımlar da məhz bu yolda atılan ən gözəl nümunədir. Şagirdlər Fəxrəddinlə bərabər Səadət xanımın, Mahmud bəyin də xalqın maariflənməsi üçün çalışan yeni nəslin nümayəndəsi olduqlarını qeyd edirlər.

Qiymətləndirmə mərhələsində qiymətləndirmə cədvəlindən istifadə edirik:

№	I qrup	II qrup	III qrup	IV qrup
1. Tədqiqatın aparılmasında fəal iştirak edir	+	+	-	+
2. Nizam-intizam qaydalarına riayət edir	+	+	+	+
3. Yüksək əməkdaşlıq qabiliyyəti nümayiş etdirir	-	+	+	+
4. Müzakirələrdə ünsiyyət bacarıqlarını göstərir	+	+	+	+
Qiymətlər	4	5	4	5

Yaradıcı tətbiqetməni isə şagirdlərə ev tapşırığı olaraq veririk. Şagirdlərə evdə üçüncü və dördüncü məclisləri oxumağı və "siz Fəxrəddinin yerində olsa idiniz, nadanlıq mühitində necə hərəkət edərdiniz?" sualına dair esse yazmağı tapşırırıq.

Əsərin məzmunun öyrənilməsi onun mövzu və ideyasının doğru və dəqiq mənimsənilməsində mühüm rol oynayır. Buna görə də müəllim əsərin məzmununun mənimsənilməsində, xüsusən, dramatik əsərlərin oxusunda diqqətli olmalı, müvafiq iş üsullarından istifadə etməlidir.

İstifadə olunmuş ədəbiyyat:

1. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı, 2009
2. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2014, "Müəllim"
3. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2010

Д.Алийева

Обучение драматическим работам активными / интерактивными методами

Резюме:

Использование активных / интерактивных методов обучения в современных литературных классах оказывает большое влияние на формирование студентов как человека, обладающего всеобъемлющей характеристикой современных потребностей развития. При использовании активных методов обучения в литературных классах планирование и реализация урока должны определяться по его типу в зависимости от характеристик субъекта. Во время изучения драмы она более характерна для достоинства, характера образов в их монологе и диалогах, связи этих работ с театром и т. Д. следует учитывать. читывая это, учитель уделяет особое внимание драматической работе автора. Чтение интонации, экспрессионизма и имитационных навыков играет особую роль в определении идеи работы.

D.Aliyeva

Teaching of dramatic works by active / interactive methods

Summary:

The use of active / interactive teaching methods in contemporary literary classes has a great impact on the formation of students as a person with a comprehensive characteristic of modern development needs. When using active teaching methods in literary classes, planning and implementation of the lesson should be determined by its type, depending on the characteristics of the subject. During the study of the drama, it is more characteristic of the character, the nature of the images in their monologues and dialogues, the connection of these works with the theater and so on. should be taken into account. Taking these into account, the teacher pays special attention to the dramatic work of the author. Reading intonation, expressionism, and imitation skills play a special role in defining the idea of the work.

Rəyçi: **Simuzər Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ÇİNARƏ HÜSEYNLİ
BMU
chuseynli@ beu.edu.az

"SİÇANLAR VƏ ADAMLAR" ƏSƏRİNDƏ DOSTLUQ MÜNASİBƏTLƏRİNİN TƏHLİLİ

Açar sözlər: dostluq, tənhalıq, Böyük Böhran, sosial münasibətlər, xəyal, miqrant
Key words: friendship, loneliness, Great Depression, social, relation, dream, miqrant
Ключевые слова: Дружба, одиночество, Великая депрессия, социальный, отношения, желания, мигрант

Siçanlar və adamlar romanı müasir Amerikan ədəbiyyatında önəmli bir yerə malikdir. Müəllifi Con Steynbek olan bu kitab 1937-ci ildə Of Mice and Men adı ilə çap olunmuşdur. Və tezliklə böyük şöhrət qazanmışdır. Con Steynbek bu kitabı Böyük Depressiya dövründə olmuş hadisədən təsirlənərək yazır, əsərin adını Robert Börnsün şeirindən götürür. Xüsusilə, şeirdə bir misra ona daha çox təsir edir. " ... Siçanlar və Adamların ən yaxşı planları daima tərs gedər ..."

Kitab yazılma dilinə və işlədilən vulqarizmlərə görə bir neçə dəfə senzuralara məruz qalsa da yenə də həmişə oxunan kitabların siyahısına düşmüşdür. Həcmcə kiçik olan bu povest iki nəfərin böyük dostluğundan bəhs edir. Əsər iribədənli, ucaboylu,amma ağıldan kəm olan Lenni Small və onun tam əksi olan Corc Milton haqqındadır. Corc Milton Lennidən fərqli olaraq gödək, və çox ağıllı biridir. Onlar həm görkəm, həm də xarakter baxımından tamamilə fərqli insanlar olsalar da, aralarında möhkəm və sarsılmaz dostluq vardır. Corc həmişə Lennini başına gələ biləcək pisliklərdən qorumağa çalışır, onun yaxşılığı üçün hətta özünü də təhlükəyə atmağa hazırdır. Onların hekayəsi Salinas Vadisində baş verir. Onlar iş axtarmaq üçün ordan - ora gəzən günəmuzd işçilərdir. Amma onların böyük bir xəyalı vardır. Öz pullarını yığıb özlərinə aid olacaq bir fermaya sahib olmaqdır. Özləri özlərinin ağası olacaq. Onlar dovşanları və digər heyvanları bəsləyəcək. Corc həmişə Lenninin yanındadır. Onlar hər yerə birlikdə gedir. " – Deyim də. Nə vaxtsa pul yığarıq, özümüzə balaca bir ev allıq, bir az torpaq, inək, donuz...

-- Olarıq öz başımızın ağası, - deye Lenni sevinclə dilləndi. – Dovşan saxlarıq. Ardın danış, Corc? Bağımızdan danış, qəfəsdəki dovşanlardan... Qışda yağan yağışdan, sobadan. Qaymağımız o qədər qalın olacaq ki, bıçaq al, kəs. Hamısını danış, Corc.

-- Daha nə deyim, sən ki, bunların hamısını bilirsən.

-- Yox, sən de. Sənin deməyinlə, mənim deməyim bir deyil. Mənim dovşan yemləməyimdən danış.

-- Belədi də. Yekə bostanımız olacaq. Dovşanlarımız, toyuq-cücəmiz... Qışda, yağış yağanda iş nə vecimizə, sobanı yandırıb oturacağıq yanında. Yağışın taxtapuşu döyəcləməyinə qulaq asarıq. Ay səni!" (3. 22)

Nəhayət, onlar Salinas vadisində bir rançoda iş tapırlar. Burada, onların tək ümidi o idi ki, onlar burada bir ay qalacaq, hər məşəqqətə dözəcək, və ayın sonu əlli dollar əmək haqlarını alıb öz arzularını həyata keçirmək üçün çalışacaqdılar. Və bu yolda yenə Corc Lenniyə dəstək olmağa hazırdır. Çünki əvvəlki iş yerlərində də Lenni ucbatından Corcun da başı bəlaya girmişdir. Lenni həm o qədər ağıllı deyil, həm də onun zərif, gözəl şeylərə qarşı xüsusi meyli vardır. Əlində həmişə siçan gəzdirməyinin də səbəbi budur. Onları sığallamaqdan xoşu gəlir. O həm də çox güclüdür. İstəmədən də olsa kiməsə zərər verə bilər. Onlar işləyəcəkləri fermada fərqli insanlarla qarşılaşırlar. Amma onlara problem yaradacaq olan biri Qıvrımsaçdı. Qıvrımsaçın özü boydan hündür olmadığına görə ucaboylu insanlardan xoşu gəlmir, onlara qarşı kin bəsləyir. " – Məsələ.... ondadı ki, boydan balaca adamlar kimi Qıvrımsaçın da hündür boylu adamları görən gözü yoxdu. Hay deməmiş dava salır. Neynəsin, özü ki boydan kasaddı. Yəqin indiyəcən bu xasiyyətdə cığal adamlar görmüsən?" (3.37) Corcun da qorxduğu bu idi ki, Qıvrımsaç yenə Lenniyə ilişər, onu incidər, və onlar burdan da qaçmalı olarlar. Amma bir dəfə Qıvrımsaç Lenni ilə dava edir, və bu zaman Lenni öz qol gücü heasbına onun dərsini verir, əlini sındırır. Amma tək problem bu olmur. Bir də Qıvrımsaçın arvadı var. O çox gözəl qadındır. Özünü fermada tək hiss edir və insanlarla ünsiyyət qurmağa çalışır. Bir gün Lenni ilə anbarda qarşılaşır, onla söhbət edir. Söhbət zamanı Qıvrımsaçın arvadı bilir ki Lenninin yumşaq şeylərdən xoşu gəlir. Ona icazə verir ki, onun saçını sığallasın. Lenninin bundan xoşu gəlir. Amma onun saçını sığallayanda həm də öz gücündən istifadə edir, bu isə qızı qorxutmağa başlayır. O qışqırır, özünü Lennidən qurtarmağa çalışır, amma Lenni özü də qorxmuşdur, və bilmədən onun boynunu sındırır. Lenni kəm ağlı ilə başa düşür ki, çox pis bir iş tutub, və qorxusundan qaçmağa başlayır. Və Corcun əsərin ta əvvəlində ona gizlənmək üçün göstərdiyi yerə tərəf gedir. Qıvrımsaçın arvadının meyidi tapılanda Corc işin nə yerdə olduğunu anlayır. Və bilir ki, onu harda tapacaq. Bu arada da hər kəs Lennini axtarır. Corc isə artıq qərar verməlidir, öz dostunu necə xilas edəcək. O istəməzdi ki, Lennini əzab verərək öldürsünlər. Lenninin harda gizləndiyini bildiyinə görə hamıdan əvvəl ora gedir. Hərçənd ki, bilirdi o insanlardan qaçış yoxdu, O Lennini tapır və Qıvrımsaçdan qabaq özü öz dostunu öldürməli olur.

Əsərdə sosial münasibətlər, dostluq, real arzular və tənhalıq kimi məsələlər ön plana çəkilir.Yuxarıda da qeyd etdiyimiz kimi müəllif öz əsərinin adını Robert Börnsün şeirindən götürüb. Bəs niyə məhz siçan və adamlar? Şeirdə siçanın öz yeməyinə çatmaq üçün göstərdiyi cəhdlərin uğursuzluğu Steynbeki təsirləndirir.Siçan da qış gələn kimi yaşamaq uğrunda mübarizə aparır. Amma onun həyatına bir kotan son qoyur. O öz şahidi olduğu hadisələrdə də bu hadisələrin qəhrəmanlarını siçanla müqayisə edir. Onun qəhrəmanlarının da öz xəyalları var. Və bu xəyallar utopik deyil, onlar real arzulardır. Tək istədikləri şey özlərinə aid nəsə bir şey olsun. Amma onların da sonu bu siçanın ümidsizliyi ilə bitir. Lenni və Corcun da taleyi elə bu siçanın taleyi kimi olur. Bir güllə ilə onların xəyalları puç olur. Və onlar da bu siçan kimi tənhalıqla savaşırlar. Onların tənhalığı ilə xəyalları ayrılmaz vəhdət təşkil edir. Onlar tənha olduqları üçün xəyallar qurar, öz aləmlərində bu acı gerçəkliyi unutmağa çalışırlar. Lenni və Corcun bir-birindən başqa kimsəsi yoxdur. Corcla Lennini bir-birinə bağlayan səbəblərdən biri də Corcun həyatda çox tək olmasıdır. Bu həyatda Corca güvənən, onu təmənnasız sevən tək insan Lennidir. Lenni Corcun dediklərini qeyri-şərtsiz yerinə yetirir, başı bəlaya düşən kimi Corcun onu qoruyacağına arxayındır. Bu isə Corca bu həyatda kiməsə lazım olma hissini, özünü dəyərli hiss etdirməsinə səbəb olur.

Əsərin yazılma ili və müəllifin də özünün dediyi kimi nədən bəhrələndiyini nəzərə alsaq, əsəri analiz etmə daha asan olacaqdır. Böyük Böhran bütün Amerika həyatına təsir etmiş, işşizlərin sayı artmışdır. Hər yerdə miqrantlara rast gəlmək olardı. Hər biri bir loxma çörək üçün hər cür iş görməyə hazırdır. Artıq sahibkarlar üçün ucuz işçi qüvvəsi tapmaq elə də çətin deyildi. Əsərin yazılmasında rolu olan digər bir faktor isə Salinas Vadisidir. Bu ərazinin mühiti, kənd təsərrüfatı üçün əlverişli olmasına görə Steynbek bu yeri öz əksər əsərləri üçün məkan seçib.

Povest üçün seçilən yer süjet xətti üçün çox önəmlidi. Kitabdakı hadisələr 1930-cu illərdə, yəni Böyük Böhran dövründə cərəyan edir. Amma dəqiq vaxt məlum deyil. Sadəcə, hekayənin başlayıb və bitmə vaxtının üç gün olması dəqiq təsvir olunur. Hadisələr ardıcıllıqla üç gün ərzində baş verir. İlk gün iki dost Salinas çayi vadisində dayanıb su içir, və son üçüncü gün isə Corc Lennini həmin yerdə güllə ilə öldürür.

Kitabı yadda qalan edən ən mühüm amil dostluq hisslərinin ön plana çəkilməsidir. Corc və Lenni dostluğu təcəssüm edir. Onlar arasındakı möhkəm dostluq o dövr üçün qeyri-adi qarşılanırdı. Kitabda çx az obraz vardır.Və onların da əksəriyyəti miqrantlardır. Bilirik, miqrantların nə sabit bir evi, nə də bir işi olardı. Onlar öz yurd-yuvalarından didərgin düşüb, iş axtarmaq üçün bütün ölkəni gəzər, sahələrdə, tarlalarda qısa müddətli işləyər və sonra başqa bir iş üçün yola çıxardılar. Əslində, Steynbek Siçanlar Və

Adamlar kitabında bu obrazlarla Böyük Böhranın səbəb olduğu sosial durumun insanların həyatına nə cür təsir etdiyini açıq-aşkar göstərirdi. Və bu miqrantların demək olar ki, daimi dostları olmurdu. Ona görə də Lenni və Corcun dostluğu onları təəccübləndirir. Bunu Corc və Uzundrazın dialoqundan da görmək olar. " – Qəribədi ki, siz onunla həmişə bir yerdəsiz.

-- Burda qəribə nə var ki?

-- Heç özüm də bilmirəm. Adamlar hələm-hələm belə yaşamır. Əvvəldən görməmişəm ki, iki nəfər belə mehriban olsun. Özün bilirsən bu rançoda fəhlələr necə işləyir—gəlirlər, yatmağa yerləri, yeməyə çörəkləri. Bir ayın tamamında haqq-hesabı çürüdüb bir-bir aradan çıxırlar. Başqaları heç kəsin qulağına deyil. Mənimçün maraqlıdı ki, belə dəlixay bir adamnan sənin kimi ağıllı oğlanın arasından su keçmir." (3.55)

Onlar digər miqrantlardan fərqli olaraq, hər yerə birlikdə gedir, birlikdə səyahət edərdilər. Əvvəlcədənn də qeyd etdiyimiz kimi, miqrant işçiləri cəmiyyətin təcrid olunmuş təbəqəsi idi. Onların nə evi, nə özlərinə aid bir mülkü olardı, beləliklə, onlar ancaq iş üçün rançoları gəzər, taleləri fermerlərdən və eləcə də hava şəraitindən asılı olardı. Əgər hava şəraiti pis olsa, onlar üçün iş tapmaq çətin bir hal alırdı, hətta bəzən hava yaxşılaşana qədər onların heç qalmağa bir evi də olmurdu. Bu səbəbdən də Uzundraza çox qəribə gəlirdi ki, Lenni və Corc bir yerdə səyahət edirdilər. Belə bir vəziyyətdə, bu cür əbədi dostluğun mövcudluğu qeyri-mümkündür. (4.25) Onların dostluğunun keçmişi vardır. Klara xala öldükdən sonra Lenninin Corcdan başqa heç kimi qalmır. Corc ona bir növ sahib çıxır. Əgər Corc olmasa və onu qorumasa Lenninin başı çox bəlalar çəkərdi. Elə Corcun da özünün dediyi kimi; "– İkimizin də əsli bir yerdəndi. Onun Klara xalasını tanıyırdım. Lennini uşaq vaxtından saxlayıb böyütmüşdü. Xalası ölən gündən Lenni mənimlə işləyir. Bir-birimizə öyrəşmişik." (3. 55)

Maraqlı idi ki,onların bu qəribə dostluqları hər ikisinin xeyrinə idi. Əslində, Lenni də öz növbəsində Corca kömək edirdi. Corc çox ağıllıdır, o Lenninin qayğısına qalır, onu problemlərdən qoruyur. Digər tərəfdən də, əqli inkişafı zəif olan Lenni çox safdır, heç kimə pislik niyyəti güdmür. Eyni zamanda da çox güclüdür, çox çalışqandır, Heç kimin daşıya bilməyəcəyi ən ağır yükləri belə daşıya bilir. Bu da Corcun işinə yarayır. Həm də, bir-birlərinin sayəsində onlar o qədər də yalnız hiss etmirlər. Bir sözlə, bu dostluq onların çətin vəziyyətlərdən çıxmalarına kömək olur. Digər miqrantlar kimi, onlar ən ümidsiz vəziyyətlərdə belə ümidsizliyə qapılmırlar, daha da gözəl günlərin gələcəyinə inanırlar. " Bizim kimi özgə qapılarında zillət çəkənlər dünyada ən yalqız adamlardır. Onların nə ailəsi var, nə də ev-eşiyi. Rançoda işləyib qazanırlar, sonra da üz tuturlar şəhərə -- kef çəkməyə … Pulları qurtarandan sonra yenə o ranço sənin, bu ranço mənim. Onların heç bir gələcəyi yoxdur." Corc sözünə davam etdi:" Onlara baxma, biz

başqayıq. Bizim gələcəyimiz var. Sənin də, mənim də söz deməyə, qayğımıza qalmağa bir kəsimiz var, Barda oturub viski hortdatmaq bizə yaraşmaz. Elə adamlar var, türməyə düşsə, elə orda çürüyər, heç kəsin də vecinə olmaz. Biz başqa, onlar başqa." (3.21) Onlar özləri də başa düşürlər ki, onların dostluğu fərqlidi. Və bu qeyri-adi dostluq onları birlikdə daha da gücləndirir. Elə Lenninin də dediyi kimi: " – Biz başqayıq, hə? Niyə? Çünki… çünki mənimçün sən varsan, sənin çün də mən."

Əslində, Corc Lenninin tək dostu deyil, həm də onun müdafiəçisidir. Lenni uşaq ağıldadır, özünü tam idarə edə bilmir. O tamamilə, Corcdan asılıdır. Onun hər dediyini edir, ona heç bir çəkk-şübhəsiz inanır. Həm də, çox unutqandır. Corc ona bəzi şeyləri başa salmaq üçün dəfələrlə təkrarlatmaq məcburiyyətində qalır. Xüsusilə, Lenninin başı bəlaya düşsə, harda gizlənməli olduğu yeri ona unutdurmamaq üçün hər dəfəsində ona təkrarladır. Lenni ürəyi çox təmiz, saf , və mehriban insandır. Buna baxmayaraq, o çox güclü olduğunun fərqində deyil. Kimisə incitmək, zərər vermək, ölüm kimi məfhumları tam olaraq dərk etmir. O siçanı və itin balasını sığallayarkən öldürdüyündə, onlara qətiyyən zərər vermək istəməmişdi. Hətta Qıvrımsaçın arvadını belə öldürəndə, sadəcə nəsə doğru bir şey eləmədiyini bilirdi, və bir səhv eləyərsə, Corcun ona dovşanların qayğısına qalmağa icazə verməyəcəyindən qorxurdu. Kiməsə zərər verdiyindən qorxmurdu, və bunu da anlamaq iqtidarında deyildi.

Lenninin tamamilə əksi olan, Corc isə əvvəl də dediyimiz kimi daha ağıllıdır. Getdiyi yerlərdə özünə hörmət qazana bilir. O həmişə Lenniyə ona baxmalı olduğuna görə şikayət edir, o olmasa həyat daha yaxşı olacağını söyləyir. Əlbəttə, bu dediyinə özü də inanmır. Lenni ona çox problemlər yaratsa da, o bilir ki, Lenni olmasa həyat onun üçün mənasız olar, və daha da tənha qalar, axı onun Lennidən başqa heç kimi yoxdur. Onunla tənhalığını bölüşür. Və həm də arzularını gerçəkləşdirmək üçün onun Lenniyə ehtiyacı var. Lenni bir növ onun üçün bir səbəb idi ki, o bu çətin həyatda mübarizə aparmağa güc tapsın. Çünki Lenni sayəsində, o özünü dəyərli hiss edirdi, o artıq bilirdi ki, kiminsə bu dünyada onun dəstəyinə, köməyinə ehtiyacı var. Nə Lennini Corcsuz, nə də Corcu Lenninisiz təsəvvür etmək olmur.

Uilyam Qoldhurst bu dostluğu onların yalnızlığının təcəssümü kimi də şərh edir. (1) O zamankı cəmiyyətdə, tənhalıq qaçılmaz bir duyğudur. Onların dostluğu nadir dostluq idi düzdü, həm də bu dostluq onların tənhalığından yaranmışdı. Nə yazıq ki, qəddar dünya onların bu dostluğunun davam etməsinə imkan vermədi. Hər kəsin təəccüblə nəzər saldığı bu dostluğun qatili elə özləri olur. Əslində isə, Corc Lennini öldürməyə qərar verərkən onu xilas etmişdi. Bu zaman belə ona yardım etdi. Çünki o bilirdi ki, Qıvrımsaç onu tapsa ona işgəncə verərək öldürəcək, o isə onun yaxın bir dostu olaraq onu özü öldürdü. Tək çarə, çıxış yolu bu idi. Cian O'Driscoll isə

maraqlı bir şəkildə bu məsələyə yanaşır. O bildirir ki, Corc əslində Lennini öldürərkən özünü də məhv edir. (2) Onun arzuları da Lenni ilə birlikdə yox olur. Lenni ağıldan kəm olsa da, o Corca gələcəyə ümid verən yeganə stimul idi. Lenni ilə birgə onlar həyatlarının bir gün yaxşıya doğru dəyişəcəyinə inanırdılar. Amma Lenninin ölümü ilə Corc üçün də hər şey məhv oldu.

Povestdəki miqrantlar işlərini gördükdən sonra şəhərə gedib içməyi xoşlayırdılar, bu yolla problemlərini, nə qədər çətin bir həyata dözməli olduqlarını unudurdular. Amma Corc özlərini onlardan fərqli hesab edir. Çünki əgər bunu etsələr onlar pul yığa bilməzdilər, belə olduğu halda isə öz arzularını gerçəkləşdirə bilməzdilər. Bu fakt da onu göstərir ki, Corc üçün real arzusu dünyanın ən yaxşı zövqlərindən daha da üstündü. O bu sadə, kiçik arzusuna görə bir çox şeydən vaz keçməli olur. Onun arzusu daha önəmli idi. Hekayənin əvvəlində də, Corc bunu Lenniyə özü belə izah edir: "Onlara baxma, biz başqayıq. Bizim gələcəyimiz var. Sənin də, mənim də söz deməyə, qayğımıza qalmağa bir kəsimiz var, Barda oturub viski hortdatmaq bizə yaraşmaz. Elə adamlar var, türməyə düşsə, elə orda çürüyər, heç kəsin də vecinə olmaz. Biz başqa, onlar başqa." (3.21)

Amma əsərin sonunda Corc Lennini öldürdükdən sonra Uzundraz onu içməyə dəvət edir, və Corc da buna razılaşır:

" – Gedək, -- dedi, --Corc... Gedək bir az içək.

--İçək də..."

Buradan da bəlli olur ki, Corc da artıq öz həyatını bir çox digər miqrantlar kimi davam etdirəcək. Artıq o tənha yaşayacaq, bütün pulunu içkiyə verəcək. Bu da Lenninin Corcun həyatındakı önəmli yerini anlamağa kömək edir. Oxucuları düşündürən başqa bir məsələ isə əsərin sonunda Corcun Lennini niyə öldürməsi idi. Corc istəsə idi Lennini yenə hamıdan əvvəl tapıb birlikdə qaça bilərdilər. Başqa bir həyata başlaya bilərdilər. Başqa bir yerdə işləyə, öz pullarını yığa bilərdilər. Hərçənd ki, Corc bir şeyi bizdən daha yaxşı anlayırdı. O bilirdi ki, bu işdən qaçmaq onlar üçün xilas demək deyil. Əgər burdan canlarını qurtara bilsələr, növbəti işləyəcəkləri yerde Lenni yenə eyni səhvi edəcək. Çünki Lenni törətdiyi cinayətin nə qədər qorxunc bir şey olduğunun fərqində olmur. O sadəcə Corcdan qorxur ki, pis bir şey eləsə Corc ona dovşanları yemləməyə icazə verməyəcək. Artıq Corc anlayır ki, o daha Lennini qorumaq iqtidarında deyil. O nə Lennini bu cəmiyyətdən qoruya bilər, nə də cəmiyyəti Lennidən. Ona görə də, Corc Lennini öldürməklə öz canını ondan qurtarmır, nə də ondan canını qurtarmaq istəyib haçansa. Çünki Lenni olmadan Corcun bu həyatda heç kimi yoxdu. O sadəcə Lennini işgəncə ilə öldürülməkdən xilas etmir, həm də cəmiyyəti onun təhlükəli hərəkətlərindən qurtarır. Corc bəlkə Lenniyə bir növ yaxşılıq etmiş olar, amma acı həqiqət isə budu ki, o Lennini öldürməklə öz həyatını məhv edir, öz arzularına son qoyur.

Başqa bir dostluq nümunəsi isə Plüm və onun iti arasında təqdim olunur. Pülm qoca bir ferma işçisidir. O iş zamanı qəza nəticəsində sağ əlini itirir. Onun fermada vəzifəsi yerləri silməkdir. Çünki ancaq bu işi görə bilərdi. Plüm də bu dünyada çox təkdi, onun qoca itindən başqa heç kimi qalmayıb. Onlar arasında bu dostluq Corc və Lenni arasındakı dostluqla müqayisə olunur. Lenni və bu qoca it, hər ikisinin də həyatı öz dostlarından asılıdır. Onların dostları onların qayğısına qalır, onlar da öz dostlarına sadiqdirlər. Və dostluqları çox güclü, sarsılmazdır. Və hər iki dostluq bir az da tənha olduqlarından dolayı daha da güclənib. Plüm də çox tək olduğuna görə öz yalnızlığını öz iti ilə bölüşür. Və onların da dostluqlarının keçmişi vardır. Plüm özü bunu izah edir. "—İ had it a long time ago." " Bu it çoxdandı ki, məndədi." (3.60)

Digər işçilər Plümün itindən canlarını qurtarmaq istəyirlər, çünki o çox qocadı, iylənir və onların rahatlığını pozur. Və bunu da Plümə izah edərkən, iti əslində yaşadığı əziyyətdən qurtarmaq üçün etdiklərini deyirlər. Hərçənd ki, Corcdan fərqli olaraq o itini özü öldürə bilmir deyə başqa işçi bu işi onun əvəzində görür. Plüm isə bu vəziyyətdən heç də razı deyildi. " – Xeyr ha! Gör bu it məndə nə vaxtdandı?! Küçük vaxtından saxlayıram. Qoyun otaranda da yanımda olub, naxırda da. İndi baxan heç inanmaz ki, bu tərəflərdə ən yaxşı qoyun iti bu olub.

--Bu dünyada yaşamaq onu yorub. Özü də elə iy verir ki, baş çatlayır. Yaxşı, sənin ürəyin gəlmir, mən vuraram. Sənə zəhmət olmaz." (3. 61)

Plüm Corcla sonrakı söhbətində ona söyləyir ki, kaş ki iti elə özü vuraydi. O buna çox peşman olur. "—Corc, gərək itimi özüm güllələyərdim. Daha yad adam o yazıq heyvanı öldürməzdi." (3.82) Əslində, Corca bu çox təsir etmişdi, və o Lennini öldürməyə qərar verərkən Plümün dediklərini də xatırlamışdır. Və hər iki dostluq da, nə Lenni ilə Corcun, nə də Plüm ilə İtinin dostluğu sona qədər davam etmir, və faciəli şəkildə sonlanır. Onların dostluğu nə qədər də güclü və təmənnasız olsa da, bu qəddar həyaın qanunları qarşısında aciz qalırlar. Bu cəmiyyət, sosial vəziyyət onları da məğlub edir. Beləliklə, bu kitab diqqətə gətirdiyi mövzularla insana çox şey öyrədir. Siçanlar və adamlar insan təbiəti ilə bağlı acı həqiqətləri göstərir. Əsərdəki bütün personajlar bir şeydən əziyyət çəkir, və hər birinin də arzusu vardır. Amma onların arzuları həyata keçmir. Və hər biri də romanda dostluq motivinə qarşı qoyulan tənhalıq yaşayır. Corc tənhadı, buna görə Lenniyə ehtiyac duyur. Lenni tənhadı, bu üzdən Corcdan asılı, onun köməyinə həmişə ehtiyac duyur. Plüm tənhadı, buna görə də iti ilə tənhalığını bölüşür. Qıvrımsaçın arvadı da tənhadı, o evli olsa da, onun fermada danışmağa, söhbət etməyə heç kimi yoxdur. O isə digərləri kimi özünə dost tapa bilmir, bunu səbəbi bəlkə də qadın olmağı idi. O özü Lenni ilə söhbətində bunu təsdiqləyirdi. "—Niyə mənə belə münasibət bəsləyirlər? Niyə bir kəsnən

danışmağa ixtiyarım yoxdu? Məni nə sayırlar? Sən yaxşı adamsan. Niyə axı sənin lə söhbət eləməyim? Mənim sənə heç bir pisliyim keçməz.” Hər kəs onunla söhbət etməkdən çəkinir, ondan ehtiyat edir. Çünki Qıvrımsaçdan qorxurlar ki, xəbər tutsa qısqanclıq ucbatından onları işdən qovar. O vaxtki sosial şəraitin çətinliyindən yaranan vəziyyətdə heç kim problem arzulamırdı, bir qarın çörəyə işləyib yatmağa yer tapmaq onların tək dərdi idi.Amma Qıvrımsaçın arvadını insanlar anlaya bilmədi, bu cəmiyyət onu da qəbul etmədi. Onun da sonu faciəvi bitdi, və onun da arzuları onun həyatı ilə birgə sona çatdı. (3.115)

Bütün bunlardan da bir nəticəyə gəlmək olar ki, hər bir yazıçı kimi Con Steynbeki də cəmiyyət, cəmiyyətdə baş verənlər düşündürür, narahat edir. Onun yaradıcılığında insan taleyi, insanlarla münasibət insan istəkləri, onun arzularına çatmaq üçün apardığı mübarizə, nailiyyətləri və uğursuzluqları kimi məsələlər böyük önəm kəsb edir. “XX əsr Amerika ədəbi mühitini ən çox məşğul edən "Amerika həyat tərzi" və "Orta amerikalı" konsepsiyaları Con Steynbekin əsərlərindəki əsas xəttdir. Siyasət, Bank – pul, kəndli-fermer münasibətləri, miqrasiya, etnik diversiyaçılıqdan yaranan sosial problemlər onun əsərlərində öz bədii təsvirini tapmışdır.” (5)

Ədəbiyyat

1. Benson, Jackson J. The short novels of John Steinbeck: Critical Essays with a Checklist to Steinbeck Critism. Durham:Duke University Press, 1990
.2. Cian O'Driscoll, “Why Don't You Tell Us About Them Rabbits, George? The Tragedy of Just War,” International Studies Review 15 (2013)
3. Con Steynbek. Siçanlar və adamlar. Bakı, Qanun Nəşriyyatı, 2013
4. Jana Andrýsková, The Great Depression in John Steinbeck’s *Of Mice and Men*
(5) https://az.wikipedia.org/wiki/Con_Steynbek

Ch. Huseynli

Analyzing the Friendship Relations in the “Of Mice and Men”

Summary

The purpose of writing this article is to analyze some issues highlighted in “Of Mice and Men” by John Steinbeck. Of Mice and Men is a parable about the difficulties caused by living as a human and the relations between a human and society. The story of George and Lennie’s dream about having their own ranch and the barriers in the way to reach their dream lets us see what kind of troubles loneliness causes to human being. It is a story about

dignity, loneliness, friendship, and giving sacrifices for others. It is interesting that the giant man who was not clever at all was an inspiration for George to chase his dream, while in the end by killing Lennie George has no wish to achieve anything in this world, so considering Lennie the primary reason for his dreams, it was also a harsh reality at the same time that Lennie became the major obstacle in the way to attain his dream. This article analyzes the book, the characters, and also gave several examples to improve the idea how the friendship is represented between George and Lennie in the book. Moreover, the friendship between them can be compared with the other characters' and what causes this camaraderie to grow stronger is another point. Unfortunately, their friendship that ends tragically can be considered also as the end of their dreams.

Ч. Гусейнли

Анализ дружбы в произведении «О мышах и людях»
Резюме

Целью написания данной статьи является анализ определенных вопросов, подчеркнутых Джоном Стейнбеком в его произведении «О мышах и людях». «О мышах и людях» - притча о трудностях, связанных с жизнью человека, и отношениях между человеком и обществом. Рассказ о мечте Джорджа и Ленни иметь собственное ранчо и препятствиях на пути к достижению их мечты, позволяет нам увидеть, какие проблемы создает одиночество для человека. Это рассказ о достоинстве, одиночестве, дружбе и самопожертвовании ради других людей. Интересно, что "человек-великан", который вовсе не был умным, стал источником вдохновения для Джорджа, который следовал за своей мечтой, и в результате убийства Ленни, Джордж больше не желает ничего добиваться в этом мире. Поэтому, рассматривая Ленни как первоначальную причину его мечты, суровой реальностью в то же время является тот факт, что Ленни стал основным препятствием на пути к его мечтам. Написав данную статью, я попыталась проанализировать книгу, персонажей, а также привела несколько примеров, чтобы раскрыть идею о том, как дружба между Джорджем и Ленни представлена в книге. Более того, дружбу между ними можно сравнить с дружбой между другими персонажами, и то, что заставляет это товарищество стать сильнее, является еще одним моментом. К сожалению, их дружба завершилась трагически, что, в свою очередь, можно считать и концом их желаний.

Rəyçi: Natiq Adilov
Filologiya üzrə fəlsəfə doktoru

GÜNEL MƏHƏRRƏMOVA
ADU
meherremovagunel85@gmail.com

ŞEYMAS HİİNİ POEZİYASINDA TARİX VƏ YADDAŞ PROBLEMİ

Açar sözlər: Şeymas Hiini, poeziya, tarix, yaddaş
Ключевые слова: Шеймас Хини, поэзия, история, память
Key words: Seamus Heaney, poetry, history, memory

Qərb tənqidi fikrində Şeymas Hiini müasir irland poeziyasının simalarından biridir. 1995-ci ildə Nobel mükafatına layiq görülmüş müəllif çoxsaylı şeir toplularının, ədəbi esselərin və tərcümələrin müəllifidir.

Bir neçə əhəmiyyətli ədəbi mükafatların laureatı olan şair təkcə vətəni İrlandiyada deyil, ABŞ, Fransa, Almaniya, İtaliya, Çexiya və başqa ölkələrdə də kifayət qədər məşhurdur. Onun şeirləri fransız, italyan, ispan, yunan və bir sıra dünya dillərinə tərcümə olunmuşdur.

Ş.Hiini poeziyası yaddaş və tarix, torpaq və onun uğrunda döyüş, kimlik kimi mövzularla zəngindir. Şairin ən gözəl şeirləri məhz bu problem ətrafında birləşir.

Ş.Hininin "Olster alatoranlığı"(An Ulster Twilight) şeiri irland tarixi və irland kimliyi probleminə həsr olunan maraqlı şeirlərindən biridir. Ş.Hiiniyə xas doğma diyar, mili təəssübkeşlik və vətən sevgisi motivləri şeirin ana xəttini təşkil edir. Şairin lirik qəhrəmanı keçmiş və indini xəyal edir, süjetli lirikanın ən uğurlu nümunəsini canlandırır(1;14). Şeirin ilk sətirlərindən məlum olur ki, lirik qəhrəman Erik dülgər olur və Milad hədiyyəsi kimi digər yaşıdına özünün taxtadan hazırladığı oyuncağı gətirir. "Olster alatoranlığı" iki zaman kəsiyi sərgiləyir və məlum olur ki, şairin hələ katolik və protestantların mehriban yaşadıqları uşaqlıq illərində ən cüzi ehtiyatsızlığın böyük toqquşmaya səbəb ola biləcəyi hadisələrə rəvac verə bilərdi. Sonra isə məlum tarixi hadisə – dini təfriqələrə işarə edilir. İki fərqli topos (Erikin gəldiyi daxma və oğlanın qaldığı mənzil mühiti), Şimali İrlandiyada dini toqquşmalar zamanı baş verən dəyişikliklərdən söhbət açılır. Ş.Hininin qaldırdığı problem şeirdə faciəvi çalar alır:

Where is he now?
There were fifteen years between us two
That night I strained to hear the bells
Of a sleigh of the mind and heard him pedal
Into our lane, get off at the gable,
Steady his Raleigh bicycle
Against the whitewash, stand to make sure

The house was quiet, knock at the door
And hand his parcel to a peering woman:
`I suppose you thought I was never coming.'
Eric, tonight I saw it all
Like shadows on your workshop wall,
Smelled wood shavings under the bench,
Weighed the cold steel monkey-wrench (4)

Əsərin lirik qəhrəmanı təsəvvür edir ki, əgər o, katoliklərlə protestantların münasibətlərinin pozulduğu zaman Eriklə yenidən görüşsəydi, onun hədiyyəsi ilə bağlı olan milad gecəsi xatirələri başqa cür dərk olunardı. "Qapı döyülməsi", "əldə bağlama", ya "dostyana" döyüş dəstələrindən birinin gələrək nəyisə gizlətmək xahişi, yada "düşmən" qruplaşmaların ailənin üzvlərindən birinin ölümü ilə nəticələnəcək gəlişi"nə də rəvac verərdi.

Daha sonra şeirdə sülhə və qardaşlığa çağırışın izlərini görürük. Lirik qəhrəman belə bir fikir söyləyir ki, əgər Eriklə görüşü həqiqətdə olsa idi onlar mütləq oyuncaqlar və dülgərlik sənəti haqqında söhbət edərdi, çünki bu mövzular katoliklər və protestantlar arasında mübarizədən daha əhəmiyyətlidir.

In my soft hand, then stood at the road
To watch your wavering tail-light fade
And knew that if we met again
In an Ulster twilight we would begin
And end whatever we might say
In a speech all toys and carpentry,
A doorstep courtesy to shun
Your father's uniform and gun,
But -- now that I have said it out --
Maybe none the worse for that. (4)

Beləcə Ş.Hiini siravi insanların gündəlik həyatında olan dəyərləri qeyd edərək dini ayrı seçkiliyi pisləyir. Şimali İrlandiyada dini inancına görə katolik olan Ş.Hiini katoliklər və protestantların barışığına çalışan vətəndaş hüquqları tərəfdarı hərəkatının üzvü olmuşdur. Amma bildiyimiz kimi, tarixin Olster problemi hələ də həll olunmamışdır. Sonralar Ş.Hiini yaşayış yerini dəyişsə də (o ailəsi ilə birgə Dublin yaxınlığında yaşayır), dini toqquşmalardan əziyyət çəkən həmvətənlərini unuda bilmir. O, bu ziddiyyətlərin mənbələrini aşkar etməyə çalışır. O, bunları vaxtaşırı ingilislərə qarşı ayağa qalxan, əsrlər boyunca alçalmalara məruz qalan xalqının faciəvi keçmişində görür.

Ş.Hiininin digər "Tollunddan adam"(The Tollund Man) adlı şeiri Daniyada torflu bataqlıqlardan tapılmış və çox yaxşı qalmış insan mumiyasından bəhs edir. Torfçulara həsr olunmuş kitabların birində kişi

mumiyasının foto şəklini görmüş şairin fikirləri və hisslərini təsvir edən bu şeirin poetik mənası dünyanın ən ali varlığı insanı vəsf etməkdir:

Some day I will go to Aarhus
To see his peat-brown head,
The mild pods of his eye-lids,
His pointed skin cap.
In the flat country near by
Where they dug him out,
His last gruel of winter seeds
Caked in his stomach,
Naked except for
The cap, noose and girdle,
I will stand a long time.
Bridegroom to the goddess. (5)

Şeirin sətirlərindən aydın olur ki, Ş.Hiinidə İrlandiya ilə assosiasiyalar yaranır, onun keçmişi, qədimliyi və "var olması" qurur doğurur. Şair oxucunu qədim insan haqqında məlumatlandırır və yazır ki, bu insan yəqin ki, Nertus ilahəsinə qurban gətirilmişdi. Tarixdən məlumdur ki, onun kultu qədim zamanlarda təkcə Yunanıstanda deyil, həm də Qərbi Avropanın şimalında geniş yayılmışdı. Qurban gətirməzdən öncə "ilahənin bəyini" onun son arzusuna uyğun olaraq yaxşıca yedizdirirdilər, ilahə isə "onunla izdivacına görə onu" yəqin ki müqəddəs etmişdi. Şairin təfəkküründə 1920-ci ildə İrlandiyada qətlə yetirilmiş protestantların obrazları canlanır. Bu zaman nəzərlər işgəncələrə məruz qalan vətənə yönəlir, günahsız yerə öldürülmüş "gənc qardaşlar"ın (young brothers) burada heç zaman yaşamayacaqları xatırlanır:

The scattered, ambushed
Flesh of labourers,
Stockinged corpses
Laid out in the farmyards,
Tell-tale skin and teeth
Flecking the sleepers
Of four young brothers, trailed
For miles along the lines. (5)

Ş.Hiini xəyalən gələcəyə səyahət edir, şeirini belə bir fikirlə tamamlayır ki, İrlandiyadan uzaqda insanların qurban gətirildiyi yerlərdə, əgər o, Daniyada olarsa, o özünü belə hiss edər:

"... lost
Unhappy and at home" (5)
"itmiş, bədbəxt
Lakin sanki evindəki kimi".

Qeyd etmək lazımdır ki, bu şeirin daxil edildiyi "Şimal" (1975) toplusunda Ş.Hiini İrlandiyanın tarixini təsvir etməyə və onu müasirliklə əlaqələndirməyə çalışır və şeir sırf irland təfəkküründə xas "bataqlıq" və "torf" anlayışların dərin simvolik mənası ilə zəngindir. Onlar şairin poeziyasında tarixin anbarıdır, onlar tarixin nadir elementləri və şairin qələmində "spesifik irland mifologemi, yaddaşın qorunduğu məkan simvoluna çevrilir"(2;28).

She tightened her torc on him
And opened her fen,
Those dark juices working
Him to a saint's kept body,
Trove of the turfcutters'
Honeycombed workings.
Now his stained face
Reposes at Aarhus.
I could risk blasphemy,
Consecrate the cauldron bog
Our holy ground and pray
Him to make germinate (6)

Şeirdən də görürük ki, Ş.Hiini əbəs yerə ölən insanı vəsf etməklə onun lazımsız ayinlərin qurbanına çevrildiyini təsvir edir. Amma eyni zamanda da ölümə məhkum olanı bütün canlılardan daha canlı görür. Ş.Hiini üçün ölüm və torpaq mövzusu şerilərinin ana xəttini təşkil edir. Məhz bu mövzu ilə irland xalqının yaşamaq haqqına layiq olduğu qənaətinə gəlir."Şimal" şeirində Hini tarixə başqa izah verir, bu təsvir onda əfsanəvi vikinqlərin dövrünün xatirələrini oyadır. Dəniz səyyahlarının qəfildən gələn səsi lirik qəhrəmanı səsləyir, ötən illərdən xatirə dolu səs gəlir:

I returned to a long strand,
the hammered curve of a bay,
and found only the secular
powers of the Atlantic thundering.
I faced the unmagical
invitations of Iceland,
the pathetic colonies
of Greenland, and suddenly
those fabulous raiders,
those lying in Orkney and Dublin
measured against
their long swords rusting,
those in the solid
belly of stone ships (6)

Orkney və Dublin tərəfdən gələn keçmişin əks-sədaları rəşadətin, qəhrəmanlığın carçısı kimi lirik qəhrəmanı kimlik mücadiləsnə səsləyir. Keçmiş, torpaq sevgisi Ş.Hiininin bütün poeziyasının ana xəttini təşkil edir və "Şimal" şeiri də istisna deyil.

The longship's swimming tongue
was buoyant with hindsight—
it said Thor's hammer swung
to geography and trade,
thick-witted couplings and revenges,
the hatreds and behind-backs
of the althing, lies and women,
exhaustions nominated peace,
memory incubating the spilled blood.(6)

Lirik qəhrəman island, irland saqalarının baş qəhərəmanı, mifik Toranı xatırlayır. Şeirin bu yeri kimlik mücadiləsini daha da qabardır və irland xalqının layiqli keçmişindən söz açır. Tarix, keçmiş Ş.Hiini şeirnin əsas motivlərindəndir. İrland peyzajının hər fraqmentinin özündə əks etdirdiyi "yaddaş"(3;16) tarixi yaddaşın qorunmasına dair narahatlığı əks edir və Ş.Hiini də poetik yaradıcılığında məhz bu ideyanın carçısına çevrilmişdir.

Ədəbiyyat:

1. Richard Rankin Russell. Poetry and Peace: Michael Longley, Seamus Heaney, and Northern Ireland. University of Notre Dame Press 2010, 464p.
2. Michael Parker. Seamus Heaney: The Making of the Poet. University of Iowa Press, 1993, 294p.
3. Neil Corcoran. The Poetry of Seamus Heaney: A Critical Study. Faber & Faber, 1998, 276p.
4. Seamus Heaney. An Ulster Twilight. http://thewonderingminstrels.blogspot.com/2005/11/an-ulster-twilight-seamus-heaney.html
5. Seamus Heaney. An Ulster Twilight. https://hellopoetry.com/seamus-heaney/?tab
6. Seamus Heaney. North. https://www.poetryfoundation.org/poems/48393/north-56d22998bff6c
7. Seamus Heaney obituary https://www.theguardian.com/books/2013/aug/30/seamus-heaney

G.Maharramova

The problems of history and memory in Seamus Heaney's creative activity

Summary

Modern Irish poet, essayist and translator Seamus Heaney has written a lot of poems on the themes as history and memory. The themes as native land and love to motherland are prominent in his literary legacy. Seamus Heaney is also a Nobel Prize laureate.Poet has lived all his life with love to the native land. He tried to join his nation around this idea. The associations with Ireland are obvious in his poems. The poet is proud of his motherland, its oldness, its past and its "existence".

Besides, Heaney tried to reflect the life of common people in his works. He shows his negative attitude towards the religious discrimination. This topic is also reflected in his poems. The author of the article tries to put light on these problems in poets literary legacy. Poems devoted to history and memory by Seamus Heaney are analysed here.

Г.Магеррамова

Проблемы истории и памяти в творчестве Шеймаса Хини

Резюме

Известный ирландский поэт, эссеист и переводчик Шеймас Хини написал много стихотворений на темы истории и памяти. Родное место и любовь к родине являются основными темами в его поэзии. Шеймас Хини был удостоен Нобелевской Премии. Поэт прожил всю жизнь с чувством любви к родине. Он все время старался соединить свой народ вокруг этой идеи. В его стихах заметны ассоциации и Ирландией. Автор гордится историей, прошлым, «существованием» своей страны. Помимо этого, Хини отмечает элементы обыденной жизни людей в своих стихотворениях. Он негативно относится к религиозной дискриминации. Эти тема тоже затронуты в его произведениях.

Автор статьи старается раскрыть именно эти проблемы творчества поэта. Она анализирует произведения поэта, посвящённые истории, памяти и любви к родине.

Rəyçi: **Şahin Xəlilli**
Filologiya üzrə elmlər doktoru, professor.

AYSEL QULİYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ayselquliyeva303@gmail.com

ŞAGİRDLƏRƏ ƏDƏBİ ƏSƏRLƏRİN TƏHLİLİNİN MƏNİMSƏDİLMƏSİ

Açar sözlər: ədəbi əsər, bədii obraz, təhlil, tədris, fəal təlim, dərs
Ключевые слова: литературное произведение, художественный образ, анализ, учебный, активное общиение, урок
Key words: literary work, artistic character, analysis, teaching, active training, lesson

Ədəbiyyatın tədrisi məktəbdə şagirdlərin həyatı dərk etməsi, müxtəlif insanları daha yaxşı tanıya bilməsi üçün bir vasitədir. Söz sənətkarları bu insanları və ya həyatın müxtəlif anlarını obrazlı şəkildə, bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə canlandırırlar. Şagirdlər oxuduqları əsərlərin təhlili zamanı müəllifin təsvir və ya tərənnüm etdiyi obrazları, hadisələri müqayisə etməklə tənqidi, məntiqi təfəkkürlərini inkişaf etdirirlər. Çağdaş dövrdə bu məsələ başlıca məqsədlərdən biri kimi qarşıda durur.

Ümumtəhsil məktəblərində tədris edilən digər fənlər kimi ədəbiyyat fənninin də özünəməxsus əhəmiyyəti və keçirilmə üsulları vardır. Ədəbiyyat daim inkişaf edir və şagirdlərə həyatı bədii söz və ifadələr vasitəsilə təsvir və ya tərənnüm edir, onlara lazım olan məlumatları əldə etmələri üçün yol göstərir. Bildiyimiz kimi, ədəbiyyatın əsas struktrunu insan, onun keçdiyi həyat yolu və fəaliyyəti, daha sonra isə təbiət və digər varlıqlar, əşyalar əhatə edir. Təhsil sənədinə əsasən qəbul edilmiş yeni qayda ədəbiyyat fənninə də öz təsirini göstərdi. Belə ki, yeni icmal, plan və dərsliklər tərtib olundu. Ədəbiyyat fənninin məzmununda mühüm dəyişikliklər özünü göstərdi. Tərtib olunan yeni məzmun, forma və digər dəyişikliklər öz bəhrəsini tezliklə göstərdi. Bununla da artıq şagirdlər tədris zamanı yalnız dinləyici deyil, eyni zamanda dərsin aparıcı üzvləridir. Müəllim isə ənənəvi dərsdəki kimi təkbaşına idarə edən, dərs boyu izahatlar verən deyil, fasilitator- yəni bələdçi rolundadır, şagirdlərin tədris prosesində göstərdikləri fəallığa diqqət yetirəndir.

Dərsdə müasir təlim texnologiyalarını tətbiq etməklə, ənənəvi təlim sistemini dəyişərək ona tədqiqat xarakteri verməkdən və biliklərin mənimsənilməsi prosesində şagirdi əsas sima etmək və onu təlimin subyektinə çevirmək mümkündür. Belə ki, bu prosesdə müəllim biliklərin əldə edilməsi yolunun bələdçisi, şagird isə tədqiqatçı, bilikləri kəşf edən rolunu oynayır. Əgər öyrənilən biliklər müasir həyatla, cəmiyyətin inkişafı ilə əlaqələndirilmirsə həmin bilik şagird üçün maraqsız olur.

Ədəbiyyatın tədrisinin başlıca vəzifəsi şagirdlərdə bədii zövqün inkişaf etdirilməsinə kömək etmək, onlarda əxlaqi sifətlərin yaradılmasına yardımçı olmaq, nitq və təfəkkürlərinin inkişafına, ədəbi bədii əsərlər vasitəsilə həyatı daha dərindən öyrənməyə kömək göstərməkdən ibarətdir. Qeyd etdiyimiz vəzifələr bir-birilə sıx bağlıdır və onların yerinə yetirilməsi ədəbiyyatın tədrisinin düzgün yollarla aparılmasından, ədəbi bədii əsərlərin təhlil edilməsindən asılıdır.

Ümumiyyətlə, ədəbi əsərlər şagirdlərin duyğu, düşüncə və xəyal dünyasını inkişaf etdirir, onun zənginləşməsinə kömək edir. Ədəbi əsərlərin məqsədi faktiki biliklər vermək deyil. Ədəbi əsərlər yazıldıqları dövrün dil, mədəniyyət və ənənəsini özündə əks etdirir.

Ədəbiyyatın əsas mənbəyi həyat olsa da, onu hansı şəkildə oxucuya çatdırmaq metodları və üsulları müxtəlif cür ola bilər. Ədəbi metodun ictimai həyatı,cəmiyyəti, təbiəti, surətlərin hiss və düşüncələrini özünəməxsus şəkildə əks etdirmə, bədii inikas prinsipləri, qanunauyğunluqları vardır. Sənətkarların yaradıcılıq üslubları nə qədər fərqli olsa da, onların həyata baxışlarında, dünyagörüşlərində, sənətə estetik münasibətlərində, təsvir və ya tərənnüm üsullarında bir ümumilik nəzərə çarpır ki, buna ədəbiyyatşünaslıqda bədii metod deyilir. Sənətkarın dünyagörüşü və onun yaradıcılıq üslubu ədəbi metoddur.

Ümumtəhsil məktəblərimizdə dərsliklərdə bədii əsərlər tədris üçün seçilərkən tarixi-mədəni ənənələrimiz, ədəbi təhsil sisteminin zəngin təcrübəsi nəzərə alınmışdır. Seçilmiş bu bədii nümunələr vasitəsilə milli və mənəvi dəyərlərimiz, vətənpərvərlik, soykökünə bağlılıq, təbiətə qayğıkeş münasibət, insanlara hörmət hissi aşılanması imkanları diqqət mərkəzində saxlanılmışdır.

Məlumdur ki, ədəbiyyat fənninin tədrisinin əsasında bədii əsərlərin oxusu və təhlili dayanır. Ədəbi-bədii nümunələrin ədəbiyyat dərslərində müzakirəsi şagirdlərdə oxuya, qiraətə maraq və oxucu üçün vacib olan bacarıqlar formalaşdırmalı, inkişaf etdirməli və beləliklə, söz sənəti nümunələrinin müstəqil mütaliəsinə gətirib çıxarmalıdır.

Ədəbiyyat təlim fənni kimi şagirdlərin məntiq və tənqidi təfəkkürlərinin inkişafında xüsusi əhəmiyyətə malikdir. Bu dərsləri tədris edən zaman müəllim müasir elmi-texniki tərəqqinin nailiyyətlərindən şəraiti nəzərə alaraq yararlanmalıdır. Müasir təhsilin əsas məqsədi tədris olunan təlim fənlərini dərindən mənimsəyən, həyat hadisələrinə obyektiv yanaşan, düşdüyü hər bir vəziyyətdən çıxış yolu tapa bilən bir şəxsiyyət yetişdirməkdir. Buna görə də daim yenilənən dünyanın təhsil sistemində olan mütərəqqi metodlardan yararlanmaq önəmli məsələlərdəndir.

İstənilən ədəbi növün, istənilən bədii yaradıcılıq məhsulunun təhlilə ehtiyacı var. Ədəbi təhlil ümumiyyətlə, ədəbi zövqün formalaşmasına xidmət etməklə yanaşı, ədəbi-bədii əsərlərin qiymətləndirmə kriteriyasını da

müəyyənləşdirir. Məlumdur ki, ədəbiyyat fənninin tədrisinin əsas vəzifələrindən biri budur ki, şagirdlər tədris olunan əsərlərin məzmununu mənimsəsinlər, onların mövzu və ideyasını öyrənsinlər, əsərləri təhlil etməyi bacarsınlar. Dərsliklərdə təhlillər bu prinsiplərlə aparılmadığından ayrı-ayrı əsərlərin mövzusu, ideyası, qısa məzmunu, ədəbiyyatımızdakı rolu, tərbiyəvi əhəmiyyəti, hətta əsas surətləri şagirdlər üçün qaranlıq qalır. Əsəri təhlil edərkən obrazı səciyyələndirmək, əsərin bədii xüsusiyyətlərini,onun ideyasını açmaq, əsərin quruluşunu, onun səciyyəvi xüsusiyyətlərini, peyzaj və əşya təsvirini ayrı-ayrılıqda açmaq, təhlil etmək lazımdır. Həmçinin bunların əsasında əlaqə yaratmaq, hamsını əsərin ümumi təhlilinin ixtiyarına vermək lazımdır. Bu səbəblə də, təhlilin bütün elementləri vahid bir xətt üzərində birləşdirilməli və dövrün əsas ideyasının qabarıq göstərilməsinə kömək etməlidir.

Ədəbi əsərin təhlili zamanı müəllifin sözdən necə istifadə etməsini araşdırmaq, aydınlaşdırmaq lazımdır. Çünki bədii söz sənətkarın əks etdirdiyi ideyanı oxucuya və ya dinləyiciyə çatdıran əsas vasitələrdən biridir. Ustad sənətkar o yazıçıdır ki, sözdən, onun məna çalarlarından,bədii təsir gücündən və ifadə vasitəsindən bacarıqla istifadə edə bilir.

Ədəbi bədii əsərin əsas obyekti insan olsa da, onun müxtəlif əşya və hadisələrə əlaqə və münasibətindən doğan hiss və düşüncələridir. Beləliklə, ədəbi bədii əsərlərin məzmunu dedikdə, hər şeydən öncə sənətkarın təsvir obyektini xatırlamaq və onun nəyi təsvir və ifadə etdiyini düşünmək lazımdır. Çünki, sənətkar öz fikrini ictimai həyatdakı insan xarekterləri, təbiət təsvirləri, hadisələri ümumiləşdirir və oxucuya çatdırır. Ədəbi əsərin məzmunu dedikdə sənətkarın təbliğ etdiyi bədii xüsusiyyətlər nəzərdə tutulur.

Əsər üzərindəki işin əsas mərhələsini mətnin təhlilinə sərf olunan xüsusi dərslər təşkil edir. Təhlil dərslərində əsasən aşağıdakı məsələlərə diqqət yetirilməlidir:

1. Bədii əsərlərin ideya-məzmunu ilə bədii formasının vəhdəti məsələsi;
2. Bədii obrazların öyrənilməsi və onların səciyyələndirilməsi;
3. Əsərin kompaziyası üzərində iş;
4. Əsərin bədii dilinin təhlili;
5. Bədii əsərdəki peyzaj, portret və əşya təsvirinin təhlili;

Dərsin təşkili forması təhlil dərslərində öncədən dəqiqləşdirilməlidir. Dərsin təşkilinin bu forması müxtəlif cür ola bilər: bəzən əsərin təhlilini müəllim tamamilə öz üzərinə götürür, bəzən isə təhlil vaxtı şagirdlər əsər üzərində müstəqil işlədilir. Şagirdlərin əsərin təhlili üzərində müstəqil işləmələri üçün öncədən tapşırıq və sualların verilməsi daha məqsədəuyğun

olar. Belə sual və tapşırıqların verilməsi, dərs zamanı təhlilin necə aparılması tədris zamanı əsas cəhətlərdəndir.

Əsərin təhlili zamanı şagirdlər əsər üzərində mümkün qədər müstəqil işləməyə, onun bədii xüsusiyyətlərini düzgün şəkildə dərk etməyə doğru istiqamətləndirilməlidir. Şagirdlər təhlil zamanı qeyd edilən fikirləri mexaniki şəkildə qəbul etməməli, öz fikirlərini,düşüncələrini əsərdən gətirilən sitatlar, dəlillər və ya sübutlar əsasında təsdiq etməyi bacarmalıdırlar. Əsərin təhlili zamanı həmişə standart yol ilə getmək düzgün deyil. Tədris olunan hər bir əsərə xüsusi yanaşılmalı və əsərin əsas qayəsi, ideyası hansı xüsusiyyətdə özünün gostərirsə, əsərin təhlilinə də elə oradan başlamaq lazımdır.

Müəllim əsərin tədrisi zamanı onun üzərində işə başlayarkən ilk öncə məzmun standartlarını və standartların tələbinə uyğun təlim nəticələrini müəyyənləşdirir. Tədris zamanı həmin nəticələrə nail olmaq üçün müasir metodikada müxtəlif cür təlim üsulları vardır. Elm və texnikanın inkişafı ilə əlaqədar olaraq, istifadə etdiyimiz üsullara demək olar ki, hər gün yeni üsullar əlavə olunmaqdadır. Müəllim eyni bir dərsdə müxtəlif üsul və ya metodlardan istifadə edə bilər.

Şagirdlərə təhlil zamanı müqayisəni əvvəlcə kiçik və daha sadə nümunələr əsasında, sonra isə daha mürəkkəb sxemlər üzərində aparmağı təklif etmək səmərəlidir. Təhlil zamanı müqayisə şagirdlərə həyati bacarıqların formalaşmasında, inkişafında və insanları anlama, tanıma və qiymətləndirmədə lazım olur.

Bədii ədəbi materialın mənimsədilməsində və təhlil bacarıqlarının inkişafında istifadə olunan üsullar çoxdur, lakin əsər haqqında hazır təhlil modellərindən, formalarından istifadə etmək düzgün yol deyil. Bu, şagirdlərin təfəkkürünü inkişaf etdirmək əvəzinə, mexaniki əzbərçiliyə gətirir. Müasir təhsilimizin məqsədi isə müstəqil düşünməyi, qərar çıxarmağı, tənqidi və məntiqi yanaşmağı bacaran şəxsiyyət yetişdirməkdən ibarətdir.

Ədəbiyyat

1. Əhmədov C. “Ədəbiyyatın tədrisi metodikası”, Bakı, 2009
2. Qarabağlı Ə., Quluzadə M., Əfəndiyev S. “Ədəbiyyat metodikası”, Bakı, 1952
3. Hüseynoğlu S. “Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal-interaktiv təlim”. Bakı, 2009

A.Quliyeva

Teaching to children the ideology of the literary works
Summary

Each artistic creativity needs an analysis. Artistic analysis serves to formulate artistic language. The students should work independently in the analysis of the work. They must be able to verify then views.

It is not true to go through a standart way of analysing the work. The teacher can use different methods and ways in the some lesson. Compare helps to improve students thinking during analysis.

There ar many ways to teach artistic compesition.

The goal of an modern education is to educate individuals who are able to think independently.

А.Гулиева

Обучение школьникам творческого произвидения
Резюме

Любой продукт художественного творчества нуждается в анализе. Формирование литературной критики литературного анализа. Учащиеся должны работать самостоятельно при анализе проивидения. Он должен быть в состоянии подтвердить свои взгляды.

Это не всегда правельный способ, во время анализа своей творческой работы по стандартному пути. Учитель может использовать разные методы на одинаковых занатиях. В ходе анализа сравнения помогают развить мышление школьникам.

Существует много способов преподавать изусения художественного творчества. Использование нужных произвидений в готовой форме анализа является не верны. Цель вашего современного образования - воспитывать людей, способных мыслить самостоятельно.

Rəyçi: Əmədova Aygün
Filologiya üzrə fəlsəfə doktoru dosent

AYNUR HƏSƏNOVA
Azərbaycan Dillər Universiteti
aynur.hasanova1992@gmail.com

ELİZABET BOİNİN "SEVGİ DÜNYASI" ROMANININ PSİXOLOJİ ASPEKTDƏ ÖYRƏNİİMƏSİ

Açar sözlər: ziddiyyətli sevgi, keçmişin izləri, vəfasızlıq, etiraf, gizli məqamlar
Ключевые слова: противоречивая любовь, следы прошлого, неверность, исповедь, тайные моменты
Key words: contradictory love, traces of the past, infidelity, confession, secret moments

Elizabet Boin 1899-cu ildə İrlandiyanın Dublin şəhərində anadan olmuş, lakin 1907-ci ildə İngiltərənin Hayt şəhərinə köçmüşdür. Ədəbi yaradıcılığa qələm yoldaşı Rouz Makoliyinin köməkliyi ilə 20 yaşında ikən "Təsadüfi görüşlər" ("Encounters") adlı kiçik hekayələr toplusu ilə başlamışdır. Yaradıcılığı boyunca bir çox kiçik hekayələrin və inşaların müəllifi olan ədibin ilk romanı isə dörd ildən sonra 1927-ci ildə nəşr olunmuşdur. Yazıçının 1955-ci ildə aldığı qələmə aldığı sayca 5-ci olan "Sevgi dünyası" ("A World of Love") adlı romanını yazıçıya şöhrət qazandıran əsərləri arasında qeyd etmək olar. İrland yazıçının digər əsərlərində olduğu kimi bu əsərində də İrlandiyaya kiçik bir səyahət edilir. Qeyd edək ki, İrlandiya Avropanın qərbində yerləşən və Britaniya adalarında tez-tez böyük qonşusu olan Birləmiş Krallığın kölgəsində qalan kiçik bir ölkədir. Əsərdə hadisələr də İrlandiya torpağında cərəyan edir və yazıçı bu roman vasitəsilə o dövrün əsas hadisələrini özünəməxsus şəkildə açıb göstərmişdir. Bir sözlə əsəri oxumaq kifayət edir ki, oxucu o dövrün ruhunu duyub anlaya bilsin. Romanın süjet xəttinin kifayət qədər sadə olmasına baxmayaraq, müəllif öz daxili dünyagörüşü, zəngin söz ehtiyati və geniş təcrübəsi ilə əsərə bir ayrı məna yükləmiş və oxucuda əsərə qarşı maraq oyada bilmişdir. Əsər 1950-ci ilin əvvəlləri isti yay günlərinin birində 20 yaşlı Ceyn Denbinin "sevgi aləmi"ni aşkar etməsi ilə başlayır. Valideynləri Fred və Liliya isə yaşayışlarını Antoniaya məxsus kənd malikanəsini idarə etməklə təmin edirlər. Qeyd edək ki, bu malikanə birinci dünya müharibəsində həyatını itirmiş əmisi oğlu Qay tərəfindən ona miras qalıb.

Bir dəfə qonşuluqda yaşayan xanım Lətəli ziyafət təşkil edir.Həmin ziyafətdən sonra bir axşam Ceyn Lətəlinin geyindiyi şlyapanı gətirmək üçün çardağa yollanır. Oradan çıxarkən, köhnə sandıq Ceynin diqqətini çəkir və özünü saxlaya bilməyib onu açır. O, köhnə, lakin öz gözəlliyi ilə göz

qamaşdıran bir don tapır. Donu götürmək istəyəndə, təsadüfən, zərfin içində olan məktublar yerə dağılır və elə hər şey də bundan sonra başlayır. Evə qayıdarkən, o, məktublara göz gəzdirir, lakin diqqətlə oxumadığından və bəzi sətrləri ötürdüyündən, məktubun harada, nə zaman, kim tərəfindən yazıldığını və kimə ünvanlandığını öyrənə bilmir. Onların isə hamısı anası Liliya tərəfindən sevdiyi oğlana yazılmış məktublar idi. Növbəti gün ailəsi ilə birgə süfrə arxasında nahar edərkən, Ceyn başına gələnləri ailə üzvlərinə danışır. Özü də bilmədən anasının keçmişi ilə bağlı xoşagəlməz məsələləri yenidən gündəmə gətirməsi ilə anası Liliyanın və onu çox yaxın dostu və sirdaşı olan Antonianın qarşıdurmasına səbəb olur. Bu söhbət daha da alovlanır və əsərdin bu hissəsində çox qəribə bir səhnə yaranır. Ceynin atası Fred və 12 yaşlı bacısı Maud da söhbətə biganə qala bilməyib, mübahisəyə qoşulurlar. Belə ki, onların yaddaşında məyusluq və kədərlə dolu acı xatirələr canlanır. Ceyn isə düşündüyünün tam əksi ilə qarşılaşanda təəccüb hissi keçirərək qərara alır ki, bildiklərinin hamısını onlara deməsin, çünki qarşıda gələcəyi ilə bağlı maraqlandıran daha önəmli işlər dayanırdı. Bu mübahisənin yaranması isə pis nəticələrə aparıb çıxara bilərdi. Ələlxüsus, xanım Lətəli onu qəsrdəki evinə dəvət etdikdən sonra Ceyn artıq daha fərqli həyata meyl edir. anım Lətəlinin həyat tərzi, geyim və davranışları, həddi-buluğ yaşına çatmış Ceyndə öz təsirini qoyaraq, onda, hətta nəzərəçarpacaq dəyişikliklərin yaranmasına gətirib çıxarırdı. Bu təsirin müsbət və ya mənfi olmasını isə zaman özü göstərəcəkdi. "Sevgi dünyası" əsəri fəlsəfi roman olub, sevgidən və onun xoşagəlməz nəticələrindən, təəssübkeşlikdən bəhs edir. Əsərdə bir-birinə zidd və fərqli olan xarakterlərin təzahürü, personajların bir-birilə olan sadə və duyğusal dialoqları, düçar olduqları əziyyətlər, çıxılmaz vəziyyətlər, sonu qaçılmaz olan acı nəticələr və başlarına gələn digər müxtəlif hadisələrlə I Dünya müharibəsinin o dövrün insanlarına, onların yaşayış tərzlərinə, həyatdakı seçimlərinə və düşüncələrinə təsiri müəllif tərəfindən ustalıqla təsvir olunmuşdur. Bu baxımdan, "Sevgi dünyası" romanını bədii-fəlsəfi əsər olmaqla yanaşı, psixoloji roman da adlandırmaq olar. Buna baxmayaraq, qeyd etməliyik ki, əslində, əsərdə düşündüyümüz qədər də çox hadisə baş verməyib. Haqlı olaraq deyə bilərik ki, yazıçı nəzərdə tutduğu əsas və ana fikri, qısa müddətdə-yalnız 3 günün içində baş verən hadisələr vasitəsilə məharətlə oxucusuna ötürə bilmişdir. Bu isə bir daha ədibin daxili aləminin zənginliyindən, öz peşəsini mükəmməl şəkildə bilməsindən və güclü dünyaduyumundan irəli gəlir. Müəllifin əsərdə istifadə etdiyi "köhnə malikanə, mənzərəli görünüş və insan nəfəsini kəsən isti" kimi bir çox simvolik vasitələr əsərin baş qəhrəmanlarının və eləcə digər personajların psixoloji durumlarını, xatirələrin onların həyatına yansımasını özündə əks etdirir. Əsər macəra və ya hadisələr baxımından zəngin olmasa da, izlənilən

qəfil dəyişikliklər və gözlənilməz sonluq əsərin oxucu rəğbətini qazanmasına səbəb olmuşdur. Əsərdə həlledici məqamlardan biri də Ceynin valideynləri Fred və Lilia arasındakı səmimi söhbətdir. Ceynin valideynləri ilə bağlı bölmə, fikrimcə, daha maraqlı və həssas bölmədir. İllərdir evli olan, hər an tənəzzül etmək təhlükəsi ilə üz-üzə qalan Fredlə Lilianın münasibətini, bir növ "seysmik münasibət" də adlandırmaq olar. Elizabet Boin fotoqrafiya ilə yaxından maraqlandığı üçün əsərlərində və qısa hekayələrində də personajların, malikanənin, parkın vizual təsvirini verərək əsərlərinə sanki bir rəng qatmışdır. Bu təsviri biz yazıçının "Sevgi dünyası" əsərində daha aydın şəkildə görə bilərik. Təbiətin füsunkar təsvirini verən, muncuqları sapa düzən kimi sözləri də zərgər dəqiqliyi ilə seçərək bir-birinin ardınca düzən yazıçı, nəhayət, oxucuda hadisələrin gerçək bədii mənzərəsini, real görüntüsünü yaratmağa nail olur. Misraları oxuduqca, insan özünü sanki həmin təbiətin qoynunda hiss edir və beləliklə, oxucunun xəyalında canlanan təbiətin əsrarəngiz gözəlliyi onu valeh edir. Buna baxmayaraq, Fredlə Liliyanın dialoqlarındakı sükutu "möcüzəvi fasilə" ("majestic pause") adlandıran Boin, onlar arasındakı danışıqların o qədər də möcüzəvi dəyişikliklərə səbəb olmayacağını, dəyişiklik olmuş olsa belə, iyirmi illik ailə həyatı üçün bunun çox cüzi olduğunu diqqətə çatdırır. Tərəflər danışıq əsnasında yalnız sözlərin gücü sayəsində ortaq mövqeyə gələrək aralarındakı uçurumu aradan qaldırmağa cəhd edir və münasibətlərini bir müddətlik olsa da qoruyub saxlaya bilirlər. Liliyanın vaxtilə başqa birisini sevməsi, lakin oğlanın onun bu istəyinə qarşılıq verməməsi və Liliyaya olan vəfasızlığını şabalıd ağacı altında əri Fredlə açıq şəkildə bölüşməsi ər-arvad arasındakı söhbətin əsas mövzusudur. Maraqlısı budur ki, Liliyanin hər şeyi olduğu kimi etiraf etməsi nikahlarının pozulmasına aparıb çıxarmır, əksinə, onun bu səmimi etirafları münasibətlərindəki soyuqluğu aradan aparır. Təbii olaraq, biz insanlar həyatı təcrübəmizə əsaslansaq, dialoq zamanı Fred və Liliya arasında nələrin baş verdiyini anlamağımız heç də çətin olmaz. Psixologiyada da belə bir nəzəriyyə var ki, əgər problem haqqında danışmağa başlayır, onu ən yaxınınla bölüşürsənsə, o, sanki öz-özlüyündə möcüzəvi şəkildə həllini tapır – Fred ilə Liliyada olduğu kimiOnlar da əslində nəyisə həll etməyə can atmırlar, sadəcə onları narahat edən keçmişləri ilə bağlı danışır və beləcə uzunmüddətli evliliklərindəki soyuqluğun səbəbini də ortaya çıxarırlar. Lakin Fred və Liliya ilə bağlı son səhnə aralarındakı gərginliyin səmimi söhbətlərinə baxmayaraq, hələ də azalmadığını göstərir. Son səhnədə biz cütlüklərin demək olar ki, bir-birindən aralı vəziyyətdə oturduğunun şahidi oluruq.Yazıçı burada da çox maraqlı ifadədən ("almost apart") istifadə etməklə nəzərə çatdırmaq istəyib ki, aralarında səmimi münasibət yaransa da keçmişin soyuqluğu hələ də

onları tərk etməmişdir; lakin nə qədər ayrı olsalar belə, eyni zamanda hansısa məqamda ailə bağı onları birləşdirir.

Boin, həmin romanda romantik abu-hava yaratmağı və bunu ləyaqətli bir şəkildə ortaya qoymağı bacarır. Özünün Anglo-İrlandiya köklərinin itkin düşdüyü üçün o, bu nostalji hissləri əsərində yaşatmaq istəyir. Yazıçı obrazların dili ilə yeni düzənin boşluğunu (nouveau riche) tənqid edir. Bunun üçün o, Antoniya və Liliya obrazlarından istifadə etmək qərarına gəlir. Hər iki obraz vasitəsilə müasir dövrdəki "romantik hisslər" anlayışının gənc nəsil tərəfindən tam mənası ilə qavranılmadığını, lazımi qədər dəyərləndirilmədiyini ürək ağrısı ilə qeyd edir. Antoniyanın Liliyanın istəyinə biganə yanaşmasını sübut gətirərək onlar arasındakı hisslərin saxta olduğunu göstərir. Əvvəldə qeyd etdiyimiz kimi əsər müəmmalı sonluqla bitir. Belə ki, əsəri maraqla oxuyan oxucu sonda Fredlə Liliyanın yeni yolun başlanğıcında olduqlarını, yəni münasibətlərini bərpa edəcəklərini, yoxsa ortaq məxrəcə gələ bilməyib fikir ayrılığına görə əvvəlki həyatlarına davam edəcəklərini bilmədən intizar halında qalırlar, bəzi məqamlarda isə oxucu özündən asılı olmadan Fred və Liliya evliliklərini qaydasına sala bilməsələr belə, ən azından onların ayrılmamasını arzulayır. Hadisələrin gedişatından belə görünür ki, qəhrəmanlar heç özləri də bunun sonunun nə olacağından xəbərsizdirlər – davammı, yoxsa tamammı sualı əsər boyu onları izləməkdə davam edir.

Ədəbiyyat siyahısı

1. Bowen, E. (1993) A World of Love. London: Penguin Twentieth Century Classics.
2. https://www.enotes.com/topics/world-love
3. **https://www.britannica.com/biography/Elizabeth-Bowen**
4. https://www.goodreads.com/author/show/52578.Elizabeth_Bowen
5. **https://www.theguardian.com/books/2017/feb/15/elizabeth-bowen-**author-fiction

A.Həsənova

Analysis of Elizabeth Bowen's novel "A World of Love" in psychological aspect

Summary

A deeply exploring man's psyche, the writer has clarified many vital issues, revealing deeper mental nuances and uncertainty for the masses and many who are unaware of it.

The work I have studied is probably not among the best works of Elizabeth Bowen, but in my opinion, even if the volume is small, it can be

called powerful novel, which can make the reader familiar with the age of the writer and even to make radical changes in his thoughts on love. How can they say: "Let there be no power!" Additionally, despite the fact that the novel does not have much popularity as the writer's works such as "The Death of the Heart", "The Heat of the Day", the events that are here, the tense moments that thrill the reader draw attention to its accuracy, emotionality and happening of everything in a very short time. Since the time of marriage, it is the first time that they share their problems openly and sincerely that cause their advancement. During the conversation, couples discuss their problems by shaking their marriage, and talk about their unfaithfulness and betrayal. Even though they are married for more than twenty years, they live as two alien men under a roof, and even refuse to share a bed for a long time.

А.Гасанова

Анализ романа Элизабет Боуэн «Мир любви» в психологическом аспекте

Резюме

Глубоко исследуя психику человека, писатель разъяснил много важных вопросов, раскрывая более глубокие умственные нюансы и неопределенность для масс и многих, кто этого не знает.

Работа, которую я изучил, вероятно, не входит в число лучших работ Элизабет Буэн, но, на мой взгляд, даже если объем невелик, его можно назвать мощным романом, который может сделать читателя знакомым с возрастом писателя и даже с радикальные изменения в его мыслях о любви. Как они могут сказать: «Пусть не будет силы!» Кроме того, несмотря на то, что роман не имеет большой популярности, как произведения писателя, такие как «Смерть сердца», «Жара дня», события, которые здесь, напряженные моменты, которые волнуют читателя, привлекают внимание к его точности, эмоциональности и всему происходящему за очень короткое время. Со времени брака они впервые открыто и искренне разделяют свои проблемы, которые вызывают их продвижение. Во время разговора пары обсуждают свои проблемы, встряхивая свой брак, и говорят о своей неверности и предательстве. Несмотря на то, что они женаты более двадцати лет, они живут как два чужих человека под крышей и даже отказываются долгое время ложиться спать.

Rəyçi: Pakizə Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

GÜLSURƏ HÜSEYNOVA
Silahlı Qüvvələrin Hərbi Akademiyası
gulsura@mail.ru

"ƏKİNÇİ" QƏZETİNDƏ HƏRBİ İNFORMASİYALAR

Açar sözlər: "Əkinçi" qəzeti, "Tifliskiy vedomosti", "Zaqafqazskiy vestnik", "Qafqazın bu tərəfinin əxbarı", ilk hərbi qəzet, ilk hərbi jurnal, hərbi informasiya,
Key words: article, information, news, battle conditions, publicity, published
Ключевые слова: статья, информация, новости, условия битвы, публисистика, опубликованные

"Tifliskiy vedomosti" (1828-1832) qəzetinin gürcü, Azərbaycan, erməni dillərində əlavələri nəşr edilirdi. "Zaqafqazskiy vestnik" (1838-1846) qəzetinin Azərbaycan dilində nəşr olunan vərəqi "Qafqazın bu tərəfinin əxbarı" adlanırdı, bu vərəqə-qəzet dörd il yarım nəşr edildi. Müstəqil olmadıqlarına görə "Tifliskiy vedomosti" qəzetinin əlavəsi də, "Zaqafqazskiy vestnik" qəzetinin Azərbaycan dilində nəşr olunan vərəqi - "Qafqazın bu tərəfinin əxbarı" da milli mətbuatımız hesab edilmir. Digər tədqiqatçılar kimi N.Zeynalov da (21, 18), A.Aşırlı da (18, 10) bu fikirdə israrlıdır və haqlıdır. Əlavənin nəşri qəzetin nəşrindən asılı olduğu üçün onu müstəqil qəzet adlandırmaq olmaz. Belə ki, "Qafqazın bu tərəfinin əxbarı", müəyyən mənada, sonralar deyildiyi kimi, qəzetdə qəzet idi.

"Həsən bəy Zərdabi yeddi il çəkən mübarizələrdən sonra "Əkinçi" qəzetinin nəşrinə icazə ala bildi (24). Azərbaycanın ilk milli qəzeti nəşrə başladı.

Qəzetin ilk sayında Həsən bəy Zərdabi yazırdı: "Hər kəsi çağırıram, gəlmir, göstərirəm görmür, deyirəm qanmır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri əlac yoxdur. Olmaz ki, məni eşidənlərdən heç qanan olmasın. Necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir, habelə söz də, ələlxüsus da doğru söz. Belədə qəzet çıxarmaqdan savayı bir qeyri-əlac yoxdur" (22).

"Əkinçi" qəzetində dərc edilən informasiyalar oxucuya məlumat verirdi və bu informasiyalar, müəyyən mənada, tarix hesab edilməlidir. Bu informasiyaların mahiyyətini nəzərə alsaq, deyə bilərik ki, "Əkinçi" qəzeti həm də tarixi yaşadıb. Məramı maarifləndirmək olan "Əkinçi" qəzetinin "Tazə xəbərlər" şöbəsində dərc edilən belə informasiyalar istər coğrafiyasına, istərsə də məzmununa görə fərqlidir.

İnformasiyalar məzmunu etibarilə həm də vətənpərvərlik hisslərinin gücləndirilməsinə istiqamətlənirdi. Dövlətə, dövlətçiliyə çağırış təsirində qəbul edilməli belə informasiyalar, müəyyən mənada, təbliğati xarakteri ilə səciyyəvidir. Qəzetin 2 fevral 1977-ci il tarixli sayında nəşr edilən informasiya bu baxımdan diqqəti çəkir:

"İstanbuldan yanvarın 31-dən yazırlar ki, Şeyxülislam Həsən Xeyrullah əfəndi özünü əsgərə yazdırmaqdan musəva, mollalara hökm edib ki, özlərini tamam əsgərə yazdırsınlar, ta ki xalq onlara baxıb vətənin qeyrətini çəkməyə rağıb olsun, məzkur Şeyxülislam Avropa elmlərini oxumuş olduğuna nə ki, təzə qanun qoyulmağa razı olub, hətta özü Midhət paşa ilə birgə ol qanunu yazıblar". Qəzetin 5-ci sayında dərc edilən informasiya da eyni mahiyyətlidir: "Gürcüstanın bəyzadələrindən 200 adam öz xahişi ilə əsgər olub". Hansı dövrdə, hansı mahiyyətlə qəbul edilməsindən asılı olmayaraq Vətənə sayğı, vətəndaşlıq duyğuları aşıladığından bu səfərbərediici informasiyalar aktuallığını indi də saxlamaqdadır. "Əkinçi" güman edirdi ki, Şeyxülislam döyüşə gedirsə, bunu mollalardan da tələb edirsə, Gürcüstan bəyzadələri torpağın müdafiəsində iştirak etməyi qərara alırsa, bu faktlar cəmiyyətin başqa təbəqələrinə də sirayət edəcəkdir. Qəzetin 5-ci sayında qeyd edildiyi kimi, necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir.

Əsgərin döyüş və mənəvi hazırlığının istər mövqe döyüşlərində, istərsə də əməliyyatda (həmlə, hücum) əhəmiyyəti məsələsinə "Əkinçi" qəzeti də həssas yanaşırdı. Belə informasiyaların dərc edilməsi qəzetdə hərbi jurnalistika, bu baxımdan hərbi mətbuat ənənələrinin başlanğıcı hesab edilə bilər. Hərbi mətbuat hərbi vəzifələrini məsuliyyətlə yerinə yetirən əsgərin şücaətinin, bu anlamda vətənsevərliyinin mənəvi hazırlığının təbliğatçısıdır. Bu xüsusiyyət "Əkinçi"də də olub.

"Avqustun 12-də Qornistuden. Cənab sərəsgərdən. Dünən sübh tezdən düşmən Şipkanın üstünə 3 tərəfdən gəlib. Bizim əsgər qoçaqlıq edib, hər səfər onları geri oturdub. Bu minval ilə gecə saat 12-yəcən düşmən Şipkadan əl çəkməyib. Ol vaxtda ay tutulduğuna aralıq sakit olub. Əgərçi Süleyman paşanın əsgəri çox olub və bizə hər tərəfdən top atıblar, amma bizim əsgər öz yerlərini saxlayıb. Bu zaman bizim əsgər heç yuxlamıyıb və isti xörək yeməyib. Gərək biz göndərən kömək bu gecə Şipkaya yetişəydi.

Bu gün sübh saat 4-dən gecə düşmən Şipkanın üstə gedir. Dünən günortadan sonra düşmən təzədən Ayasların (Balkanda Ternovi yanında kənddir) üstə gəlib onu alıbdır. Bizim əsgər Sultangöy kəndinə (zikr olunan kənddən bir az aralıdır) gedib.

Bu gün saat 2-dən sonra Şipkada əl davası olmur, ancaq top atılır. Düşmənin sol tərəfini qaçırtmışıq. Bizim dal tərəfdə atılan 2 top götürülüb".

Mahiyyəti etibarilə səfərbəredici xüsusiyyəti dolğunluğu ilə hiss edilən bu informasiya ordu ilə cəmiyyət arasında mövcud münasibətlərin daha da dərinləşməsi istəyinin təzahürü təsirindədir.

Hərbi mətbuatı xarakterizə edən amillərdən biri də yeni silahlar haqda informasiya verməkdir. Bu baxımdan "Əkinçi" qəzetində dərc edilən informasiyalar da diqqəti çəkir. "Əkinçi" ingilis qəzetlərinə istinadən yazır: "...bir şəxs bir alati-hərbiyyə ixtira edib ki, topa oxşayır. Onun ağzına iki qılınc hər biri 6 arşın uzunluğunda bir yerə möhkəmlənmiş qoyub, sonra topu doldurub atanda qılınclar düşmən əsgərinin içinə o daxil olub, altı yüz arşın adamları qırıb gedir" (22, 459).

Hərbi mətbuatı xarakterizə edən amillərdən biri də istər hərbi qulluqçulara, istərsə də mülki əhaliyə müəyyən hərbi biliklər aşılamaqdır. Hərbi cinayətlər hərbi qulluqçulara aiddir. Düşmənin təxribatlarını qabaqlamaq üçün müharibə vaxtı mülki əhalidən də sayıqlıq, diqqətcillik tələb olunur. "Əkinçi" qəzeti bu tələblərə də biganə qalmır, bu kimi tələbləri əhaliyə də çatdırırdı: "...qanuni-əsgəriyyə istənən yerlərdə əsgəriyyə qulluğunda olmayan kəslərin taxsırlarına görə onlara tənbeh etmək xüsusunda hökm edirik: əvvələn, əsgəriyyə qanunu istənən yerlərdə əsgəriyyə qulluğunda olmayan kəslərə əsgəriyyə qanunu üzrə tənbeh olunsun, aşağıda zikr olunan taxsırlara görə:

Padşahın üzünə ağ olmaqdan və dövlətə xəyanət etməkdən ötrü.

Qəsd ilə əsgərə lazım olan mayəntacı odlamaq və qeyr tövr ilə xarab etməkdən ötrü habelə qəsd ilə teleqrafları, dəmiryollarını, su arxlarını, körpüləri, bəndləri və qeyr keçənəcəkləri xarab etməkdən ötrü.

Düşmənin hərəkətindən, yəni hansı tərəfə getməyindən xəbərdar olub və bir qeyr xəbər ki, onu pis əzvəqt bilmək ilə onun əlacını etmək olur, bilib lazım olan yerinə məlun etməməkdən ötrü..." (22, 415).

Göründüyü kimi, "Əkinçi" qəzeti imkanı həddində mülki əhalinin hərbi biliklər baxımından da maariflənməsini təmin edirdi.

Hərbi mətbuatın vəzifələrindən biri də mülki əhalini səfərbəretnədir. “Əkinçi” qəzetində bu xarakterli infarmasiyalar da dərv edilib: “gürcüstanın bəyzadələrindən 200 adam öz xahişi ilə əsgər olub” (22, 416).

Dərc edilən hərbi informasiyalar təsdiqləyir ki, ilk milli qəzetimiz olan "Əkinçi" həm də xalqın vətənpərvərlik hisslərinin təbliğatçısı olub...

“Tifliskiy vedomosti” qəzeti, istərsə də “Zaqafqazskiy vestnik” (1838-1846) qəzetinin Azərbaycan dilində nəşr olunan vərəqi “Qafqazın bu tərəfinin əxbarı” ilk milli qəzet olmadığı kimi, müxtəlif səpkili hərbi informasiyalar dərc edilsə də, “Əkinçi” də ilk hərbi qəzetimiz deyil.

Şərdə ilk demokratik cümhuriyyət olan Azərbaycan Demokratik Respublikası süquta uğradıldı, Azərbaycan müstəqilliyini itirdi, müttəfiq respublika kimi SSRİ-nin tərkibinə daxil edildi.

Dövlətin strukturlarını möhkəmlətmək, "müstəqil" dövlətlərin hamısına eyni münasibət olduğuna inandırmaq, etimad qazanmaq üçün təkcə Rusiyada deyil, müttəfiq respublikalarda da müxtəlif istiqamətlərdə inkişafa diqqət yetirilirdi. Bu diqqət əslində, imperiyanın mənafelərinə istiqamətlənir, dövlətin möhkəmlənməsini təmin etməyə hesablanırdı. Bütün dövrlərdə dövlətin möhkəmliyi, gücü bilavasitə onun ordusunun gücü ilə bağlı olub. Silahlı Qüvvələrinin inkişafına, formalaşmasına da diqqət yetirən SSRİ siyasi səbəblərə görə müəyyən məhdudiyyətlərlə respublikalarda da ordu quruculuğuna, ordunun formalaşmasına maraq göstərirdi.

Azərbaycan Demokratik Respublikasının ilk Hərbiyyə naziri tam artilleriya generalı S.Mehmandarov 1919-cu il 2 aprel tarixli məruzəsində nazirliyin hərbi jurnalının nəşr olunmasını zəruri bilirdi [1, 93]. Generalın bu arzusu Azərbaycan Demokratik Respublikası süquta uğradıqdan sonra reallaşdı.

Qey edildiyi kimi, milli mətbuatımızın ilki olan "Əkinçi"nin "Tazə xəbərlər" şöbəsində hərbi təmayüllü informasiyalar da dərc edilirdi [2, 136]. Lakin bu, hərbi mətbuat deyildi. Azərbaycanda ilk hərbi mətbu orqan 1920-ci ildə nəşrə başlayan "Qırmızı əsgər" qəzetidir. Qəzet 1925-ci ildən "Qızıl əsgər" adı ilə davam etdirilib. Baş redaktoru Hacıbaba Nəzərli olan bu qəzet 10 ildən çox nəşr olunub.

SSRİ-də formalaşmaqda olan orduda zabitlərin yeni hərbi biliklərə yiyələnməsi prosesini tənzimləməkdə əlavə vasitə kimi mətbuatın gücündən də istifadə edilirdi. Bu baxımdan nəşr edilən hərbi mətbuat yetərli deyildi. Qəzet, əsasən, kütləviliyə xidmət edir və informativ mətbu orqandır. Jurnalın imkanları, yerinə yetirməli olduğu vəzifələr daha genişdir. "Qızıl əsgər" qəzeti hərbi bilikləri zabitlərə, bu baxımdan kiçik komandirlərə dolğunluğu ilə çatdıra bilmirdi.

30-cu illərin ortalarında Azərbaycanda savadsızlıq tamamilə ləğv edilməmişdi. Hərbi xidmətə çağırılanların bir hissəsi yazma-oxuma bacarmırdı. Belə bir dövrdəAzərbaycanda dağ atıcı diviziyasında xidmət edən əsgərlərə bu və ya digər hərbi biliyin, hərbi vərdişin aşılanması çətin idi [3, 373]. Rusiya ordusunda xidmət etmiş zabitlər hərbi təhsilini rus dilində almış, hərbi bilikləri rus dilinin terminologiyası əsasında mənimsəmişdi və təbii ki, bunları tabeliyində olan hərbi qulluqçulara anlaşıqlı səviyyədə mənimsətməkdə çətinlik çəkirdi. Yəni, başlıca problem dil problemi idi. Bu və ya digər hərbi biliyi zabit məhz Azərbay-

can dilində mənimsəməliydi ki, tabeliyində olanlara da mənimsədə bilsin. Belə bir missiyanı mətbu orqan yerinə yetirə bilərdi.

Belə bir şəraitdə Azərbaycanda 1928-ci ilin may ayından dağ atıcı diviziyasının siyasi şöbəsinin orqanı olan "Hərbi bilik" aylıq hərbi-siyasi jurnalı nəşrə başladı. 1000 nüsxə ilə nəşr edilən jurnalın məsul redaktorları Həsən Rəhmanov və Cəmşid Naxçıvanski idi. Hər iki zabit 1937-ci ildə güllələndi [4, 234].

"Savadlı qırmızı əsgər" jurnalı 1922-ci il sentyabr ayının 1-də nəşrə başlayıb (1922 -1924-cü illər), sonra "Qızıl əsgər" (1925-ci ildən) adı ilə nəşr edilib. Tam artilleriya generalı Əliağa Şıxlinskinin təklifi ilə jurnalın adı 1928-ci ildə dəyişdirilib və nəşrini "Hərbi bilik" kimi davam etdirib. "Hərbi bilik", "Savadlı qızıl əsgər" və "Qızıl əsgər" jurnalları ilə müqayisədə həm tərtibat-poliqrafik, həm də məzmun-peşəkarlıq baxımından nəzərəçarpacaq dərəcədə fərqlənirdi ki, bu da Azərbaycanda hərbi mətbuatın formalaşdığını təsdiqləyirdi. Həmin müddət ərzində "Savadlı qırmızı əsgər"in 14, "Qızıl əsgər"in 6, "Hərbi bilik"jurnalının 10 sayı nəşr olunmuşdur.

Azərbaycan diviziyasının orqanı kimi ayda bir dəfə nəşr olunan "Savadlı qırmızı əsgər" əsgərlər üçün nəzərdə tutulan, əsgərlərin savadlanmasına, döyüş hazırlığının yüksəldilməsinə xidmət edən siyasi, ictimai, ədəbi-elmi jurnal idi. İstər hərbi informasiyalara malik olan məqalələr, istərsə də müxtəlif janrlarda təqdim edilən kiçik bədii nümunələr əsgərlərin vətənpərvərlik duyğularını yüksəldirdi. Doğrudur, belə nümunələr bədii səviyyəsi ilə dolğun olmasa da əsgərlərin dünyaduyumunun zənginləşməsində müəyyən əhəmiyyətə malik idi.

"Hərbi bilik" jurnalında dərc edilən məqalələrin, tədqiqatçı Şəmistan Nəzirlinin yazdığı kimi, "...əksəriyyəti sənətkarlıq baxımından səviyyəcə aşağı idi" [5, 93].

Jurnalın birinci sayında baş məqalədə mətbu orqanın məramlarından biri belə ifadə edilir: "*Bacarıqlı bir döyüşçü və eyni zamanda ölkənin qanacaqlı bir vətəndaşını hazırlamaq üçün ən güclü vasitə - hərbi qəzet və məcmuədir*" [6, 3]. O illərdə nəşr edilən "Qızıl əsgər" qəzeti hərbi nəzəri bilikləri bütövlüklə əhatələyə bilməzdi. Jurnalın birinci sayında H.Rəhmanovun "Məcmuəmizin yolları" [7, 1] məqaləsində də bu məqam diqqətə çatdırılır: Qəzet "*döyüşçüyə təlim, tərbiyə verən heyətin tələblərini bütün-bütünə yerinə yetirə bilməz. Buna görə də, başlıca olaraq, kiçik komanda heyətinə xidmət etməkdən ötrü türk dilində bir məcmuə buraxmağa ehtiyac göründü*". Bu ehtiyac Azərbaycan atıcı diviziyasının şəxsi heyətinin döyüş və mənəvi hazırlığını artırmağa xidmət edəcək, kiçik komandirlərin nəzəri və praktik yardımçısı olacaqdı. Jurnalın vəzifələrinin nədən ibarət olduğu "Məcmuəmizin yolları"

məqaləsində belə ifadə edilib: *"...məcmuəni komandanların gündəlik fəaliyyətinə yardımçı etmək və hissənin cari məsələlərinə cavab verəcək bir hala salmaq məsələsi qoyulmuşdur*" [7, 1]. Göründüyü kimi, jurnalın başlıca vəzifəsi bilvasitə ordu quruculuğunda iştirak etmək, şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi baxımından kiçik komandirlərin bəhrələnə biləcəyi məqalələr dərc etmək, onlara bu və ya digər praktik vərdişləri xatırlatmaq, bəzi hərbi vərdişlərin öyrədilməsi metodikasını təklif etmək və s. kimi müəyyənləşdirilmişdi. Jurnalın nəşr olunmuş sayları göstərir ki, "Hərbi bilik" mətbu orqan olaraq öz üzərinə düşən vəzifələri kifayət qədər uğurla yerinə yetirib...

Jurnalın birinci sayında dərc edilən 12 məqalədən 5-i bilavasitə döyüş hazırlığına həsr edilib. C. Naxçıvanskinin "Qaravul qulluğunun təcrübə ilə öyrədilməsi" [6, 3], Ə.Şıxlinskinin "Dağlıqda topçu hərəkərlərinin xüsusiyyəti" [8, 7], "*Hər bir müharibədə mühüm olan əsas vəziyyətləri aydınlaşdırıb və hər bir vəziyyət üçün bəlli bir vaxt təyin etməmək heç bir şey bilməmək deməkdir*" [9, 11] zərurətindən yazılan və dərc edilən "Əl bombası (qranat) atanlar hazırlamaq" kimi məqalələr bilavasitə əsgərin döyüş hazırlığının yüksəldilməsində istər nəzəri biliklərin artırılması, istərsə də təcrübi vərdişlərinin təkmilləşməsi baxımından gərəkli idi. "Əl bombası (qranat) atanlar hazırlamaq" [9, 11] məqaləsinin qrafik şəkillərlə verilməsi öyrətmə prosesinin asanlaşdırılması baxımından da xarakterikdir. Belə ki, müəllif mövzunun mənimsənilməsini asanlaşdırmaq məqsədilə nəzəri biliyin necə yerinə yetirlməsini şəkillərlə təqdim edib.

Bəzən mövzunun genişliyi onun jurnalın bir sayında dərcinə imkan vermir. Materialın ixtisarla təqdim edilməsi jurnalın ali məqsədinə zidd olduğu üçün onun davamı növbəti sayda verilib. Azərbaycanın relyefi dağlıq massivlərdən ibarətdir. Dağlıq ərazilərdə döyüşlərin təşkili üçün müəyyən nəzəri və təcrübi bilik lazımdır. "Artilleriyanın Allahı" kimi tanınan tam artilleriya generalı Əliağa Şıxlinskinin məzmun əhatəliliyi və gərəkliliyi ilə səciyyəvi olan "Dağlıqda topçu hərəkətlərinin xüsusiyyəti" məqaləsinin davamı jurnalın növbəti sayında dərc edilib [8, 7]. Məqalədə bu və ya digər tezis əhatəli şəkildə şərh olunub.

Azərbaycan atıcı diviziyasının nizami ordu kimi formalaşması zabitlərin hərbi bilikləri mükəmməl mənimsəməsindən də asılı idi. Tədrisdənkənar öyrətmə missiyasını diviziyanın siyasi şöbəsi, bu anlamda "Hərbi bilik" jurnalı yerinə yetirirdi.

Diviziyanın təcrübələrdə bəhrələnməklə formalaşdırılması istəyi jurnalda da öz əksini tapırdı. Təbii ki, bu, təkcə diviziyanın komandanlığının məsləhəti, göstərişi, tələbi ilə bağlı deyildi. burda hərbçi-jurnalist amili də vardı. Məsul redaktorlar belə məqamlara həs-

saslıqla yanaşır, jurnalın öz missiyasını dolğunluğu ilə yerinə yetirməsinə çalışırdılar. "1914-cü ildə Fransa cəbhəsində olmuş manevra müharibəsindən alınacaq ibrətlər" [10, 11] məqaləsi bu baxımdan diqqəti çəkir. Məqalənin əhəmiyyəti *"...gələcəkdəki müharibələr məcburən duracaklarda aparılacaqdır. Buna görə də, 1914-cü ildəki döyüş hərəkətləri təcrübəsinin dəyərli mənası və onu incədən incəyə öyrənmənin böyük əhəmiyyəti vardır*" [10, 12]. Diviziyanın şəxsi heyətinin mənəvi hazırlığında da, hərbi biliklərinin artmasında da müəyyən əhəmiyyətə malik belə məqalələrin dərc edilməsi jurnalın mətbu orqan kimi vəzifələrini lazımi səviyyədə yerinə yetirdiyinin təsdiqidir. "Beynəlxalq hadisələr" [5, 5], "Qərbi Avropa işçiləri müharibə qorxusu ilə necə mübarizə aparırlar" [4, 36] kimi məqalələr də bu qəbildəndir.

Diviziyada təlimlərə ciddi diqqət yetirilirdi. "Hərbi bilik" jurnalı da mətbu orqan kimi bu vacib məsələyə diqqət yetirirdi. Diviziya komandiri olaraq C.Naxçıvanski bu və ya digər məsələlərin həm hərbi biliklə, həm də təcrübə ilə həll edilməsini vacib bilirdi. Onun "Təlim məsələsi" məqaləsi [7, 4] döyüş hazırlığının mühüm tərkib hissələrindən birinə – təlimə ciddi yanaşmanın zəruriliyini xatırladır: "*Qoşunun hərbi hazırlığının müvəffəqiyyətindən ötrü üsul (metod) məsələlərinin, yəni hərbi biliyi qızıl əsgərlərə necə vermək və təlimlərinə yol ilə maraqlı və düşünüləsi etmək məsələsinin çox böyük əhəmiyyəti vardır*". Bu, kifayət qədər böyük hərbi biliyə və təcrübəyə malik olan zabitin ordu quruculuğuna ciddi önəm verdiyinin təsdiqidir. Müstəqil Azərbaycanda ordu quruculuğu sələf-xələf münasibəti saxlanılır, bu mühüm proses məzmun və forma etibarilə genişləndirilir və uğurla davam etdirilir. Son illərdə keçirilən iri miqyaslı təlimlər də məhz Silahlı Qüvvələrimizin döyüş hazırlığının yüksəldilməsini təmin edib. İndi Azərbaycan ordusu Cənubi Qafqazda ən güclü ordular sırasındadır. O illərin azərbaycanlı zabitlərinin də məhz bunu arzuladığı şəksizdir. Şübhəsiz ki, "Çaylardan keçilən vaxt top ilə piyadanın rabitəsi" [11, 17], "Gələcək müharibələrin texniki vasitələri (Tanklar)" [12, 16], "Məhəlli hissələrdə manqa komandanı hazırlığı" [13, 39] kimi məqalələr əsgərlərin döyüş hazırlığının tənzimlənməsinə xidmət edirdi.

Başlıca vəzifəsi nəzərdə tutulan hərbi bilikləri müəyyən kontingentə çatdırmaq olan bu mətbu orqanın hərbi və siyasi təmayüllü olması təbii idi. O, bu bilikləri məlum ideologiyanın tələbləri baxımından təqdim etməli idi. Jurnalda mövcud rejimin siyasətini təbliğ edən məqalələr də dərc edilib: "Şura seçkiləri və Qızıl ordu" [14, 30], "Hal-hazıra dair" [15, 20], ... Bunlar jurnalın hərbi mətbu orqan kimi dəyərini azaltmır.

Hər xatirə ictimai əhəmiyyətə malik olmur. Xatirənin tarixi dəyəri varsa, o xatirə tarixi şəxsiyyətin xatirəsidirsə, təbii ki, əhəmiyyətli olacaq,

oxunacaq, yaşadılacaq. “Hərbi bilik” jurnalı buna da həssaslıqla yanaşır, belə xatirələri dərc etməklə, hərb tariximizin mühafizəkarı funksiyasını uğurla yerinə yetirirdi. Zamanında “rus artilleriyasının Allahı” kimi tanınan, “Şıxlinski üçbucağı” ilə dünyəvi şöhrət qazanan Əliağa Şıxlinskinin xatirələrinə səxavətlə yer verilirdi. “Bir hücum vəkəsi” [16, 12], “Maraqlı bir gecə atışı” [17, 3] xatirələri bu qəbildəndir. Xatirələrdə təkcə olmuşlar haqqında bilgi verilmir, hərbi biliklər də aşılanır ki, bunlar da istər o dövrdə, istərsə də indi müəyyən əhəmiyyətə malikdir.

10 sayında 125 məqalə dərc edilən “Hərbi bilik” jurnalı hərbi mətbuat tariximizdə əhəmiyyətli yeri olan mətbu orqan olub.

Ə.Şıxlinski ordunun formalaşması istiqamətində görülən tədbirlər sırasında publisistikanı da dəyərləndirirdi. Məhz bu münasibətə görə ardıcıl, sistemli məqalələr yazırdı ki, bunlar da hərbi terminologiyanın yaradılması, genişləndirilməsi baxımından çox əhəmiyyətli idi. Onun “Gələcək müharibələr” məqaləsi istər aktuallığı, istərsə də elmi dəyəri ilə səciyyəvidir. Qəzetin üç sayında dərc edilən məqalədə Ə.Şıxlinski o dövr üçün çox vacib olan məsələni – müxtəlif qoşun növlərinin inkişaf meyllərini, yönümünü müəyyənləşdirmək istəmişdi. Bu, ordu quruculuğu üçün vacib şərtlrdəndir. Məqalənin elmi dəyəri bununla məhdudlaşmır. Məqalədə, əsasən, insan amilinə daha həssas münasibət bildirilmişdir. Hərbi-texniki inkişaf zamanında təbii ki, silah və texnikanın təsiri də nəzərə alınmalıdır və bu təsir ordu quruculuğunda, ordunun formalaşmasında başlıca amillər sırasındadır. Ə.Şıxlinski müharibədə qoşun növlərinin rolunu xatırladaraq yazırdı ki, müharibədə toplar əhəmiyyətlidir, bununla bir sırada piyadalar da qədimdə olduğu kimi, yenə də əsas qoşun növüdür.

Ə.Şıxlinski məqalədə müharibələrdə qarşıya qoyulan vəzifələri də əhatəli şəkildə şərh edir, top atəşlərinin hansı dağıdıcı imkanlara malik olduğunu xatırladır. Bu məqsədlə Birinci Dünya müharibəsindən nümunələr də göstərir.

Publisistikanın ictimai-siyasi, əxlaqi, iqtisadi və s. aktual problemləri məntiqi dəlil və sübutlar, obrazlı mühakimələr, lirik düşüncələr, konkret xarakterlər vasitəsi ilə əks etdirən, ictimai rəyin formalaşmasına təsir göstərən yaradıcılıq növü (23,) olduğunu nəzərə alsaq Ə.Şıxlinskinin bu məqaləsinin publisistik dəyərini müəyyənləşdirmək çətin deyil.

Ə.Şıxlinski müharibədə xalq amilini yüksək dəyərləndirirdi. Məqalədə qeyd edilir ki, müharibənin əsas ağırlığını xalq çəkir: “Son bir əsr ərzində müharibənin vəsaiti-maddisi son dərəcə dəyişmişdir. Lakin eyni zamanda müharibənin üsul və idarəsi də təbdil etmişdir. Əgər doğrusunu demək lazım gəlirsə zamanımızda müharibəni edən, onu sövq və idarə edən sərkərdələr, komananlar, ordular deyil, heyəti-ümumiyyəsi

etibarilə xalq özüdür. Bu uğurda cəng malından, canından savayı bir də ürəyi, ruhu dəxi bu uğurda sərf və fəda olunur.

İştə bu səbəbə görədir ki, fünun və vəsaiti-hərbiyyə tərəqqi və təkamül etdikcə insanın əhəmiyyəti, onun əhval-ruhiyyəsi də o nisbətdə tərəqqi etmişdir" (3, 270)

Ə.Şıxlinski yazırdı ki, daimi sülhə nail olmaq üçün hərbə hazırlaşmaq lazımdır: "...Sülhü-ümumi" şüarı yalnız o zaman həyata tətbiq oluna bilər ki, bütün dünya sülhə bir gözlə, bir nəzərlə baxmış ola. Nə qədər ki, arada belə bir şey yoxdur, hərb deyilən şey əsla xatirdən çıxarılmamalıdır. Nəticədə düşməni sülh və asayiş şəraiti arasında bərabər olaraq çalışmağa məcbur etmək üçün onu məğlub etmək bə bu məğlubiyyəti də əldə etmək üçün hərbə hazırlaşmaq lazımdır" (3, 272)

"Hərbi bilik" jurnalında dərc edilən "Dağlıqda topçu atışının xüsusiyyətləri" məqaləsi də hərbi publisistika baxımından diqqəti çəkir. Bu, təkcə hərbi bilik aşılama deyildi, həm də maarifləndirməyə xidmət edirdi.

Nəticə: Azərbaycanda ilk qəzet olan "Əkinçi" qəzetində hərbi informasiyalar da dərc edilirdi ki, bu da sonralar – 20-ci əsrin əvvəllərində yaranan ilk hərbi mətbuatımızda, "Qırmızı əsgər", "Qızıl əsgər" qəzetləri, "Hərbi bilk" jurnalı bu təcrübədən yaradıııııııııcılıqla

G.Huseynova

Military information in the newspaper "Akinchi"

Summary

Military information, published in our first media mean newspaper "Akinchi" are studied in the article. According to the essence, it is classified, and interesting opinions about the impact of the information over the battles as well as the public opinion are included in the article.

The military newspaper "Ekinchi", the first newspaper in Azerbaijan, was also published, which was later published in the first military media of the 20th century, "Red soldier", "Golden Soldier" newspapers, "Military Bilk" magazine with the help of this experiment.

The scientific value of the article might be characterized with to what extend it had affect to the formation of the military press after the restoration of Azerbaijan State Independence.

Гусейнова Г.Р.

Военные информации в газете «Экинчи»

Резюме

В статье исследованы иклассифицированыпо своей сути, военные информации опубликованные в первичной газете «Экинчи»,предложены интересные идеи о воздействиях информаций к отношений в битвы, так же к отношениямобщественности в армию.

Также была опубликована военная газета «Ekinchi», первая газета в Азербайджане, которая позже была опубликована в первых военных СМИ 20-го века, «Красный солдат», газеты «Золотой солдат», журнал «Военный билк» с помощью этого эксперимента.

Научнаяценность статьи так же характерный воздействием уровнья на образования военный прессы созданным после восстановления государственный независимость Азербайджана.

Rəyçi: Nuri Sədi
filologiya elmləri doktoru

NƏRMİN BABAZADƏ
Azərbaycan Dillər Universiteti
narminbabazadeh@mail.ru

CULİAN BARNSIN "FLOBERİN TUTUQUŞUSU" ROMANINDA İNTERMEDİALLIĞIN KONSEPTUAL ƏSASI

Açar sözlər: Culian Barns, postmodernizm, intermediallıq, "Floberin tutuquşusu"
Ключевые слова: Джулиан Барнс, постмодернизм, интермедиальность, «Попугай Флобера»
Key words: Julian Barnes, postmodernism, intermediality, "Flaubert's Parrot"

Müasir ingilis romanının əvəzedilməz yazarlarından olan Culian Barns "Floberin tutuquşusu" romanı ilə postmodern ədəbiyyatda səs-küyə səbəb olan, demək olar ki, bütün postmodernist xüsusiyyətləri özündə cəmləşdirən tayı-bərabəri olmayan incəsənət nümunəsi ortaya qoymağa nail olmuşdur. Sənətkar özü bu əsəri haqqında – "Özümü ənənəvi təhkiyə məhdudiyyətlərindən nə qədər uzaqlaşdırmağım mənə maraqlı idi: oxucuda davamlı olan və yüksələn gözləntilər davam edərkən təhkiyə çizgisini nə qədər təhrif edə və parçalaya bilərəm" (2) – fikirlərini yansıdaraq tamam fərqli bir roman ərsəyə gətirəcəyini bildirirdi. 1984-cü ildə qələmə alınan və "həqiqi roman formasında Barnsın ilk çıxışlarından biri olan" (3;21) romanda XIX əsrin məşhur fransız yazıçısı Qustav Floberin başına gələn əhvalatlar əsərin qəhrəmanı Cefri Braytveytin yaşamı ilə iç-içə keçmişdir. "İçimdə üç hekayə bir-biriləri ilə mübarizə aparır. Biri Flober haqqında, biri Ellen haqqında, biri də mənim özüm haqqında. Bu üçü içərisində mənimki ən asan olanıdır. Amma yenə də o, anlatmağa başlamaqda ən çox zorlandığımdı" (1;95). Roman ilk baxışda bioqrafiya kimi görünsə də, əsas məsələ bəhs olunan tarixi gerçəkliyin var olub-olmamasıdır. Yazıçı əsərini müxtəlif vasitələrlə "tərsinə çevrilmiş bir roman" (2) adlandıraraq bioqrafiya və uydurulmuş hekayələri bir arada toplamağa nail olur.

Təhkiyəçi bilərəkdən ara-sıra özü haqqında oxucunu məlumatlandırmaq üçün əsərdən yayınmalar etməyə məcbur olur. Romanın əvvəlində Braytveyt tənqidçi deyil, həkim olduğunu vurğulayır. Qəhrəman bu mövzuya uzun müddət toxunmur, oxucunu bu məlumatı unutmağa sövq edir. O, özü haqqında məlumatı xatırladarsa, dəyərsizləşəcəyini zənn edir. Eyni qayda ilə həyat yoldaşının dünyadan köçdüyünü romanın başlığında nəql edir, bir müddət isə bu məsələyə toxunmaq kimi niyyətinin olmamasının şahidi olmaq mümkündür. Romanda oxucu tərəddüdlər içərisində qalmış təhkiyəçi ilə üz-üzə gəlir.

Braytveyt sadə bir yolla onu maraqlandıran məsələləri aydınlaşdırmağın imkansız olduğunu zənn edir. Bu səbəbdən o, artıq yeni bir hekayə yaratmaq niyyətindədir. Braytveyt öz cavabsız qalan suallarına qarşılıq tapmaq üçün sevdiyi yazıçısı – Qustav Floberi seçir.

Braytveyt həyat yoldaşı Ellenin hansı səbəbdən dünyadan köçdüyünü oxucular üçün müəmmalı saxlayır. Bununla belə, oxuculara kiçik bir ipucu verərək Qustav Floberin "Madam Bovari" əsərinə müraciət edir. Artıq oxucu üçün Ellenin həyata vida etmə səbəbi aydınlığa qovuşur. Belə qənaətə gəlmək olar ki, Floberin qəhrəmanı Bovari kimi Ellen də intiharla həyatını sonlandırmışdır. Devid Hiqdon Cefri Braytveytin "Madam Bovari"yə müraciətini bu şəkildə izah edir: "Braytveyt öz hekayəsini Flober ilə dəyişdirir və Flober tərəfindən düşünülərək yazılmış olan qorxularından uzaqlaşmaq üçün araşdırma aparır. Özünün və həyat yoldaşının daha əvvəl yazıldığının fərqindədir" (4;180). Cefri Braytveyt Qustav Floberin qəhrəmanı Emma Bovarinin timsalında həyat yoldaşı Elleni tanımlamağa cəhd edir. Sanki Emma Bovari Ellenin həmkarı qismində çıxış edir. Madam Bovarinin hekayəsi Braytveyt üçün aydınlaşdırma kontekstinə çevrilir. Göründüyü kimi yazıçı intertekstual əlaqə yaradaraq qəhrəmanının daxili dünyasını əks etdirməyə can atır.

Bütün bunlarla birlikdə qeyd etmək olar ki, Culian Barns bu əsrarəngiz romanında müxtəlif janrları – bioqrafiya, avtobioqrafiya, xronologiya, detektiv hekayə, esse – bir araya gətirərək hibrid elementləri nəzərə çarpdırmağı bacara bilmişdir. "Floberin tutuquşusu" romanı ilə yazar əldə etdiyimiz hər bir şeyin daima əksik olduğunu, araşdırmanın, nələri isə təsdiq etmək üçün çabalamanın məyusluq hissi ilə nəticələnəcəyini önə sürür.

Dövrünün məşhur yazıçılarından olan Con Faulz tərəfindən 1984-cü ildə yayımlanan ən yaxşı roman adını qazanaraq Culian Barns yaradıcılığının özülünü təşkil edən "Floberin tutuquşusu" postmodern mexanizmlərin, xüsusilə, intertekstual əlaqələrin istifadəsindən savayı, intermedial əlaqələrin möhtəşəmliklə əks olunduğu bir əsərdir. İntermediallığa "media ilə qarşılıqlı təsir anlamında medianın korrelyasiyası" (5;21) kimi yanaşılması düzgün olardı. "Floberin tutuquşusu" romanına müraciət etdikdə oxucu görə bilər ki, intermedial əlaqələr incəsənət probleminin mətndə yaratdığı oyun prinsipinə söykənən anlamını əks etdirir.

İntermedial əlaqələrin arayışına romanın ilk səhifələrindən, Ruen küçəsində yerləşən heykəlin təsviri ilə çıxmaq mümkündür. Leopold Bernstam tərəfindən hazırlanan heykəltəraşlıq nümunəsi enli qaltstuku, kvadrat formasında pencəyi, tikan şəklində bığları olan birini canlandırır. Başını özündən əmin formada dik tutan bu şəxs yazıçının sonsuz sevgi bəslədiyi fransız yazıçısı Qustav Floberdir. C. Barns Floberin heykəlinin orijinal variantda olmaması, 1941-ci ildə ilk heykəlin almanlar tərəfindən dağıdıldığını, daha sonra yenidən ərsəyə gətirildiyinə xatırlatma edir.

Heykəlin yenidən ucaldılmasının təsvirindən dərhal sonra Nadarın çəkdiyi Floberin fotosunu yada salaraq insanların sözlərə inanmadığı üçün heykəltəraşlıq, fotoqraf və digər bu kimi sənətlərə müraciət etməsi fikri irəli sürülür. Bu baxımdan, romanda səslənən "sözün altda yatan yetərsizliyi görürdü" (1;23) fikri üst-üstə düşür. Romanı oxumağa davam etdikcə rəsm əsərlərinə müraciətin ardı-arası kəsilmir. Fransız rəssamı Lemotun Floberi canlandırdığı karikaturası yeni intermedial əlaqələrə işarə edir. Karikaturada Floberin cərrah kimi davranması, çəngəl üzərində qanlı bir ürəyi tutması əks olunur. Rəsmin sol küncündə görünən qadın ayaqları Emma Bovarinin varlığına göndərmə edir.

İngilis rəssamlıq sənətinin öndə gələn isimlərindən olan Devid Hokni və iki məşhur qravürası "Yatmış Felisite" və "Felisitenin xaricdən yeganə görüntüsü" romanda intermediallığın təkrarən təzahürünə yol açır. Devid Hokni yaradıcılığının ilk illərində anlaşılması çətin olan, istehza ilə zəngin karikatura üslubunda əsərlər yaratmış, sonra isə fikirlərini açıq-aşkar yansıtmaq üçün başqa yolları sınamışdır. 1974-cü ildə Floberin "Saf qəlb" adlı hekayəsinin qəhrəmanı Felisitedən ilhamlanaraq rəssam iki illüstrasiya ortaya çıxarmağa nail olur. İlk qravürada qadın ağ-qara, tutuquşu rəngarəng tonlarda rəsm edilərək qəhrəmanın həyatının sadəliyi evcil bir kölə kimi başqa dünyadan olan tutuququşu ilə qarşılaşdırılır. İkinci qravürada çiyinlərində qadınla qaçan meymunun təsviri Felisitenin xarici ölkələr haqqındakı düşüncələrini kobud şəkildə qəhqəhələrlə bəzəyən şərhidir.

Floberlə birgə Böyük Xeops ehramına dırmaşan Maksim Dü Kampın yeri əsərdə ayrıca nəzərə çarpır. Fotoqraf sənətinin tanınmış simalarından olan Dü Kamp 1849-cu ildə Sfinksin fotosunu çəkən ilk insan olaraq tarixə adını yazdırmışdır. Bununla yanaşı, təhkiyəçi "Dü Kamp – Sfinksin ilk fotosunu çəkən insan – təpəyə çoxdan çıxmışdır" (1;76) söylərəyərək Dü Kampın fotoaparat yaratmasına işarə verir. Dolayısı ilə, fotoqraflığı sənət əsərindən əlavə, tarixi fakt kimi istifadə edərək elmi və incəsənət nümunələri meydana gətirmişdir. Çəkdiyi ilk fotosu ilə fotoqraf Misirin ovsunlayıcı görünüşünün bir hissəsini təqdim edir.

İnsan ona yad olan keçmişi necə mənimsəyir? Bu suala yazıçı oxuyaraq, öyrənərək, soruşaraq deyə cavab versə də, təsadüfi bir təfərrüatın hər şeyi dəyişdirdiyini qeyd edir. Həvəskar bir ingilis rəssamı olan Artur Frederik Peynin rəsm əsərləri ilə romanda peyda olması ilə təhkiyəçi tarixi sorğuya çəkir. Peyn sulu boya ilə çəkilmiş rəsm əsərlərinin birində Fransanın, Ruanın təsvirini yaradır. Rəsm 1856-cı ilin may ayında tamamlanmışdır. Qustav Flober isə "Madam Bovari"sini 1856-cı ilin aprel ayında bitirmişdir. Bu özəlliyi diqqətə alan Culian Barns mətninə əlavə etdiyi cümlələr ilə cavab axtarışına çıxır: "Tabloya yayılan heç bir şeyin fərqində olmayan iki rəng ləkəsinin arasında, barmağımla toxunduğum

nöqtədə. Bu cür yaxın və yenə bu cür uzaq" (1;101-102). Floberin "Madam Bovari" romanı məhz şəkildə rəsm edilən həmin yerdə yazılmışdır. Bu səbəbdən keçmişi anlamağa cəhd göstərən Cefri Braytveyt tarixi həvəskar bir rəssamın özünə əminliklə çəkdiyi incəsənət nümunəsinə bənzədir. Keçmişlə bağlı araşdırmalarını davam etdirən Braytveyt yenidən sulu boya rəssamı Musqrava müraciət edir. Ruanı gəzərkən mənzərənin onda yaratdığı təəssüratları tablolarında yansıtmağa çalışan rəssam Fransanı rənglərə assimilasiya edir, həmçinin tarixi rənglərə müncər edir. Fransada günəşin batmasını seyr edən zaman o, qarağat rənginə bənzər bir diskin yaranmasını düşünür. Bu bənzətmədən çıxış edən Barnsın "aradan keçən bu qədər ildən sonra rəngin eyni qaldığını necə biləcəyik?" (1;104) düşüncəsi əslinə qalarsa, tarixin zaman keçdikcə dəyişdirilməməsini necə biləcəyik? sualına qarşılıq olaraq çıxış edir. Fransanın öz rəngini isə rəssam ümumilikdə mavi ilə xarakterizə edərək fərqliliyini təmin edir. Kişilərin və qadınların geyimlərində mavi rəngə üstünlük vermələri, atların örtüklərinin mavi rəngdə seçilməsi, maşınların əksəriyyətinin mavi rəngdə olması, kənd adlarını göstərən lövhələrdə mavi rəngə müraciət olunması, hətta yağış suyu toplamaq üçün nəzərdə tutulan çənlərin maviyə boyanması, evlərin iç və çöl dizaynında mavinin seçilməsi rəssamı belə bir qənaətə gəlməyə sövq etmişdir. "Keçmişə rəngli camların arasından baxmalıyıq" (1;106). Çünki günəşə baxa bilmədiyimiz kimi tarixə də baxmaq mümkün deyil. Buna görə keçmişi anlamaq, tarixə nəzər salmaq üçün rəngli camlar seçilməlidir. Bu rəngli camlar isə incəsənət nümunələridir. Hər nə qədər dəqiq olmasa da, yalnız incəsənət nümunələri tarixdən müəyyən təfsilatı əks etdirmək qüdrətinə malikdir.

Rənglərin incə assosiasiyası sarmaşıq gülünün timsalında əks olunur. Təhkiyəçi məhz sarmaşıq gülünün rənglərinin ifadə etdiyi mənaları diqqətlə incələyərək öz həyatının mənasının axtarışına çıxır. Gül özü mətndə simvol kimi çıxış edərək bir qədər cəhd sayəsində yaşama rəng və anlam qata biləcəyinə inam yaradır. "Ağ rəngdə olan məndən niyə qaçırsınız? anlamına gəlir. Çəhrayı rəngdə olan sizə bağlanacağam; Mavi rəngdə olan isə daha yaxşı günləri gözləyəcəyəm mənasını verir" (1;167). Bu cür fikir yürüdən Braytveyt seçdiyi gülün hansı rəngdə olmasını açıq-aşkar büruzə verir, öz həyatını hansı istiqamətdə dəyişmək istədiyini oxucularla bölüşür.

Fransız rəssamı Nikola Pussenin klassik əsərlərinə verdiyi duyğu və rəng vəhdəti "Zamanın musiqisi ilə rəqs" tablosu üçün də keçərlidir ki, Culian Barns bu elementi də romanda dəyərləndirir. Mifoloji ünsürlərdən istifadə olunaraq canlandırılmış rəsm əsərində insan həyatının bütün mənasını itirə biləcəyi riski ilə üz-üzə qalır. Mərkəzdə rəqs edən dörd insan fiquru bir-birini əvəzləyən fəsillərin, həm də yoxsulluq, sərvət, zövq və əməyin simvolu kimi çıxış edir. Rəng seçimi, incəliklə işlənmiş üz

mimikaları obrazları seçməyə yardımçı olur. Tablonun ən önəmli obrazlarından biri zamanı təmsil edən lira musiqi alətində çalan qanadlı qocadır. Qocanın qanadlı təsvir olunması və lirada ifa etməsi həyatın uçub gedən axışını yansıdır. Qocanın yanında diqqətini qum saatına yönəldən balaca mələk də eyni qayda ilə zamanın su kimi süzülüb getməsini xatırladır. Qum saatına gözlərini dikmiş mələyin qarşısında şar yaratmağa çalışan digər bir mələk həyatın faniliyini əks etdirir. Beləliklə, qocanın qarşısında həyatın ritmi canlanırdı. Bunlarla yanaşı, səmada Günəş Tanrısı, sonsuzluğu təmsil edən çevrənin altında yer alan Apollonun təsvirini verən rəssam yer üzü və göylərdəki həyatı simmetrik şəkildə canlandırmağa çalışır. Braytveytin axıb gedən zamanını dəyərləndirməsi, həyata dair saysız-hesabsız şübhələri rəsm əsərinin mətnə daxil edilərək intermedial əlaqə yaratmasına aydınlıq gətirir.

Rəssamlığın bədii xüsusiyyətlərinə toxunmaqla intermediallıq yaradan postmodernist sənətkar bu işi yazıçılıq sənətinə müraciət edərək davam etdirir. Sevimli yazıçısı Floberin yazıçılıq üslubu üzərində yazıçılıq sənətinin xüsusiyyətlərini nəql edir. Təhkiyəçi belə hesab edir ki, üslub leytmotivlərin funksiyası vəzifəsini daşıyır. Yazıçılıq üslubu yalnızca romanın mövzusundan əmələ gəlməli, düşüncələrin gerçəkliyini yansıtmalıdır. "Doğru söz, gerçək ifadə, yetkin cümlə hər zaman "orada" bir yerdədir; hansı mexanizmi istifadə edirsə etsin, yazıçının vəzifəsi bunların yerini sabitləşdirməkdir" (1;98).

Ksilofon musiqi alətinin mətnə daxil edilməsi ədəbiyyat-musiqi kimi əlaqələrin yenilənməsinə səbəb olur. Ksilofon zərb musiqi aləti olaraq ağac parçalarından hazırlanır və çubuqlarla ifa olunur. Ksilosofunun instrumental köməyindən məşhur fransız bəstəkarı Sen Sans "Ölüm Rəqsi" adlanan simfonik poemasında bəhrələnmişdir. Floberin adı çəkilən musiqi alətinin çıxardığı səslərə heyranlığı onu İsveçrədə qlokenşpil dinləməyə sövq etmişdir. Qlokenşpil də ksilofona bənzər formada hazırlanmış müxtəlif səslərin çulğalaşmasından yaranan musiqi alətidir. Bununla yanaşı, polyak musiqisinin klassiki hesab olunan Frederik Şopen romanda intermedial əlaqələrin yad edilməsinə bir daha şərait yaradır. İlk fransız qadın yazıçısı Jorj Sandla Şopen arasında vaxtilə məhəbbət qığılcımı yaranmışdır. Məhz ikili arasında cərəyan edən sevgi münasibətlərini təhlil etməklə Cefri Braytveyt təkrarən həyat yoldaşı ilə arasındakı münasibətləri gözdən keçirir.

Romanda incəsənət problemi çərçivəsində verilən suallar – İncəsənət insanlara həyatlarını davam etməyə yardım edə bilirmi? İncəsənət insanların təkbaşına müəyyənləşdirə bilmədiyi hal və vəziyyətləri izah edə bilirmi? İncəsənət insan şəxsiyyətini yönləndirə bilirmi? – incəsənətin insan həyatının böyük bir hissəsi olduğunu sübuta yetirir. Təhkiyəçi Cefri Braytveyt incəsətin öyrətmək, hansısa mövzuları açıqlamaq imkanına sahib olduğu fikrindədir. Romandakı incəsənət problemi ətrafında fırlanan bu müzakirə

Rober Uilyamın düşüncələrini dəstəkləmiş olur. Tənqidçi incəsənəti "axtarılan sualların ən düzgün cavabı, insan kimliyi" (6;3-4) olaraq görür.

Sonda ədəbi materialın ərsəyə gətirilməsini təhkiyəçi piramidaların yaradılmasına bənzədir. Uzunmüddətli plan əsasında meydana gələn, bütün zamanı ələ keçirən iş ilə eyniləşdirilən ədəbiyyatın da piramidalar kimi möhtəşəmlik kəsb etməsinə baxmayaraq, insan həyatını anlamağa çarə olmaq gücünə malik deyil. Ədəbiyyat yalnız istiqamət xarakterli çıxış edə bilər. Çünki Cefri Braytveyt axtarışına çıxdığı həyatının mənasını tapa bilməmişdir. O, belə bir qənaətə gəlir ki, kitablarda hadisənin səbəbi yazarın öz təxəyyülünün nəticəsi olaraq təsvir olunur: "Bəzi insanların nəyə görə kitabları seçdiklərinə təəccüblənmədim. Kitablar həyatı yansıdır. Amma bu həyat onların deyil, başqalarının həyatıdır" (1;193). Beləliklə, Braytveyt öz həyat hekayəsini "Madam Bovari"yə müraciət etməklə təhlilə cəlb etməyin mənasız olduğu, ədəbiyyatın, yaxud bütövlükdə incəsənətin həyata anlam qatmaq, onu anlamağa yardım etmədiyi yekununa varır. İncəsənət şəfa vermək kimi bir funksiyanı yerinə yetirmək iqtidarında deyil.

İncəsənət və həyat arasındakı dialoqa əsaslanan "Floberin tutuquşusu" romanı incəsənət probleminin əks olunduğu ən yaxşı romanlardan hesab oluna bilər. Özünəməxsus ironiya ilə həyatın açıqlaması çətin olan saysız-hesabsız özəlliklərini Culian Barns incəsənət problemlərinə toxunaraq oxuculara çatdırır, incəsənət həyatı təqlid edir prinsipindən çıxış edir.

Ədəbiyyat:

1. Barnes Julian. Flaubertin Papağanı. Çev. Serdar Rıfat Kırkoğlu. İstanbul, Ayrıntı Yayınları, 2017
2. Barnes Julian. When Flaubert Took Wing. The Guardian, 5 March 2005: 30
3. Dalton. G. Abigail. Julian Barnes and the Postmodern Problem of Truth. April, 2008
4. Higdon David L. "Unconfessed Unconfessions: The Narrators of Graham Swift and Julian Barnes". The British and Irish Novel since 1960. Ed. James Acheson. Basingstoke: Macmillan, 1991
5. Kattenbelt Chiel. Intermediality in Theatre and Performance: Definitions, Perceptions and Medial Relationships. Culture, Language and Representation. ISSN 1697-7750. vol VI\ 2008, pp.19-29
6. Williams Robert. Art&Thought. Oxford: Blackwell, 2004

Н. Бабазаде

Концептуальные проблемы интермедиальности в романе Джулиана Барнса «Попугай Флобера»

Резюме

Взаимоотношения между искусством и средствами массовой информации можно рассматривать как основной фактор в расширении современного британского жанра романа. Взаимодействие отдельных средств массовой информации хорошо изучено в контексте постмодернизма. Интерес к средствам массовой информации вызвал новшество новых явлений – посредничество, которое выступает за «искусство в искусстве». В статье содержится подробный анализ промежуточной роли в романе Джулиана Барнса «Попугай Флобера». Автор романа ставит перед собой концептуальные проблемы посредничества. Рассказчик книги пытается определить смысл своей жизни через искусство. Чтобы раскрыть смысл жизни, Джулиан Барнс реализует различные виды искусства, в том числе музыку, живопись, архитектуру и т. д. Таким образом, постмодернистский писатель помогает продвигать смысл текста.

N. Babazadeh

Conceptual problems of intermediality in the novel “Flaubert’s Parrot” by Julian Barnes

Summary

Interrelations between the arts and media can be considered as the main factor in the expansion of the contemporary British novel genre. Interactions of separate media has been well investigated in the context of postmodernism. The interest towards media resulted with the innovation of the new phenomena – intermediality which stands for “art in art”.

The paper contains a detailed analysis of intermediality in the novel “Flaubert’s Parrot” by Julian Barnes. The author of the novel endeavors conceptual problems of intermediality. The narrator of the book attempts to identify the meaning of his life through the art. In order to reveal the sense of the life Julian Barnes implements diverse kinds of the art, including, music, painting, architecture, etc. So, the postmodern writer manages to promote the meaning of the text.

Rəyçi: Yeganə Abdullayeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

Mündəricat

DİLÇİLİK

KAMİL BƏŞİROV
AZƏRBAYCAN DİLİNDƏ ANTONİM QOŞA SÖZLƏR.....3
ИНАМЈОН АЗИМОВ
РОЛЬ ПРЕДСТАВИТЕЛЕЙ ДЖАДИДИЗМА В ФОРМИРОВАНИИ ФОНОЛОГИЧЕСКОЙ СИСТЕМЫ СОВРЕМЕННОГО УЗБЕКСКОГО ЛИТЕРАТУРНОГО ЯЗЫКА (вопрос вокализма) 13
БЕГИМ-ХАНУМ АЛИЕВА
О РОЛИ ЛИНГВОКУЛЬТУРОЛОГИЧЕСКОГО АСПЕКТА В ОБУЧЕНИИ РУССКОМУ ЯЗЫКУ ИНОСТРАННЫХ СТУДЕНТОВ-НЕФИЛОЛОГОВ 20
ИРАНА СУЛТАНОВА
КОММУНИКАТИВНЫЕ УПРАЖНЕНИЯ ПРИ ОБУЧЕНИИ ИНОЯЗЫЧНОМУ ГОВОРЕНИЮ 28
SAMİRƏ MƏRDANOVA
“KİTABİ-DƏDƏ QORQUD”UN DİLİNDƏ AİLƏ-MƏİŞƏT ÜSLUBU XÜSUSİYYƏTLƏRİ 38
AYNUR FƏRƏCOVA
AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN İNKİŞAFINDA GÖRKƏMLİ YAZIÇILARIN VƏ MİLLİ MƏTBUATIN ROLU 47
NAILA GASIMOVA
COMMUNICATION STYLES 53
TAMELLA MEHDIYEVA
WRITING ASSESSMENT CRITERIA 58
СЕВИНДЖ КАРАЕВА
СЛОВО В ЛЕКСИЧЕСКОЙ СИСТЕМЕ РУССКОГО ЯЗЫКА 63
DADAŞ ƏLİYEV
LAHIC ATALAR SÖZLƏRI, MƏSƏLLƏRİ VƏ LƏQƏBLƏRİ 68
NİLUFƏR AĞAZADƏ
NİTQ SİTUASİYALARI METODİK KATEQORİYA KİMİ 76
ARZU KƏRİMOVA
BİR ŞƏKİLÇİNİN YAZILIŞINA DAİR 81
NATAVAN BAXŞƏLİYEVA
DİLÇİLİKDƏ SİNONİMLİK ANLAYIŞI 86

ГЮЛЬШАН ГАМИДЛИ
НЕКОТОРЫЕ СВЕДЕНИЯ О ХАТИБЕ ТАБРИЗИ
И ЕГО ЛИНГВИСТИЧЕСКИХ ТРУДАХ 94
RƏVANƏ MƏMMƏDOVA
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ORFOEPİYA
PROBLEMİNİN
QOYULUŞU TƏDRİSİ TARİXİ 101
AYŞƏN MUSTAFAYEVA
AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ İSTİFADƏ OLUNAN FƏAL
TƏLİM METODLARI 108
MEHRİBAN HACIZADƏ
MÜASİR İNGİLİS DİLİNDƏ LEKSİK VAHİDLƏRƏ DAİR 113
ƏSMƏR KƏRİMOVA
TƏLİM-TƏRBİYƏ PROSESİNİN YENİ FƏNN
PROQRAMLARININ ƏSASINDA QURULMASI 118
СЕВИНДЖ БАБАЕВА
ФОРМИРОВАНИЕ НАВЫКОВ ПИСЬМЕННОЙ РЕЧИ
У СТУДЕНТОВ-ИНОСТРАНЦЕВ 123
ULDUZƏ ƏLIYEVA
MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNƏ DAXİL OLMUŞ YEMƏK
ADLARI İLƏ BAĞLI NEOLOGİZMLƏR 128
НИГЯР АГАЕВА
ЛИНГВО-ПОЭТИЧЕСКОЕ ОПИСАНИЕ СОМАТИЗМА "ابرو"
«БРОВИ» В КЛАССИЧЕСКОЙ ПЕРСОЯЗЫЧНОЙ ПОЭЗИИ
(на материале произведений азербайджанских
и иранских авторов) 133
AYSEL ŞEYDAYEVA
OXU MATERIALLARI ÜZƏRINDƏ DIL HADISƏLƏRININ
MÜŞAHIDƏSI 143
SƏMAYƏ QULİYEVA
NİTQ VƏRDİŞLƏRİNİN FORMALAŞDIRILMASININ
PSİXOLOJİ ƏSASLARI 149
SEVİL NƏCƏFOVA
ÜSLUB VƏ ÜSLUBİYYATIN TƏSNİFİ HAQQINDA 154
UKLEYN DIANA YURIEVNA
СОЧЕТАНИЕ МОДАЛЬНЫХ ГЛАГОЛОВ С ИНФИНИТИВОМ В
СТРАДАТЕЛЬНОМ ЗАЛОГЕ 160
SƏYİDƏ ƏSƏDOVA
VI SİNFIN ƏDƏBIYYAT DƏRSLƏRİNDƏ EPİK VƏ LİRİK
ƏSƏRLƏRİN
FƏAL TƏLİM METODLARI İLƏ TƏDRISİ 165

СЕВИНДЖ КУЛИЗАДЕ
ОТБОР ПАДЕЖНЫХ ФОРМ ПРИ ИНТЕНСИВНОМ ОБУЧЕНИИ ЧТЕНИЮ ЛИТЕРАТУРЫ ПО СПЕЦИАЛЬНОСТИ 170
FƏRİDƏ KƏRİMOVA
FRANSIZ DİLİNDƏ QRAMMATİKANIN KOMMUNİKATİVYÖNÜMLÜ TƏDRİSİ ZAMANI AUTENTİK MATERİALLARIN ROLU 181
SEVİNC MƏMMƏDZADƏ
QLOBALLAŞMA VƏ ONUN DÜNYA DİLLƏRİNƏ TƏSİRİ 188
GÖVHƏR MÜRŞÜDOVA
AZƏRBAYCAN RESPUBLİKASININ ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN 6-cı, 8-ci və 9-cu SİNİFLƏRİ ÜÇÜN FRANSIZ DİLİ DƏRSLİKLƏRİNƏ QRAMMATİK MATERİALLARIN DAXİL EDİLMƏSİ PRİNSİPLƏRİ 195
AYTAC QOŞQAROVA
FRANSIZ DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİNDƏ AUTENTİK MATERİALLARDAN İSTİFADƏ 202
GULSHAN JUMSHUDOVA
THE ROLE OF SOME SPEECH FORMS IN SECOND LANGUAGE LEARNING 210
GULAY GURBANOVA
LEXICAL CLASSIFICATION OF THE WORDS OF THE AZERBAIJANI LANGUAGE 215
NAILƏ QULIYEVA
GRAMMATICAL PROBLEMS IN TRANSLATION 220
SABINA ZULFUGAROVA
SIMILARITIES AND DIFFERENCES BETWEEN FIRST AND SECOND LANGUAGE ACQUISITION 225
XAVƏR HACIYEVA,
SAFURA BAKİXANOVA
MÜASİR İNGİLİS DİLİNDƏ FRAZEOLOJİ EVFEMİZMLƏRİN ÖYRƏNİLMƏMİŞ SAHƏLƏRİNİN TƏDQİQİNƏ DAİR 230
İRADƏ VƏLİYEVA
MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ XƏBƏR ƏSASINDA FORMALAŞAN TƏKTƏRKİBLİ ELLIPTİK (YARIMÇIQ) CÜMLƏLƏR (Ingilis dili materialları əsasında) 235
ГЮЛАР НАЗИРОВА
МОТИВАЦИЯ И ИЗУЧЕНИЕ КОММУНИКАТИВНОЙ КОМПЕТЕНЦИЕЙ В ЧТЕНИЕ ЛИТЕРАТУРЫ ПО СПЕЦИАЛЬНОСТИ НА РУССКОМ ЯЗЫКЕ 240

TAMILLA QAFAROVA
LINGUISTIC DEVELOPMENTS OF THE GERMANIC LANGUAGES 245
ELNURƏ VERDİYEVA
AZƏRBAYCAN VƏ RUS ATALAR SÖZLƏRİNDƏ "ANA" KONSEPTİ 250

ƏDƏBİYYATŞÜNASLIQ

QALİB SAYILOV
"FOLKLOR-DİN" PROBLEMİNƏ MİF-DIN MÜNASİBƏTLƏRİ KONTEKSTİNDƏ BAXIŞ 258
ARZU HÜSEYNOVA
XX ƏSRİN 40-50-Cİ İLLƏRİNDƏ CƏNUBİ AZƏRBAYCAN MÜHACİR ƏDƏBİYYATINDA BÖLÜNMÜŞ VƏTƏN İDEYASI 265
PƏRVANƏ MƏMMƏDLİ
İRANDA TÜRKÇÜLÜYÜN İDEOLOQU - ƏLI TƏBRIZLİ 276
ARİF KAZIMOV
AZƏRBAYCAN XALQ TAPMACALARINDA «GİZLİ» (EYHAMLI) NİTQİN TƏZAHÜRÜ 282
NƏRGİZ HƏSƏNLİ
MƏNƏVİ İKİLƏŞMƏNİN SATİRİK İFŞASI 287
ŞƏFƏQ DADAŞOVA
AVTOBİOQRAFİYALARIN KULTUROLOJİ TƏHLİLİ 293
NAİLƏ SÜLEYMANOVA
LUİS SİNKLER YARADICILIĞINDA YENİ TİP VƏ XARAKTERLƏRİN BƏDİİ ƏKSİ 300
MƏTANƏT ABBASOVA
XALQ ŞEİRİNİN GENEPOETİK SİSTEMİNDƏ "SU" KULTU 307
YEGANƏ HÜSEYNOVA
B. VAHABZADƏNİN POEMALARINDA İNSAN PROBLEMİ 313
LEYLA HƏSƏNZADƏ,
VÜSALƏ HƏSƏNOVA
KLASSİK KOREYA ƏDƏBİYYATI 318
ZÜLQƏDDƏ ABDULKƏRİMLİ
UİLYAM BATLER YEYTS YARADICILIĞININ SİMVOLİK XÜSUSİYYƏTLƏRİ 323
ZEYNƏB ALLAHVERDİYEVA
ƏDƏBİYYAT VƏ VƏTƏNPƏRVƏRLİK 329

DƏRYA ƏLİYEVA
DRAMATİK ƏSƏRLƏRİN FƏAL/İNTERAKTİV METODLARLA TƏDRİSİ 324
ÇİNARƏ HÜSEYNLİ
"SİÇANLAR VƏ ADAMLAR" ƏSƏRİNDƏ DOSTLUQ MÜNASİBƏTLƏRİNİN TƏHLİLİ 339
GÜNEL MƏHƏRRƏMOVA
ŞEYMAS HİİNİ POEZİYASINDA TARİX VƏ YADDAŞ PROBLEMİ 348
AYSEL QULİYEVA
ŞAGİRDLƏRƏ ƏDƏBİ ƏSƏRLƏRİN TƏHLİLİNİN MƏNİMSƏDİLMƏSİ 354
AYNUR HƏSƏNOVA
ELİZABET BOİNİN "SEVGI DÜNYASI" ROMANININ PSIXOLOJİ ASPEKTDƏ ÖYRƏNILMƏSİ 359
GÜLSURƏ HÜSEYNOVA
"ƏKİNÇİ" QƏZETİNDƏ HƏRBİ İNFORMASİYALAR 364
NƏRMİN BABAZADƏ
CULİAN BARNSIN "FLOBERİN TUTUQUŞUSU" ROMANINDA İNTERMEDİALLIĞIN KONSEPTUAL ƏSASI 374

ELAN

"Elm və təhsil" nəşriyyatı “Filologiya məsələləri” jurnalında çap olunan məqalələrlə bağlı "İlin məqaləsi” adlı müsabiqə elan edir. Məqalələr münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Müsabiqənin nəticələri ildə iki dəfə – iyun və dekabr aylarında açıqlanacaq. Qaliblərə diplom və pul mükafatı veriləcək.

I yer 300 manat
II yer 200 manat
III yer 100 manat

«Elm və təhsil» **nəşriyyatının direktoru:**
professor **Nadir MƏMMƏDLİ**

Dizayn: Zahid Məmmədov
Texniki redaktor: Yadigar Bagirova

Çapa imzalanmış**29. 04. 2018.**
Şərti çap vərəqi **47,5** Sifariş **№ 4.**
Kağız formatı **70x100 1/16.** Tiraj **300.**

*jurnal **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 055 426 -72-27
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.